# ŞİRİNXANIM KƏRİMBƏYLİ

# ŞADİMAN

`

***Azərbaycanın bütövlüyü
uğrunda vuruşanlara ithaf olunur!***

# VƏTƏN SƏNDƏN
# NƏ QALDI

**BAKI – 2022**

***Kitaba maddi və mənəvi dəstək göstərdiyinə görə həyat yoldaşım Əli Abdulla Əli oğluna minnətdaram.***

**Redaktoru və Korrektoru: Əli Abdulla**

**Tərtibatçı: Əli Abdulla**

**Bakı. Qanun Nəşriyatı. 2022. 510səh. 300 tiraj**
**Çapa imzalanmışdır**

***Şirin xanım Kərimbəyli Şadiman Azərbaycan ədəbiyyatında öz dəsti xətti olan sənətkarlardan biridir. Onun yaradacılığı təkcə Vətən məhdudiyyətində qalmır. O, öz ürəklər fəth edən yaradıcılığı ilə çoxdan Azərbaycan sərhədlərini aşıb. Dünyanın harasında bir ağrı-acı varsa, Şirin xanımın ilhamlı qələmi orda olur və o ağrıları nəzmə çəkir. Şair istər şeiriyyəti, istərsə də publisist düşüncələri ilə oxucu ürəyini riqqətə gətirən sənətkardır. Nəşriyyatımız adından müəllifə yeni-yeni yaradıclıqlıq zirvələri arzulayırıq.***

**Sayt: Shirinxanim-Shadiman.net**

İSBN

Ş. Kərimbəyli Şadiman,
Qanun Nəşriyuatı,2022

## ƏBƏDİ VƏ ƏZƏLİ MÖVZU

Vətən mövzusu əbədi və əzəli mövzudur…Bu mövzudan yan qaçanlar, istər oxucular, istərsə söz adamları olsun, bir mənalı şəkildə kimliyini unudanlar və ya unutmağa cəhd göstərənlərdir.

Vətən –sığındığımız yuvadır. Udduğumuz hava qədər yaşam imkanımızı bədirləndirən məkandır. Biz ata-anamıza nə qədər gen baxımından doğmayıqsa, vətənə də genetik kodlarla bağlıyıq. O dədə-babalarımızın bizə miras saxladığı məkandır. Dünyanın harasında yaşayırsansa yaşa, sənin genetik yaddaşında əbədi iz qoyan və ölənə qədər ruhundan, canından çıxmayan bir yer var, bu VƏTƏNDİR! Onun axarlı-buxarlı dəryaları, ormanları, bulaqları adama ana laylasıtək doğmadır və bir ömür yaddaşa həkk olunub adamı izləyir. Bir də insanın doğulduğu yer var. O, yer unudulmaz, yaddaşdan silinməz ocaqdır.

Geniş oxucu əhlinin və qədir bilən, kitaba diqqət kəsilən söz adamlarının ixityarına veriləcək “Vətən səndən nə qaldı“ kitabım, ayrı-ayrı illərdə çap olunmuş, kitablarımda gedən vətən bölməsindən və yeni yazılmış, hələ kitab halında çap olunmamış şeirlərimdən cəm olan topludur. Kitab geniş oxucu kütləsi üçün, habelə, tədris ocaqlarında vətənpərvərlik hislərini aşılamaq məqsədi ilə gələcəyimiz olan gənc nəsil üçün nəzərdə tutulur. Arzu edirəm ki, mənəviyyatımızın güzgüsü olan kitaba sevgi və mərhəmətimiz azalmasın, çünki kitab insanı cilalayan, onu ali varlığa çevirən dəyər mücəssəməsidir! Kitab gözlə görünməyən işıq, nurdur. Bu nurun şəfəqləri daim qəlbimizi ziya ilə doldurur. Kaş bu ziyadan yorulmadan bəhrələnmək bütün həmvətənlərimizə nəsib olsun!

Yazımın əvvəlində qeyd etdiyim kimi insanın Vətən məfhumu geniş məfhumdur. Dünya adlandırdığımız planetimiz isə milliyyətindən, dini mənsubiyytindən asılı olmayaraq, nəinki insanların, bütün canlıların sığındığı yaşam ocağıdır. Bizlər dünyanın ağrı-acılarını həm çəkənik, həm də onun qayğısına qalan və qoruyanıq. İnsansız, nə dünya olar, nə vətən…Biz bir-birimizin qeydinə qala-qala həm insanlığı, həm dünyanı, həm də vətənin müdafiəçiləriyik. Hər birimizin doğulduğu yuva var, ona kənd, qəsəbə, yurd, şəhər deyərlər, məhz öz yurd-yuva hislərimi doğulduğum Siyəzən bölgəsinin Tağay kəndinə həsir etdiyim illər öncə yazdığım "Tağayım" poemasında qələmə almışam. Doğulduğum və yaşadığım illərin, keçmiş günlərimin xatirə toplusudur bu nəzm hekayət…

"Vətən səndən nə qaldı" kitabımda Vətən ağrıları birər-birər sadalanır, iki yerə parçalanmış güneyli-qüzeyli Azərbaycan dərdini misraların fəryadına, üsyanına, harayına öc etmişəm. Ədəbi şeirin bütün formalarında vətənin dağın, düzün, meşəsin, irmağın, bol sulu çeşmələrin bədii sözün qüdrətiylə cilalamağa çalışmışam.

Kitabda iki əsr başımıza gələn faciələrin real mənzərəsini misraların, bəndlərin fəryadıyla oxucuya çatdırmağa çalışmışam…Topluda İyirmi yanvar faciəsi, Xocalı soyqırımı dünənimizdən bu günümüzə, bu günümüzdən sabahımıza yol gedən qan yaddaşımızdı! Bunları unutmaq olarmı?! Unutmamaq üçün İyirmi yanvar faciəsinə həsr etdiyim "Ağı-dastan", "Xocalı soyqırımı" adlı nəzm hekayətlərimi yazdım və bu mövzulara müraciət edən qələmdaşlarım da, var olsun!

Bu yaxınlarda ədəbi saytlardan belə bir cümlə oxudum "ədəbiyyat dərsliklərindən qan iyi gəlir" mən bu deyimlə heç razı ola bilmirəm və çox təəssüflənirəm. Sual edərsiz niyə görə? Mənə ünvanlanacaq suala cavab olaraq bildirirəm ki, dünyada çox qanlı olaylar olur, bütün qanlı toqquşmaların da sonu sülhlə tamamlanır, amma bilərəkdən törədilən qırğınlar təbii hadisə deyil, bu konkret insanlar, dövlətlər tərəfindən həyata keçirilən qanlı hadisələrdir. Əgər biz dünən olanları yaddaşımızdan, kitablardan və arxivlərdən silsək, gələcək nəsillər bundan da dəhşətli qırğın və işğallara düçar olar. Necə ki, bizim nəsilə sovet dövründə keçmişi unutdurdular, 1989/90-cı illərdə yenidən qarşısı alınmaz vəhşət yaşadıq, Yuxarı Qarabağ və ətraf bölgələr işğal olundu, bu gün də o işğalın acısı ilə üz-üzəyik… Qüzey Azərbaycanımızın hər bölgəsində şəhidlər məzaristanı yarandı. Bu bizlərin dünənimizə olan unutqanlığımızdan doğuldu. Daha doğrusu, bizi totalitar rejimin

tədris etdiyi məktəblərdə bu ruhda tərbiyələndirdilər, amma çox çəkmədi gəncliyimizə işğal, torpaq itgisi, əsirlik, şəhidlik ərmağan olundu. Bütün bunları yenidən yaşamamaq üçün hamılıqla bir yumruğ təki birləşib işğal boyuduruğundan xilas olmalıyıq, bu yolda Ali Baş Komandannan tutmuş hər birimizə birləşib QƏLƏBƏ sevincini dadmaq nəsib olsun! Azərbaycan Əsgəri, irəli!!!

**MÜƏLLiF. 22.06.2019**

**AZƏRBAYCAN ELİNİZƏ QURBAN OLUM 1k**

Vətən nədir?– Pak, müqəddəs torpağımız,
Ayaq altda solan-sarı yarpağımız,
Qızda örpək, igidlərdə papağımız,
O qapqara telinizə qurban olum,
Azərbaycan elinizə qurban olum!

Yad ellərdə Vətən deyən ellilərim,
Dilim ilə qanbir olan dillilərim,
Udu, sazı, muğam deyən tellilərim,
Göz yaşından selinizə qurban olum,
Azərbaycan elinizə qurban olum!

O tayımda çən tökülən çaylara can,
Qəm gətirən fəsillərə, aylara can,
Sinələrdən qopan ahı-vaylara can…
Gətirməyən ilinizə qurban olum,
Azərbaycan elinizə qurban olum!

Yağı açdı başınıza kələkləri,
Nalənizdən ağlar qoydu fələkləri,
Çox sinənin heçə döndü diləkləri,
«Su, su» deyən çölünüzə qurban olum,
Azərbaycan elinizə qurban olum!

Yaxşı qaldı yaman əldə – pislərə nə?
Ocaq çatan alov yoxsa – hislərə nə?
Əcəl gəlsə – ölümlərə, yaslara nə?
Həzin əsən yelinizə qurban olum,

Azərbaycan elinizə qurban olum!

Vətən deyib kökün salan nəsillərmiş,
Kök üstündə pardaqlanan əsillərmiş,
Çox ellərdə haqqın dilin kəsillərmiş…
O birləşən əlinizə qurban olum,
Azərbaycan elinizə qurban olum!

Şirin Xanım, şərin yeri bucaqlardı,
Məramları fitnə dolu qucaqlardı,
Yanar sinəm odu keçməz ocaqlardı,
Ocağnıza, külünüzə qurban olum,
Azərbaycan elinizə qurban olum!

**25.10.1987**

## ANA DİLİM

Min-min tarix yaşınnandır,
Torpağından, daşınnandır,
Xəzərin göz yaşınnandır,
Dönüb bağrın qana, dilim!
Ana dilim, ana dilim!

Çoxdur uca məğrur qalan,
Bakı – bağrı qanlı balan,
Çətin günlər ola yalan,
Qovuşa qan qana dilim,
Ana dilim, ana dilim!

Dədəm Qorqud qopuz çaldı,
İgidləri yola saldı,
Yağılardan qisas aldı,
Çatdın ada-sana dilim,
Ana dilim, ana dilim!

Məhəbbətin bir ümmandır,
Araz üstü çən, dumandır,
Qaldır səsi sən, amandır,
Qoyma Təbriz yana, dilim,
Ana dilim, ana dilim!

Zeynəb xanım ellər gəzər,
Sənlə min bir mahnı bəzər,
Təmiz ləhcən çələng düzər –
Səs salar hər yana dilim,

Ana dilim, ana dilim!

Sevənlərə çiçək oldun,
Gəlinlərə ləçək oldun,
Göyçəklərdən göyçək oldun,
Çat şöhrətə, şana dilim,
Ana dilim, ana dilim!

Gələcəyə sən şahid ol,
Arı təki pətəyi bol,
Dağı, düzü, ətəyi bol,
Söykə şanı şana, dilim,
Ana dilim, ana dilim!

Şirin Xanım çələng düzər,
Şeiyriylə səni bəzər,
Uzaq olsun səndən nəzər…
Ay anama ana dilim,
Ana dilim, ana dilim!
**08.05.1987**

## OĞUZ BABAM – DƏDƏM QORQUD

Oğuz babam – Dədəm Qorqud,
taladılar Göyçəmizi, Zəngəzuru,
Zirvələrdən yerə endi soyumuzun dağ qüruru…
Qarı düşmən yaman çıxdı sudan quru.

Dağıtdılar ustad ozan Ələskərin məzarını!..
Qadir Allah eşitmədi
qədim yurdun ah-zarını!
Hara uçdu, hara qaçdı qurd oğlu qurd?!
Ocaq söndü… bərbad oldu neçə min yurd!
Qan töküldü, ev yıxıldı,
göz yaşımız selə döndü!
Bir millətin gələcəyi bəd ağızda dilə döndü!
***
Oğuz babam – Dədəm Qorqud haray çəkir,
fəryad edir,
elimdə saz, tar, kaman, ud!
Yarımasın qəvi düşmən!

O günahsız Bakımızın sinəsinə çilədi qan!
İgidlərin parçalandı tanklar altda!
Güllələrin şər ağzına yem oldular
uşaq, qoca, gəlin, ana!
Yağıların bais oldu nahaq qana!
Baş alıbdı haqsızlıqlar bu elatda!
Qanlı yanvar gecəsində sipər oldu
şəhidlərin sinələri güllələrə!!!
Haray çəkdi, sızıldadı yer dağ, dərə!
Qürurumuz tapdalandı…
Gecə-gündüz arzularla coşub-daşan,
Dərd-bəlası qatılaşan
ürəyimiz çox talandı!

***

Oğuz babam, hanı mənim babalarım?
Yurdumuzun birliyini haçalayan,
Azərbaycan ellərini neçə yerə parçalayan,
O müqəddəs ruhları inciməsin,
Cavab versin haqsızlıqla qoparılan,
Güclə, zorla pak tarixi yad ellərə aparılan,
dağıdılmış əyalına,
parçalanmış cəlalına!

***

Dədəm Qorqud, iş deyəndə işləyən biz,
Gecə-gündüz çalışırıq, vuruşuruq,
Vaxt-vədəsiz bükülür bel, qatlanır diz!
Biz yer verdik Qarabağda yurdsuz bilib yağılara!
Çoxaldılar mikrob kimi, tarixə yaxdılar qara!
Böyük Behişt dediyin yer
düşmənlərin tamahını itiləyib,
Bu haqsızlıq o müqəddəs yurdu əyib!
Dastanlarda təriflənən İrəvanın Yeravandı,
Suyu ağlar, könlü qərib Göyçə gölün, eh, Sevandı.
Hiyləbazlar, özgəsinin torpağına göz dikənlər,
köksümüzə dağ çəkənlər,
Zəngəzurdan qovladılar dağ vüqarlı ellilər,
Babam oğuz dilliləri!!!

***

Oğuz babam – Dədəm Qorqud, könlü ağlar
Borçalımız,
qovuşmayan vüsalımız!

Ayrılığa açar oldu,
min bir yerdən paralanmış,
od yurduna baxa-baxa naçar oldu!
Tarixlərin yarasını dada-dada
min bəlaya düçar oldu!
Hey itirdik… itirdikcə
yurdumuzun zərrəsini, parasını,
Pıçıldadıq «keçən keçdi, olan oldu»…
Dəmir qapı Dərbənd hanı?
əlimizdən getdi o da,
Araz üstdən, evimizin ortasından,
çəpər çəkdi yarımamış qarı düşmən,
Əhdi yalan, planı qan,
«O tay, bu tay» deyə-deyə
Oğuz babam yandı ellər,
Sipər oldu sinəmizə o tikanlı, qanlı tellər!
O tayımız fars adlandı,
Oğuz elin dili söndü, çərxi döndü.
Bu tayımız…dil dəyişdi, qan dəyişdi,
kök-soyumuz yalan oldu!
Odlar yurdu-Azərbaycan üstbəüstdən
yüz yetmiş il talan oldu!!!
Dədəm Qorqud, demə mənə
keçən keçdi, olan oldu…
***
Ey dünyanın düzlük sevən adamları,
parçalanmış,
haçalanmış,
Ocağına su calanmış, torpağımın yaraları
bitişməyir!..
Fəryadımız görən niyə başbilənlər,
dünyasına yetişməyir?
Yüz yetmiş il ağı olmuş,
Çiynimizdə dağdan ağır dağı olmuş,
O tay adlı faciədən xəbərsizlər…
Ey Vətənin birliyiçin can verənlər,
arzuları parçalanmış
Bağrı para, ey ölənlər!
Zindanlara,
məhbəslərə,
atılanlar,

Ey «millətçi» damğasıyla millətçilər
sırasına qatılanlar!
And içirik! Söndürülmüş ocaqların pak oduna,
And içirik! Odlar yurdu – Azərbaycanın adına,
hirsimiz,
qəhərimiz,
birləşəcək,
Ağlımızda, şüurumuzda, zəkamızda yerləşəcək,
Yağıları, xainləri, satqınları boğacaqdır,
BİR GÜN GÜNƏŞ DOĞACAQDIR!!!

**12.02.1990**

## AZƏRBAYCAN

Yağıların içində bir hayqırtı qoparır,
Ey mənim dərdli anam, yurdunu qan aparır,
Varını, sərvətini gəlib-gedən aparır…
Mənimtək bəxti qara, yaralı Azərbaycan,
Bağrı talan sinəsi paralı Azərbaycan!

Nələr çəkmədi başın dünyaya göz açandan,
Bağında, bağatında yad çiçəklər açandan,
Gözündə yaş qurumaz, üzün gülməz haçandan…
Naləsi ərşə bülənd boğulan Azərbaycan!
Çörəyi göz yaşıyla yoğrulan Azərbaycan!

Sinən də güllələrdən olubdu dəlik-deşik,
Çağası parça-parça – qana bələnmiş beşik,
Xain əllə uçulur, viran olur ev-eşik,
Fəryadına yetişən tapılmaz, Azərbaycan!
Heç el, heç yurd sənintək çapılmaz, Azərbaycan!

İçindəki o nalən parçalayır sinəmi,
Tanrı bizə tuş edir niyə bu dərdi-qəmi?
Yağıların başından getməz fitnənin dəmi,
İstəyi ürəyində puç olan Azərbaycan!
İblis, şeytan əlində sozalan Azərbaycan!

Bəs nə vaxt gülər üzün bu qarışıq dünyada?
Kim haqqını anlayıb yetəcəkdir fəryada?
Ətrafında nəhirlər sənsə kimsəsiz ada…
Zəhmətin zindanında döyülən Azərbaycan!
Tükənməz varidatı üyülən, Azərbaycan!

Əzrayildan məkirli yağıların cəlladdı,
Əzəli sadəlövhlik səni uçruma atdı,
Yüz yetmiş il taleyin fil yuxusunda yatdı…
Döydü şimal küləyi başına, Azərbaycan!
Qan töküldü yuvana, daşına, Azərbaycan!

Bu qanlı dünyamızın ey talesiz övladı,
Düşmənini dost bilib yaxın eyləmə yadı,
Yetsin ulu Tanrıma ruhun şəhid fəryadı!
O qanlı köynəyini haqq yusun, Azərbaycan!
Savaş istəyənlərin oyulsun, Azərbaycan!

Şirin Xanım, gözündə leysanın qanlı yaşın,
Qalsam – igid övladın, ölsəm – torpağın, daşın,
Əsarətə üsyankar yaralı vətəndaşın,
Öz müqəddəs haqqını durma al, Azərbaycan!
Dolaşsın torpağını istiqbal, Azərbaycan!

**02.12.1990**

## HARAY DÜNYA

İçimizdə boğulubdu üç ildir ki, fəryadımız,
Yad ellərə davakartək tanıdılır pak adımız,
Güllələndi gecə ilə əliyalın cihadımız,
Boğuluruq qəhr içində yetməyirsən dada, dünya!
Vermə haqqı, ədaləti heç bir zaman bada, dünya!

Torpaqdan da pay olarmı? Dilənçitək dilər yağı.
Pozulubdu yurdumuzun xoş günləri, xoş növrağı,
Nə qədər bu el görəcək üstbəüstdən sinə dağı?
O günahsız şəhid olmuş igidlərə ağla, dünya!
Qan-qan deyən fitnəkarın qapısını bağla, dünya!

Alovuna qızındığım, ey Haqq, harda inləyirsən?
Məl‘unların, güclülərin əmirinmi dinləyirsən?
Bəlkə şərlə əlbir olub sinə yıxıb, qədd əyirsən?
O tökülən qanımıza insaflı ol, qıyma dünya!
O mələkə qiyafəli iblislərə uyma, dünya!

Haram olub halal tikə nə müddətdi elimizə,
Çox zalımlar, çox qansızlar qıfıl vurub dilimizə,

Sən sükutla baxma böylə qana dönmüş ilimizə,
Yurdumuzun göylərindən çəkilməyir duman, dunya!
O günahsız şəhidlərə bir aman et, aman, dünya!

Viran olmuş könlüm evi nə vaxtdır ki, qəfəsdədir,
Ağlar sinəm, ağlar qəlbim dərddən axır nəfəsdədir,
Bilən varmı, Şirin Xanım, yağılar nə həvəsdədəir?
Dağıdıldı çox yurd-yuva, əhli-əyal, saray, dünya!
Əfğanımdan fələk ağlar, haray dünya, haray dünya!

**08.02.1990**

## ŞƏHİD QANLARI

Çiləndi hasara, daşa, divara,
Torpağa qarışdı şəhid qanları.
Tanrı leysan tökdü aha, fəryada,
Dövrana qarqışdı şəhid qanları!

Bakını qaraya boyadı qanlar,
Qanunsuz, hökümsüz didildi canlar,
Vaxtsız həyatını verdi insanlar…
Məş‘əltək alışdı şəhid qanları!

İtirdi rəngini çiçəklər, güllər,
Naləden, fəğandan asiman mələr,
Torpağın gözünə çəkildi millər,
Ulduztək sayrışdı şəhid qanları!

Göynədər sinəni getməz bu dağlar,
Hər vaxt Şirin Xanım köksünü dağlar,
Qanunlar, hökümlər qapını bağlar,
Qanuna «alqışdı» şəhid qanları!

**23.07.1990**

## İTGİN ŞƏHİDLƏR

Evindən biryolluq getdi o gecə…
Xəbərsiz-ətərsiz itgin şəhidlər!
Yağı gülləsiylə itdi o gecə
Özgəyə xətərsiz itgin şəhidlər!

Analar, bacılar yolları pusar,

Arada əlçatmaz, keçilməz hasar,
«Balam vay» deyənlər min yol qəm qusar!
Torpaqda bitərsiz, itgin şəhidlər!

O gecə çox sinə göyə sovruldu,
Analar, bacılar yandı, qovruldu,
Haqsızlıq önündə ədalət quldu…
Siz haqqa yetərsiz, itgin şəhidlər!

Vətən haqq axtarır, haqsa amanda,
Yaman – yaxşı donda, yaxşı – yamanda,
«Azad qanunlarla» azad zamanda,
Məzarsız itərsiz, itgin şəhidlər! **30.06.1990**

## AĞLA, ÜRƏYİM, AĞLA

Xəzəl oldu, töküldü arzumuz para-para,
Bu elin ünvanına çox yaxılıbdı qara,
Çəkildi bir gecədə arzularımız dara,
Ağla, ürəyim, ağla!

Dərdə dözümlü Bakım, Allah, qara geyindi,
Qəfil yağı gülləsi namərd əldə öyündü,
Bu an həyat eşqiylə çox ürəklər döyündü…
Ağla, ürəyim, ağla!

Baharı xəzəl olmuş günahsız qurbanlara,
Arzusu daşa dəymiş vaxtsız gedən canlara,
Yağı fitnəsi ilə o tökülən qanlara,
Ağla, ürəyim, ağla!

O gecə dağ çəkildi anam Azərbaycana,
Neçə quduzun əli batdı günahsız qana,
Gülləbaran olundu çox körpə, uşaq, ana,
Ağla, ürəyim, ağla!

Şirin Xanım, bu dərdi necə gəzdirsin ürək?
Yağının fitvasına düçar olduq, ey fələk,
Puç oldu bəslədiyim nə qədər arzu, dilək,
Ağla, ürəyim, ağla!

**17.03.1990**

## GÜLLƏLƏR

Didib parçaladılar tanklar altında bizi,
Neçə yol şəhid oldu bu yurdun övladları.
Ağ saçlı anaların ağlar nigaran gözü…
Özləri nakam getdi, qaldı şəhid adları!

Ey sərvi boylu xanım, vallah, baxa bilmirəm,
Namərdlərin əliylə yaralanmış sinənə.
Niyə çəkdilər haqqı ah, çarmıxa bilmirəm?
Niyə divan tutuldu haqq yolunda dinənə?

Pərakəndə xəyalım ruhunuzla qol-boyun,
Gecə-gündüz sinəmi qamçılayır ürəyim,
Allah, danmaq olarmı qədim xalqın kök-soyun?
Ey göylər, harda qalıb o rəhimdil fələyim?

Qeyrətin qorumağı saydız elin günahı,
Bəlkə mərdlik, cəsurluq könlünüzü açmayır.
Mən bilirəm, görürəm öndə xoşbəxt sabahı,
Canilərsə heç zaman Tanrıdan yan qaçmayır.

O güllələnmiş Bakı mə‘lul-mə‘lul susarkən,
Onun hirsi, qəhəri sinəmi parçalayır.
Bir xalqın haqqı-sayın şər boğazdan asarkən,
Yalnız ədalətsizlik yolları haçalayır.

Yağılar öz işində… ölməli kim, ölən kim?
«Haqqam» deyib bağıran haqqımı damğalayır.
Qanunlar gərdişində bölünən kim, bölən kim?
Sığınacaq tapanlar yurdumu yağmalayır.

Başını qoruyandan yurda vətəndaş olmaz,
Haqq-nahaq bilinməsə susmayacaq bu ellər.
Şirin Xanım, namərddən elinə qardaş olmaz,
Tanrısından qorxmayan, Tanrısın da güllələr.

**30.06.1990**

## DİDƏRGİN QIZ

Dikmə qəmli baxışları,
Edir aman, didərgin qız.
Dilindəki qarğışları
Verdi dövran, didərgin qız!

Sənə olan zülüm, sitəm,
Torpağıma yazdı matəm,
Gözlərindən qurumaz nəm –
Sökülər can, didərgin qız!

Orda-burda keçər günün,
Yetməz haqqa niyə ünün?
Düşüb ayrı elə yönün –
Haqlı yaman, didərgin qız!

Çöhrən dalğın, fikirlidir,
Baxışların nə sirlidir?
Yağıların məkirlidir –
Verib fərman, didərgin qız!

Şirin Xanım çəkdi qəhər,
Yediyi də oldu zəhər,
Yurdun-yuvan yada bəhər –

Hanı dərman, didərgin qız?!

**23.07.1990**

## CAN BALA

***Göytəpənin beş yaşlı sakini***
***Elçin Allahverdiyevə!***

Can bala, baxışın yandırır məni,
Bu yanğı içimdə tufan qoparır.
Niyə yurdsuz qoyub yağılar səni?–
Sel olub haqsızlıq haqqı aparır.

Can bala, çöhrəndən oxunan kədər
Doğrasın düşmənin daş ürəyini.
Beşiyin dağılıb, yurdun dərbədər,
İtirdin halalca duz-çörəyini!

Köksündə Vətənin odu, atəşi,
Gözündə Koroğlu əzəməti var.
Mənim körpə balam, haqqın günəşi
Elindən dumanı, çiskini qovar.

Can bala, ümidlə sabahı gözlə,
Bu ahı, fəryadı duyan tapılar.
Hələ ki, qanunlar kəsərsiz sözlə,
Hələ üzümüzə bağlı qapılar.

Şimşəkdən qəzəbli gözünün odu,
Qarı düşmənləri yandıracaqdır.
Kəsiləcək savaş, bu dedi-qodu,
Tanrı qanmıyanı qandıracaqdır.

Can bala, sazaqdan donmuş əlləri,
Qoy Şirin Xanımın isti köksünə.
Allah bu savaşdan alsın elləri –
Qansızı gətirsin imana, dinə.

**05.12.1990**

## XƏLİL RZA

Xəlil Rza! Vətənimin göylərində dolan bulud,
Xəlil Rza – tufanlara sinə gərən,
ilğımları, sazaqları üstələyən
güclü palıd!
Xəlil Rza – əzabları dəmirləşən,
düşmənləri əyilməyən qüdrətiylə
vurub sərən bahar seli!
Xəlil Rza –Vətənimin zümzüməsi,
dodağında kilidlənən susmaz dili.
Zəncirlənən azadlığın Prometeyi!
Azərbaycan anamızın udu, neyi!
Xəlil Rza – o susmayan qüdrətiylə çağlayacaq!
Yağıların qan-qan deyən ürəyini
xəncər-bıçaq sözləriylə dağlayacaq!
Od yurdunun adı bizdən
özü ögey dillərini bağlayacaq!
Xəlil Rza – məmləkətin azadlığa
təşnə olan ürəyidir!
Azərbaycan torpağının ikibaşlı
əjdahaya qarşı duran dirəyidir!
Azadlığın damlasını əzizləyən,
Yolumuzdan tikanları, qanqalları
xışım-xışım təmizliyən,
Dədə Qorqud babamızdır!..
Xəlil Rza – min ildir ki, fəryad edən,
fəğan edən qəlbi qopuq

dərdli sazdır!
Xəlil Rza – min bir yerdən parçalanmış,
igidləri diri-diri xain əllə
odda yanmış,
Azərbaycan adlı diyar.
Yağıları o Koroğlu nərəsiylə başsız qoyar!
Xəlil Rza – istiqlalın özü boyda parlaq Günəş!
Yüz yetmiş il sinəmizdə zaman-zaman,
nəsil-nəsil doğan atəş!
Zəncirləri qolumuzdan qıracaqdır nərəsiylə!
Azərbaycan ölkəsini tanıdacaq kürəmizə
öz müqəddəs haqq səsiylə!..

**22.11.1990**

## MƏN DƏ VARAM 2k

Tanrım qədər yüksəkdədir,
Qanda, canda, ürəkdədir –
Xalqım mənim, elim mənim.
Bülbül təki xoş ləhcəli dilim mənim,
Əzabları – ürəyimin ağrısıdır.
Bircə anlıq fəlakəti –
gözlərimin uçub gedən yuxusudur.
Bir kimsəyə əyilməyən,
Xəyanətdə döyülməyən,
Ayaqlara döşənməyən,
Röyalardan üşənməyən,
Ürəyimin qorxusudur.
Bu torpaqda doğulmuşam,
Bu xalq mənim, bu el mənim,
Varlığımı məhvərindən yıxıb sökən,
Qəlb evimi qamarlayan,
Yollarımı hamarlayan –
Dəli-dolu təb sel mənim,
Doğulandan yağısının yağısıyam,
Ölər olsam, qız-gəlinin
dodağında ağısıyam.

***

Tanrım qədər yüksəkdədir,
Xalqım mənim, elim mənim,
Dağım mənim, çölüm mənim,

İllər keçər bu torpaqda ölüm mənim.
Bunun üçün bəxtiyaram,
Xöşbəxtliyə mən də varam!
Bu müqəddəs məmləkətə,
Başı üstə fəlakətə
ahı-zaram,
Ölüb, ya Rəbb, qarışacam torpağıma,
Bir münbitlik gətirəcəm,
Quruyan bir ağacıma, yarpağıma,
Allah, şükür bu çağıma!
Od yurdunun bircə qarış elatında öləcəyəm,

Bu torpağın çəkilməyən dərdlərini
öləndə də ruhun zərif qanadında böləcəyəm.

***

Ulu Tanrım, bunun üçün bəxtiyaram,
Nə yaxşı  ki, bu torpaqda doğulmuşam –
Mən də varam!

**12.08.1991**

## TAĞAYDA

Göz açdım dünyaya məsum bir çağa,
Qaldı uşağlığım düzü Tağayda.
Bəxtim yazılmamış hələ varağa,
Göründü dünyanın üzü Tağayda.

Dərd bir qılınc kimi yolu kəssə də,
Başımda sərsəri külək əssə də,
Ömür son mənzilə lap tələssə də,
Keçməz ocağımın gözü Tağayda.

Günəşli, küləkli qum təpələri,
Xəzərin çılğınca lal ləpələri,
Gurşad yağışlarda adəmdən bəri,
Qatlanar küləyin dizi Tağayda.

Ötdü cocuqluğun dadlı illəri,
Nə riqqətə gəldi könül telləri?
Nazlı gözəllərin türkcə dilləri,
Ürəklər ovlayan sözü Tağayda.

Qənşərdən ucalan cüt, qoşa çinar,
İgidtək əl-ələ tutub dayanar,
Könlüm o illərdə hələ dolanar…
Dolaşar çəməni, düzü Tağayda.

Yanar şamdanların o gur işığı,
Gecələr pərvanə şamlar aşığı,
Bu el də yurdumun bir yaraşığı,
Neçə əsrlərin izi Tağayda.

Baxar qarşı dagdan Çıraqqalası,
Azərbaycanımın o mərd balası,
Meşəsi, çəməni, yonca talası,
Motalın, qaymagın üzü Tagayda.

Bayramda tonqallar çırta-çırt yanar,
Soyuq məzarlardan ruhlar boylanar…
Evlər al qumaşa, şala boyanar,
Toplayar Novruz da bizi Tağayda.

Necə də, İlahi, ömür yel imiş,
Bu anlarım ki var, axar sel imiş,
Candan da müqəddəs ocaq, el imiş,
Qalar yaddaşımın gözü Tağayda.

Şirin Xanım, sabah gələrsə ölüm,
Doğulduğum yurda yetməsə dilim,
Köçsəm də dünyadan, qoy bilsin elim,
Dolaşar ruhumun özü Tağayda.

**03.12.1992**

## EY KARVAN YOLUNDAN SORAQ, DƏVƏÇİ

***1982-ci ildə Dəvəçi bölgəsinin Aygünlü kəndi yaxınlığında traktorla şumlama işi aparılakən Azərbaycanın mərkəzi şəhərlərindən biri Şabran aşkar edildi.***

Ey karvan yolundan soraq, Dəvəçi,
Dərbəndlə Şirvanın könlünün içi,
Tarixdən boylanan qərinə nəçi? –
Unutsun torpağın, daşın Şabranın,
Görməsin gözünün yaşın Şabranın.

Ey səlnamələrdə qalan, şəhərim,
Qəsbkar əliylə talan, şəhərim,
Yandırar sinəmi yaxar qəhərim –
Dağılmış qalası, yurdu Şabranın,
Yağımı boynunu vurdu Şabranın?

Xaraba yurdunda ilanlar mələr,
İnsan sümükləri haraya gələr,
Tanrıdan can alar, can verib ölər –
İnsanı torpaqda yatan Şabranın,
Adı, cəh-cəlalı batan Şabranın.

Savaşlar şahidi, ey Şabran çayı,

Əsrlər görmüsən ömürlər sayı,
Selmi, qəsbkarmı törətdi vayı?
İtdi bu dünyadan izi Şabranın,
Qaldı tarixlərdə özü Şabranın.

Keçən əsrlərin fəryadı orda,
Yolçu, ayaq saxla, baş əy bu yurda!
Bu batan şəhərin ruhları burda-
Dolaşar başının üstə Şabranın,
Sirrini daşlardan istə Şabranın.

Orta əsrlərin, ey baş sarvanı,
Çox keçdimi yurddan dəvə karvanı?
Dəvəçi, nişan ver şəhər Şirvanı,
Necə nişan verdi adı Şabranın?
Ruhlarla alışan odu Şabranın.

O küp qəbrlərdə tapılanları,
O daşa, divara yapılanları,
Ocağı, yuvası çapılanları –
Dərin qatlarında ara Şabranın,
Kim çevirdi taxtın gora Şabranın?!..

Xəqanitək həbsə atılmışları,
Şabran zindanına qatılmışları…
Zülümkar şahlara satılmışları…
Ağlar ruhlarından soruş Şabranın,
Burada hər addım, qarış Şabranın.

Dəvəçi – oğuzun bir ipək yolu,
Beşbarmaq, Qalaltı imzası, qolu.
Şadiman, bu torpaq tarixlə dolu,
Viran dam-daşından oxu Şabranın,
Hələ torpaq altda çoxu Şabranın…

**10-11.11.1998**

## SİYƏZƏN

Sinəsi neft qoxulu,
Gecələri yuxulu,
Nağılları qorxulu…
Başı qarlı, Siyəzən,
Dağ vüqarlı, Siyəzən.

Uca Qafqaz dirəyi,
Gömgöy Xəzər ürəyi,
Daşdan çıxar çörəyi,
Siyah telli, Siyəzən,
Şirin dilli, Siyəzən.

Dərbəndə çatar yolu,
Qalaaltı sirr dolu,
Xıdırzində haqq yolu…
Dağım, düzüm, Siyəzən,
Görən gözüm, Siyəzən.

Buruqların yan-yana,
Mən övladın, sən ana,
Bu şərəfə, ad-sana,
Layiq daşın, Siyəzən,
Uca başın, Siyəzən.

Qızılburun ocağı,
Sərvətdir hər bucağı,
Çıraqqala qucağı,
Karvan yolu, Siyəzən,
Sirlə dolu, Siyəzən.

Dağlar beldə kəməri,
Dəli Xəzri qəməri,
Qafqazın aslan əri,
Dağ qürürlu, Siyəzən,
Bəxti nurlu, Siyəzən.

Gecə-gündüz qatarlar,
Bəxtin burda taparlar,
Sağa-sola çaparlar…
Yolları ağ, Siyəzən,
Zirvəsi dağ, Siyəzən.

Səslə məni,gələrəm,
Dərdi sənlə bölərəm,
Dam-daşınçın ölərəm ..!
Təmiz havam, Siyəzən,
İsti yüvam, Siyəzən.

Şadimana bala de,
Qəlbə atəş qala de,
Necə dözüm hala de,
Səndən uzaq, Siyəzən,
Qəlbdə sazaq, Siyəzən.

**11.11.1998**

***

Dəvəçi-Syəzən – isti ocağım,
Tağay – doğma yuvam, uşaqlıq çağım,
Şahdağ – dağlar içrə ən uca dağım,
Coşqun, dəli-dolu Gilgilçay çayım,
Xəzər, şıltaq  Xəzər, dünyaya hayım.

Anam Azərbaycan büllur sarayım! –
Qanımla qaynayan diləyimdəsiz,
Siz mənim döyünən ürəyimdəsiz!

**12.11.1998**

## QARANQUŞ

Dərdli dərdsiz ölkələrin səyyahı,
Gəl bizdən əlini üzmə, qaranquş.
Çatdır diyar-diyar naləni, ahı,
Gəl sən müsibətə dözmə, qaranquş.

Uzanıb elimə qapqara əllər,
Kəsib yolumuzu nadürüst dillər,
İgidlər didibdi qəfil güllələr,
Süzmə bu məkanda, süzmə qaranquş.

Yaralı torpağım tikə-tikədir,
Yağı boğazında qalan tikədir,
Sinəmi dağlayan hiris, hikkədir,
Elimdə asudə gəzmə, qaranquş.

Çatdır səsimizi uzaq ellərə,
De, kilid vurulub burda dillərə,
Zindanda zəncirli qalan əllərə,
Sən bir namə çatdır əzmə, qaranquş.

Mənimtək zəncirli nə səddin vardır,
Ələmdən əyilən nə qəddin vardır,
Nə qanun əlində, sərhəddin vardır?

Uç burdan, qanlarda üzmə, qaranquş.

Tökülür başlara haqqsız güllələr,
Qəlbdə sevincimiz didərgin mələr,
Burda qurğuşunlar od-alov ələr,
Yurdumda dinc yuva gəzmə, qaranquş.

Sən ki, köçərisən, uçub gedərsən,
Halımı Tanrıya bəyan edərsən,
Nahaqqı tutanın gözün didərsən,
Ölkəmə ağzını büzmə, qaranquş.
Bu talesiz elin haqq deyəni yox,
Çörəyin, əppəyin min yeyəni çox,
Düz sözü namərdin sinəsinə ox,
Dastan et, çək halı nəzmə, qaranquş.

Onsuz da qüssədən partladı bağrım,
Tanrı əlac etməz bir dünya ağrım,
Kimim var, haraya kimi çağırım?
Sən də vəhşətlərə dözmə, qaranquş.

Sənintək köçəri quşam ki, uçum?
Ayrı məmləkətdə yurd-yuva açım?
Billah, Tanrı bilir, yoxdu bir suçum,
Haqq hanı? Özünü üzmə, qaranquş?

İgid Koroğlular susdurulduqca,
Şəhidlər torpağa basdırıldıqca,
Həqiqət dirəkdən asdırıldıqca…
Azadlıq qoxusu sezmə, qaranquş.

Sinələr ağrılar içində yandı,
Ürəklər, bağırlar qana boyandı,
Yatmış yuxusundan fələk oyandı,
Sən də müsibətdən bezmə, qaranquş.

Torpaqda çox oğul yatıbdı dağlı,
Cavankən qalıbdı qapısı bağlı,
Söylə yad ellərə acı nağılı,
Köksünə yaratək düzmə, qaranquş.

Şadiman içindən yandı-qovruldu,
Haqqı, güllələrlə göyə sovruldu,
Köksünə sağalmaz yara vuruldu,
Dünyada ədalət gəzmə, qaranquş,
Dünyada ədalət gəzmə qaranquş. **13.07.1990**

## AZADLIQ

Uyğularda nabat təki daddığım,
Gül qoynunda cocuq kimi yatdığım,
Məramına röyalarda çatdığım…
Ey azadlıq, başım üstə günəş ol,
Pak içimdə odu keçməz atəş ol.

Aç əbədi o zəncirli əlləri,
Bağla haqqı tapdalayan dilləri,
Nəfəsinlə isit soyuq illəri,
Ey azadlıq, dünya olub əyləncə,
At oynadır zülüm, sitəm, işgəncə,

Yüz yetmiş il qandallanıb qolumuz,
Çən, çiskindən seçilməzdir yolumuz,
Tükənməyir haqqdan qeylü-qalımız,
Ey azadlıq, gəl birləşək əbədi,
Sökək, yıxaq bu tikanlı sərhədi.

Bir ürəyim parçalanıb ikiyə,
Ağır bu yük hər ölçüyə, çəkiyə,
Dönüb dünya, sanki qanlı sərgiyə,
Aciz qalıb min bir hərki-hərkiyə,
Ey azadlıq, sən susmayan sazımsan,
Qismətimə yazılmayan yazımsan.

Pərakəndə bağrımdakı diləyim,
Sazaqlarla qılınclaşan küləyim,
Kürəmizin özü boyda ürəyim,
Ey azadlıq, ölüm-itim dünyada,
Xərçəngləşib, infarktlaşıb dünya da!

Yağı, düşmən silahlarla yüklənir,
Gücsüz, tifil harda gəldi təklənir,
Leysan təki güllə başa ələnir…
Ey azadlıq, bir gün uç gəl elimə,
İmdad eylə qıfıllanmış dilimə.

Şəhidlər ki, nakam getdi torpağa,
Necə dözüm, de çəkilməz bu dağa?
Haqq-ədalət düşdü əcəb ayağa,
Ey azadlıq, kor gözlərə çıraq ol,
Bəd dillərdən, bəd əllərdən iraq ol.

Şadimanın yazılmayan boyusan,
Yasa batmış ellərimin toyusan,
Həqiqətin, istiqlalın soyusan,
Ey azadlıq, inam evim pirləşək,
Bu cahanda əbədilik birləşək.

**22.09.1990**

## BAYRAĞIM

Həsrət ilə xəyallarda alışdığım, yandığım,
Gecə-gündüz min hicr ilə məhəbbətlə andığım,
Vüsalını uyğularda cəfalarla sandığım,
Fırtınalı nəhrlərtək coşub-daşan bayrağım,
O əzablı tale ilə qardaşlaşan bayrağım.

Başın üstən fəlakətlər əsib keçdi yel kimi,
Qabarman da, çəkilmən də dağdan aşan sel kimi,
Taleyin də dərdli imiş bu bəlalı el kimi,
İldırımlar başın üstən çaxıb keçdi, bayrağım,
Bəxt ulduzu göylərindən axıb keçdi, bayrağım.

Yetmiş ildə yağıların əyib-bükdü belini,
O  əzablı hekayətin yandırdıqca elini,
Bağladılar min bir yerdən qıfıl ilə dilini…
Haqq, ədalət döyülsə də bükülmədi, bayrağım,
Millət qanı nahaq yerə tökülmədi, bayrağım.

Ey üç rəngli ay-ulduzum, məhbus eldə doğuldun,
Fitnələrlə, fitvalarla qara əldə boğuldun,
Fəzilətdən, həqiqətdən, istiqlaldan yoğruldun,
Parla şərəf dünyasında al günəştək, bayrağım,
Dol, bu təşnə ürəklərə bir atəştək, bayrağım.

Haqsızlığı dolu təki döydün qəfil gəlişlə,
Lənətlədin məhbusluğu bu üsyankar gedişlə,
Yıxıb-sökdün əsarəti sən mərdanə gərdişlə,
Od yurduna Tanrı oldun şövqün ilə, bayrağım,
Ən şiş zirvə yuvan olsun fövqün ilə, bayrağım!

Məmməd Əmin səmasında doğan parlaq pılanet,
Sən dalğalan nəhr kimi yetmiş illik kama yet,
Aç azadlıq qapısını məmləkətə  əlac et,
Gəl, bu dərdli yurdumuzda yıx qəfəsi, bayrağım,
Qoy hayqırsın şimşək təki haqqın səsi, bayrağım.

Yasaq oldun yağı əllə doğulandan dünyada,
Başın üstə kölgələndi yer titrədən qan-qada,
Tanrıdamı gücsüz oldu yetişmədi fəryada?
Sən idrakın bəxş etdiyi mükafatsan, bayrağım,
Sinələrdə üsyan edən hekayətsən, bayrağım.

Tapdalandı yurdun haqqı, millət qalxdı savaşa,
Xəyanətkar əllər ilə oxun dəysə də daşa,
Gec də olsa gəl qovuşdur sən qardaşı qardaşa,
Gəl şəhidlər eşqinə dur, yıx sədləri, bayrağım,
Torpağımı parçalayan sərhədləri, bayrağım.

Aç qapısın istiqlalın, alsın nəhri əlinə,
Bir səadət bəxş eləsin Şadimanın elinə,
O tamarzı əllər yetsin həmişəlik əlinə,
Çıx qəhrəman-savaşlardan pələng təki bayrağım,
Boynumuza həmayil ol çələng təki, bayrağım.

**30.10.11.1990**

## DARIXMA QARABAĞ, DARIXMA ŞUŞA

Yalanın ömrünə az qalıb daha,
Tezcə son qoyular naləyə, aha,
Düşmənin ümidi yoxdur sabaha,
Çırpılar zəhərli oxları daşa,
Darıxma Qarabağ, darıxma Şuşa.

Bizi əyilməyə sürüklədilər,
Beş il əli-qolu hörüklədilər,
Dindik dilimizə daş yüklədilər…
Baş qaraya vərdiş, gözümüz yaşa,
Darıxma Qarabağ, darıxma Şuşa.

Xainlər satdılar yurdu paraya,
Min damğa vuruldu hər köz yaraya,
Gəlir ər igidlər, gəlir haraya,
Yetməz yağı pılan, heç yetməz başa,
Darıxma Qarabağ, darıxma Şuşa.

Ocaqlar yurdlarda pirə dönərlər,
İgidlər qızışmış nərə dönərlər,
Qadınlı, uşaqlı ərə dönərlər,
Səcdə eyləyərik əsir dam-daşa…
Darıxma Qarabağ, darıxma Şuşa.

Ey əsir yurdlarım, lərzəyə gəlin,

Bu qandan Tanrıya ərzəyə gəlin,
Haqq qılıncı vursun nahaqqın əlin,
Bu gün arxa, dayaq qardaş-qardaşa,
Darıxma Qarabağ, darıxma Şuşa.

Düşmən ölümüzdən qorxub qan qusur,
Oğuz harayından əzrayıl susur,
Min tülkü kolluqdan bir igid pusur…
Çıxar azadlığa yurd başdan-başa,
Darıxma Qarabağ, darıxma Şuşa.

Tanrı yerdə qoymaz heç nahaq zülmü,
Min-min cavanların nakam ölümü,
Əcəl də susdura bilməz dilimi!
Verib AZƏRBAYCAN bugün baş-başa,
Darıxma Qarabağ, darıxma Şuşa.

Qırılsın zəncirlər hər əsir qoldan,
Qartallar zirvədən, sərçələr koldan,
Qurğuşun sapdırmaz bizi bu yoldan…
Yaşa qələbəyçin, ay ellər, yaşa!…
Darıxma Qarabağ, darıxma Şuşa.

Böyük Üzeyirin ruhu eşqinə,
Tapın Natəvanı yetirən günə,
Sığın Mühəmmədə (s), islama, dinə,
Sellərdən güclüdür el səbri daşa,
Darıxma Qarabağ, darıxma Şuşa.

Sinələrdə ümid coşub-çağlasın,
Xainin üzünə qapı bağlasın,
Qələmim bu qandan kitab bağlasın!
Tarixə köçəcək bu günlər haşa,
Darıxma Qarabağ, darıxma Şuşa!

**20.09.1992**

## TACİK OĞLU

***Şərif Əzizov tacik oğludur. O, evlərindən gizli qaçır, Qarabağda erməni daşnaklarına qarşı vuruşur və şəhid olur!***

Tacik oğlu nə səni məcbur etdi bu işə?
Başladın vicdanınla, qeyrətinlə yürüşə,
Atıb sakit ölkəni gəldin qanlı döyüşə,
Günahsız məmləkətin tökülən qanlarımı?
Öz doğma komasında üzülən canlarımı?

Tacik oğlu, ey mənim müqəddəs din qardaşım,
Vətənimdə uyuyan, ey şəhid vətəndaşım,
Məzarının önündə tökülür bu göz yaşım,
Doğma bilib yatdığın o torpaq haqq qoxuyur,
Quzey-güney bu Vətən sənə rəhmət oxuyur.

Tacik oğlu, şəhidlik zirvəsinin sultanı,
Damarında qaynadı müqəddəs İslam qanı,
Haqq, ədalət yolunda əsirgəmədin canı,
Verdin cavan ömrünü sən Qarabağa qurban,
İzlədi hey kölgəni ölüm dabanbadaban.

Nə titrətdi sinəndə çırpınan ürəyini?
Haqqa əmanət verdin çox arzu, diləyini,
Yerə vurdun savaşda min düşmən kürəyini,
Boğdu səni qeyrətdən doğan o acı qəhər,
Qaçdın evindən gizlin qürbət elə bir səhər…

Tacik oğlu, qurğuşun yeri, göyü daşladı,
Hər dava qızışanda ölüm-dirim başladı…
Ürəyinə yağılar qəfil güllə tuşladı,
Hər addımda qan-qırğın əlini soyutmadı,
Son anadək vuruşmaq könlünü ovutmadı.

Tacik oğlu, qəbirdə niskilli yatma, qardaş,
Demə ki, qürbət eldə qərib məzar, bu baş daş,
Sən də Azərbaycana oldun şəhid vətəndaş!
Ruhun şad olsun, igid, yurdumuzun oğlusan,
O şəhid məzarınla bu torpağa bağlısan.

Ey Şadiman, gözündən axmasın qanlı yaşlar,
Kədərin şiddətindən qəm açmasın naxışlar,
Hələ Rəbbə tapınır dünyada mərd baxışlar…
Vallah, qürbət ölkələr səsimizi duyacaq,
Boğulan haqqımızı bütün ərzə yayacaq!…

**15. 07.1992**

## QARDAŞ

***İtkin düşmüş laçınlı Mübariz Bəhram oğluna…***

Kəsib qapımızı ölüm, dərd, acı,
Yaralı qəlblərin yoxdur əlacı,
Yağılarda əsir qız, ana, bacı…
Sən bu ağrılarla çırpındın, qardaş,
Qisasçın silaha tapındın, qardaş.

Keçdi düşmənlərin əlinə elin,
Varlığın alışdı, od tökdü dilin,
Qisasa çağırdı əsir qız, gəlin,
Ürəyin çevrildi orduna, qardaş,
Atıldın qurd təki yurduna, qardaş.

Qalxdın gavurlarla qanlı savaşa,
Evin dağa döndü, yorğanın daşa,
Şan-şərəf gətirər ar vətəndaşa,
Namusla zirvəyə ucaldın, qardaş,
Qurğuşun güllədən bac aldın, qardaş.

Bir qeyrət tacısan Azərbaycana,
Qəhrəman doğubdu səni mərd ana,
Yatmış oğullar da kaş ki, oyana…
Nə‘şin də yağıya ölümdür, qardaş,
Yoxluğun Vətənə zülümdür, qaradaş.

Sən qan qusdururdun kol pusanlara,
Fəryada, dəhşətə mil susanlara,
Dözmədin günahsız şəhid qanlara,
Bağladın bəxtini dağ-daşa, qardaş,
Üz-üzə, göz-gözə savaşa, qardaş.

İtkin, vətən oğlu, sağsan dön geri,
Sənsən bu torpağın əyilməz əri,
Yoluna uzanıb bir qız əlləri…
Çatdır onu toya, busata, qardaş,
Qaytar mərd atanı həyata, qardaş.

Bu ürəyim ki, var – yaralı quşdur,
Dərddə olan könlüm dərdə tutuşdu,
Köz bağlamış sinəm yandı, alışdı,
Yoxluğun millətə dağlardır, qardaş,
O əsir Laçının ağlardır, qardaş…

**11.05.1993**

## MƏNİM ŞAİR BABAM…

***Şah İsmayıl Xətaiyə***

Birlik təşnəsiylə alışdı ürək,
Dedin ki, gur yansın ocağım, sobam.
Qoymadı kamına yetməyə fələk,
Mənim şair babam, mənim şah babam.

Könlündə min tonqal çatdı duyğular,
Vətənə, torpağa, yurda sayğılar,
Gecə də «birləşin» - dedi uyğular,
Mənim şair babam, mənim şah babam.

Alışdı içində sönməz ocaqlar,
Birlik eşqi ilə ürəyin dağlar,
Düşündün birləşməz, bu Vətən ağlar,
Mənim şair babam, mənim şah babam.

Dedin ki, «Təbrizdən Dərbəndə qədər,
Bir şahın əmiri, hökmü bəs edər!
Əgər ayrı düşsək yağılar didər»,
Mənim şair babam, mənim şah babam.

Çapdın eldən-elə o yel atını,
Yollarda keçirtdin şah büsatını,

Bu amalla verdin mərd həyatını!
Mənim şair babam, mənim şah babam.

Birləşmək yanğısı içində coşdu,
Sevgiyə, torpağa şərqilər qoşdu,
Bu duyğu dağlardan, düzlərdən aşdı,
Mənim şair babam, mənim şah babam.

Birlikdən alışan bu cəng, bu cida,
Yandıra bilmədi hər qəlbi oda,
Əsdi başın üstə yaman qan-qada…
Mənim şair babam, mənim şah babam.

Çaldıran döyüşü qanlı bir savaş,
Oğuzla oğuzun arasında daş,
Fələyin gözündə gilələnən yaş,
Mənim şair babam, mənim şah babam.

O gün türklüyümüz düşdü ayağa,
Məmləkət büründü qara bayrağa,
O gün qan doldurdu fələk çırağa,
Mənim şair babam, mənim şah babam.

O gün çarpışmada qan bir oğuzlar,
O gün söndü günəş, batdı ulduzlar,
O gün od püskürdü qanlı ağızlar,

Mənim şair babam, mənim şah babam.

Çaldırana suçdu oğuz savaşı,
Qırdı qılınclarla qardaş qardaşı,
Niyə Tanrı göydən tökmədi daşı?
Mənim şair babam, mənim şah babam.

Sındı Qorqudumun ruhu bu dağdan,
Partladı Vətənin bağrı fərağdan,
Neçə qanlı dastan doğdu varaqdan?
Mənim şair babam, mənim şah babam.

Qanadın gərdiyin torpaqlar hanı?
Qırmızı çalmalı papaqlar hanı?
Möhürlü, fərmanlı o çağlar hanı?
Mənim şair babam, mənim şah babam.

Əyilib gördüyün ana məmləkət,
Alıbdı başını qara fəlakət,
Yurd içindən keçir neçə sərhəd, səd,
Mənim şair babam, mənim şah babam.

Ruhun lərzə salsın ayılsın Vətən,
Fərman çıxarmasın hər yoldan ötən,
Qan yaddaşımızda qılıncla bitən –
Mənim şair babam, mənim şah babam.

Ey xəqan Xətai, ey şah Xətai,
Ruhun qovuşdursun bu tay, o tayı,
Qılıncın doğrasın kölə sarayı!
Mənim şair babam, mənim şah babam.

Odlar ölkəsində oddan doğuldu,
Qızın Şirin Xanım dərddə boğuldu,
Yağı savaşında o da oğuldu…!
Mənim şair babam, mənim şah babam.

**08.12.1991**

## VƏTƏNDİ

İlhamımın tellərini dindirən,
Varlığımı zirvələrə endirən,
Od nəfəsli, şir ürəkli ər-ərən,
Od yurdunun pak qucağı – Vətəndi,
Söndürülmüş hər ocağı – Vətəndi.

İgidləri xainlərə sipərdi,
Hər cığırı sinələrə təpərdi,
Şiş  qayalar düzlərinə çəpərdi,
Sis ormanlı, gen çölləri – Vətəndi,
Çılğın, daşqın gur selləri – Vətəndi.

Qeylü-qaldan qutarmazdır heç başı,
Yad ellərdən haylar qardaş qardaşı
Məzar evmiz, hər min illik baş daşı,
Çala-çuxur, çöl, arx-arxac – Vətəndi,
Ərə arxa, qeyrətə tac – Vətəndi.

Şir ağızla yaralandı sinəsi,
Hayqırdıqca batırıldı gur səsi,
Çox döyüldü bu Azəri ölkəsi!
Min bir yerə haçalanan – Vətəndi,
O tay, bu tay parçalanan – Vətəndi.

Ağrı dağı, yasa batıb ağlama,
Anam Göyçə, başa qara bağlama,
İrəvanım, bax titrəyən daş-dama,
Qəzəbindən əsən sinə – Vətəndi,
Əsir düşmüş o yurd, binə – Vətəndi.

Əqrəb, ilan hardan girdi qoynuna?
Məkri ilə dolanıbdı boynuna,
Tarix dözməz namərdlərin oynuna,
Yad əllərdə ağlar qalan – Vətəndi,
Pak keçmişi yalan olan – Vətəndi.

Xankəndində quduz itlər ulayır,

Şər önündə yaman quyruq bulayır,
Düzlərini qanımızla bulayır,
Ağlar qalan dağım, düzüm – Vətəndi,
Yanar dilim, görən gözüm – Vətəndi.

Yurdlu etdik hər düzlərdə qalanı,
Bəyənmədik canımızdan olanı,
Ayaq tutub gəzməz yağı yalanı,
Düşmənlərlə yarı bölsək – Vətəndi,
Pak yolunda şəhid ölsək – Vətəndi!

**10.05.1991**

## BU MİLLƏT

Bu sitəmi ağ vərəqə nə yazım?
Ay həzarat, qarı düşmən nə lazım?
Başbilənin yağısıdır dayazım,
Qoltuqlarda daldalanır bu millət,
Manat təki xırdalanır bu millət.

Parçalanıb hər bölgəyə məmləkət,
Qapımızın ağzındadır fəlakət,
Bir-birinin cibin soymaq – bərəkət,
Bakılıdır, şirvanlıdır bu millət,
Öz-özünə divanlıdır bu millət.

Tayfabazlar parçalanır min yerə,
Birlik deyib haçalanır min yerə,
Bir ocaqda cəm olmazlar bir kərə,
Vallah, billah  havalanıb bu millət,
Hər gedişdə yüz yol yanıb bu millət.

Bir paraya satanlar var bu yurdu,
Maşallah ki, bir quzuya min qurdu,
Xəzinəsin öz əliylə sovurdu,
Başdan-başa tamaşadır bu millət,

Bir-birinə bəy, paşadır bu millət.

Məmləkəti günbatannan gündoğan,
Varı-yoxu yad ellərə ərmağan,
Bir qandandır Şirvan Şəki, Mil, Muğan,
Bölər bərkdə obaları bu millət,
Məğlub edər babaları, bu millət.

Siyasətdə lap birinci sırada,
Min partiya, min bir özək arada,
Özgəsiylə gedər, vallah, göra da,
Öz başına bir bəladır bu millət,
Öz yolunda səd, qaladır bu millət.

Başqasının torpağında gözü yox,
Yadlar varın talan etsə sözü yox,
Öz-özünü, billah, görən gözü yox,
Öz kökünə yağı olan bu millət,
Dildən, kökdən, soydan qalan bu millət.

Düşmənləri qaldırmasın heç səsi,
Yağıları daraltmasın nəfəsi,
Özü qırmaz düşdüyü bu qəfəsi,
Amadədi hər əmirə bu millət,
Öz canını qoy gəmirə bu millət.

Azadlığı – bir-birini əyməydi,
Dəyənəklə aqillərin döyməydi,
Yad ellərə min yol boyun əyməydi,
Qoyun, balam, daldalansın bu millət,
Xırdavatla qoy dolansın bu millət.

İgidləri dükanlara təpilib,
Para üçün yad ellərə səpilib,
Birə on qat bahalığı ər bilib,
Öz əliylə cibin soyar, bu millət,
Yad havayla çox oynayar, bu millət.

Məhbəslərə atar haqqa yananın,
Ömrü boyu qapı dalı qananın…
Siz almayın özü alar öz canın,
Öz başına bir kələfdir bu millət,
Kök-soyuna bir sələfdir bu millət.

**26. 08. 1991**

## TOXUNMA TORPAĞIMA

Qəzəbimlə parçalayıb didərəm o sədləri,
Toxunma torpağıma!
Vətənimin ürəyində kök salan sərhədləri,
Toxunma torpağıma!

Min bir yerə parçalandı əsrlərlə torpağım,
Budağından qopub düşdü boy atmamış yarpağım,
Bir əsrdə milyon kərə pozuldu xoş növrağım,
Toxunma torpağıma!

Olmayıbdı bir kimsənin yuvasında bu gözüm,
Gəl qov atma, tüstülənir min ildi odum, közüm,
Tükənəcək səbrim təki bağrımdakı ər dözüm…
Toxunma torpağıma!

Qoltuğuma sığınaraq, yurdumu yağmaladın,
Hallalıqla ömür sürən bir xalqı damğaladın,
Siyasətin quyruğunda haqqımı boğmaladın,
Toxunma torpağıma!

Sinəm içi atomdan da, nüvədən də qüvvətli,
Ürəyimdən qopan fəryad zamandan da sürətli,
Düzlüyüm var, mərdliyim var qanundan da cürətli,
Toxunma torpağıma!

Mən sinəsi alovlanan millətin fəryadıyam,
Min qanadlı Vətənimin mən də bir qanadıyam,
Sözü kəskin, qolu bağlı yaralı övladıyam,
Toxunma torpağıma!

İlahinin fərmanıyla kəsilər nahaq dilin,
Boranlardan, şimşəklərdən solar bağçada gülün,
Zamanın tərəzisindən düşər məkirli elin,
Toxunma torpağıma!

Qamarlayıb qopartdığın yurdlarım məzarlığın,
Ah, cüzəm mərəz təki qurtarmır azarlığın,
Böylə keçməz Haqq evindən, cani zülümkarlığın,
Toxunma torpağıma!

O atdığın güllələrin açılar kürəyində,
Parçalanar min bir yerə qapqara ürəyində,
Əvvəldən də haram daddı baban da çörəyində!
Toxunma torpağıma!

Tülkü təki tikə gəzən, yurddan yurda pay olmaz,
Tökülən qan bitməzmi, heç belə haqqı-say olmaz?
Bu qədər də ölüm-şivən, bu qədər də vay olmaz,
Toxunma torpağıma!

Sən süfrəsi qoltuğunda köçdən-köçə düşənsən,
Harda qədim tarix gördün oraya ilişənsən,
İkiüzlü çörək təki hər ölçüdə bişənsən,
Toxunma torpağıma!

İkiyüz il kölə olan gözü yaşlı Arazam,
Vulkanam, od içimdədi, demə, belə dayazam!
Sərt üzümü görməmisən ərzi saran ayazam,
Toxunma torpağıma!

Yumruğumu düyünləyib güllə təki sıxaram,
Qeyrətimi balta edib axırına çıxaram,
O hiyləgər ürəyini beşiyində yıxaram,
Toxunma torpağıma!

Poladlanmış birliyimlə açaram kələyini,
Ayaq altda tapdalaram o iyrənc diləyini,
Asi etmə, bəndəsənsə, göylərin fələyini,

Toxunma torpağıma!

Dağlarım da od püskürər div tək cumar üstünə,
Varsa vicdanını səslə, az dur haqqın qəsdinə,
Qayıt Tanrı dərgahına gəl imana, gəl dinə,
Toxunma torpağıma!

Ədaləti, həqiqəti yuvarlayıb sürgünə,
Bəsdir, daha büründüyün özgələrin kürkünə!
Azərbaycan çoxdan şahid iyrənc, qorxu-hürkünə!
Toxunma torpağıma!

**25.06.1991**

## ŞƏHİD QARDAŞ, ŞƏHİD BACI

Şəhid qardaş, şəhid bacı,
Bu dərd ağır, bu dərd acı.
Məhkum xalqın oğlu, qızı,
Vətənimin sinəsində
parıldayan dan ulduzu.
Körpələrin dodağından qopub gələn,
o narahat mışıltısı,
zülmətin ay işıltısı!
Qaranlığda hər sitəmi, hər zülümü
qamarladı diləyiniz,
Yağıların gülləsindən
yaralandı ürəyiniz.
O tikanlı məhbəslərə
ismarlandı kürəyiniz,
Siz açılan qurğuşunu
bağrınızla tikə-tikə parçaladız!
Məhkumluğun qara yolun haçaladız.
***
Şəhid qardaş, şəhid bacı,
Siz Vətənin üstündəki hiylələrə,
fitnələrə üsyan dediz.
Ətalətin yuxusunda mürgüləyən

məmləkətə oyan dediz!
Pak bədənlər o müqəddəs
yurdumuzla qucaqlaşdı,
Bu mərdanə addımınız hər sinədə,
hər ürəkdə ocaqlaşdı.
Ruhunuzsa uçub getdi-
Tanrının haqq dərgahına,
Batırmadız o öləri varlıqları
bu dünyanın min oyunlu,
min fitnəli günahına!
Ağlınızda ölüm dediz
o tırtıllı, o silahlı ağalara,
Azadlığın, istiqlalın mənasını
anlamayan yaşı ötmüş çağalara.

***

Şəhid qardaş, şəhid bacı,
şəhidliyin zirvə tacı!-
İçinizin arzuları, istəkləri
bir gecənin gülləsinə qurban getdi,
Qara əllə ölər ömrün sonu bitdi.
Gecə-gündüz başım üstdə
o müqəddəs, o mərdanə ruhunuz,
yamanlayır köləliyi, ətaləti, cəhaləti,
Ya qurtuluş, ya öl deyir,
Bu əzablar parçalayır ürəyimi,
ağlatmayır fələyimi.
Məmələkətin oğlu, qızı,
Asimanın dan ulduzu,
Siz torpağa tapındınız,
Qəfəsindən çıxmaq istər
quşcağaz tək çırpındınız.
Ruhlarınız gecələrdə
döyəcləyir pəncərəmi,
Nə bağlayır bənd-bərəmi?
Röyalardan alır məni,
Azadlığın o müqəddəs
məbədinə salır məni.
Ya öl deyir, ya beşgünlük

zəmanədə azad yaşa,
Ya da yurdun kölə qızı,
Vurma belə əsir ömrü sən də başa,
Ya da ki, yazıq Şadiman, ulu Tanrım,
Dərdlərini dərgahında bölmək istər,
Bu dünyanın hər üzünü
görməməkçin ölmək istər.

**24.08.1991**

## KÖKÜ ÖZÜMÜZDƏN OLAN CƏLLADLAR

Boyanıb məmləkət nahaq qanlara,
Qıydınız yanvarda cavan canlara,
Son qoyun hökmə, bu divanlara,
Evləri dolaşır ahlar, fəryadlar,
Kökü özümüzdən olan cəlladlar.

Əsla yağı çıxmaz qardaşa qardaş,
Daş yağdırar göydən, Tanrı qara daş,
Vətənə xidmətdə olar vətəndaş,
Papa sayəsində ad alır adlar,
Kökü özümüzdən olan cəlladlar.

Soyunuza yaddı birlik əzəldən,
Gedər ad-sanınız birgündə əldən,
O qul qanunuz düşəcək dildən,
Gülür üstümüzə yağılar, yadlar,
Kökü özümüzdən olan cəlladlar.

Beşgünlük şöhrətə Vətən satılmaz,
Yağı ayağına qeyrət atılmaz,
Xainin nə’şi də yurda qatılmaz-

Belə buyurmuşdu aqil ustadlar,
Kökü özümüzdən olan cəlladlar.

Dünyaya çox firon gəldi də, getdi,
Zülümlər zamanın köksündə bitdi,
Sizin sonunuz da beləcə bitdi,
Ağrıyla suvanıb evi bərbadlar,
Kökü özümüzdən olan cəlladlar.

Allahın səbri də tükənib daha,
İnşallah son qoyar o bir gün aha,
Siz ki, xirtdəyəcən batdız günaha,
Yetişməz Tanrıya sizdən imdadlar,
Kökü özümüzdən olan cəlladlar.

Əliniz boyanıb millət qanıyla,
Məmləkət ucalır canyananıyla,
Siz ki, daldalandız el ad-sanıyla,
Ürək, can alveri edən səyyadlar,
Kökü özümüzdən olan cəlladlar.

Çapılıb, talanan Vətən sizindir,
Odlara qalanan Vətən sizindir,
Əzabla dolanan Vətən sizindir,
Qurda yem oldumu ər oğlunda ar?
Kökü özümüzdən olan cəlladlar.

O şöhrət, taxtı-tac heç kəsə qalmıb,
Əldən ələ keçib bir kəsin olmub,
Heç ölkə bu qədər şəhidlə dolmub,
Döyuşə hazırdır bu ğün övladlar,
Kökü özümüzdən olan cəlladlar.

Nifrət, içinizdə iyrənc niyyətə,
Nifrət, ayaqlara düşən qeyrətə,
İblislər qovuşmaz əbədiyyətə,
Donmuş ağlınızda əriməyib qar,
Kökü özümüzdən olan cəlladlar.

Sizin allahınız silahdı, gücdü,
İyrənc planınız necə gülüncdü?
Yatın, başınızın altda balıncdı,
Xarsız tanrısızlar, el içində xar,
Kökü özümüzdən olan cəlladlar.

Özgəyə yem olan, ey həşaratlar,
Yüyəni yad əldə dolaşan atlar,
Xalqın qəzəbiylə bu zülüm çatlar,
Bilin savaşlarda bu canım da var,
Kökü özümüzdən olan cəlladlar.

**26.08.1990**

## ÇİNGİZ

***Telejurnalist, Milli Qəhrəman Çingiz Mustafayevin müqəddəs ruhuna!***

Yağı gülləsiylə köksün oxlandı,
Susdu həyatının sabahı, Çingiz.
Vicdanın qeyrətə çox arxalandı,
Dolaşdı sinəni el ahı, Çingiz.

Göylərə saplandı yurd harayları,
Qan ilə boyadı axan çayları,
Şəhid oğulların ruhu-vayları…
Ağlatdı Tanrını, Allahı, Çingiz.

Gördün analarda əyilən qəddi,
Duydun imansızlar aşıbdı həddi,
Ekranın gücüylə uçurtdun səddi,
Oldun həqiqətin pənahı, Çingiz!

Xocalı dəhşətin aləmə yaydın!
Batan səsimizə Tanrıdan haydın,
Saldın kamerana qırğını aydın,
Faş oldu qanların ürcahı, Çingiz.

Ərzə bəyan etdin cinayətləri,
Şəri ifşa edən-xəyanətləri,
Çəkdin meyidləri-qiyamətləri-
Oldu bu dünyanın səyyahı, Çingiz.

Dəydi torpağına, dağ-daşına qan,
Çökdü kameranın yaddaşına qan,
Döndü bəbəyində göz yaşına qan –
Daşdı şəhid dolu siyahı, Çingiz.

Zülüm hədd aşanda şər dövran edər,
Müsibət tutmadı nə çəki, qədər,
Eylədi  könlünü tamam dərbədər,
O qanlı harayın eyvahı, Çingiz!

Qaldı yollarında gülüzlü nigar…
Qoydun Vətəninə oğul yadigar,
Düşdü Məcnun yarın Leylisi ögar,
Ağladı muğamın segahı, Çingiz.

Sən ər oğlu idin Azərbaycanın,
Haqqa qurban getdi növrəstə canın,
Yerdə qalmayacaq tökülən qanın…
Nə qanlı savaşın günahı, Çingiz.

**03.05.1993**

## BAŞBİLƏNLƏRİMİZƏ

Kürsüsünə sığınıb pulun, malın öyənlər,
Millətin daş-qaşıyla üst-başın bürüyənlər,
Günahsız bəndələri savaşa sürüyənlər,
Cocuqların ürəyi yağı cibində dollar,
Əsirlikdə qız-gəlin, bağlı qalıbdı yollar.

Erməni cəlladının dilinə aldanmayın,
Namus ayaqlar altda kişilikdən sanmayın,
Ac-yalavac kütləni bir belə də danmayın,
Körpələrin fəqanı ərşin bağrına bıçaq,
Bəsdir qara camaat əlinizdə oyuncaq!

Əcaba, kürsü-kürsü yabançı çəkişmələr,
Dildə xalqı aldadıb ürəkdə dəyişmələr,
Yağıya əl uzadıb bu üzdə döyüşmələr,
Töküldü millət qanı, axdı oldu min dəniz,
Bu şərəfsiz həyatdan böylə utanmazmı üz?

Nədir belə didişmə, ölkədə hal qoymadız?
Bu tökülənlər yetər,  tökdükcə qan doymadız,
«Xalq» dedikcə ucaldız, xalqı bir yol duymadız,
Dəbdəbəli imarət, daş-qaş, bol-bol pul-para,
Millətin boynu bükük, millətin köksü yara.

Hanı oğullarınız, gizlənib dər-deşikdə?

Yaşları çox uşaqlar uyuyurlar beşikdə,
El-oba qan içində girlənirlər eşikdə,
Xalqın qoç igidləri şəhid olur torpağa,
Bəzəkli maşınlarda çapırsınız sol-sağa.

«Xalqım, elim» deyənlər isti yataqda yatır,
Erməni körpəmizin ciyərin pula satır,
İlahidən törəməz, artmaz dünyada qatır!
Ey «Vətənim» deyənlər, əlacsız müşkülümüz,
Artdı, çoxaldı, ya Rəb, gündən-günə ölümüz.

İşğalda eli olan bu havanı qoxlamaz,
Qan içində məmləkət xoş günə can saxlamaz,
Güllələr tuş sinəyə, cənablar, göz yuxlamaz,
Yorulduq bu dərdlərin əlacın gözləməkdən,
Boğazlara güc verib hələ hey sözləməkdən.

Şah Xətayi savaşda qılınc çaldı bir zaman,
Bizim Milli Məclis də dilə güc verir yaman,
Ərşə dikəlib, fəqət, bu səfalət ah, aman,
Yumşaq kürsüdən qalxın, kişilər, qeyrət dəmi,
Qurtuluşun yolunda yalnız çalın qələmi!

Bunu sizə yaralı hər ana ahı deyir,
Əsirlikdə çürüyən xalqın günahı deyir,
Azərbaycanın ölüm-qalım sabahı deyir,
Atın umu-küsünü, birləşin bir sırada,
Qırılır xalq kütləsi milçək təki arada.

Torpaq gedəndən sonra sizə kürsü nə lazım?!
Sönüb elin günəşi, qışa dönübdü yazım,
Bu amansız qırğını kağıza necə yazım?!
Əldən getdi məmləkət, sarılın silahlara,
Qayıdın meyxanadan, dönün qibləgahlara.

Ağlayan gözlərindən yaş tökülür Vətənin,
Öz əliylə başına daş tökülür Vətənin,
Ayıl, kişi, yuxudan, bax sökülür Vətənin,
Dağılın kürsülərdən, səngərdə məclis qurun,
Birləşən əlinizlə düşmənin başın vurun.

Bacı, ana namusu erməni yatağında,
Gəlinlər qara geyib gəlinlik otağında,

Məşvərət kimə lazım ölkənin bu çağında?
Güc görməsə yağılar, aldığından dönərmi?
Kişi ölər, öldürər ayaqlara enərmi?

Düz ikiyüz il öncə el o tay, bu tay oldu,
Şuşa, laçın, Kəlbəcər Zəngəzura tay oldu,
Yurdun başbilənləri niyə belə zay oldu?
Dilindən Şadimanı çəkin bugündən dara,
Öldüm, Allahım, yetər, bu yol gedir de hara?…

**5-6.06.1994**

## BİZİ ÖZÜMÜZƏ QAYTARAN OLA

İçimdə alışan şamdı ürəyim,
Dərdlərin əlindən damdı ürəyim,
Bu necə murazdı, kamdı ürəyim?
Gəlsin Şah İsmayıl, Qacar bu hala,
Bizi özümüzə qaytaran ola.

Ana ətəyində gizlənən oğul,
Addımı gəlintək izlənən oğul,
Külək nə, mehdən də gözlənən oğul,
Doğulduğun evmi qeyrətə qala?
Bizi özümüzə qaytaran ola.

Kişi at belində əlində qılınc,
Başının altına qız qoyar balınc,
Utanır gözəllər-Sevda, Gül, Narınc…
Oğul dediyimiz Vətənə bəla,
Bizi özümüzə qaytaran ola.

Donub damarlarda qeyrətin qanı,
Necə miskin edib Azərbaycanı?
Hanı Cavanşirin, Babəkin canı?
Qoymasın bir ana gözləri dola,
Bizi özümüzə qaytaran ola.

Pulsuzlar gedirlər cəbhə xəttinə,
Vətənin yaralı qan sərhəddinə,
Nə oldu oğulun kişi qəddinə?
Ürək necə gedir qeyrətlə yola?
Bizi özümüzə qaytaran ola.

Niyə içimizdə namus əzildi?
Niyə bu Vətəndən belə bezildi?
Hünər kəndirimiz əldən üzüldü,
Allah, içimizdən qorxunu ala,
Bizi özümüzə qaytaran ola.

Yağının hələ də vayı olmayıb,
Xain ermənin tayı olmayıb,
Heç kəsə düşməndən dayı olmayıb,
Allah nizamlasın bizi haqq yola,
Bizi özümüzə qaytaran ola.

Şadiman, çoxları qul olub vara,
Vətənin köksünə vurubdu yara,
Çəkilsin satqınlar, xainlər dara,
İblis ürəklilər payıztək sola,
Yaradan bizi də düz yola sala,
Bizi özümüzə qaytaran ola,
Bizi özümüzə qaytaran ola.

**09.11.1997**

## EY ŞƏHİD

***Masallı bölgəsinin Tüklə kəndində***
***Qarabağ savaşında şəhid olmuş İbadov***
***Əli İbad oğlunun müqəddəs ruhuna…***

Can Vətən, deyərək qalxdın ayağa,
Eylədin canını qurban, ey şəhid.
Boyandı al qanın ana torpağa,
Yer də, göy də dedi: Can, can, ey şəhid!

Sən ki, yurd-yuvanı bir Kəbə sandın,
Onun səcdəsiylə doğuldu andın,
Həm şərəf, həm namus oduna yandın,
Vermədin yağıya aman, ey şəhid.

Sığındı köksünə üçrəngli bayrağ,
Çəkdin yağıların sinəsinə dağ,
Qanına bələndi əsir Qarabağ,
Düşmənin hiyləsi yaman, ey şəhid.

Bu acı mətləbi duyanlar da az,
Rahat mənzillərdə uyanlar dayaz,
Yaralı Vətənin siması bəyaz,
Bulmazmı Yaradan loğman, ey şəhid?

Boyanıb Çaldıran igid qanıyla,
Torpaqlar qandallı əsir canıyla,

Dünya usanmazmı bu divanıyla?
Etməzmi bu dərdə dərman, ey şəhid?

Tüklədə uyuyur o nakam məzar,
Ruhu yağılara etmədə həzar,
Şadiman bu halı ah ilə yazar…
Oxuyar, ağlayar ümman, ey şəhid.

**22.06.1997**

## DİDƏRGİN ANA

Nədir belə taleyinə yağan yağışlar?
Qəlb içində bu ayrılıq saldı naxışlar,
Yağıları ağ saçların dilsiz qarğışlar,
Sinəmizdə dağdı bu qəm, didərgin ana,
O dərdinə yanar aləm, didərgin ana.

Yurd-yuvanı atıb gəldin, ağladı ürək,
Faciənə matəm geydi, yandı o fələk,
Boşa çıxdı haqqı-sayın çox arzu, dilək…
Sən gəlmisən oban orda, didərgin ana,
Od-ocağın qaldı darda, didərgin ana.

O qabarlı əllərində illər zəhməti,
Yağıların yuva qurdu çirkin niyyəti,
Hər əsrdə kor etdilər pak həqiqəti…
O gözlərin dolan bulud, didərgin ana,
Dilsiz ürək yanıqlı ud, didərgin ana.

Nədir belə içindəki haray, qışqırıq?
Könül sazın susub fəqət tel qırıq-qırıq…
Sinəndəki o sızıltı, nalə, hıçqırıq,
Kimə qaldı yurd, mahalın, didərgin ana?!
Yurda sığmaz qəmli halın, didərgin ana.

Nədir belə gözlərində bu qədər təlaş?

O solğunca yanağında giləlenib yaş,
O ağrılı sinəndəcə asılıbdı daş,
Ünvanını kimlər pozdu, didərgin ana?
Kök-soyunu yağı yozdu, didərgin ana.

Gün gələr ki, həqiqətin müqəddəs səsi,
Qəfil oxtək dəlib keçər o daş qəfəsi,
Üstünüzdən kəsilməsin haqqın nəfəsi!
Elinizə yaraq olsun, didərgin ana,
Yolunuza çıraq olsun, didərgin ana.

**10.10.1989**

## ŞƏHİDLƏR XİYABANI

Əsarətinə üsyan dünyanın qəm adası,
Nakam olmuş canların şəhid ruhlar odası,
Zəncirləri qırılmış Vətənin qan-qadası,
Şəhidlər Xiyabanı!

Gözü yaşlı analar saçın yolur ah ilə,
Məmləkət üsyan edir qul olmuş sabah ilə,
Allah necə barışır bu suç, bu günah ilə?…
Şəhidlər Xiyabanı!

Xonçası qara geymiş igidin yas ocağı,
Cocuğu gözü yaşlı gəlinlərin qucağı,
Əli qanlı cəlladın min illik umacağı…
Şəhidlər Xiyabanı!

Diləkləri, amacı sinəsində boğulmuş,
Onsəkkizdən bu yana iki dəfə doğulmuş,
Öz halal torpağında, öz qanıyla yoğrulmuş,
Şəhidlər  Xiyabanı!

Görməyib səyyarəmiz bu cürə sitəm, zülüm,
Lay-divar igidlərin sinəsi dilim-dilim,
İlahidən xəbərsiz yazılmış savaş, ölüm,

Şəhidlər Xiyabanı!

Gözüyaşlı körpələr ata yoluna baxar,
Rüzgar da qan-qadadan ərzi yandırıb yaxar,
Selmi, sumu bədənlər hər gün qoynuna axar?
Şəhidlər Xiyabanı!

Sonu olacaq görən bu tökülən qanların?
Şəhidlik ünvanına yazılan cavanların,
Allah hesabın çəksin qoy sonsuz divanların!
Şəhidlər Xiyabanı!

İçimdə vulkan olan, ərzi tutan acısan,
Yağı gülləsinə tuş sən qardaş, sən bacısan,
Özünü danan xalqıntək mənlik əlacısan –
Şəhidlər Xiyabanı!

Anaların köksünə dağ basma, özü közdü,
Yetər, daha məmləkət qanlı işğala dözdü!
Millət qul ola-ola öz canından əl üzdü,
Şəhidlər Xiyabanı!

Qərənfili matəmə boyanmış bəy məzarı,
Ağlayır sinələrdə ürəklər zarı-zarı,
Qəbirləri qucaqlar gəlin, ana, qız, qarı,
Şəhidlər Xiyabanı!

Nə vaxt sona yetəcək, ay Allah, bu müşküllər?
Lay-lay balam deməkdən qabar çalıbdı dillər…
Ağı deyir ağlayır bağçamızda da güllər…
Şəhidlər Xiyabanı!

Ey millətin istiqlal dünyasının günəşi,
Məzarlara sığınmış nakam ruhların nə'şi,
Min yerə parçalanmış zəncirlərin atəşi –
Şəhidlər xiyabanı!

Sən nəhirlər ağladan ölkənin qibləgahı,
Qocadan cocuğadək hər evin səcdəgahı,
Dikiləcək min illər fələyə ana ahı…
Şəhidlər xiyabanı!

Şadiman ölsə bir gün ruhu səcdəyə gələr,
Başdaşından dünyaya ömürlük ah yüksələr,
Məzar-məzar önündə tənim doğulub ölər –
Şəhidlər Xiyabanı!
Şəhidlər Xiyabanı!

**4-5.06.1994**

## QİSASA ÇAĞIRIR

Bizə ölmək olmaz, ey soydaşlarım,
Analar, bacılar, qan qardaşlarım,
Quru gözlərimdən axan yaşlarım,
Batıb əsirlikdə solanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Uşaqdan böyüyə ağlamaq, yetər,
Özgəyə ümidlər bağlamaq, yetər,
Bəsdi, sinəmizi dağlamaq, yetər.
Son qoyun bu yurddan olanlar yasa,
Qisasa  çağırır Vətən, qisasa!

Bunu Pənahabad sarayı deyir,
Şuşanın o əsir harayı deyir,
Xocalıdan qopan el vayı deyir,
Batmalı qırğını salanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Harınlar kazino küncündə kişi,
Qumarda uduzmaq, udmaqdı işi,
Aslan ki, aslandı erkək ya dişi,
Batmasın saçını yolanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Ana övladına eyləyər ərki,

Basılsaq bu yurdun başına sərki,
Hər doğulan oğul sayılmaz ər ki,
Son qoysun ürəyi talanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Qurtul, anam, bacım, o göz yaşından,
Qara örtüyünü götür başından,
Silah al oğlundan, hərb qardaşından,
Düşsün yurd-yüvana dolanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Qana-qan olmalı ürəyimizdə,
Şir gücü bükülməz biləyimizdə,
Savaş! Savaş! Savaş! Diləyimizdə,
Batsın Qarabağı alanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Şah İsmayıl kimi Heydərimiz var,
Cavanşir qüdrətli çox ərimiz var,
Məmməd Əmin təki öndərimiz var,
Qoy düşsün min hava çalanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Bizə məğlub deyir hər yoldan ötən,
Çox meydan oxuyur hər gəda, yetən,
İnsana şirindir canından Vətən!
Qartal  hünərini  bilsin yarasa,
Qisasa çağırır Vətən, qisasa!

Qadın, yaddaşını səslə dadına,
Həcəri, Tomrisi gətir yadına,
Ağlamaq yaraşmaz indi adına,
O əllər yağını boğazdan asa,
Qisasa çağırır Vətən, qisasa!

Bu namus savaşı, bu qan savaşı,
Ayağa düşməli erməni başı,
Ey yurdun qeyrətli, ər vətəndaşı,
Nərə çək, nərəndən yağı qan qusa,
Qisasa çağırır Vətən, qisasa!

Ləkəli namusu qanla yuyarlar,
Namussuz olanın bağrın oyarlar,
Qan alsaq dünyada bizi sayarlar!
Qorxağı kim duya, kim qulaq asa?
Qisasa çağırır Vətən, qisasa!

Şadiman, silahlan, dön silahdaşa,
O əsgər papağı şərəfdi başa,
Güllə ürəyinə dəysə də yaşa…
Qoyma, bu torpağı erməni basa,
Qisasa çağırır Vətən, qisasa!
Qisasa çağırır Vətən, qisasa!

**26.02.1998**

## VƏTƏN FƏRYADI 3k

Ey Vətən yolunda canı verənlər,
Müqəddəs torpağa ərlər, ərənlər,
Ey qana şahidlər, qanı görənlər,
Qanlı köynəyini yurda sərənlər...
Siz şəhid, biz isə günahkar olduq,
Yurdlar haray çəkdi, niyə kar olduq?

Qarabağ sızlayır aman içində,
Yanır ellərimiz yaman içində,
Oxumuz paslanıb kaman içində,
Fırlanır bu dünya zaman içində,
Məğlubtək tarixdə qaldı adımız,
Boğuldu sinədə ah-fəryadımız.

Yağı işğalını dərd sayırıq biz,
Özünü cahanda mərd sayırıq biz,
O qanlı düşməni səd sayırıq biz,
Hər dərdin əlacın bəd sayırıq biz,
Namus savaşına pul, dayı olmaz,
Heç cəngsiz yağının ah-vayı olmaz.

Vuruşmaq kişiyə iftixar, hünər,
Qılıncla, qalxanla yatar, durar ər,
Dünya nərd taxtası, bəşər isə zər,
Tökməsən döyüşdə əgər qanlı tər,
Torpaq da, namus da, şərəf də batar,
Vətənin əbədi taleyi yatar.

Bir yurdu min yerə bölməkmi olar?
Bu qanı torpaqdan silməkmi olar?
Bu acı dərdlərə gülməkmi olar?
Bu qəmlə şahanə ölməkmi olar?
Bəsdir ermənin nazını öydük,
Yurdun qılıncın yox, sazını öydük.

Hey bəxşiş verdikcə torpağımızı,
Artırdıq sinədə qəm dağımızı,
Ərköyün bəslədik biz yağımızı...
Yadlardan axtardıq dayağımızı,
Ya xofu ürəkdən qoparmalıyıq,
Ya dərdi məzara aparmalıyıq.

Bəsdir Cavanşirdən, Babəkdən dedik,
Bəsdir Koroğludan, Beyrəkdən dedik,
Bəsdir puldan, vardan, diləkdən dedik,
Bəsdir bu ağrını ürəkdən dedik,
Biz savaş etməli vuruşmalıyıq!
Ya ölüb torpağa qarışmalıyıq!

Niyə yad ellərdə canı girlərik?
Niyə bir-birinə söz diyirlərik?
Niyə bu qan ilə ölüb çərlərik?
Niyə içimizdə elə kürlərik?
Yumalı qan ilə namusumuzu,
Özümüz qurmalı ya yasımızı!

Bu vətən vallahi hamımızındı,
Ən ali diləktək kamımızındı,
Bacası ucalan damımızındı,
Şirini, şərbəti canımızındı,
Qoparmaq olarmı kök-soyu ondan?
Çıxara bilmərik biz onu candan!

Yarımız acından pul dilənirik,
Yarımız qürbətdə hey tellənirik,
Yarımız zər geyib veyillənirik,
Düşüb ayaqlara çox bellənirik,
Nə vaxt millət olub çağlayacağıq?
İblisin qapısın bağlayacağıq?

Şuşada gülümüz, çiçəyimiz qan,

Xarıbülbül təki ürəyimiz qan,
Dam altda əyilən dirəyimiz qan,
Nə vaxta saxlanır bu gedəri can?!
Biz cılızlaşdıqca vətən kiçilir,
Torpaq paralanır, torpaq biçilir.

Dünyada qeyrətə edilir hörmət,
Şərəflə tanınır hər yerdə millət,
Acizə, qorxağa, cahilə illət,
Könlümüz olduqca əllərdə alət,
Dilənçi yardımı yedi kişilər,
Özünə qaçqınam dedi kişilər.

Oğullar bəslənir bəh-bəhə ilə,
Oxşanır boyları pəh-pəhə ilə,
Dilləri ötüşür cəh-cəhə ilə,
Düşmən gülür bizə qəh-qəhə ilə,
Sönmüş ocaqların külü sovrulur,
Vətən haray çəkir, vətən qovrulur.

Yerdə qalmamalı bu tökülən qan,
Yara qaysaqlanır ötüşdükcə an,
Millət bir-birinə can deməli, can!
İqtidar, müxalif bir Azərbaycan,
Əsir yurd-yuvaya etməsək çarə,
Sonra lap dərinə işləyər yarə.

Bu dağ hamımızın sinə dağıdır,
Yağı hamımıza elə yağıdır,
Gəl, vətən insanı, qeyrət çağıdır!
Əldə Məmməd Əmin-hür bayrağıdır,
Parlasa Günəştək istiqlalımız,
Bəxtiyar olacaq istiqbalımız.

Şadiman, vətənin canda yuvası,
Dərdinə dərmandır onun havası,
Tükənməz dodaqdan haqqa duası,
Bu torpaq dəryada Tanrı qəvvası,
Odur Yer üzündə xoş cəlalımız,
Onunla çağlayır çün vüsalımız!...

**24.12.2001**

## AY ŞUŞA

Yolunu bağlayan düşmənlərə ölüm!

Gözlərim qan ağlar, qəlbim dilim-dilim,
Ayrılıq dünyada nə dəhşətli zülüm?
Yolların qurtula dumandan, ay Şuşa...
Alasan qisası zamandan, ay Şuşa!

Biz səni yağıdan qoruya bilmədik,
Yaralı köksünü sarıya bilmədik,
Cəlladın kim oldu, araya bilmədik?
Bəbəkdə yaşların göl oldu, ay Şuşa,
Büsbütün Qarabağ dil oldu, ay Şuşa!

Ürəklər partlayır həsrətin qəmindən,
Yanır bağırımız, vallah ələmindən,
Əsir Qarabağın naləli dəmindən...
Dərd qalxır ocaqdan, binədən, ay Şuşa.
Başımız qalxmayır sinədən, ay Şuşa!

Xan qızı Natəvan, didərgin ruhuna,
Sinəmiz tuş olub o qanlı ahına!
Çevrilib vətənin pak qibləgahına,
O əsir divarın, dam-daşın, ay Şuşa,
Öndədir yağıyla savaşın, ay Şuşa!

Heç səni sinədən qoparmaq olarmı?
Bu dərdi məzara aparmaq olarmı?
Heç bədən də candan de ayrı qalarmı?
Könlümün göynəyən yarası, ay Şuşa.
Vətənin  köksünün parası, ay Şuşa!

Əsir Qarabağı yağıdan alarıq,
Qolumuzu bükük boynuna salarıq,
Çox çəkməz, düşmənə qələbə çalarıq...
Küləyə dönərik qəminlə ay, Şuşa,
Qol-boyun olarıq dəminlə, ay Şuşa!

Üzeyrin, Cabbarın, Bülbülün ocağı,
Vətənin ən gözəl, ən laçın qucağı,
Qan ağlar, ah sənsiz yurdun hər bucağı,
Suyumuz, ən təmiz havamız, ay Şuşa!

Kə‘bəmiz, qibləmiz, duamız, ay Şuşa!

Bağında, bağçanda solubdu güllərin,
Susubdu, dinməyir xarı bülbüllərin,
Nə qanlı, bəlalı gəldi bu illərin?
Dözmək olarmı heç zillətə, ay Şuşa?
Bu dərd bir fəlakət millətə, ay Şuşa!

Şadiman alışar, yanar bu niskildən,
Bülbülü ayırmaq olarmı heç güldən?
Vallah, düşməyir o adın heç dildən,
Ağlayan gözümün yaşı, ay Şuşa!...
Alışan köksümün başı, ay Şuşa!!! **15-16.01.1999**

## VƏTƏN SƏNDƏN NƏ QALDI?

Vurdular ürəyindən,
Çapıldın dirəyindən,
Soruş bir fələyindən,
Nəyi əlindən aldı?
Vətən, səndən nə qaldı?

Diləklərin ovuldu,
Əhdin göyə sovuldu,
Elin yurddan qovuldu,
Bu necə ağlar haldı?
Vətən, səndən nə qaldı?

Sinəndə hicran dağın,
Paramparça torpağın,
Çəkilib getmir yağın...
Düşmən bağrından çaldı,
Vətən, səndən nə qaldı?

Xəcil oldu millətin,
Haqq götürməz illətin,
Necə oldu hörmətin?
Bu nə qeylü-qaldı?
Vətən, səndən nə qaldı?

Zorun yükü belində,
Söz boğuldu dilində,
Haqqın yadlar əlində,
Qürurumuz alçaldı
Vətən, səndən nə qaldı?

Sinəndə yurd sərhəddi,
Qarabağ da Dərbənddi,
Necə fe`ldi, fənddi,
Haqqınla haqq ucaldı,
Vətən, səndən nə qaldı?

El deyərək, ağlaşdıq
Dərdimizlə bağlaşdıq,
Sanki bir parça daşdıq,
Dərdin sinədə – xaldı,
Vətən, səndən nə qaldı?

Qəm ovar könlün için,
Yanarsan için-için,
Qəmlərində ki, çin-çin,
Əcabə, bilməm neçin?
Millət xəyala daldı!...
Vətən, səndən nə qaldı?

**06.08.2001.**

## VƏTƏN GÜLSÜN

Vətən elə gölə bənzər,
Suyun arxa çevirərlər.
Əskik olmaz heç bədnəzər,
Altın üstə devirərlər.

Bu gölə sel axsın gərək,
Tükənməsin heç sərvəti.
Odu ürək yaxsın gərək,
Qanda olsun el qeyrəti.

Vətən candan əziz olar,
Canın sevən ona qıymaz.
Varın tutsan – dəniz olar,
Vətəndən bir kiimsə doymaz.

Onu qəlbdə bəsləyərlər,
Torpağına qan verərlər.
Qürbətlərdən səsləyərlər,
Onun üçün can verərlər.

Onu sevən qəlb yaz olar,
Torpağı – son məzar bizə.
Sevməyəni dayaz olar,
Kimliyi də azar bizə.

Vallah, yurdu can bilərlər,
Ondan ayrı könül durmaz.
Hər qarışın qan bilərlər,
Sevən ürək onsuz vurmaz.

Vətənə yad baxan cahil,
Yağıdan da betər olar.
Şölə saçsa əgər daxil –
Məmləkətə yetər olar.

Vətən təndə şirin candı,
Canı təndə qoruyarlar.
Ən müqəddəs pak ünvandı,
Pak ünvanı soruyarlar.

Ey Şadiman, harda olsan
Yurd-yuvanı candan istə...
Torpağına düşüb solsan...
Vətən gülsün bağrın üstə!...

**27.11.2001.**

## VƏTƏN, ELİNƏ QURBAN

Ulduzların gecələr yandırarlar, yaxarlar,
Şimşəklərin çaxnaşıb göy içindən çaxarlar,
Buludların gözlərin uşaq kimi sıxarlar,
Sellərin şaqqa-şaraq dağdan, düzdən axarlar,
Coşqun selinə qurban,
Vətən, elinə qurban.

Çəmənlərdə göy otlar al yaşıla bürünər,
Ala-bəzək ilanlar köl dibində sürünər,
Uzaqlarda al Günəş asimandan görünər,
Adam bu gözəlliyi tərk etməkdən ərinər,
O gen çölünə qurban,
Vətən, elinə qurban.

Dağım, düzüm, çəmənim, sanki atlas geyinər,
Təbiətin ürəyi bu torpaqla döyünər,
Qafqazın məğrur başı tarixinlə öyünər,
O ulu keçmişinə qəvi düşmən deyinər,
O ağ telinə qurban,
Vətən, elinə qurban.

Sən ki, doqquz iqlimin məkanısan həmişə,
Üzməsin ürəyini nə kədər, nə əndişə,
Varın, sərvətin bol-bol düşübdü dilə, dişə,
Dünyanın tacı, taxtı, İlahi sevən guşə,
Könül telinə qurban,
Vətən elinə qurban.

Anam beşik başında mənə layla çalardı,
Ürəyimin içinə elə bil od salardı,
Buludlanmış könlümü bayatıyla alardı,
Hopub qanıma misra idrakımda qalardı,
Şirin dilinə qurban,
Vətən, elinə qurban.

Ulu Tanrım de səni hansı anda xəlq etdi?
Könlümüzün içində ya ki, canda xəlq etdi?
Odu, suyu tükənməz bu ünvanda xəlq etdi...
Küləklərin üzünü şeh yuvanda xəlq etdi.

Əsən yelinə qurban,
Vətən, elinə qurban.

Məni əsir edibdi o məcnun məhəbbətin,
Xoş məqamına düşdün yəqin ki, o xilqətin,
Bu həyatın yolları nə qədər olsa çətin,
Əyilmə, qalx ayağa ol döyüşkən, ol mətin,
Dünyanı silkələsin sənin o qətiyyətin!
Qalib ilinə qurban.
Vətən, elinə qurban.

İlahi xəmirimi torpağından yuğurdu,
Ruhumu oda büküb bətinindən doğurdu,
Bu Tanrının hikməti, yolum üstə uğurdu,
Röyamda gördüm əlin düşmənimi boğurdu...
Sınmaz əlinə qurban,
Vətən, elinə qurban.

Yel qovar dumanları, dağlara axışarlar,
Əlçim-əlçim buludlar bir yerə yığışarlar,
Çiçəklərin otların dibindən qalxışarlar,
Bir-birinin üzünə sevdayla baxışarlar,
Əsmər gülünə qurban,
Vətən, elinə qurban.

Ovçu dağda, meşədə ov gəzər, ov ovlayar,
Gah kəkliyi, turacı, gah fərəni qovlayar,
Tumarlayıb itini bir doyunca tovlayar,
Od vurub çır-çıpıya ocağı alovlayar,
Qalmış külünə qurban.
Vətən, elinə qurban.

Qış gəldi çeşmələrin gözü donar, buzlayar,
Şaxta qılınctək kəsər, göylərin ulduzlayar,
Təbiət yeri, göyü ağ qarıyla nazlayar,
Dalar sükuta könül elə hey yalqızlayar...
O ağ tülünə qurban.

Vətən, elinə qurban.

Şadiman məzar qazar qəminə, məlalına,
Yanar candan, sinədən ürək didən halına,
Zaman-zaman göz dikib azğın düşmən malına,
Sözüm bitib-tükənməz ilahi cəmalına,
Bükmə belinə qurban,
Vətən, elinə qurban.

**4.03.2001.**

## XATIRLAYANDA

Bir ocaq başında oturdum bir gün,
Mənə ilham verdi kəndin dünyası.
Ocaq çırta-çırtla yandığı zaman,
Sanki nəğmə oldu odun sədası...

Nənələr, babalar, isti sobalar,
Əlçatmaz bir şirin xatirə oldu.
Musiqiyə döndü ellər, obalar,
Ah, kənd səs-küyüylə qəlbimə doldu!

Bir ocaq başında oturdum bir gün,
Məni əfsunladın, ay kənd həyatı.
Hey yadıma düşdü kənddə toy-düyün,
Bir nəğmə, çal-çağır, həzin bayatı.

Odun harayına qarışdı bir dəm,
Elə bil bu yallı, vağzalı, aman.
Bir nəğmə, musiqi qopdu qəlbimdən,
Ocaq çırta-çırtla yandığı zaman.

Alovun hər dili, bir şö`lə oldu,
Könlüm pərvazlanıb uçdu bir anda.
Ocaq od-atəşlə qəlbimə doldu,
Mən kənd həyatını xatırlayanda.

**24.01.1978.**

***

Neft daşları, gözəl, sakit məkanım,
Duyğuların, arzuların beşiyi.
Əllərində mənim tale sükanım,
Çək yaralı ürəyimə keşiyi.

**01.07.2000.**

## DÖZƏ BİLMİRƏM

Gözündə yaşların göyərdi dən-dən,
Qaldı dağlarında həm duman, həm çən,
Ah, kaş səndən ayrı  olmayaydım mən,
Niyə o yerlərdə gəzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Coşsun içimizdə qeyrət havası,
Bitsin dilimizdə haqqın duası,
Quraq yağılara bir ölüm yası,
Həsrətin ürəyin üzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

İlahi almadı qəlbdən acımı,
Saldı ayaqlara büsat tacımı,
Düşmən əsir etdi ana, bacımı,
O namərd başını üzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Hiyləsi yamanmış o düşmənlərin,
Cəzası böyükdür əhrimənlərin,
Bağlayaq qapısın acı mənlərin,
Bu dünya qəm dolu kuzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Əsir məzarlarda ruhlar gileyli,

O məcnun sevdadan aralı Leyli,
Düşüb yağıların yurduma meyli,
Enmişəm dərəyə, düzə bilmirəm.
Vətən, bu dərdinə dözə bilmirəm.

Dağılmış yurdlarda ağlar ocaqlar,
Qan libası geyib künclər, bucaqlar,
Qan ilə boşaldı doldu qucaqlar...
Zülümün yuvasın əzə bilmirəm.
Vətən, bu dərdinə dözə bilmirəm.

Araya bilmədik düşməni dostdan,
Qaldı yağılara gülzar, gülüstan,
Xırmanlar, otlaqlar, bağ-bağça, bostan...
Hardan unutqanlıq bizə, bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Hey Cəngi üstündə köklənsin başlar,
Qurusun gözləri batıran yaşlar,
Göydən yağışlar yox, qoy yağsın daşlar!
Xainin şahmardır, gürzə bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Biz ölüb gedərik, necə ad qalar?
Ya kişilik, mərdlik, ya fəryad qalar,
Birləşə bilməsək elə yad qalar,
Silaha inanım, sözə bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Bizim haqqımıza kor olub dünya,
Ya başdan, binadan kar olub dünya,
Yağılar əlində xar olub dünya,
Bu qəmi misraya düzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Sən uca minarə, mən könlü yarə,
Yağı dağlar çəkib üstdən dübarə,
Açdığın gülləri saxla nübarə,

Əsir çəmənləri süzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Sənə qurban deyib Şadiman canın,
Sussuz çəməninə tök axan qanın,
Sahibi olmayıb qansız dövranın,
Dünya qılınc, qalxan, nizə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

**03.04.2001.**

## QÜRBƏT ACILARI

Qürbətlər vətən deyil,
Ürəkdə bitən deyil,
Halına yetən deyil,
Əlin əlinə çatmaz,
Dilin dilinə yatmaz.

Qürbətdə yanar için,
Yaş gözü boğar çin-çin,
Allah, yad eldə neçin?
Vətən hey şirinləşər,
Sevgisi dərinləşər.

Qürbətdə elin olmaz,
Dopdoğma dilin olmaz,
Həsrətsiz ilin olmaz,
Sözünü göyərdərlər,
Səni qərib edərlər.

Qürbətlər necə acı?
Olmaz başının tacı,
Eldi könül əlacı,
Odur bəsləyən canı,
Ona bənzər tay hanı?

Qürbətdən vətən olmaz,
Ocağına tən olmaz,
Sinə, bağır, tən olmaz,
Sındıram ədasını,
Hey alam qadasını.

Qürbətlər dili boğar,
Dilin yad sözü doğar,
Könlünə çiskin yağar,
Ararsan öz elini,
Axtararsan dilini.

Qürbətdə can alışmaz,
Ürək başla barışmaz,
Odun oda qarışmaz,
Dərd bükdürər belini,
Qəm ağardar telini.

Qürbətdə sözün ağlar,
Xəlbətdə gözün ağlar,
Ocağın, közün ağlar,
Göylər təki dolarsan,
Ürəyindən olarsan.

Yad el ocağın olmaz,
Doğma bucağın olmaz,
Kədərsiz çağın olmaz,
Hönkürərsən buludtək,
Sızlayarsan bir udtək.

Qürbət adı ağırdı,
Yanan sinə, bağırdı,
Dərddən ürək bağırdı
Saralan yarpaq təki,
Əzilən torpaq təki.

Qürbətlər vətən deyil,
Dilində ötən deyil,

Yurd eşqi itən deyil,
Hamımızın tək canı -
Sevək Azərbaycanı!

**30.03.2001.**

## TAPDALANIB

Qalib ilə danışmayaq,
Canbir olub qarışmayaq,
Bu dərd ilə barışmayaq,
Haqqımızla yarışmayaq,
Diləyimiz tapdalanıb,
Çörəyimiz tapdalanıb,
Ürəyimiz tapdalanıb.

Ey vətənin oğlu, qızı,
Cəngi çalsın elin sazı,
Çox çəkəcək yağı nazı,
Pozulmalı qanla yazı!
Millətimiz tapdalanıb,
Qeyrətimiz tapdalanıb,
Hörmətimiz tapdalanıb.

Baxın əsir qız, gəlinə,
Yetmədik ki, heç dilinə?
Qan ələnib hər telinə,
Qandal düşüb ağ əlinə.
Vicdanımız tapdalanıb,
Ünvanımız tapdalanıb,
Bu canımız tapdalanıb.

Məğlubuqsa yaşamaq nə?
Bəs bu adı daşımaq nə?
Bu yaranı qaşımaq nə?
Yaşınmaq nə, de yaşmaq nə?
Əyalımız tapdalanıb,
Həyalımız tapdalanıb,
Cəlalımız tapdalanıb.

Atılmalı savaşlara,
Son qoymalı göz yaşlara,
Tapınmalı haqq başlara,
Sığınmalı sirdaşlara.
Cürətimiz tapdalanıb,
Qüdrətimiz tapdalanıb,
Heyrətimiz tapdalanıb.

İçi iblis bu bəşərin,
Bağlanmalı qolu şərin!
Bilinməli gücü ərin,
Bayrağımız tapdalanıb,
Torpağımız tapdalanıb,
Papağımız tapdalanıb.

Ey Şadiman, sürünmək nə?
Həyamıza bürünmək nə?
Bu ad ilə görünmək nə?
Haqq savaşa ərinmək nə?
Fəryadımız tapdalanıb,
Pak adımız tapdalanıb!...
Övladımız tapdalanıb,

**31.01./1.02.2001.**

## CANIM QARABAĞ

Qarabağ, canım Qarabağ,
Dinim, imanım Qarabağ.

Başını yaman qatdılar,
Səni yağıya satdılar,
Zəngəzuramı qatdılar?
Qarabağ, zövqüm Qarabağ,
İlahi şövqüm Qarabağ.

Satdılar dilbər yuvanı,
Unutdularmı ünvanı?
Tanrı eşitməz duanı...
Qarabağ, elim Qarabağ,
Qırılan telim Qarabağ.

Yox yollarının hamarı,
Yurdun şahənşah damarı,
Telinin yoxdu tumarı,
Qarabağ, dərdim Qarabağ,
Yoxmu bir mərdim Qarabağ?

Gözdən axıtma yaşını,
Çatma əzabdan qaşını,
Duzsuz etdilər aşını,
Qarabağ, adım Qarabağ,
Könül fəryadım Qarabağ.

Heç şad olmasın dünyada,
Mənliyini satan gəda,
Yetən olmadı imdada,
Qarabağ, ahım Qarabağ,
Tanrı günahım Qarabağ.

O Cıdır düzün üşüdü,
Bu diş canavar dişidi,
Demə ilahi işidi...
Qarabağ, yazım Qarabağ,
Səsim, avazım Qarabağ.

Ey şəhidimin məzarı
Xarı-bülbülün gülzarı,
Dikəlib ərşə ah-zarı,
Bağının solub el barı,
Qarabağ, yurdum Qarabağ,
De haydı ordum, Qarabağ!

Aç qollarını gələrəm,
Düşməni qana bələrəm,
Gözündən yaşı silərəm,
Dərdindən solub ölərəm!
Qarabağ, yuvam Qarabağ,
Dilimdə duam Qarabağ.

Niyə susub məmləkətin?!..
Hara düşübdü külfətin,
Nədən kəsildi ülfətin?
Hardadı kişi qüdrətin?
Lalmı olubdu millətin?!
Qarabağ, gözüm Qarabağ.
Qalmadı dözüm Qarabağ.

Yurd əlimizdən üzüldü,
Sinənə güllə düzüldü,
Köynəyindən qan süzüldü!
Bu ürəyimiz üzüldü,
Qarabağ, hayım Qarabağ,
Dolu sarayım Qarabağ.

Çeşmənin gözü yatırdı,
Kim taxt-tacına oturdu?
Adını xain batırdı,
Qarabağ, canım Qarabağ,
Azərbaycanım Qarabağ.

**25.07.2001.**

## VƏTƏN OLMAZ

Yurdda isti hər bucağın,
Qərib dada yetən olmaz.
Vətən sənin öz ocağın,
Qürbət eldən vətən olmaz.

Ha səsləsən fəryadına,
Çatan olmaz imdadına,
Yad baxarlar övladına,
Qürbət eldən vətən olmaz.

Ağlayarsan için-için,
Yas tutarsan yuvan üçün,
Ah, İlahi, bilməm neçin?!
Qürbət eldən vətən olmaz.

Yadlaşarsan ana dilə,
Səsin çatmaz doğma elə,
Qabar salar məktub ələ,
Qürbət eldən vətən olmaz.

Dilindəki söz yad olar,
Adətinə göz yad olar,
Sinəndəki köz yad olar,
Qürbət eldən vətən olmaz.

Məsləkindən dönər könül,
Alışmamış sönər könül,
Ayaqlara enər könül,
Qürbət eldən vətən olmaz.

Dindirərlər, dilin ağlar,
Qürbətdə hər ilin ağlar,
Göy yuxuya könül bağlar,
Qürbət eldən vətən olmaz.

Su deyilsən calanasan,
Yad irmağda talanasan,
Qərib-qərib bulanasan,
Qürbət eldən vətən olmaz.

Vətənsizə nə səadət?
Gəl eyləmə yada adət,
Yad ocağa nə ibadət?
Qürbət eldən vətən olmaz.

Vətən – dilin duasıdı,
Ciyərimin havasıdı,
Millətimin yuvasıdı,
Qürbət eldən vətən olmaz.

Qınamayın Şadimanı,
Vətən onun şirin canı,
Keçməsin heç yurdsuz anı,
Qürbət eldən vətən olmaz.
Qürbət eldən vətən olmaz.

**29.06.2001.**

**BU YURDUN ELİ HANI?...**

Dağılıb yurd, yuvası,
Necə canından ası,
Qana susub havası,
Odun, ocağın tanı,
Bu yurdun eli hanı?

Səadəti boğulub,
Qəmi dərddən doğulub,
Eli hara dağılıb?
Sanki çıxacaq canı,
Bu yurdun eli hanı?

Ocağını su basıb,
Dərdi özünü asıb,
Niyə bu Allah susub?
Fəqandır, ahdır anı,
Bu yurdun eli hanı?

Çeşmələri ağlaşır,
Buludlarla bağlaşır,
Bu dərd niyə dağlaşır?
Keçən günü gəl sanı,
Bu yurdun eli hanı?

Gəlməyə sabahları,
Boğub içdə ahları,

Məzarların ruhları,
Gəzir nalan hər yanı,
Bu yurdun eli hanı?

Gələ vətən ərləri,
Boğa dərdi-sərləri,
Elin şiri-nərləri
Uddura yada qanı,
Bu yurdun eli hanı?

**06.08.2001.**

## AZƏRBAYCANIMIZDI

Siz ey silah götürüb ön xəttə yollananlar,
İgidliyin ən uca zirvəsində olanlar,
Ey torpağın yaralı boynuna qol salanlar,
Vətən ayrılığından gözü yaşla dolanlar,

Vətən bizim hamımız,
Baş üstündə damımız,
Namus imtahanımız,
Bu həyat ilhamımız.

Qaçmaq kişilik deyib, ey bu yurddan qaçanlar,
Qərib torpaqda, eldə ey yurd, yuva açanlar.
Şərəfini kiçildib yadlara əl açanlar,
Sərvət üstə oturub xəyallarla uçanlar,

Qəriblik vətən deyil,
Dadına yetən deyil,
Ürəkdə bitən deyil,
Öz yurduna tən deyil!

Mənsəb üstə vətəni yağılara satanlar,
Yadların qoltuğunda özünə yer tutanlar,
Elinin qeyrətini ayaqlara atanlar,
Var dərdinə tutulub kölgəsində yatanlar,

Vətən - torpağımızdı,
Başda papağımızdı,
Şanlı bayrağımızdı,
Firavan çağımızdı.

Ey əsir yurdlarının halına yanmayanlar,
Yurd sevgisin bir kərə anlayıb qanmayanlar,
Özünü bu vətəndən ar bilib sanmayanlar,
Çirkin əməllərindən bir an usanmayanlar,

Vətən - millətimizdi,
Namus, qeyrətimizdi,
Üzdə hörmətimizdi,
Tanrı nemətimizdi.

Ey ömründən vətənə ən müqəddəs an verən,
Ocaq üstə, yurd üstə damarından qan verən,
Üzün sürtüb torpağa kişi kimi can verən,
O müqəddəs ömrünü vətənə qurban verən,

Vətən sənin özündü,
O atəşli sözündü,
Haqqı görən gözündü,
O pak, nurlu üzündü!

Ey vətənin dilində danışmağı bilməyən,
Dərdə batanda torpaq göz yaşını silməyən,
Yasında ağı deyib, şadlığında gülməyən,
Yad ellərdə gizlənib kişi kimi ölməyən,

Vətən məzarımızdı,
Çöksə azarımızdı,
Həyat gülzarımızdı,
Namus və arımızdı.

Ürəkdə vicdanının ağrısını çəkməyən,
Əzizi öləndə də gözündən yaş tökməyən,
Torpağında bir kərə bir ağac da əkməyən,
Atılıb meydanlara yağı bağrı sökməyən.

Qeyrətin də şübhəli,
Sərvətin də şübhəli,
Millətin də şübhəli,
Hörmətin də şübhəli!...

Şəhid məzarlarının paklığın duymayanlar,
İntiqam hissi coşub qisasa uymayanlar,
Millətinin şərəfin şərəfi saymayanlar,
Bu acı fəqanlara heç məhəl qoymayanlar,

Vətən - duzun, çörəyin,
Yıxılanda dirəyin,
Hər addımda gərəyin,
Sinəndəki ürəyin.

Ey düşmən qızını öz könlünə yar tutan,
Damarında qanını yağı qanına qatan,
Vətən səndən soruşur kimdir o anan, atan?
Ey əslini, soyunu namərd soyuna qatan,

Soyuna lənət olsun,
Toyuna lənət olsun,
Tayına lənət olsun,
Payına lənət olsun!

Ey vətənin yolunda əlil olmuş oğullar,
Pak nəsilli analar ər oğullar doğullar,
İgid, hünərli ərlər şərin ruhun boğullar,
Aramızda nə çoxdu yağı həvəsli qullar...

Bu vətən canımızdı,
Damarda qanımızdı,
Dünyada şanımızdı,
Azərbaycanımızdı!
Azərbaycanımızdı!...

**26.12.1999**

## NƏ ADDIR?

Öz dilində danışmağı ar bilən, ey gədələr,
Hissinizi, ağlınızı qiymə-qiymə edələr,
O daşlaşmış qəlbinizdən daş xülyalar gedələr,
Bu azəri dilindədir hər cür tərəqqimiz də,
Həm Allahın, həm bəndənin yanında həqqimiz də?

Mən demirəm başqa dili öyrənmək günah olar,
Çox bilənin qarşısında işıqlı sabah olar,
Öz dilini bilməyənin gec-tez günü ah olar,
Bu azəri ləhcəsində hər incə mətləbimiz,
Bu dilin qüruru ilə döyünməli qəlbimiz.

Rus dili gedib indi ingilis dəbə düşüb,
Çox ürəklər əsir olub, çox canlar təbə düşüb,

Yenə xəstə beyinlərin çarəsi həbə düşüb,
Başqa dildə danışmaqda birinci yer tutmuşuq,
Dilimizin şirinliyin tamamən unutmuşuq.

Öz dilindən qaçanların milli ləyaqəti yox,
Bu millətin ürəyində bir quru hörməti yox,
Ana dili adlı böyük, müqəddəs xilqəti yox,
Öz dilini bilmirsənsə ruhun vətənə yaddı!
Səndən qalan bu torpağa özün söylə nə addır?!

**21.01.2000.**

## AZƏRBAYCANIM MƏNİM

Çiçəyin də, kolun da, tikanın da əzizdi,
Xəzər mənə dünyada ən qiymətli dənizdi,
Vicdanın da, ruhun da ləkəsizdi, təmizdi,
Can içrə canım mənim.
Azərbaycanım mənim.

Doymaq olmur heç zaman ətirindən, qoxundan,
Sağalmaz sinəm içi sənin hicran oxundan,
Məni Tanrı yaradıb sənin şirin yuxundan...
Damarda qanım mənim.
Azərbaycanım mənim.

Yağılar ürəyini parçalayıb didəndə,
Əliqanlı düşmənin sənə zülüm edəndə,
Oğlun şəhid olanda, tənindən can gedəndə,
Ağlayar anım mənim.
Azərbaycanım mənim.

Mən pərvanə, sən şamım dolanaram başına,
Qurban olum min kərə torpağına, daşına,
Rəbbim rəva bilməsin yanaqda göz yaşına,
Ey adım, sanım mənim.
Azərbaycanım mənim.

Səndən ötrü istəsən bədəndən can verərəm,
Damarımın içindən alışan qan verərəm,

Allahdan payım olan ən şirin an verərəm,
Odlu məkanım mənim.
Azərbaycanım mənim.

Sənin duzun-çörəyin ömrümə yetər olar,
Qürbətin varı mənə ölümdən betər olar,
Yad eldə ölsəm əgər qəbrimin daşı solar,
Bitməz divanım mənim!
Azərbaycanım mənim.

Sənə arxa çevirən heç gün görməz dünyada,
Qoynunda bəslədiyin bir gün çevrilsə yada,
Əskik olmaz başından bil ki, heç zaman qada,
Ən pak ünvanım mənim.
Azərbaycanım mənim.

Üçrəngli bayrağında lalətək qan izi var,
Əsir düşmüş Şuşanda istiqlal gündüzü var...
Əli qanlı yağıda Qarabağın düzü var,
Bitməz üsyanım mənim.
Azərbaycanım mənim.

Təbrizdən Dərbəndədək sən mənim şah əsərim,
Qürbətdə vətən desəm sənsən ağız kəsərim,
İstəsən ürəyimi ayağına de sərim!
Şan içrə şanım mənim.
Azərbaycanım mənim.

Səni əziz sanmışam dünyada bu canımdan,
Bunu ürəyim deyir, demirəm öz yanımdan,
Çeşmənə, kəhrizinə məlhəm desən qanımdan...
Əmr et sultanım mənim,
Azərbaycanım mənim.

Çiçəyinə, lalənə, bənövşənə qurbanam,
Ürəyinin içində əndişənə qurbanam,
Torpağına şəhidtək pak düşənə qurbanam,
Haqqla mehmanım mənim.

Azərbaycanım mənim.

Gün görməsin qoy sənə xain çıxan o kəslər,
Tənim məzara düşsə ruhum tək səni səslər,
Şadiman ürəyinin duyğusun sənə bəslər.
Sənsən cahanım mənim.
Azərbaycanım mənim.
Azərbaycanım mənim.

**23.11.1999.**

## CAN AZƏRBAYCAN

Bağırın parçalandı hey qəlpə-qəlpə,
Gədalar bəy oldu, küllüklər təpə,
Verdi başımızdan dərdimiz ləpə,
Yağılar tapıldı elə qan səpə,
Necə qara gəldi an Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Qaçqın kişiləri gördü gözümüz,
Öyrəndi yalana hər gün üzümüz,
Şir olduq təklikdə özü-özümüz,
Dağları aşırdı dildə sözümüz,
Yolunda az verdik can, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Çıxdı əlimizdən yurdlar birbəbir,
Elə bir-birinə dilədik səbir,
Yağılar birləşib oldular əlbir,
Düşmənin əlindən düşmədi xəlbir,
Dedilər, partlayıb yan Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Biz Qarabağ təki yurdu itirdik,
İçimizdə olan qurdu itirdik,

Döyüşə atıldıq ordu itirdik,
Babalar cah-cəlal qurdu, itirdik,
Gəl bu itkiləri san, Azərbaycan!
Ey yurdum, vətənim, can Azərbaycan.

Dərbənd, Təbriz qərib, İrəvan yağı,
Boğazdan yuxarı sözlər bayağı!
Hanı ər kişilər, yurdun dayağı?
Əlimiz saz çalır, dilimiz ağı,
Bumu şərəf, namus, şan, Azərbaycan?
Ey yurdum, vətənim, can Azərbaycan.

Bir olub yağının köksün oymadıq,
Başbilənimizi yaxın qoymadıq,
Bir-birin tərifdən bir an doymadıq,
Dərdin böyükliyin niyə duymadıq?
Axdı sellər təki qan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Sənə hiylə qurdu düşmənin əli,
Haqqın söyləyənə dedilər, dəli.
Yıxdı evimizi ‘‘baş üstə‘‘, ‘‘bəli,‘‘
Çökdü babamızın qeyrət təməli!
Batdı göylərində dan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Əllərdə qalıbdı səadətimiz,
Ümidə əl açıb ibadətimiz,
Bir-birinə yağı bir adətimiz,
Özgəni sevməkdi sədaqətimiz,
Demirəm bunları dan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Olub bu dərdlərdən Şadiman xəstə,
Söylər qəmlərini dili ahəstə,
Tökər dərdlərini kağızlar üstə,

Sən məndən bu şirin canımı istə,
Eyləyib könlümü şan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

**12.12.1999**

## VƏTƏNDİ

Dərəsiylə, ormanıyla, daşıyla,
Baharıyla, payızıyla, qışıyla,
İslanaram axan o göz yaşıyla,
İsidərəm ürəyimin başıyla!
Harayıma, fəryadıma yetəndi.
Candan əziz, candan şirin vətəndi.

Başım üstə əsən sərin yelimdi,
Ocağımdı, məkanımdı, elimdi,
Dili, mənim ötən tuti dilimdi,
Dağdan aşan, haray çəkən selimdi,
Ürəyimin güşəsində bitəndi.
Candan əziz, candan şirin vətəndi.

Gəz qürbətin dərəsini, düzünü,
Qəriblikdə kim tapıbdı özünü?
Qopardarlar ürəyinin közünü,
Öz dilində deyərsənmi sözünü?!...
Adın, sanın yad ellərdə itəndi.
Candan əziz, candan şirin vətəndi.

Vətən dərdi sağalmayan bir yara!
Çəkər səni qürbət eldə dərd dara,

Sahib olsan min sərvətə, min vara,
Qəriblikdə ölənlərə yurd hara?
Demə niskil, demə hicran ötəndi.
Candan əziz, candan şirin vətəndi.

Yağı əldə o yurd, yuva qalmasın,
Xalqımıza qoy göz dağı olmasın,
Ürəklərdə qeyrət eşqi solmasın,
Elim deyib analar saç yolmasın!
Qeyrət ilə, namus ilə yurd təndi.
Candan əziz, candan şirin vətəndi.

Şərəf hissi hər bir hissdən baş olub,
Şuşa, Laçın zirvələrə qaş olub,
Əsir düşüb aləmlərə faş olub!...
Niyə bizim ürəyimiz daş olub?!
Kökümüz ki, bir bədəndi, bir təndi,
Candan əziz, candan şirin vətəndi.

Torpaq eşqi heç çıxmasın ürəkdən,
Azalmasın, əskilməsin diləkdən,
Yağı, başın açılmasın kələkdən!
Heç bir işin düzəlməsin fələkdən,
Hər cür hiylə, hər cür fitnə batandı.
Candan əziz, candan şirin vətəndi.

Şərəf qataq, şöhrət qataq anına,
Qoy canımız fəda olsun canına,
Qurban olaq şəhidinin qanına!
Yurd məzarın, yurd anandı, atandı,
Candan əziz, candan şirin vətəndi.

**11-12.12.1999.**

## EY VƏTƏN

Sənə can demişəm, can candan şirin,
Ey vətən, bir söylə bu eşqin sirrin,
Parçanam, zərrənəm mən sənin dirin,
Ürəkdə alışan ocaq, ey vətən.
Könlümə ən isti qucaq, ey vətən.

Sənin torpağının daşı olum mən,
Odlu bəbəyinin yaşı olum mən,
Yanan ürəyinin başı olum mən,
Qürbətlər içində ölkəm, ey vətən.
Sən Kə`bəm, Nəcəfim, Məkkəm, ey vətən.

Dağına, düzünə vurğundu canım,
Sənə ad verilib Azərbaycanım,
Düşüb ocağına odunda yanım,
Qarışsın zərrənə külüm, ey vətən.
Mən sənin qoynunda ölüm, ey vətən.

Sənə göz dikənin gözü kor olar,
Sənə kəm baxanlar, bil nankor olar,
Odundan alışan sinəm qor olar,
Sönməz məzarda da odum, ey vətən.
Namusum, şərəfim, adım, ey vətən.

Yağı sinəsinə sərvətin oxdu,
Dünyalar içində heç tayın yoxdu,
Evində xainin, satqının çoxdu...!
Artmasın yoxsulun, acın, ey vətən.
Başından düşməsin tacın, ey vətən.

Tanrı şad eyləsin hər dəm baxtını,
Şərəfə çatdırsın ərlər taxtını,
Şadlığa calasın tale vaxtını,
Əysin zəfərlərin yadı, ey vətən.
Olasan dünyanın dadı, ey vətən.

Sənə can demişəm, sən candan əziz,
Azərim, Od yurdum odundu hər iz,
Odundan yuğrulub Xəzərin dəniz,
Dilimdən ucalan duam, ey vətən.
Kaham, komam, somyəm, yuvam, ey vətən.

Şadiman köksündən getməz uzağa,
Üstünə sərvətlər, dövlətlər yağa,
Varlığım vücudum düşsün ayağa!
Öyrənsə yad yerə gözüm, ey vətən,
Gülməsin dünyada üzüm, ey vətən.
Gülməsin dünyada üzüm, ey vətən.

**24.12.1999.**

## ALÇALMA MİLLƏTİM

Qalx, ey vətənimin oğlu, qızı.
Sönməsin göylərdə o bəxt ulduzu.
Deyən çox çəkildi yağının nazı,
Qılınc, qalxan olsun bu yurdun sazı,
Gözünün yaşını döndərmə selə,
Alçalma millətim, alçalma belə.

Sənin təpiyindən od çıxsın gərək,
İçində qorxunu haqq yıxsın gərək,
Şeytan yarasından qan axsın gərək,
O şər pərisini ruh yıxsın gərək,
Nərən haray salsın belədən belə.
Alçalma millətim, alçalma belə.

Sən özün yağının gözün tökərsən,
Şahintək sinəsi üstə çökərsən,
Savaşa atılıb hesab çəkərsən,
Düşmənin başında turp da əkərsən,
Dur, yığış, harayın qoy düşsün elə!
Alçalma millətim, alçalma belə.

Sən Allah, yad dindən pənah arama,
Dərd sənin, çəkməsən sabah arama,
Səhv bizim, özgədə günah arama,
Aha batmışlara min ah arama!
Sənin yalvarışın bənzər bir yelə,

Alçalma millətim, alçalma belə.

Coşsun savaş eşqi bir dilək kimi,
Yağışdan sonrakı göbələk kimi,
Dərdi qucaqlama sən bələk kimi,
Durma səcdəsində ya mələk kimi,
Bıçaq vur sinədə sızlayan telə,
Alçalma millətim, alçalma belə.

Roma Papasından dilədin imdad,
Qana nə edəcək o yad oğlu yad?
Qopsun ürəyindən bir dəli fəryad,
Şər macal tapmasın eyləməyə dad,
Dünyanı titrətsin qəzəbin elə,
Alçalma millətim, alçalma belə.

Amandı, itirmə şərəf yolunu,
Axtar savaşlarda itən qolunu,
Biç qılıncın ilə qanqal kolunu,
Unutma həyatda o sağ, solunu,
Salma öz dərdini ağıza, dilə,
Alçalma millətim, alçalma belə.

Bəsdir, özgələrdən kömək dilədin,
Kişi vuruşuna əmək dilədin,
Bu haqq savaşında mələk dilədin,
Dərdini bükməyə bələk dilədin,
Ürəksiz dünyadan ürək dilədin!...
Arxalı olmağa dirək dilədin,
Köməyi özündə gəl axtar hələ,
Alçalma millətim, alçalma belə.

Qadınlı kişili xalq qisas alsın,
Qoy qorxağın ölsün, igidin qalsın,
Döyüşə atılsın qələbə çalsın,
Haqqın bayrağıyla haqqa ucalsın,
Bütün Azərbaycan şərdən bac alsın,
Şanlı istiqlala Rəbbdən tac alsın,
Qalmasın yurdumuz o xain ələ,

Alçalma millətim, alçalma belə.

Ürəyi alışır Şadimanın da,
Qisas havası var, coşan qanında,
Savaşa durmağa haray canında,
Məni də hiss eylə, VƏTƏN, yanında!
Haqq öz yerin tapar döyüş anında...
Salma kədərlərin sazağın telə,
Alçalma millətim, alçalma belə.
Alçalma millətim, alçalma belə.

**23.05.2002.**

## EY VƏTƏN 4k

Gah sinə odumsan, gah könül odam,
Sənsiz bu dünyada aham, fəryadam,
Vətənsiz kol-kosdu, bir heçdir adam,
Yarandın ürəkdən, qandan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

Gəl basım bağrıma ağrı-acını,
Tanrı zirvələrdə tutsun tacını,
Tapsın tapılmayan hər əlacını,
Qurtarsın hiylədən, qandan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

O dilbər eşqinə kənizəm, qulam,
Sənsiz bədənindən üzülmüş qolam,
Gəl keç sinəm üstən, mən sənə yolam,
Yarandın bəlkə də candan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

O hicran atəşin könlə qubardır,
Həsrət dalğasını kədər qabardır,
Hər acı möhnətin xoş günü vardır,
Qoy bəxtin çağlasın andan ey Vətən,

Səni çox sevirəm candan ey Vətən.

Təbrizdən - Dərbəndə könül avazım,
Tale gülzarında ətirli yazım,
Bayatım, dastanım, ozanım, sazım,
Tənim əynindəki, dondan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

Əsir Qarabağın kül oldu getdi,
Bu duman dağlara tül oldu ğetdi,
Başımıza yaman kül oldu getdi…
Sinəm kabab oldu şandan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

Qaytar o qul olmuş, vüqarı qaytar,
Qaytar əsir düşmüş, o arı qaytar,
Qaytar övladına, ilqarı qaytar,
Əksilmə şərəfdən, şandan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

Şadiman könlünə bar sanır səni,
Ey mələk baxışlım, yar sanır səni,
Küllü məmləkətə var sanır səni,
Heç vaxt qopmayasan sandan ey Vətən,
Səni çox sevirəm candan ey Vətən.

**28.12. 2003**

## QAN - QADALI MƏMLƏKƏTİM

Azərbaycan – dərdi böyük,şəhidlərin yurdu diyar,
Hıçqırığın boğazında kilidlənib ürək oyar,
Yadellilər azğınlaşıb əleyhinə imza qoyar,
Sərvətini talayanlar, hər nəyin var satar, sovar,
Yığdığını gizlədənlər yığdığından nə vaxt doyar?…
Varlığına qənimlərin gül hüsnünə haçan uyar?
Səndən başlar, Gözəl Vətən, Allahıma ibadətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

İçindəki göz yaşını boğub, susub dayanmısan,
Fitnələrdən, fəsadlardan al qanına boyanmısan,
Qollarında qandalların ya yatıb, ya oyanmısan,
Alışmısan ocaq üstə, atəşlərə çox yanmısan,
Ağızımın dadı Vətən, təbim, ruhum, bərəkətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Sən səadət arayarkən, səadətin öldü getdi,
Düşmən gəldi torpağını tikə-tikə böldü getdi,
Xainlərin, bədxaxların hey üzünə güldü getdi,
Atəşini sovurdular, ocaqların küldü, getdi,
İzlərində, cığırında niyə donub hərəkətim?
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Sənə canı qurban dedim, qurbanını götür apar,
Atıl savaş meydanına titrət ərzi, tufan qopar,
Əliqanlı cəlladların içdə, çöldə bağrı çapar,
Ürəyim od tutub yanar dərdlərinə misra yapar,

Harda itib, harda batıb milli hissə nəzakətim?!
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Düşmən çapır yurd-yuvanı övladların susur, durur,
Döşənibmi ayaqlara bəy babama layiq qürur?
Cəlladların Qarabağda ağac çapır, yuva qurur,
Öz ağlımız içimizin atəşini suya vurur,
Dodaqlarım kilidlənib cövlan edir sükunətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Cavidimin, Cavadımın, Mümtazımın ahı səndə,
Məmməd Əmin amalını batırdınmı duman, çəndə?
Övladının gəzdirdiyi ürəkmi ya daşmı təndə?
Ölülərin dirilərə ağı deyir bu Vətəndə!!!…
İqtidarım, müxalifim susub öndə fəlakətim…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Al canımı birdəfəlik, canım sənə fəda olsun,
Başın üstə bu sonuncu itgi olsun, qada olsun,
Dur əyilən qəddi düzəlt, dur savaşa səda olsun,
Ayağının altın qazan övladların gəda olsun,
Düşməninə, satqınına bu mərtəbən əda olsun,
Xain çıxsam, quşlarının yemi olsun təndə ətim!…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Səndən əziz kimim var ki, de, cahanda ulu yurdum?
Ürəyinin atəşindən bu könlümə ocaq qurdum,
İçimdəki qorxuları kötüklədim, boynun vurdum,
Alacaqmı işğalçıdan torpağını MİLLİ ORDUM?
Bu məramla mən yuxumda gecəgözlü şəri yordum,
Səndən başlar Qanunuma, Kitabıma ibadətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Qarabağın qıfılına düşməyirmi heç bir açar?
Şəhidimin məzarının goru çatlar, yerim qaçar,
Bədənimin əti gedər, vücudumdan dərim qaçar,
Eyləmişik özümüzü qul fikirli qəmə düçar,
Əri olan bir ölkənin yurdu qalmaz düzdə naçar…

Boğulubmu kişi həddim, ər dözümüm, dağ cürətim?
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Bizi tarix dolaylarda min bir yerə çapdı keçdi,
Sinəmizin aynasına qara çirkab yapdı keçdi,
İtdişlilər ağzımızdan sözümüzü qapdı keçdi,
Övladların ocağını kül eylədi, sapdı keçdi,
İçimizdən xain çıxdı, oldu xara qul heyrətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Dağlar başı duman olar, yel dumanı qovar gedər,
Sel coşanda bənd-bərəni, çal-çəpəri ovar gedər,
Gözdən axar qan yaşlarım yanan könlü suvar gedər,
Sinəmizdən qorxuları gurşadların yuvar gedər,
İçimdəki sərsəmlərə üsyan edər can qeyrətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Nədir belə qoruyuruq canımızı tən altında?
Kürsülərə aşiq olduq, hiss boğuldu mən altında,
Ağlımızı ovxalayır iradəmiz çən altında,
Sərçələrin sürüləşib qartalların dən altında…
Öz gözümün güzgüsündən san ki, mənə Ay surətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Kərkükümə, Təbrizimə, Dərbəndimə ağı Vətən!
Övladların özü oldu yurd-yuvana yağı, Vətən!
Getməz qeyrət hissi olan sinədən el dağı, Vətən!
Vuruşmasaq, döyüşməsək, bitməz işgal çağı, Vətən!
Dur ayağa çalxat yeri, qopart göydən tağı, Vətən!
Kəs Xətayi qılıncınla əllərindən bağı, Vətən!
Ürəyimdə yaram sızlar, təbib bulmaz bir illətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Şadimanın bağrı partlar, dözməz sənin möhnətüvə,
Qarabağın əldən gedib, düşmən gülür möhlətüvə,
Dodaqların dilin tutub, mat qalmışam millətüvə,
Pardaqlanır yağlananlar, fərman verir zillətüvə,
Qolun harda qopub düşüb, nə olubudu qüvvətüvə?
Tanrı özü təkan versin donub qalan sürətüvə,

Haçan qalxar ayaqlardan ucalığa ləyaqətim?!…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim…

**03. 05. 2003**

## DİLİMİZ VARSA, YAŞAR VARLIĞIMIZ

Dilimiz varsa, yaşar varlığımız,
O bizim bu həyata yarlığımız.

Hər yerin öz dili, öz sözü keçir,
Dili atsaq olacaq darlığımız.

Yad olan dillərə heç uymayağın,
Uyarıqsa olacaq xarlığımız.

Çox dili bilməyimiz şanlı uğur,
Olmasın dilimizə sarlığımız.

Anamızın dilidi yurda qida,
Bu dili qorumaq vüqarlığımız.

Bu Vətən bizlərə məkandı, əgər,
Anamızın dili – baharlığımız.

Bağçası xəzan olan bağa dönər,
Onu biz bəsləməsək – karlığımız!

Ey Vətən övladı, sev öz dilini,
Tükənib bitməyə qoy barlığımız.

**17.02. 2005**

## SƏNƏ NİYƏ BELƏ ZÜLÜMLƏR OLDU?

Sənə niyə belə zülümlər oldu?
Bağrının başında dilimlər oldu,
Zindana atıldın ölümlər oldu,
Hər gün tayfalaşdın, bölümlər oldu,
Torpağı, sərvəti talan millətim,
Əzablar içində qalan millətim.

Sən ellər içində – el idin axı?
Coşanda çağlayan sel idin axı?
Dumana düşəndə yel idin axı?
Bir mizrabı vuran tel idin axı?
Özün müsibətə salan millətim,
Əzablar içində qalan millətim.

Bir zaman kölələik daşını atdın,
Qorxunu, gözünün yaşını atdın,
Meydana düşünən başını atdın,
Yenə tayfalaşdın, yuxuya yatdın,
Ey cəhənnəmi pay alan millətim,
Əzablar içində qalan millətim.

Azadlıq deyərək, bir gün çağladın,
Oğlun şəhid düşdü, candan ağladın
Yağı yurdu basdı – sinə dağladın,
Ümidi Tanrıya, haqqa bağladın,

İndi saçlarını yolan millətim,
Əzablar içində qalan millətim.

Bugün işğal altda Qarabağın var,
Sinənə çəkilmiş min bir dağın var,
Minüzlü, hiyləgər, azğın yağın var,
Əsir yurdlarında kor çırağın var,
Könlü parçalayan ürək ağın var,
Dərdləri üst-üstə kalan, millətim.
Əzablar içində qalan millətim.

Əskərin, polisin, ordun da bizim,
Yad ayağı altda yurdun da bizim,
Hər çaqqalın, tülkün, qurdun da bizim,
Özün öz boynunu vurdun da bizim,
Acından, soyuqdan solan millətim,
Əzablar içində qalan millətim.

Övladın səpilib dünya üzünə,
Güzəran axtarır bugün özünə,
Özgələr qızınır niyə közünə?
Məhəl qoyan yoxdu niyə sözünə?
Özü öz canına ilan millətim,
Əzablar içində qalan millətim.

Aldığın məvacib qarın doydurmaz,
Ac qalan mədəni yuxu uydurmaz,
Könlü qalınları ahın duydurmaz,
O yatmış ağlından nədən vay çıxmaz?
Haqqı yadlara qul olan millətim,
Əzablar içində qalan millətim.

O Milli Məclisin quyuruq yedi,
Haqqına xor baxan buyuruq yedi,
Sənin halına çox uyuruq dedi,
Ziyayıq, hər şeyi duyuruq dedi,
Diliylə Allaha nalan millətim,
Əzablar içində qalan millətim.

Şadimanın üzü pərişanədi,
Hər misra ilhamdan bir nişanədi,
Ürəyi ahından şanə-şanədi,
Qəminin oxuna qəlb nişanədi,
Hələ xəyallara dalan millətim…
Əzablar içində qalan millətim.

**11. 11. 2003**

## YAĞI ƏLLƏ QƏMƏ BATDI EL, VƏTƏN

Yağı əllə qəmə batdı el, Vətən,
Allah, gördüm nahaq qanlar, ölmədim.
Yurd istədi hər torpaqsız, hər ötən,
Şəhid oldu min-bir canlar, ölmədim.

Azərbaycan yüz yol belə döyüldü,
Dəyirmanda yerli-yersiz üyüldü,
Haqqın dedi, bir qul kimi söyüldü,
Quduz imiş bu insanlar, ölmədim.

Hər tərəfdə baxdım qara əl gördüm,
Köksümüzə balta çalan dil gördüm,
Qanımızdan don geyinmiş il gördüm,
Başsız qaldı çox ünvanlar, ölmədim.

Cavanşirlər susduruldu yerində,
Div dözümü varmış, Allah, yerin də,
Evi zindan hər igidin, ərin də,
Qara geydi qəmsiz anlar, ölmədim.

Qana batdı çox körpələr bələkdə,
Halımızdan saçın yoldu fələk də,
Taleyimiz çox ələndi ələkdə,

Haqq bilməyən nə dil anlar, ölmədim.

Bağrı para Salatınlar şəhiddi,
O Allahsız qəvi düşmən qəlb diddi,
Çörək verdik, ocaq verdik, haqq itdi,
Hanı şahid o zamanlar, ölmədim?

Dərd yandırdı diri-diri hər təni,
Qan içində hey qoydular Vətəni,
İrşəsindən nə üzüldü haqq dəni?
Ərşə qalxdı ah-amanlar, ölmədim.

Dünya yoxmuş başbilənin, böyüyün,
Çox sinəyə damğa basdı körüyün,
Qanlar tökür haqdan deyən bölüyün,
Dəbdən düşüb çox fərmanlar, ölmədim.

Ey Şadiman, gəl inanma peymanə,
Çəkdi kamə səni haqsız zamanə,
Könül xəstə, yetən hanı amanə?…
Yaram közdü, yox dərmanlar, ölmədim.

**28. 03. 1991**

## ATA YURDUNU KOR QOYAN OĞUL

Məzarlar ağı deyir gününə,
Fələklər haray çəkir ününə,
Qəriblikdə elinin günü nə?
Yağı əlində gor qoyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Ağlayır Vətən acı sitəmə,
Yaş tökür ana, bacı sitəmə,
Dözürsən necə belə matəmə?
Məğlub adına ey uyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Sərvətin aşsa, daşsa başından,
Zinətin axsa üstü-başından,
Zəfəran iyi gəlsə aşından,
Qarının deyil ki, doyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Bu aləm necə sənə baxacaq?
Düşmənin məkri çoxmu yaxacaq?
Bağrından qara qanlar axacaq,
Millətin köksün ay oyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Hekayətimiz cardı ağıza,
Vallah, yerləşmir heç bir kağıza,
Gah farsa, bənzərik, gah oğuza,

Yuxudan ayıl, qalx, oyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Ölübdü içdə niyə qurdumuz?
Gedibdi əldən bir-bir yurdumuz,
Hay sala göyə, yerə Ordumuz,
Qorxağı olmaz heç sayan oğul,
Ata yurdunu kor qoyan oğul.

İl ötər dərdi elə üzlərik,
Özgədən kömək necə gözlərik?
İçimizdə alışıb közlərik,
Nə zaman mənimizi bizlərik?
Axtarma yaddan sən həyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Əvvəli, sonu varmı dünyanın?
Hiyləsi könlə yarmı dünyanın?
Namusu, arı varmı dünyanın?
Bizə hiyləsi zarmı dünyanın?
Nə oldu üzdə o həyan oğul?
Ata yurdunu kor qoyan oğul.

Su axar lil bürüyər yarğanı,
Başına çək beləcə yorğanı,
Özünə tapsan əgər darğanı,
Olarsan adınla bəyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Satmısan eli söylə neçəyə?
Düşmüsən diyar-diyar küçəyə,
Oxşayır ağlın metal külçəyə,
Bənzədirlər səni-qul beçəyə,
Qul olub yad əmrə dayan oğul,
Ata yurdunu kor qoyan oğul.

Həyatın hər üzünü dadmışıq,
Zamanı zəhər kimi udmuşuq,
Vətənə niyə belə yadmışıq?
Yer üzünə bir quru admışıq,
Ey özü kök-soyun soyan oğul,

Ata yurdunu kor qoyan oğul.

Şadiman salıb ərzə harayı,
Uçubdu dərddən könül sarayı,
Gözləyirsən hələ ili, ayı,
Utanma, min rəngə boyan oğul,
Ata yurdunu kor qoyan oğul.

**18. 02. 2003**

## GÖZLƏRDƏ AĞLAYAN QAN -YAŞA BAX

Gözlərdə ağlayan qan-yaşa bax,
Bəbəklə can olan sirdaşa bax,
Ürəyi partlayan bu başa bax,
Hər tərəf dolu qəlbi daşa bax,
Qazanını daşıran aşa bax,
Köz üstündə çatılan qaşa bax,
Qardaşa kəc baxan qardaşa bax,
Ömür vəfa eyləsə yaşa bax.
Hər dərdə üzülən millətimiz,
Tapdanan, əzilən millətimiz.

Öz halal torpağında günü yox,
Batırıblar sədasın, ünü yox,
Aclıqdan evdə toy – düyünü yox
Bir yaxşı üst-başı əyini yox,
Talayıblar zehni, eynini yox,
Haqqına səcdə edən beyni yox.
Ələkdən süzülən millətimiz,
Tapdanan, əzilən millətimiz.

Hər əsrdə sərvətin qal oldu,
Əcnəbinin dilinə bal oldu,
Yağlı ağalara nə yal oldu?
Dərdin ciyərinə bir xal oldu,
Evin düşmənlərə nə zal oldu?
Ya özün, ya fələyin kal oldu?
Ürəyin qəmə halbahal oldu,
Vücudun xainlərə nal oldu.
Dözümü nazilən, millətimiz,

Tapdanan, əzilən millətimiz.

Yenə cibində yellər oynayır,
Tərifin qulu dillər oynayır,
Ömrü puç edən illər oynayır,
Gözlə-bəbəkdə sellər oynayır,
Şərə əl açan əllər oynayır,
Gözə tuşlanan millər oynayır,
Ocaqda soyuq küllər oynayır,
Könlü titrədən tellər oynayır.
Kəndiri üzülən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Harayın oyatmayır Xudanı,
Dünya nə vaxt duyacaq sədanı?
Göstərə bilmədin heç ədanı,
Görürəm sənə dəyən qadanı,
Açmısan hər kəsə can odanı,
Unut mindillilərə sevdanı,
Talayıb dağıtdılar adanı.
Gülləyə düzülən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Sənə heç can deyəni görmədim,
Dərdlərini döyəni görmədim,
Haqqlarını öyəni görmədim,
Haqsızını söyəni görmədim,
Düşmənini əyəni görmədim,
Şər işinə dəyəni görmədim,
Əldə iblis yüyəni görmədim.
Bucağa büzülən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Hey sənin haqqını alçatdılar,
Belinə dərd yükünü çatdılar,
Başını hiylə ilə qatdılar,
Daşını, torpağını satdılar,
Özünə hələ böhtan atdılar,
Oduvun istisində yatdılar,
Yağılar diləyinə çatdılar,
Haraylar qulaqlarda batdılar.

Ağrısı çözülən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Həkimsiz, dəvasız ölənin çox,
Alçalmış qeyrətə gülənin çox,
Varını, yoxunu bölənin çox,
Bu acı qəmləri bilənin çox,
Süfrənin başına gələnin çox,
Gözünün yaşını silənin yox.
Cəfası sezilən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Şadimanı yandırır əhvalın,
Ağladır ürəyimi bu halın,
Nə zaman yetişəcək vüsalın?
Səni tərk eliyə qeylü-qalın,
Dünyaya faş oldu bu zavalın,
Qopmadı işğal altdan mahalın,
Nəş'ənə oynamadı qavalın,
Fırlanır yağı əlində valın.
Varlığı bezilən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

**02. 02. 2003**

## EY ŞƏHİD ANASI

Ey şəhid anası, dik tut başını,
Tökmə gözlərindən kədər yaşını,
Bilirəm itirdin can sirdaşını,
Qeyrətin yolunda şəhiddi oğlun,
Millətin yolunda şəhiddi oğlun.

Olsun qürüründa dağlar vüqarı,
Namuslu kişilər – millətin varı,
Göz yaşını qurut, etmə ah-zarı,
Şərəfə, papağa şəhiddi oğlun.
Vətənə, torpağa şəhiddi oğlun.

Ey şəhid anası, yurdunun nuru,
Savaşa atılan ordunun nuru,
Şər parçalayan boz qurdun nuru,

Yağı vuran dağa şəhiddi oğlun,
O qanlı bayrağa şəhiddi oğlun.

At qara örtüyü qara bizə xar,
Düşməni savaşda haqqımız yıxar,
Qatilinin canı səngərdə çıxar,
Gələn fələkətə şəhiddi oğlun,
Ulu məmləkətə şəhiddi oğlun.

**17. 04. 2003**

## OYANMAQDAYAM

İçimdə övlad yanğısı,
Könlümdə analıq duyğusu,
Gecəmdə cocuq uyğusu…
Alışıb yanmaqdayam.
İkiyüzillik əsarət zəncirini qırmaqdayam,
Qəflət yuxusundan oyanmaqdayam.

***

Ehey, istiqlalımı müvəqqəti çətinliyə satanlar,
İmperyaların kölgəsində yatanlar,
Qanına qəltan olmuş
Babəki, Cavad xanı unudanlar,
İkiyüzillik əsarət zəncirini qırmaqdayam,
Qəflət yuxusundan oyanmaqdayam.

***

Öz əslini, kökünü dananlar,
Özgə peymanına yananlar,
Qorxutmasın sizi tökülən qanlar…
İkiyüzillik əsarət zəncirini qırmaqdayam,
Qəflət yuxusundan oyanmaqdayam!

***

Atılın azadlıq yolunda savaşlara,
İnanmayın şimal küləyinin
gətirdiyi soyuq aldanışlara,
Tapının ağıllı başlara,
İkiyüzillik əsarət zəncirini qırmaqdayam,
Qəflət yuxusundan oyanmaqdayam!

***

Adım Vətən, dilim türk, məkanım
AZƏRBAYCAN,
İçimdə alışan can,
Bütün qitələrə yayılmış,
Xanəmanı dağılmış,
Otuz altı milyonluq AZƏRİNİN səsiyəm!
Anam Həvva, atam Adəmdən üzü bəri,
Müqəddəs Odlar ölkəsiyəm!
İkiyüzillik əsarət zəncirini qırmaqdayam,
Qəflət yuxusundan oyanmaqdayam!… **23.01.1993**

## BU YAZIQ XALQA QALAN BOŞ, QURUCA ZƏHMƏT OLUR

Talanır sərvətimiz xarici işbazlar üçün,
Nədir millət amalı ağlı dayaz qazlar üçün?
Banglərə dollar yığılır hər diləyi sazlar üçün,
Vətənin eşqi niyə sözləri avazlar üçün?
Nə ki var, var-yoxumuz yadlara bir ne’mət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Sorulur neftimizin ən dərin qatları belə,
Aranır, axtarılır qatların çatları belə,
Təki başdakıların olsun büsatları belə,
Çağlasın min neçə cür haram həyatları belə,
Başımızda nə ki var, əcnəbiyə alət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Torpağın tən yarısı işğala möhtac edilib,
Millətin çoxu hələ qarnı tamam ac edilib,
Bu kimi işlərimiz taleyə amac edilib,
Varsa imkan qapısı, xariciyə bac edilib?
Bizlərin bəxtlərinə düşən hələ zillət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Sözə gələndə elə min cürə cəh-cəh vurulur,
Daşınan varımıza gör necə qəh-qəh vurulur.
Damağı çağlar üçün badələr pəh-pəh vurulur,
Əlləri əllərinə nəş’ədən bəh-bəh vurulur,
Əzilən kütlələrə bəxş edilən illət olur,
Bu yazıq xalqa qalan, boş quruca zəhmət olur.

Bayrağa, həm himinə nə zatlar fərman eləyir?
Yazıq istiqlal hələ yadlara dərman eləyir,
Gopu min dağlar aşan dillərə aman eləyir,
Nə qədər imkanı var, hər işi yaman eləyir?
Ayağ altda əzilən yenə də bu millət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Amerka xammalının dəyməyib heç bir qatına,
Sərvəti başdan aşır, nur tökülür həyatına,
Düşmüşük biz də elə taleyin bata-batına,
Baxırıq Avropanın gözqamaşan busatına…
Səsimiz çıxsa əgər, lap böyük bir qələt olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Əlimiz başımıza kül eyləyir vay-vay ilən,
Gözümüzdən yaş axır dəli-dolu min çay ilən,
Bizə hər nə verilir ölçü-biçi və say ilən,
Nəyimiz var daşınır bankələrə lap tay ilən,
Ahı ərşi dağıdan bir neçə cür halət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Bizim kor bəxtimizə gülmədi heç Xuda niyə?
Diləyimiz çin olur gecələr yuxuda niyə?
Əcnəbinin burunu qalıbdı qoxuda niyə?
Ötüşür günlərimiz bəs qara-qorxuda niyə?
Bizə çor, xariciyə bir o qədər hörmət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Nə ki, Bakı nefti, bölgələr də dəbə düşüb?
Talananlar talanır, ürəklər də həbə düşüb,
Əlində hökm olanlar nə yaman təbə düşüb?
Binəva millətimiz xariciyə təbə düşüb…
Ölkəyə, ay həzarat, bəs bu necə qiymət olur?
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Şadiman bir parasın söylədi bu ahımızın,
Doğulanlara görə nəyi var sabahmızın?
Özümüzdə görürəm çoxunu günahmızın,
Yetməyir bizlərə heç haqq nuru Allahmızın!…
Gələcəyi görməyən bəxti qara millət olur,

Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

**19. 02. 2005**

## MÜSTƏQİLİK

Gedib əldən Qarabağ gülzarı, bizlərə nə var?
Artıb kasıb-kusubun azarı, bizlərə nə var?
Ya çadır, ya da ola məzarı, bizlərə nə var?
Çıxıb ərşə yetimin ah-zarı, bizlərə nə var?
Torpağı yağıya verdik, özümüz müstəqilik,
Dünyaya çatır daha hər sözümüz, müstəqilik.

Əslimiz gədə-güdə, sərvətimiz başdan aşır,
Kütləni əzmək üçün qüvvətimiz başdan aşır,
Millətə elitayıq – hörmətimiz başdan aşır,
Hər yerə gedib çıxan izzətimiz başdan aşır,
Nə olar yurd-yuvamız əsir olub, müstəqilik?
Pulumuz bəxtimizə qəsir olub, müstəqilik.

Erməni qoy Şuşada özünə cəlal açsın,
Xan qızı Nətəvanın ruhuna məlal açsın,
Qarabağı elədik yağıya həlal açsın,
Xalqımızın dilini eyləmişik lal, açsın,
Tanıyır dünya bizi, indi daha müstəqilik,
Batsa da ac-yalavac kasıb aha, müstəqilik.

Əcnəbi banglərə də doldurmuşuq dolları biz,
Açmışıq Amerkaya, Avropaya yolları biz,
Etmişik azad daha qandallardan qolları biz,
Tacımız çiçəkləyir – azadlığın kolları biz,
Cibimiz pulla dolu yoxdu azar, müstəqilik,
İndi çox şairimiz bizə yazar – müstəqilik.

Xarici maşınların yoxdu sayı-hesabı heç,
Daha süfrəmizə də qoymarıq ucuz qabı heç,
Yoxsulun dözümü çox kəsilməyir ki, tabı heç,
Bizlərə yazılmayıb din və qanun kitabı heç,
Tökürük sağa-sola varımızı, müstəqilik,

İndi pul həl eləyir arımızı, müstəqilik.

Çoxdu ki, torpağımız Qarabağı neyləyirik?
Savaş etsək görərik sinə dağı, neyləyirik?
Hökmümüz, fərmanımız, qanlı çağı neyləyirik?
Çadıra binə olan desin ağı, neyləyirik?
Kasıba kaha da bəs, pul-paramız müstəqilik,
İndi çox dövlət ilən saz aramız, müstəqilik.

Nefti xammal eləyib çıxarmışıq bazarlara,
Düşsün ac millətimiz min cürə qoy azarlara,
Pul basıb cibimizə, baş vururuq gülzarlara,
Kütlənin çox hissəsi ölüb düşsə məzarlara,
Tək sağ olsun canımız, külfətimiz, müstəqilik,
Artır hey dollar ilə ülfətimiz, müstəqilik.

Torpaq kasıba gərək, bizlərə pul-para yetər,
Millət ağzını aça, yaxarıq çox qara yetər,
Böyüyər uşağımız hər əli min vara yetər,
Çəkərik danışanın dilini lap dara yetər,
Eyləsin kasıblığın ellərimiz, müstəqilik,
Necə şad xürrəm olub illərimiz, müstəqilik.

Beynəlxalq kürsülərdə bülbültək cəh-cəh vururuq,
Qudurdub var da bizi özümüzə qəh-qəh vururuq,
Əyləşib meyxanada canlara pəh-pəh vururuq,
Doldurub qədəhləri bu günə bəh-bəh vururuq,
Arzumuz çiçək açır – kamı bilir, müstəqilik,
Düşmüşük cəh-cəlala, hamı bilir, müstəqilik.

Bakıda, xaricidə bir neçə adda evimiz,
Bağı bir yana hələ, gör neçə qatdda evimiz,
Göygöldə, Şüvəlanda, lap Batabatda evimiz,
Bizə şöhrət gətirir pullu həyatda evimiz,
Hələ Ulduzları da fəth edirik, müstəqilik,
Ayı Günəş eləyib mədh edirik, müstəqilik.

Xarici maşınlarla hey keçirik bir-birini,
Gözümüz qızır hələ çaş seçirik bir-birini,
Ali məclislərə də baş seçirik bir-birini,
Hərdən paxıllıq edib lap biçirik bir-birini,
İndi zirvəni dəlir dirbaşımız, müstəqilik,
İşləyir cibimizə pak başımız, müstəqilik.

Candan artıq sevirik biz Azərbaycanımızı,
O bizim pullu edib gör necə də anımızı,
Artırır sərvətiylə zirvələrə şanımızı,

Qurbandı min Qarabağ, tək qoruyaq canımızı,
Millətin səbri böyük, dözür hələ, müstəqilik,
Düşməz ki, bir belə fürsət də ələ, müstəqilik.

Şadiman hər nə qədər cəhd eləsə yazmamağa,
Təb ilə dilbir olub, əhd eləsə yazmamağa,
Ağlını qəlbinə sərhəd eləsə yazmamağa,
Od tutan şe'rinə bir həd eləsə yazmamağa.
Girir şeytan ürəyə deyir, bala, müstəqilik…
Cala beyti-beyitə, eylə qala müstəqilik.

**20. 07. 2003**

## AH, VƏTƏN, MƏN SƏNİ TƏRK EDƏ BİLMƏM…

Bu nə fəlakətdir, bu nə işgəncə?
Müxalif qəzetlər basılıb küncə,
Millətin taleyi olub əyləncə?
Müxbir öldürülür, döyülür gecə,
Qanunlar yalançı, fərmanlar becə,
Axırı xətadır bu işin məncə…
Anasansa, niyə ərk edə bilməm?
Ah, Vətən, mən səni tərk edə bilməm…

Batıbdı ölkəmiz rüşvət içində,
Millət ac, oğrular sərvət içində,
Polis xalqa qarşı qüvvət içində,
Ağlımız can verir xiffət içində,
Mən bu müsibəti dərk edə bilməm?
Ah, Vətən, mən səni tərk edə bilməm…

Bir paça çörəyə möhtacdır çoxu,
Bu bir istiqlalmı, ya ölmə yuxu?
Dili tərpədənə min hədə-qorxu,
Çöküb gözlərimə qorxulu yuxu,
Dəlir sinəmizi İblisin oxu!
Bu dərdi könlümə görk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

Qarabağ adında dərdimiz yatır,
Yağı toy-büsatda mərdimuz yatır,
Ətalət tovunda ordumuz yatır,

Gözümüz önündə yurdumuz batır!
Səsimin sədasın bərk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

ANS bağlanır susur bu millət,
Hürrüni içində pusur bu millət,
Qorxudan öz qanın qusur bu millət,
Azadlıq önündə qüsür bu millət,
Qüsürün başına sərk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

Oğrunun könlündə təbi görürəm,
Doğrunun dilində həbi görürəm,
Hər bir əyrilikdə dəbi görürəm,
Şeytanı hər işdə nəbi görürəm,
Zindanı özünə börk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

Həyacan qəlbimdə, qorxu başımda,
Qan himə bənd olub bu göz yaşımda,
Dözmür bu əzaba can sirdaşım da,
Qaçımmı yurdumdan ahıl yaşımda?
Bu dərdi dünyaya peyk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

Hər şər olan yerdə xeyrə nə halət?!
Hər bir dövürlərdə qul- olub alət,
Qapısı ağzını kəsib zəlalət,
Mən səvab yazıram, Haqq sanmaz qələt,
Rəbb verən ağlıla şəkk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…
Ah, Vətən, mən səni tərk edə bilməm…

**28.11.2006**

## MUSTAFA KAMAL ATATÜRK

Bir zaman yağıların eylədi işğal Vətəni,
Saldı min bir əzaba gör necə bu hal Vətəni,
Qoydu qara günlərə, etdi halbahal Vətəni,
Atdı ağrı-acıya öylə qeylü-qal Vətəni,
Oldu millətə dirək – Mustafa Kamal Atatürk,
Böyük yurduna ürək – Mustafa Kamal Atatürk.

Yığışıb cəm olaraq diddilər Osmanlını,
Min yerə parçalayıb ütdülər Osmanlını,
Elə zənn eylədilər ötdülər Osmanlını,
Sanaraq qul sayağı etdilər Osmanlını,
Millətə oldu çıraq – Mustafa Kamal Atatürk,
Açdı tarixə varaq – Mustafa Kamal Atatürk.

Gah rus, gah ingilis, gah da fransız gəldi,
Yurdu ram eyləməyə neçə amansız gəldi?
Dövlətə xain çıxan erməni qansız gəldi,
Yağlı kökə arayan bir çox imansız gəldi,
Xalqı xilas elədi – Mustafa Kamal Atatürk,
Millətə hür dilədi – Mustafa Kamal Atatürk.

O ki, türk dünyasının özünə Günəş oldu,
Yaralı torpağının könlünə atəş oldu,
Biçdi düşmənlərini – yerində küləş oldu,
Önündə yağıları hey tökülüb qəş oldu,
Aldı silahı ələ – Mustafa Kamal Atatürk,
Xəbəri düşdü elə – Mustafa Kamal Atatürk.

Həm Vətən, həm Bayraq dedi, atıldı savaşa,

Son qoydu ana, bacı gözündəki qanlı yaşa,
Əymədi millətini, vermədi rəvac təlaşa,
Tökdü ərlər qanını kişi təki dağa, daşa,
Oldu millətə çıraq – Mustafa Kamal Atatürk,
Açdı tarixə varaq – Mustafa Kamal Atatürk.

O türkün namusunu qoymadı yensin ayağa,
O böyük tarixini vermədi ensin ayağa,
Döndü qaradənizin sinəsidə mayağa,
Gətirdi qüdrətiylə şan və şərəf bayrağa,
Titrətdi Avropanı – Mustafa Kamal Atatürk,
Sandı Vətəni canı – Mustafa Kamal Atatürk.

Kəsdi Xaç yürüşünün qarşısını qüdrət ilən,
Getdi düşmən önünə pələng kimi həddət ilən,
Şərəfi dünyaya düşdü elə bir vüs‘ət ilən,
Qaldı həqqi sevənin sinəsində izzət ilən,
İslama nur çilədi – Mustafa Kamal Atatürk,
Yaraları bələdi – Mustafa Kamal Atatürk.

Döndü Çanaqqalanın döyüşü bir dastana,
Düşdü yağıların ürəyi zimistana,
Osmanlı torpağını çevirdi gülüstana,
Vermədi xəzan gələ baharında bostana,
Ərdi, türk övladına – Mustafa Kamal Atatürk,
Çatdı Ata adına – Mustafa Kamal Atatürk.

O Fərid Sultanı da qoymadı çöksün yada,
Olmamaqçın təslim atdı özünü oda,
Dedi: - « Tək taxtına yox, bu Vətənə bir qada »,
Yetdi vaxtında igid millətinə imdada,
Elə işıq oldu – Mustafa Kamal Atatürk,
Yurda aşiq oldu – Mustafa Kamal Atatürk.

Şadiman, bu igidi vəsf eləyər zamanlar,
Onu səcdəyə gələr haqq arayan imanlar,
Gülər tarix adına, edər ona peymanlar,
Hələ hər gün doğular bu şərəfə fərmanlar…
Anadan təkdi belə – Mustafa Kamal Atatürk,
Doğmayıb ana hələ – Mustafa Kamal Atatürk !...

**19.05.2004**

## İSTİQLALIN SORAĞI

***İstiqlalımızın Öndəri Məmməd Əmin Rəsulzadəyə…***

Azərbaycan davasıyla gəzdin ölkəbəölkə,
Hər cür ağrı-acılara dözdün ölkəbəölkə,
Pak bağrını əzablarla üzdün ölkəbəölkə,
İstiqlalı ürəyində yaşatdın, Məmməd Əmin,
Qəlbdə şanlı heykəlini ucaltdın, Məmməd Əmin.

Ey millətin fədaisi, ey başı uca öndər,
Köləliyə üsyan dedin, düşdün yurddan dərbədər,
Yaratdığın cumhüriyyət sanma ki, oldu hədər,
Könlümüzün şərəf dolu havası, Məmməd Əmin,
O himin  ki, dilimizin duası, Məmməd Əmin.

O üç rəngli ay ulduzun başımızın üstündə,
Ucalacaq bu torpaqda heykəlin də, büstün də…
Keçdin hər cür qan-qadadan bu Vətənin üstündə!…
Mirvari ki, parlaq olar sədəflə, Məmməd Əmin,
Taprixlərə düşdü adın şərəflə, Məmməd Əmin.

Ey taleyi məhkum olmuş Məmləkətin övladı,
Avropada aha döndü dilinin haqq fəryadı,
Sən qorudun kişiliylə o müqəddəs, pak adı,
Qürbətlərdə Vətən dedin, alışdın, Məmməd Əmin,
Bağrımızın atəşinə qarışdın Məmməd Əmin.

O qurduğun istiqlalın havası başımızda,
Çəkdiyimiz sitəmlərin ahı göz yaşımızda,
Kölə olduq, qana batdı hər zərrə daşımız da,
Öldü min bir savaşlarda bacı, qardaşımız da,
Əsirliyi dada-dada qul olduq, Məmməd Əmin,
Selə düşmüş çay daşıtək oyulduq, Məmməd Əmin.

Əyilmədin, qul olmadın yağılara heç zaman,
Qulpərəstlər təki, Öndər, diləmədin ah-aman,
İman əhli olanları tərk eləyərmi iman?
Ey imanı kamil başçı, yağı hiyləsi yaman,
Didərginlik fəraqına tuş oldun, Məmməd Əmin,
İstiqlalın mayağıtək faş oldun, Məmməd Əmin.

Azərbaycan istiqbalın dünyaya e’lan etdin,
Dağıtdılar amalını, sonadək nalan etdin,
Üçrəngli pak bayrağı, himnini balan etdin,
İyirmi üç ay hürr tarixin o könül qalan etdin,
Qəlbimizin səmasında Günəşsən, Məmməd Əmin,
Azadlığın ocağına atəşsən, Məmməd Əmin.

O qurduğun cumhüriyyət yenidən ucalıbdı,
Sevmədiyin köləliyə millət zəfər çalıbdı,
Başıbəlalı məmləkət öz haqqını alıbdı,
Adın, ey ulu Öndərim, tarixlərdə qalıbdı,
Ruhun azad uça bilər Vətəndə, Məmməd Əmin,
Pak olur qəlbdə hüriyyət bitəndə, Məmməd Əmin.

Səni tarix yaşadacaq böyük əməllərinlə,
İstiqlal yoldaşlarınla, hür qurdun əllərinlə,
Qaldın tarix səhnəsində üsyankar illərinlə,
Ürəyində yara açdı dərd kölə ellərinlə,
Məzarın türk torpağında qalıbdı, Məmməd Əmin,
Ruhun ana Vətəndə yurd salıbdı, Məmməd Əmin.

Növxanıdan qanadlandın istiqlal səmasına,
Könlümüzdə bir ocaq var o günəş təmasına,
Tuş olubdu çox diləklər taleyin əmmasına…
İlahi də imza qoyub köləliyin yasına,
Əsir olmuş torpağımız alına, Məmməd Əmin,
Şanlı Himin qul Şuşada çalına, Məmməd Əmin.

Bu Şadiman, ey Öndərim, istiqlala can deyir,
Öz qanını azadlığın yolunda qurban deyir,
Sənə arxa çevirənə savaş deyir, qan deyir!
Yumruq boyda ürəyinə haqq yolunda yan deyir!
Bayrağımın, himinimin çırağı, Məmməd Əmin,
İstiqlalın on səkkizdən sorağı, Məmməd Əmin!

**21.01.2002**

## ELÇİBƏY

***Vətən aşiqi Əbülfəz Elçibəyə***

Candan artıq sevdin yurdu, vətəni,
Kama çatdın istiqlala yetəni,
Fələk nə tez ruhsuz qoydu o təni?
Həyatını haqqa verdin, Elçibəy,
Bu torpağa sən ki, ərdin, Elçibəy.

Ürəyində vətən eşqi gurladı,
Ocaq oldu, ataş oldu qorladı,
Millət necə unudar o pak adı?
Sən ki, vətən daşı idin, Elçibəy.
Ürəyinin başı idin, Elçibəy.

Kim görmədi fələk tarpa-tapını?
Vaxtsız ölüm nə tez döydü qapını?
Qırdı qəfil ömrün tale sapını!...
Bu getməyin zülüm oldu, Elçibəy.
Bu nə müdhiş ölüm oldu, Elçibəy.

İmperyaya hamı boyun əyəndə,
Köləliyin önündə qədd əyəndə,
Bu əzablar ürəyinə dəyəndə,
Yandı köksün için-için, Elçibəy,
Fələk qırdı ömrü neçin, Elçibəy?

Bu yurdunu Kə‘bə bildin qəlbinə,
Yurd dananın vüqarı nə, qəlbi nə?
Zülüm basıb haqqı çoxdan qəlbinə,
İşğal altda qaldı vətən, Elçibəy,
Bu dərdlərdən əridi tən, Elçibəy.

Bulaq təki təmiz idi ürəyin,
Həm istiqlal, həm ədalət dirəyin,
Halallıqla yuğrulmuşdu çörəyin,
Ey vətənin qadir oğlu, Elçibəy,
Bu torpağın nadir oğlu, Elçibəy.

Elə tə‘nə edib səni əydilər,
Haqsız yerə ürəyinə dəydilər,
Kim çarpışdı, kimlər özün öydülər?
Haqqa canı fəda etdi Elçibəy,
O dünyada haqqa yetdi Elçibəy.

Söz götürdün yolun üstə ötəndən,
Ürəyində dərdə dönüb bitəndən,
Sən nigaran getdin yurddan, vətəndən,
İndi ruhun özün üzər, Elçibəy,
Başımızın üstə gəzər, Elçibəy.

Məzarını Azərbaycan qucaqlar,
Bu ölümə için-için hey ağlar,
Çəkdi fələk dağ üstünə hey dağlar...!
Tarix oldu adın, sanın, Elçibəy,
Qəlbimizlə vurar canın, Elçibəy.

Bayrağımız Məmmədəmin amacı,
Himinimiz istiqlalın baş tacı,
Onları da sənsiz görmək çox acı,
Təki vətən ölməz olsun, Elçibəy,
Məzar evin nurla dolsun, Elçibəy,
Məzar evin nurla dolsun, Elçibəy.

**24.08.– 09.09.2000.**

## EY BÖYÜK ŞAİRİM

***İstiqlal şairimiz Əhməd Cavadın ruhuna!***

Elə yaşamalı həyatda insan…
Dünyadan köçəndə yeri görünsün.
Onun yoxluğundan xəbər versin an,
Adamlar içində diri görünsün.

Yüz illər keçsə də əməli qalsın,
Adına baş əysin yaxınlar, yadlar.
Ürəklər içində zirvəni alsın,
Çün həyatda qalır layiqli adlar.

Dirikən ölülər çoxdu dünyada,
Varlığı zəhərli kol-kosa bənzər.
Var ikən elə bil yoxdu dünyada,
İçi qanla dolu bir tasa bənzər.

Sən ey böyük şair, Vətən aşiqi,
Ölükən dirisən, ruhun ucadı.
Adınla nur saçır haqqın işığı,
Hər misran, hər sözün Rəbbə bacadı.

Sən « Göygöl » şerinlə suçlandın bir vaxt,
Şerin də adıntək uludu indi.
Etdisə ömrünü zalımlar bədbaxt,
Amalın istiqlal yoludur indi.

Onlar ölü idi, sağ ola-ola,
Səninsə dirilik haqqın əbədi.
Şairim, qandalı vurdular qola,
Sağ ikən ölünün qandalı nədi?

İndi də paxıllıq edirlər sənə,
Çünki himnimizdə yaşayır adın.
Hər misran, hər sözün, özün təntənə,
Əbədi yaşardı təbi ustadın.

Ömrünü qırdılar qəlbi kösövlər,
Qanında, canında istiqlal vardı,

Ürəyi kir ilə min cürə növlər,
Təbli həyatını əzaba sardı.

Cisminlə yox ikən, ruhunla varsan,
Adınla Vətəndə dirisən, şair.
Ziyasan, işıqsan, haqqa vüqarsan,
Millətin qeyrətli ərisən, şair.

Sağlığında ölü çoxu həyatda…
Əbədi ölməzlik qazanıb getdin.
Hər kəs qala bilməz əbədiyyatda,
Sən bunu dəhşətli zamanda etdin!…

Ey böyük şairim, ey Əhməd Cavad,
Sənin qeyrətinə baş əyirəm mən.
Vicdanı olana əzizdir bu ad,
Səntək ucalmaq istəyirəm mən.

**16. 04. 2003**

## AZƏRBAYCAN 5k

***Səməd Vurğunun***
***«Azərbaycan» şeirinə ithaf***

Məhəbbətin cana dəva,
Sənsiz nədir de su, hava?
Dodağımdan qopan dua,
Can içində sevdalı can,
Azərbaycan, Azərbaycan.

Xəzərinin bağrı coşar,
Fırtınalar aşıb-daşar,
Varlığımız sənlə yaşar,
Ürəyimdə dövr edən qan,
Azərbaycan, Azərbaycan.

Abşeronun küləkləri,
Göllərinin ördəkləri,
Coşdurar eşq ürəkləri,
Qaçaq düşər təndən hicran,
Azərbaycan, Azərbaycan.

Çıraqqalan bir aləmdi,
Duman düşdü, gözü nəmdi,
Sənlə keçən nə xoş dəmdi?
Sehirləşir hər saat, an,
Azərbaycan, Azərbaycan.

Könlünə yar istiqlalın,
Qəlbi oxşar bu cəlalın,
Sona yetsin qeylü-qalın,
Çatsın kama yurdda hər yan,
Azərbaycan, Azərbaycan.

Yel atında yal-yəhərin,
Tükənməsin bar-bəhərin,
Ötüb getsin qəm-qəhərin,
Zülmətində parlasın dan,
Azərbaycan, Azərbaycan.

Daim xeyrə olsun yazın,
Ötsün qışın, gəlsin yazın,
Bayrağında Ay-Ulduzun,
Qoy parlasın eşqlə hər an,
Azərbaycan, Azərbaycan.

Sabahımsan, gözəl Vətən,
Ey ürəkdə, canda bitən,
Varmıdır de, eşqinlə tən?
Deyir sənə yer-göy ay can,
Azərbayan, Azərbaycan.

Bakı, Şirvan, Şəki – mələk,
Mil-Muğanın arzu – dilək,
Qarabağın – viran ürək,
Düşmənini tutubdu qan,
Azərbaycan, Azərbaycan.

Gözəl Bərdən bir yaraşıq,
Ona baxan olar aşıq,
Eşqindən ver qaşıq-qaşıq,
Tökülübdü Şuşaya qan,
Azərbaycan, Azərbaycan.

Gözəl Şəki bir şahzadə,
Pak cənnəti salır yadə,
Səndən varmı heç dünyadə?
Bulaqların torpağa can,
Azərbaycan, Azərbaycan.

Oğuzunun meşələri,
Cənnət-məkan guşələri,
Qartalların peşələri-
Zirvələrdən qoparmaq san,
Azərbaycan, Azərbaycan.

Təbrizinə çatmır əlin,
Şux Urmiyan, Ərdəbilin,
Var Borçalı – gözəl elin
Sən bu eşqlə alovlan, yan,
Azərbaycan, Azərbaycan.
Cəbrayılın kəhrizləri,
Kəlbəcərin pak izləri,
Laçınının dağ-düzləri,
Yad əlində olub büryan,
Azərbaycan, Azərbaycan.

Sərvətlərin aşıb-daşır,
Dilə düşür, el dolaşır,
Dostun gülür, yağın çaşır,
Dərd ürəyi edir büryan,
Azərbaycan, Azərbaycan.

Abadlaşır kənd, şəhərin,
Yenə artır bar-bəhərin,
Ölüb gedər qəm-qəhərin,
Torpağındır gül-gülüstan,
Azərbaycan, Azərbaycan.

Lənkaranın yamyaşıldır,
Lerikinin üzü aldır,
Qızlarının dili baldır,
Yenə gülür üzə dövran,
Azərbaycan, Azərbaycan.

Gədəbəyin gözəl üzü,
Tovuz, Qazax ceyran düzü,
Nə gözəldir Gəncən özü?-
Səadətlə deyir zaman,
Azərbaycan, Azərbaycan.

Arazın lal, Kürün şaqraq,
Gur suları yurda çıraq,
Tarixini varaq-varaq,
Fəlakətlə alıb-qucan,
Azərbaycan, Azərbaycan.

Durub gəlsən, düş Salyana,
Tellərini bir sal yana,
Aşiqini qoyma yana,
Səninkidir, bu şöhrət-şan,
Azərbaycan, Azərbaycan.

Göygölünün dağ vüqarı,
Ram edibdi dostu, yarı,
Qoşqarının bumbuz qar
Çeşmələrdən verir nişan,
Azərbaycan, Azərbaycan.

Gözəl Quba bir tamaşa,
Çat Xaçmaza, gir qumaşa,
İstiqlalla, eşqlə yaşa,
Dada yetsin nəş'ə hər an,
Azərbaycan, Azərbaycan.

Qusar, Xudat qoşa şamdır,
Qədim Şabran ehtişamdır,
Qərib düşmüş – Dərbənd kamdır,
Bu kamınla sevdalan, yan!
Azərbaycan, Azərbaycan.

Siyəzənin gül – gülüstan,
Xızın yaşıl – göy bağ-bostan,
Tağayındır – könlə yatan,
Gözüm uymaz görrəm haçan?
Azərbaycan, Azərbaycan.

Şadimanın ürəyisən,
Can içində diləyisən,
Yerin, Göyün mələyisən,
Eşqindəndir hiss, həyacan,

Azərbaycan, Azərbaycan.
Azərbaycan, Azərbaycan.

**26.01.2008.**

## ANA DİLİM

Dərdin itsin ilim-ilim,
Sözümün dünyaya bəyanı,
Yanan ürəyimin həyanı.
Tələtümə gətirirsən ruhu-canı,
Sənin haqqını ayaqlar altına
atanlarını sanı.

Ana dilim,
Səndən öc alır ilim,
Sənsiz keçmir bircə anım,
Sənsiz necə varlığımı anım?
Sənin odunu qəlblərinə çatmayanlar,
Zülmətlərdə daralmış hayını
hayına qatmayanlar,
Heç qədrini bilməzlər,
Sözünün şirinliyinə gəlməzlər.

Ana dilim,
Haqqını tapdalasam yansın dilim.
Anamın sevdalı laylasından doğuldun,
Qətrə-qətrə qanıma, canıma dağıldın,
Beynimin içinə, ağlıma yığıldın.
Sətir-sətir, misra-misra havamsan,
Sən mənim Allahıma duamsan.

Ana dilim,
Ölərəm sənə çatmasa əlim.
Sən söz-söz alışıb yanan Füzuli harayı,
Sən yaralı Nəsiminin təb sarayı.
Sən yasımda ağlayan könlümün vayı,
Sən bir anlıq sevincimin nəş‘ə payı.
Dilimdən uçsan bil ki, canım çıxıb,
Fələk ömür taxtımı yıxıb...

Ana dilim,
De, kədərini bilim.
Bir zamanlar düşmənlər səni təklədilər,
Səni susdurub yox etmək üçün gəldilər.
Səni ruhundan ayırmaq üçün cinslərə böldülər,
Bu müsibətlər göldülər.
Bütün bunlara susmaq olmur axı,
Dərd çoxalanda ürəkdə qalmır axı.

Ana dilim,
Söz bağında solmasın gülüm.
İlahi göndərən mələyim.
Ruhu çağladan diləyim.
Sənsiz soyda, kökdə qalmaz heç nəyim,
Sənin səcdəndə titrəyir ürəyim,
Ana dilim...
Ana dilim...

**09.04.2009**

## MƏN VƏTƏNƏM

Mən VƏTƏNƏM…!
Bu torpaqda doğulanın
harayına yetənəm!
Sinəsində zaman-zaman
bülbül təki ötənəm!
Mən VƏTƏNƏM…!
***
Tanrım qədər yüksəkdədir,
Qanda, canda, ürəkdədir –
Xalqım mənim, elim mənim.
Əzabları ürəyimin ağrısıdır,
Bircə anlıq fəlakəti –
Gözlərimin uçub gedən yuxusudur.
Bir kimsəyə əyilməyən,
Xəyanətdə döyülməyən,
Ayaqlara döşənməyən,
Röyalarda üşənməyən –
Ürəyimin qorxusudur.
***
Bu torpaqda doğulmuşam,
Sevincimlə, kədərimlə
bu aləmə dağılmışam.
Bu xalq mənim, bu el mənim,
Varlığımı məhvərindən yıxıb-sökən,
Əzabımın qanın tökən,
Qəlb evimi qamarlayan,
Yollarımı hamarlayan –
Dəli-dolu təb sel mənim.
Doğulandan yağısının yağısıyam,

Ölər olsam, qız-gəlinin dodağında ağısıyam!
Bu torpağın insanın sinəsində mən bitənəm,
Qorunmasam, yağıların qılıncıyla
parçalanıb mən itənəm…
Mən VƏTƏNƏM…!

***

Tanrım qədər yüksəkdədir,
Qanda, canda, ürəkdədir –
Xalqım mənim, elim mənim,
Dağım mənim, çölüm mənim.
İllər keçir, deməyin ki, ölüm mənim.
Anaların laylasında tanrılaşan dilim mənim!
Bunun üçün bəxtiyaram,
Xoşbəxtliyə mən də varam,
Bu müqəddəs məmləkətə,
Başı üstə fəlakətə ahu-zaram.
Məni eşqlə sevənlərə, mən də yaram!
Deməsin ki, düşmənlərim ölüb bir gün
qarışacam bu torpağa!
Mən çörəyəm,
mən ürəyəm –
bərəkətli bağa, dağa,
Bulud təki gurşadımla
suvarıram çölü, düzü.
Çalışmasın yağılarım itirməyə
ayağımdan düşən izi!
Heç qatlaya bilməz dizi!
İnanıram, yetişəcəm azad çağa,
Bir münbütlük gətirəcəm
hər ağaca, hər yarpağa,
Qovuşacam xoş növrağa!
Mən şükürlü deyiləm heç bü günümə,
Bir sehirbaz axtarıram düyünümə…
Od yurdunun bircə qarış
elatı da mənimkidir,
Çəkilməyən dərdlərinin
həyatı da mənimkidir.
Ölənlərin ruhu zərif qanadlarım,
Durun illət yuxusundan, övladlarım,
Mən də deyim bəxtiyaram –
Nə yaxşı ki, bu torpaqda doğulmuşam!
Fəryadımla bu aləmə dağılmışam,
Zülm əlində boğulmuşam,
Daha cana yığılmışam –
Ehey, dünya, eşit məni,

Harayıma salım səni –
Mən də varam.
Köləliklə ərzə xaram,
Yıxıb-söküm bu zavalı,
Oda atım acı halı,
Ələ alım bu torpaqda ixtiyarı,
Olum mən də bu dünyanın bəxtiyarı!…
***
Mən VƏTƏNƏM,
Bu torpaqda doğulanın
harayına yetənəm,
Sinəsində zaman-zaman
bülbül təki ötənəm.
Ruhu məndən qidalanmış
insanının sinəsində bitənəm,
Mən VƏTƏNƏM!..
Mən VƏTƏNƏM!..

**12.08.2007**

## QANLARA BOYANDI BAKI AH İLƏ

***31 mart 1918-ci ildə Bakı erməni silahlı dəstələri tərəfindən Soyqırımına məruz qalıb…Və bu heç vaxt ağlımızın yaddaş səhifəsindən silinmədi.***

Otuz bir mart min doqquz yüz on səkkiz,
Saldın yaddaşlara necə qanlı iz.
Ağladın, hönkürdün diləyimizdən,
Ağrın heç getmədi ürəyimizdən!
Məzarlar dağıldı, qanunlar susdu,
Hər dəhşət beyində min yol qan qusdu.
Kitablar az yazdı bu cinayəti,
Qocalar yaşatdı bu hekayəti.
Yaddaşın gətirib imdadlarına,
Onlar pıçıldadı övladlarına.
Ağıllar hifz etdi qırğını, ahı,
Arxivlər gizlətdi haqdan günahı!
Fəqət unuduldu vaxtın sabahı,
Aldada bilməyib şeytan Allahı!…
***
Qanlara boyandı Bakı ah ilə,

Qırğın gecə ilə, sübh-sabah ilə.
Müsəlman olanın bağrı söküldü,
Bütün arvad-uşaq çölə töküldü.
Qanlar su yerinə axdı şəhərdə,
Boğuldu məmləkət acı qəhərdə.
Hər yeri qışqırtı, nalə bürüdü,
Burda insanları ölüm sürüdü.
Heç vaxt yayındırmır şər qibləgahı,
Aldada bilməyir şeytan Allahı.

***

Min doqquz yüz on səkkizin sədası,
Otuz biri martla oldu qadası.
Ölənlərin say-hesabı yox idi,
Ermənilər, bolşeviklər çox idi.
Ev-ev gəzir əllərində silahı,
Titrətdilər həm gecəni, sabahı.
Ünsüz göylər göz yaşını axıtdı,
Ölüm, qada Allahı da qorxutdu.
Minlər ilə kişi, qadın qırıldı,
Müsibətdən yerin bağrı yarıldı.
Bu fəlakət erməninin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

***

Hər həyətdə su quyusu var idi,
Bu quyular meyitlərə dar idi.
Tökürdülər ölənləri quyuya,
Etdikləri cinayətlər uyuya!
Ermənilər qırdı, çatdı Bakını,
Bircə gündə qana atdı Bakını.
Dalanlardan zarıltılar gəlirdi,
Hər qapıdan inilti yüksəlirdi.
Silahlılar, yaraqlılar at üstə,
Fəryad edib, vay deyənlər can üstə…
İblislərdən qorxusu var divin də,
Müsəlmanlar şəhid oldu evində!
Bu fəlakət erməninin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

***

Mən necə yazmayım bu qanı axı?

Sonrakı günlərdə Səlyan, Şamaxı,
Batdı qan içində Dəvəçi, Quba,
Doldu şəhidlərlə neçə el, oba.
Sanki məmləkətin bəxt çarxı döndü,
Günahsız ellərin çırağı söndü.
Erməni hiyləsi hər yeri aşdı,
Bütün yurd-yuvanı ölüm dolaşdı.
Uşaqlar atıldı oda, atəşə,
Bu qan yağılara bir iyrənc nəş'ə.

***

Osmanlı dözmədi bu müsibətə,
Qəlbindən hayqıran o məhəbbətə,
Yolladı köməyə Nuru Paşanı,
Qardaşın eşqiylə könlü daşanı.
Əskəri qüvvəsi yetdi imdada,
Bu böyük igidlik düşməzmi yada?
Qanı unutmadı millət ağılı,
Tarix dana bilməz qanlı nağılı.

***

Çox ağrılar, çox itgilər ötəcək,
Çox yaralar sinələrdə bitəcək.
Şəhidlərin nə köhnəsi, təzəsi,
Heçnə qalmıb səbrimizdən dözəsi.
Keçmişimiz bu günlərə ağlayır,
Bu dəhşətlər yeri, göyü dağlayır.
Bəşər varsa, iblis, şeytan durmada,
Canımıza min bir hiylə qurmada.
Qoy həqiqət beynimizdən itməsin,
Qəlbimizdən çox uzağa getməsin.
Bu fəlakət ermənin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

**30.03.2008**

## ZƏNCİRLƏNMİŞ PROMETEY

***Qəhraman əskərimiz***
***Ramin Səfərova ithaf***

Haqqın ayaqlar altında,
Xəyalın igidlik atında,
Bir fırtına baş verdi həyatında,

Nifrətlər tüğyan etdi könlünün
ən dərin qatında.
Ulularin sədası bağrında qopartdı hey,
Zəncirlənmiş Prometey!
***
Düşmənin hərzələrinə,
təhdidlərinə dözə bilmədin,
Məğlub adıyla gəzə bilmədin,
Bu ağrının içində üzə bilmədin,
Müsibətin şiddəti sızlayan ney,
Zəncirlənmiş Prometey!
***
Ey igidim,
Mən bu üsyana can dedim!
Ey qəhrəman ƏSKƏRİM,
Ey nərəsiylə dünyanı titrədən nərim,
Haqqımız key, başımız sərsəm,
Bu ağrını kimə desəm
yanıb tökülər,
Sinəsinə dağlar çəkilər.
Biz hər əzaba dözə-dözə itiririk,
Könlümüzdə fəlakətlər bitiririk,
Bu fəlakətlər sərxoş edən acı mey,
Zəncirlənmiş Prometey!
***
Sən Macar dediyimiz ölkədə,
Lap çoxdan qanımızın qarışdığı bölgədə,
Erməni təhdidlərindən şir təki qızışdın,
Qurd kimi qəzəbindən daşdın,
Bütün qadağaları aşdın…
Qasırgalar təki əsdin,
Murdar düşmənin başını kəsdin!
Bu haqqımızı misqal-misqal,
zərrə-zərrə qul qismində tutanlara,
Neçə ildi könlümüzə çatanlara,
Uşaqlı-böyüklü bizi təslimçiliyə atanlara,
Ağlı-qaralı riyaya,
Bütünlüklə səsimizi boğan dünyaya
Yer-göyü titrədən giley,
Zəncirlənmiş Prometey!
***
Koroğlu hoylum ey,
Haqqına maylım ey,
Öz gücünə hayılım ey,
Qəzəbi sönmüş qurda lazımsan,

Əsir düşmüş yurda lazımsan,
SƏN BİZƏ BURDA LAZIMSAN!!!...
Ora qərib qəfəsidir,
Bu VƏTƏNİN səsidir,
Bu səsi eşit ehey…
Uca boylum, qartal baxışlım ey,
Zəncirlənmiş Prometey!...
Zəncirlənmiş Prometey!...

**23.11.2008**

## DİLİMİZİN DUASI

Vətənin diriliyi,
İnsanının dirliyi.
Gələcəyi, birliyi –
Himnimiz can havası,
Dilimizin duası.

O bizim eşq sevdamız,
Odur yaşam qidamız,
Qəlbdən qopan nidamız,
Himnimiz can havası,
Dilimizin duası.

Doxsan illik zamanı,
Tarixdə ah, amanı,
Heç bitərmi peymanı?
Himnimiz can havası,
Dilimizin duası.

Onun sətiri, sözü,
Ürəyimizin közü,
Girib könlə o özü,
Himnimiz can havası,
Dilimizin duası.

Yurdun dünyaya nuru,

Hər misra sudan duru,
Övladının qüruru,
Himnimiz can havası,
Dilimizin duası.

Üzeyirin, Cavadin–
İki böyük ustadın,
Yazdı tarixə adın,
Dilində dostun, yadın,
Himnimiz can havası,
Dilimizin duası.

Ey Şadiman, qoruyaq,
Qanımızda arıyaq,
Canımıza sarıyaq,
Himnimiz can havası,
Dilimizin duası.

**27.07.2008**

## BİR TƏRƏFDƏ ŞƏHİDLƏR, BİR TƏRƏFDƏ DANIŞIQ

Bir tərəfdə şəhidlər, bir tərəfdə danışıq,
Haçan yanar, ey Vətən, yurdumuzda gur işıq.

Şəhid balalarının goru çatlayır axı,
Dözmür ürəklərimiz qəmdən partlayır axı.

Qətrə-qətrə qanımız tökülür yurd-yuvaya,
Öyrəşibdi ağzımız yalvarışlı duaya.

Danışıqlar tükənmir, danışıqlar uzanır,
Biz təslimə öyrəşir, düşmən zəfər qazanır.

Bu dəyirman çox sular aparacaq deyəsən,
Yağı neçə il möhlət qoparacaq, deyəsən?

Uzanır danışıqlar, uzanır sövdələşmə,
Neçə masa önündə kağızla vədələşmə.

Qaçqın balalarından doğulanlar haralı?
Şəhid Qarabağımız min bir yerdən yaralı.

Əsir düşən balalar, şəhid olan balalar,
Yığışmışıq Bakıya ucaldırıq qalalar.

Düşmən içir Şuşanın qanını qaşıq-qaşıq,
Haçan yanar, ey Vətən yurdlarında gur işıq?!...

**31.10.2010**

## İNDİ HAMI VARLIYA, PULLUYA TƏ‘ZİM EDİR

İndi hamı varlıya, pulluya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Təmizliyi, düzlüyü bəxtinə şüar tutan,
Bəşəri niyyətləri ürəyinə yar tutan,
Rüşvəti, əyriliyi vicdanına xar tutan,
Haqq yolunu ömürlük amalına var tutan,

İndi hamı varlıya, pulluya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Haram yolla özünü tutanlar kefə vurğun,
Hər gün çal-çağırdadır zövqləri dəfə vurğun,
Hiylələr tor toxuyur, dillər kələfə vurğun,
Pul-paraya həsrətlər harın tərəfə vurğun,

İndi hamı pulluya, varlıya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Yaltağlığın kökündə qorxaqlıq rişə atır,
Harınlaşmış bəndələr rişəyə nəş‘ə atır,
Kefə soğan doğrayır, haqqını dişə atır,
Yerə, göyə, Allaha hər gün əndişə atır!

İndi hamı varlıya, pulluya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Bir deyən yox bu sərvət hardan, nədən yığıldı?
Bəlkə sənə Rəbb verən ayrıca bir ağıldı?

Ya ki, bu gördüklərim yuxu, röya, nağıldı...
Sərvətinin izzəti nə tez belə dağıldı?

İndi hamı pulluya, varlıya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Bir tərəfdə göz yaşı - kasıb, uçuq komalar,
Sakininin ahını dər-divara komalar,
Bir tərəfdə saraylar - göz qamaşan əmmalar,
Dil ucunda neştər tək durub qalıb ammalar…

İndi hamı varlıya, pulluya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Sorulmur bir yol nədən hardan daşdı sərvətin?
Vəzifədən cibinə işlədi səxavətin,
O yığdığın pul-para sənin deyil, millətin!
Ermənidən güclüdür bu xalqla ədavətin!

İndi hamı varlıya, pulluya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Subayların yaşları artıq qırxa çatıbdı,
Haramzada olanlar abrın dala atıbdı,
Oğrular, narkamanlar öz başların qatıbdı,
Millətin yarısının qara bəxti yatıbdı,

İndi hamı varlıya, pulluya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Haram yeyən dünyanı hey gəzdikcə doymayır,
Deyir millət cəhənnəm, özün gözdən qoymayır,
Yığdığca yığır pulu gözü xeyrə uymayır,
Daha camaatı da adam kimi saymayır,

İndi hamı varlıya, pulluya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Çoxu yaltaq olmağı özünə adət bilir,
Zənn edir ki, bir şərəf böyük səadət bilir,
Bu işi Allahına səcdə, ibadət bilir,
Aləmi şeytan sayır, şeytana hiddət bilir,

İndi hamı varlıya, pulluya tə‘zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Ey Şadiman, özümə dinc durmağı söylədim,
Yazan əlim üstündən gürz vurmağı söylədim,
Aləm ilə dil tapıb iş qurmağı söylədim,
Atma heç şər-filana söz qarmağı söylədim,

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

**17. 12. 2009**

## DÜŞMƏNİ KÖKSÜNDƏN VURDUN, MÜBARİZ

***İnternetdə, erməni saytlarında Azərbaycanın***
***Milli Qəhrəmanı, cəsur əskərimiz Mübariz***
***İbrahimovun nə'şi nümayiş etdirilir.***
***Meyitimizdən qisas alan düşmənin***
***alçaqlığı və qorxaqlığı göz önündədir.***
***Bütün dünya buna tamaşa edir!***
***Səssiz, lal, sükut içində…***

Çəkdin yağıların sinəsinə dağ,
Nərəndən titrədi əsir Qarabağ,
Nədən qürurluyuq ölüyük, ya sağ?!
Bu dərddən kükrəyib durdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Qisasın yolunu öyrətdin bizə,
Mənfur iblislərə nifrətin nizə,
Yaradan bu şərdən xilası çözə,
Dərdi nə ağırmış yurdun, Mübariz?
Düşməni köksündən vurdun, Mübariz.

Yetdin şəhidliyə şir ürəyinlə,
Mübarək bahadır, pir ürəyinlə,
Əlləşdi, vuruşdu sirr ürəyinlə,
Bu sirdən bir tarix qurdun, Mübariz,
Düşməni küksündən vurdun, Mübariz.

Dur, EY VƏTƏN OĞLU, boyuna qurban!

Elinə, kökünə, soyuna qurban,
Heç vaxt olmayacaq toyuna qurban,
Bağrından boylandı qurdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Meyitdən qisası alan cəlladlar,
Şər olan yerlərə qədəmin adlar,
Tarixə köçəcək müqəddəs adlar…
Qeyrətçin keşikdə durdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Çingiz harayına qarışdı sədan,
Əsir Ramildənmi gəldi haqq nidan?!
Yaralı Vətəndən hər gün qəm udan,
Avtomatın oldu ordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Xain, hiyləsindən heç vaxt dönməyir,
Ya kin-küdurəti bir an sönməyir,
Yağı sinəsində qəlb döyünməyir,
Qisası qisasdan sordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

İgidim, olmusan məşhuri-cahan,
Şəninə söyləyir yer-göy də sübhan,
Can şəhidim deyir dil-dodaq, dəhan,
Canların içində qordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

İnternet saytı nə‘şinə çıraq,
Verir cəsurluqdan nə‘şin də soraq,
Biz də sənə baxıb tilsimi yaraq,
Divin şüşəsini qırdın, Mübariz,
Düşməni köksündən vurdun,Mübariz.

Atanın, Ananın, Vətənin canı,
Nə şərəfli etdin Azərbaycanı,
Şadiman şeir edir hiss-həyacanı,

Könlün misra-misra sardın, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.
Düşməni köksündən vurdun, Mübariz.

**18.08.2010**

## VƏTƏNDƏN YAZAQ

***Qoy Vətəndən Müdafiə Naziri***
***yazsın deyən, şair həmkarıma...***

Vətən can evimiz, Vətən qanımız,
Odur yurd-yuvamız, el ünvanımız,
Onsuz ahı-vayla keçər anımız,
Qanmazdan yaxşıdır yurda qaradaş,
Bu hissi duymayan şairmi qardaş?

Şairin Allahı – Vətən olmalı,
Cana sevda ilə o tən olmalı,
İçində yurduna bir «Mən» olmalı,
Ölkənin gözündə boğulubdu yaş,
Bu hissi duymayan şairmi qardaş?

Bizə çox mətləbi unutdurublar,
İçdə odumuza su qatdırıblar,
Gözə sığal çəkib bərk yatdırıblar,
İndi millət kimi olmuşuq çaş-baş,
Bu hissi duymyan şairmi qardaş?!

Dərbəndim, Borçalım, Təbrizim hanı?
Yağılar itirən mərd izim hanı?
O şahlı, sultanlı gündüzüm hanı?
Yad vuran yumruqdan inildəyir baş,
Bu hissi duymayan şairmi qardaş?!

İşğalda Qarabağ oğul haraylar,
Düşmən qanımızdan yapır saraylar,
Şəhid anasının dilində vaylar...
Vaydan titrəməyən insan deyil – daş,
Bu hissi duymayan şairmi qardaş?!

İtirilmiş yurdlar bizdən gileyli,
Yurdu qamarlamaq yağının meyli,
Bəsdir bu qanları unutduq xeyli,
Vətən işğallarda – ötür keçir yaş,
Bu hissi duymayan şairmi qardaş?!

Bu düşüncə ilə millət olarmı?
Bundan həqarətli zillət olarmı?
Xalq da yad əllərdə alət olarmı?
Salma öz yerini yağı ilə çaş,
Bu hissi duymayan şairmi qardaş?!

Vətən qələmimin söz qalasıdır,
Canımla ürəkdə bir qalasıdır,
Könlümdə ilhamdan yurd salasıdır,
Küfür duyğuların sərhədini aş,
Bu hissi duymayan şairmi qardaş?!

Hadisə sayırsan şairliyini,
Yazar dunyasına dairliyini,
Aləmə faş etdin zailliyini,
Dilin göz çıxartdı, viran etdi qaş,
Bu hissi duymayan şairmi qardaş?!

Sən yad ölkələrdə qala bilərsən,
Ömürlük məskən də sala bilərsən,
Orda işdə uğur çala bilərsən,
Qürbətlər acısı dodaqlarda kaş!
Bu hissi duymayan şairmi qardaş?!

Şadiman odunda yanıb kül olub,
Dərdinin bağında ahı gül olub,
Vətəni unudan başa kül olub,

Yurd bazar deyil ki, edəsən daş-baş,
Bu hissi duymayan şairmi qardaş?!
Bu hissi duymayan şairmi qardaş?!

**12.10.2011**

## YOLUM DÜŞDÜ QARABAĞIN ELİNƏ...

Yolum düşdü Qarabağın elinə...
Ağrı gördüm kəndlərində vay kimi.
Ahu-fəğan süzülürdü dilinə,
Əzabları top dağıtmaz yay kimi.

Ağdamını kölə edib almışlar,
Qollarına qara qandal salmışlar,
Ürəyindən ilan təki çalmışlar,
Gözlərindən yaşı axır çay kimi.

Kənd-kəsəyi əsirliyin içində,
Qan ağlayır qorxu-hürkü içində,
Dilindəki sözlər bürkü içində,
Təndirində alışırdı yay kimi.

Dondurulmuş müharibə qoxusu,
Ərşə qaçıb adamların yuxusu,
Uşaqların gözlərində qorxusu,
Boylanırdı dodaqlarda hay kimi.

Əskərimiz səngərlərə düzülüb,
Qarabağın daha səbri üzülüb,
Qanı axıb ürəyinə süzülüb,
Bizə baxır işin bilməz zay kimi.

Güllə səsi qulaqları dəng edir,
Haqqımızı boğanları ləng edir,
Dinsiz haylar uşaqla da cəng edir,
Özlərini şərə tutur tay kimi.

Qarabağın bəxti düşüb düyünə,
Ürək qalmıb sinəsində döyünə,
Bu millətdən olan nəylə öyünə?
Tapdalanır yerdə özü tay kimi...

İrəvanın xanlığın yox etdilər,
O ellərdə daha haylar bitdilər,
Xankəndinin varlığını diddilər,
Yurdlarımız qoparılır pay kimi...

Əhvalımız düşüb dilə gülməli,
Ya hamımız xilas yolun bilməli,
Ya döyüşüb, ya  da dərddən ölməli,
Xıncımlanır torpağımız lay kimi.

Bu Vətənin bir tərəfi əsirdir,
Bir tərəfi bər-bəzəkdir, qəsirdir,
Ağlımızda kökün atan nə sirdir?
Çıxıb batır gecə güdən ay kimi.

Niyə bizim haqqımızı alıblar?
Alıb onu qara günə salıblar,
Min bir yerdən düyün vurub çalıblar,
Bu dünyada sayılırıq say kimi.

Neçə ildi çarpmayırıq nəzərə,
Göz önündə ağlamalı mənzərə,
Belə getsə tökülərik Xəzərə...
Yurd ağzında qalarıq lay-lay kimi...

Şadimanı zəncirləyin sözündən,
Ocaq çatıb tonqal tutun közündən,

Sorun dərdi bu Vətənin özündən,
Nə qalacaq yurda haqqı-say kimi?!..

**16.04.2011**

## ÜZEYİR ELİMİZİN DAHİSİDİR

***Dahi Üzeyir Hacıbəylinin
əziz xatirəsinə***

Yazdı ilk operanı - ad elədi,
«Leyli-Məcnun» ilə fəryad elədi,
O böyük Füzulini yad elədi,
Şərqdə musiqini abad elədi,
Operanı yurda övlad elədi,
Bu elmdə neçə ustad elədi,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Bəllidür aləmə bəyzadəliyi,
Bəy ola-ola elə sadəliyi,
İstiqlal yolunda azədəliyi,
Ziyalı ad-sanına zadəliyi,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Yayılıb hər tərəfə uca adı,
Arşın-Malalan, Məşədi İbadı,
Necə heyrətdə qoyub dostu, yadı,
Ucaldır sənəti bu pak ustadı,
Üzeyir elimizin dahisidir,
Müsiqi elmimizin dahisidir.

O böyük el yazarın işığı var,
Neçə min cümlə-cahan aşığı var,

Ona kəm baxanın yad qarşığı var!
Onun dürr sənətinin yaraşığı var,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

O Milli himni-inqilab elədi,
Çökdü istiqlal-iztirab elədi,
«Koroğlu»-«Cəngi» haqqısab elədi,
Bu kimi ağrılara tab elədi,

Ürəyin hər əzaba bab elədi,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Şərqdə ilk operanın banisidi,
Bu adı danan elin canisidi,
Onun etdikləri yurdun bəsidi,
O Böyük Rəbbinin divanəsidi,
Məhəbbətin dəli pərvanəsidi,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Bu adın şöləsi-Qarabağımız,
Xarıbülbüllü – Şuşalı çağımız,
İndi əsir olalı qəlb dağımız,
Musiqi beşiyidür  sorağımız,
Nətəvan ruhuna – quldu ağımız,
Şuşaya sancılmasa bayrağımız,
Əbədi yanmayacaq çırağımız,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

O böyük ziyaya izzət eləyək,
Adının eşqinə hörmət eləyək,
Nə ki, min cövrlə minnət eləyək,
Bu ulu dahini zinnət eləyək,
Ona xor baxana – lənət eləyək,
Haqqını qorumağa – qət eləyək,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Şadiman, çəkmə belə ağrı-acı,
O böyük sənətkarın başda tacı,
Onun ilhamının Rəbbdən xəracı,
Bunu hər kimsə danır qəlbə acı,
Onun ağlındadı şeytanın ucu,
Hər iki dünyada yoxdu əlacı,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

**27.01.2008**

## KÖÇDÜ HAQQ DÜNYASINA ŞEİRMİZİN BƏXTİYARI

***Haqq dünyasına qovuşmuş ustad şairimiz Bəxtiyar Vahabzadəyə***

Ey Vətən aşiqi-nur, türk dilə sevda eləyən,
Ey sevib millətini eşqini qida eləyən,
Ey ana südü təki könlünə nida eləyən,
Ey ölüm xəbəriylə bizə əlvida eləyən,
Getdi əldən Vətənin canı-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Bu ağır itgiyə heç gözdəki yaş bəs eləməz,
Bəbəyim dəryaya dönsə, bunu əbəs eləməz,
Təbi yoxsa sinənin, ustada həvəs eləməz,
Onun söz aləminin etdiyin hər kəs eləməz,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Oxuyub kitabını sözləriylə huş etdik,
Dadaraq misrasını könlümüzə nuş etdik,
Oxşadı qəlbimizi ömrü boyu cuş etdik,
Bu böyük sənətkara hər cürə alqış etdik,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Aparır qəbr evinə bir düşünən başı diyar,
İtirib öz dilinə, yurduna sirdaşı diyar,
Qoyacaqdı məzara böyük Vətəndaşı diyar,

Ağladır qəmi-ələm torpağı, dağ, daşı, diyar,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Çox yazarlar gələcək, tərk edəcək dünyanı,
Bir belə şöhrəti də tutmayacaq hər yanı,
Sözü cəfəng olanın həqqi sevər xulyanı,
Salmadı kitabına, varağına riyanı!..
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Neçə il əhd elədim yetmədi ustadə dilim,
Daha gecdi yetişib getməyə o dadə, dilim,
Tutub hər beytimə yas ağlayır fəryada, dilim,
Necə gəlsin qələmim etdiyi imdadə, dilim?!
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Qələm əhli olanın könlü gedir aha sarı,
Gecə-gündüz ürəyi üz tutur Allaha sarı,
Aparır misraların sözünü sabaha sarı,
Kimi səvaba gedir, kimi də günaha sarı…
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Şadiman bu ölümə ah ilə büryanə gəlib,
Yığışıb əhli-diyar dərdə yanə-yanə gəlib,
Bu ağır itgiyə el hüzünlə həyanə gəlib,
Döyüb qapını ölüm Əzrayıl həyanə gəlib?
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

**13.02.2009**

## ÇƏKDİ YAZIQ MİLLƏTİNİN AĞRISIN

***Böyük Vətəndaş***
***Mirzə Ələkbər Sabirə***

Çəkdi yazıq millətinin ağrısın,
Haqqına şam etdi sözün doğrusun,
Cəhd elədi dərdü-qəmə bağırsın,
Tapmadı ahına qanan çağırsın,
Qəlbi gördü yaraları Sabirin.
Sözü gəzdi haraları Sabirin?

Etdi ağıl cövhərinə cəfanı,
Ürəyindən əksiltmədi vəfanı,
Yazdığına gözləmədi səfanı,
Bulmadılar ciyərinə şəfanı,
Uddu bəxti qaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Qələmini kağıza yar eylədi,
Şeirləri aləmə car eylədi,
Haqqı yaman nahaqqı kar eylədi,
Beyitləri hər misra bar eylədi,
Dərdi üzdü çaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Ölkəsinin qəflətinə ağladı,

Sağalmayan illətinə ağladı,
Ac-yalavac millətinə ağladı,
Ömrü boyu zillətinə ağladı,
Artdı şeir sıraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Dərdi bişdi sabun ilə tiyanda,
Haqq nazilir, üzülməyir hər yanda,
Baş ağrıyır hər bəlanı duyanda,
Bu minvalla təmizliyə uyanda,
Təbi pozdu araları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Xalqa yanan misrasını dil etdi,
Beyti hikmət bağçasına gül etdi,
Qanmayanlar gözlərinə tül etdi!
Nadan əhli külliyatın kül etdi,
Ahı qarsdı qoraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Kim deyər ki, «Hophopnamə» yuxlayıb?
Fəryad ilə naqisləri oxlayıb,
Ürəklərdə hörmətini saxlayıb,
Ey Şadiman, misrasını qoxlayıb,
Bükər könül xaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

**06.06.2009**

## BÖYÜK ƏMƏLLƏRİN YAŞAR ELLƏRDƏ 4

***Məşhur xeyriyyəçi Bakı milyonçusu Zeynalabdin Tağıyevin ruhuna…***

Böyük əməllərin yaşar ellərdə,
Adın nəsil-nəsil gəzər dillərdə,
Sən xalqın, millətin dayağı oldun,
Bu ana Vətənin mayağı oldun.
Yurduna sərf etdin varı, sərvəti,
Künclərə dürtmədin pulu, dövləti.
Atalıq eylədin imkansızlara,
Fəqir-füqəraya çox kamsızlara.

Çəkdin şollar suyun Bakıya bir vaxt,
Su deyən dilləri eylədin xoşbaxt.
O qız gimnazyanın adı ucaldı,
Mövhumat üstündə qələbə çaldı.
Teatr, dəyirman, fabrika açdın,
Millətin qəlbində günəştək saçdın.
İlahi tökdükcə başına pulu,
Sən onun əyilib olmadın qulu…!
Millət atasıtək tanındı adın,
Ucuz təriflərə əsir olmadın.
Şimaldan cənuba gəzdi sorağın,
Yandı məmləkətdə qeyrət çırağın.
Tikdiyin binalar Bakının gözü,
Hər biri tarixdi bunların özü.

***

Ey Vətən aşiqi, millət dayağı,
Varmı xeyriyyəçi səninsayağı?

Sərf etsin varını, pulunu elə,
Həkk olsun əbədi ağıza, dilə.
Sən ellər atası, ellər sevinci,
Millətin içində parlayan inci.
Pulunla, varınla öyünmədin heç,
Yabançı hisslərlə döyünmədin heç.
Vətənə xidmətdə oldun əbədi,
Qurdun könüllərdə sevda mə'bədi.

***

İmperya çökəndə istiqlal gəldi,
Bayraqlı ulduzlu pak hilal gəldi,
Fəqət bu səadət çəkmədi uzun,
Keçdi caynağına ölkə quduzun…
Vətənin üstünü aldı fəlakət,
Bir gün yasa batdı ana məmləkət.
Torpaq da, diyar da çox qanlar içdi…
Qırmızı terrorun əlinə keçdi.
Varını taladı gədə-güdələr,
Elə çalışdılar zülüm edələr.
Mərdəkanda bağa sığındın o vaxt,
Qaldın cəlladların əlində bivaxt.
Canına toxunub dəyməsələr də,
Üzdə mənliyini əyməsələr də,
Könlünün sutunu uçdu töküldü,
Bütün diləklərin içdən töküldü.
Sən atıb getmədin yurdu, Vətəni,
Qucdu ana torpaq müqəddəs təni.
Məzarın Mərdəkan elində yatır,
İşığın günəşin özünə çatır.
Bir el atasıtək dillərdə qaldın,
Tarixin özünə sən zəfər çaldın.

**03. 11. 2004/Neft Daşları**

## AH, YAZIQ MƏMLƏKƏT,
## AH, YAZIQ VƏTƏN…

Ah, yazıq məmləkət, ah, yazıq Vətən,
Könlümün içində eşq ilə bitən,
Adın rüşvətlə talanıb gedir,
Ürəyin ağrıyla bulanıb gedir.
Əzabdan o yana yolun yoxmu heç?!
Varsa müsibətdən bir qurtulub keç.
Dilin haqq arayır cəllad əlində,
Gözlərin boğulur kədər selində.
Rüşvət sevgisiylə çırpınır başlar,
Göydən başımıza tökülür daşlar.
Hər gün aldadan kim, hər gün alan kim?
Kim-kimə oğrudur, kim-kimə məhkum?
Qanuna zülm edən yalançı hakim,
Qanun can verərkən olarmı həkim?
Bizim ağlımıza kim deyəcək can?
Bizim içimizdə şahdı həyacan!
İşimiz rüşvətsiz keçmir heç yerdə,
Yaxşı vərdiş etdin, ey Vətən, dərdə.
Rüşvət beynimizin həyat qurşağı,
Rüşvətlə oxşanır bağça uşağı!
Məktəbdə rüşvətlə bilik alırlar,
Rüşvətlə elimli adam olurlar.
Ali məktəb pulla açır qoynunu,
Rüşvətlə fırladır iblis oynunu!
Rüşvətin quludur bütün məmləkət,
Vətən, bundan böyük yoxdu fəlakət!
Beyini rüşvətə qul olan millət,
Kimsədən diləyə bilməz ədalət.
Biz haqqı rüşvətlə əsir etmişik,
Bütün zehnimizi yesir etmişik.

Rüşvətlə maşınlar, evlər alınır,
Rüşvətlə saraylar, mülklər salınır.
Rüşvətə əyilir ağlımız hər gün,
Rüşvət almayana deyirlər miskin.
Vəzifə kürsüsü ona yad olur,
Hər gün təmizliyi bir fəryad olur.
Rüşvətin dəlisi olan millətin,
Tanrı azaltmayıb heç vaxt zillətin.
Əsir torpağımız yağı əlində,
Ölünün, dirinin ağı dilində,
Pulla düzəldirik hər işimizi,
Rüşvətə qul etdik vərdişimizi!
Sonra da yapışıb mikrafonlara,
Tele-radioyla girdik donlara,
Ekrana rəng verib düşdük anlara…

***

Ziyalı deyərək sinə yırtırıq,
Kütlənin gözünə hey kül atırıq.
Kütləsə fəxr edir bizlə hər zaman,
Bizə səcdə edib, gətirir iman.
Ey şair, ey alim, ey boyalı baş!!!
Vətənin gözündən sel tək axır yaş!
Bu yaşlar içində boğulur millət,
Bütün yer üzünə dağılır millət!…

***

Dünyaya göz açır rüşvətlə körpə,
Rüşvət yatmır daha heç sapa-ipə.
Ölüyə, diriyə rüşvətdi əlac,
Ölkə başdan-başa rüşvətə möhtac.
Rüşvət verməyənə iş yox, peşə yox,
Rüşvət verənəsə bir əndişə yox.
İblisə, şeytana qul olub qaldıq,
Özmüzü iblisin gününə saldıq.
Ürəyin içində bu dərdlər bitən,
Çarə yox nə sənə, nə mənə Vətən…

**11.04.2007/Neft Daşları**

## MÜƏLLİM 6k

Həyat yollarında sönməz çırağsan,
Sənətin ölməzdir sənin, müəllim.
Nurlu gələcəyə böyük dayaqsan,
Məsləkin dönməzdir sənin, müəllim.

Sən öyrətdin bizə özgə dilləri,
İşıqlı günlərə çatdıq əlinlə.
Nura bəxş elədin bu nəsilləri,
İyrənc cəhaləti atdıq əlinlə.

Həyat yollarında çəksən də əzab,
Sənət zirvəsində döndün ulduza.
Ağartsa saçını fikir, iztirab,
Döndü əməllərin ətirli yaza.

Bilik ver müqəddəs ellərimizə,
Vur gözəl dövranı başa, müəllim.
Böyük həyat yolun öyrətdin bizə,
Ürəkdən deyirik yaşa, müəllim.

Biliyin, savadın – uca qalası,
Sən bizə həm ürək, həm də dirəksən.
Vətən torpağının nəcib balası,
O nəcib yoluna daima əhsən.

Əziz bayramında bir nəğmə olan,
Şəninə alqışlar deyək, müəllim.
Həyatın ən şirin neməti olan,
Cansağlıq diləyək sənə, müəllim!

**15.10.1972**

## NEFTÇİLƏR

***Siyəzən neftçilərinə***

Əzəldən qüdrətli şöhrət-şanınız,
Düşdü ağızlara, elə car oldu.
Neftçi qəhrəmanlar, mərd ad-sanınız,
Vətənin dilində bir şuar oldu.

Bürünüb bir qara qızıla diyar,
Qorxutmasın sizi qışın tufanı.
Adınız müqəddəs, ürək bəxtiyar,
Əməklə ucaldın Azərbaycanı!

Boranlı günlərdə, qarlı zamanda,
İşdən soyumayır sizin əliniz.
Yağışda, yağmurda, çiskin, dumanda,
Uğursuz keçmədi bircə iliniz.

Siz qiymətli neftin töhfələrindən,
Dünyaya tonlarla yola saldınız.
Tarixin silinməz səhfələrindən,
Pozulmayacaqdır, sizin adınız.

Göylərə yüksələn neftin şöhrəti,
Neftçinin halalca dirliyindədir.
Doğma Vətənmizin sonsuz qüdrəti,
Bizim mübarizə birliyindədir. **20.12.1972.**

## GÖZƏL VƏTƏNİM

Ey gözəl Vətənim, qəlbimdə yenə,
Sənə söz qoşmaqçın ehtiyac duydum.
Vətənim, dühalı söz xəzinənə,
Yeni söz deməkçin xəyala uydum.

Məhəbbət hissiylə coşur ürəyim,
Necə söz deməyim sənin eşqinə?
Qəlbimdə yurd salıb arzu, diləyim,
Vətənim, nələri demim şövqünə?

Kaş bir quş olaydım, uçaydım, Vətən,
Ünyetməz göylərdə qanad açaydım.
Böləydim arzumu bir cənubla tən,
Əlçatmaz zirvəyə mən də qaçaydım.

Əngin səmaların dərinliyində,
Tərlan quşlar təki azad süzəydim.
Yayda yaylaqların sərinliyində
Doyunca çəməndə çiçək üzəydim.

Kaş bir quş olaydım, uçaydım, Vətən,
Şimaltək Cənubu bir seyr edəydim...
Geniş ormalara qaçaydım, Vətən,
Yurda şadlıqlartək qonaq gedəydim.

Yamacdan laləni asta dərəydim,
Sonra dəstə tutub başa səpəydim.
Saçıma güllərdən çələng hörəydim,
Diz çöküb hər qarış düzü öpəydim.

Vətən, anam qədər əzizsən mənə,
Səni xəyallarda aramıram mən.
Köksümdə döyünən ürəyim sənə,
Deyir, bu füsnükar yurduna əhsən.

Azad beyinlərin odlu ölkəsi,
Ay əqlim, zəkalı düşüncəm mənim.
Uzaqdır üstündən qəm-dərd kölgəsi,
Ay böyük sərvətli odlu məskənim.

Qafqazım, Şahdağın sənə yaraşıq,
Kəpəzin, Qoşqarın, Dəlin zinətin.
Olub əzəmətə gözüm də aşıq,
Çünki əzəl başdan düzdür niyyətin.

Xəzərin, Arazın, Kürün nəbizin,
Bakı ürəyindir, neft isə qanın.
Pambıqlı tarlalar coşğun dənizin,
Başı uca edir bu adın, sanın.

Şanlı günlərimin ay xoşbəxt canı,
Ümidlə sabaha düşüb gedirəm.
İnanki heyrətdə qoyan zamanı,
Ətirli torpaqda bax seyr edirəm.

Gözəllər diyarı, ay gülüstanım,
Qəlbimə ruh verən nəğməm olmusan.
Ay mənim həyatım, ürəyim, canım,
Əzəldən əzizim, doğmam olmusan.

Nəğməkar hissiylə coşanda könlüm,
Sevincdən arzular qol-qanad açır.
Hüsnünə nəğmələr qoşanda könlüm,
Ünyetməz göylərdə şəfəqlər saçır.

Babam Dədə Qorqud müdrik diyarı,
Ay Cavanşir, Babək, Koroğlu eli.
Odlu vicdanların nəğməli yarı,
Coşğun ürəklərin gurlayan seli.

Səndən zövq almışdır saysız qəhrəman,
Nigarın, Həcərin qoçaq anası.
Dahilər, şairlər yurdusan hər an,
Fikrin, düşüncənin nazlı sonası.

Alisən, qorxmazsan, mərdsən, ey Vətən,
Əlçatmaz dağların büllur bulağı.
Xainə, namərdə dərdsən, ey Vətən,
Yurdumun, yuvamın qudrət torpağı.

Xoşbəxt bir zamanda, gündə olmuşuq,
Tufandan, borandan könlümüz uzaq.
İllərin hökmüylə yaşa dolmuşuq,
Ətalət, cəhalət qəlblərdən uzaq.

Sən bir qartal kimi məğrursan, Vətən,
Qürurun şahintək vüqarlı olub.
«Hüsnünə heyranam» deyir hər ötən,
Duyan könüllərə şadlıqlar dolub.

Müdrik kəlamlarla doludur sinən,
Nizami, Füzuli yetirmisən sən.
Sənin ilhamından, eşqindən dinən,
Fərhadlar, Şirinlər bitirmisən sən.

Müşfiqin, Cavadın yanan ürəyi,
Cəfərin, Cavidin qaynar həyatı.
Vaqifin, Vahidin könül dirəyi,
Şeirdir, sənətdir o kainatın.

Od yurdum, sinənin üstə doğulduq,
Köksündən dinlədik söz xəzinəsin.
İllər hökm verdi, biz yaşa dolduq,
Öyrəndik torpağın öz xəzinəsin.

Sinəndən yadigar alıb doğrunu,
Ərənlər yaşatmış eli, obanı.
Böyütmüş hər zaman insan oğlunu,
Cavanı hörmətli sanmış babanı.

Xəyala ehtiyac duymadım indi,
Ey mənim hünərli, Odlar diyarım.
Ürəyim eşqinin gücündən dindi,
Ay mənim çiçəkli, güllü baharım.

Silinə qəlblərdən hər dərd, yara da,
Açılan sabahlar azad, bəxtiyar.
Ölmə də düşəydi düşmən, dara da,
Arzular olaydı könüllərə yar.

Xoşbəxt yaşayaydı ağ da, qara da,
Bəşərin üstündən çəkləydi duman.
Şadlıqlar qurula hər gün arada,
Bəxtəvər həyatı sürəydi ümman.

Hər tərəf səadət yurdu olaydı,
Üzlərdən təbəssüm, sevinc yağaydı.
Qəlblərə məhəbbət eşqi dolaydı,
Dərdli kürəmizə günəş doğaydı.

Duyğuma, arzuma həmdəm ol, Vətən,
Belə xəyallarla yaşayıram mən.
Gəl bölək röyamı sənin ilə tən,
İnsan idrakına qovuşur bə‘zən. **12.03.1974**

### AY ARAZ

***Araz üstə düşüncələr*** …

Sahilində bədnam sərhəd telləri,
Bir-birindən ayrı salıb elləri,
Susdururlar Vətən deyən dilləri,
Aralıqda saçın yolan, ay Araz,
Bir torpaqda iki olan, ay Araz.

Nədir belə içindəki o fəryad?
Lal baxışın kimdən istər de imdad?
Könlü qırıb eylədilər lap bərbad,
Qız-gəlinin gözü yaşlı, ay Araz,
Yurd içində başı daşlı, ay Araz.

Zaman sənə əcəb sitəm eylədi,
Ayrılığa ünvanını söylədi.
Heç özü də bilmədi ki, neylədi?
Saldı səni dil-ağıza, ay Araz,
Qəfəs oldun oğul, qıza, ay Araz.

Qıpqırmızı sularında bir nalə,
Söylə görüm kim yanacaq bu halə?
De bir haçan qovuşarıq vüsalə?!
Üstbəüstdən sinə dağlı, ay Araz,
Üz-üzəyik, qapı bağlı, ay Araz.

Bu nə qanun, bu nə hököm, bu nə qan?
Bir bədəndə necə dursun iki can?
Kaş dünyaya gəlməyəydi o zaman,
Qəlbimizdə qəhər oldun, ay Araz,
Yağılara kəhər oldun, ay Araz.

Sağın, solun gözü yaşlı, nigaran,
Bir əsirdi buludludu dağ, aran,
Nə vaxt görən bitişəcək bəs yaran?!
Birləşəcək ayrı qollar, ay Araz,
Açılacaq bağlı yollar, ay Araz!

Yıxıb bizi bir əsirdi çək-çevir,
Gurla, hayqır, sərhədləri gər, devir,
Allah özü əzəl gündən haqq sevir,
Gömült suya imzaları, ay Araz,
Möhürlənmiş qəzaları, ay Araz.

Rusun, farsın qardaşlığı talanmış,
Din birliyi bu dünyada yalanmış,
Qolu bağlı qul azəri balanmış,
Tə‘nə bizə söz-sovları, ay Araz,
Qır zənciri, buxovları, ay Araz.

Şadiman, kim bu əzaba dözərdi?!
İçimizdə qığılcımlar közərdi,
Kim olsaydı işgəncədən bezərdi,

Sənsə sakit hey axırsan, ay Araz,
Məlul-məlul can yaxırsan, ay Araz.
Məlul-məlul can yaxırsan, ay Araz.

**07-21.05.1981**

## NAXÇIVAN

***Naxçıvandan keçəndə…***

Səpilibdi dağ-düzünə çiçəklər,
Coşur qanda, coşur canda diləklər,
Qoşur həyat nəğməsini ürəklər,
Nə gözəldir sinə yaxan bu ünvan?
Bəzənmisən tovuz təki, Naxçıvan.

Batabatın başdan-başa cahcəlal,
Almasın heç başın-üstün dərd, məlal,
Eylə mənə duz-çörəyi gəl halal,
Pişvazında heyran-heyran gülür can,
Bəzənmisən tovuz təki, Naxçıvan.

Ey Vətənin qədim yurdu, şah diyar,
Olmasın heç səndə kədər, ah, diyar,
Qədəm basan yurdunda bir kam duyar,
Çapdı keçdi el-obandan neçə xan?
Bəzənmisən tovuz təki, Naxçıvan.

Arazının sularında qan izi,
Dağlarının nə məsuddu çən üzü,
Heyrətlərə saldın yaman sən bizi,
Daş-divarın qatlarında yatır qan,
Bəzənmisən tovuz təki, Naxçıvan.

Neçə sultan qılıncları titrədi,
Tarixlərə hər qarışın fitrətdi,
Düşmən qıran uca başın fitrədi,
Dil-dil ötək gəl səninlə bircə an,
Bəzənmisən tovuz təki, Naxçıvan.

Şahbuzundan keçib gəldim evinə,
Bənzəyirsən nağılların divinə,
Ürək açdım sənə könlüm sevinə,
Gəl qəlbimin atəşinə düşüb yan,
Bəzənmisən tovuz təki, Naxçıvan.

Şadiman da bir tələbə baladı.
Dürüst bulsan arzum tala-taladı,
İstəyimi yurd-yuvana caladı,
Görməyəsən nə bir dava, nə də qan,
Bəzənmisən tovuz təki, Naxçıvan.
Bəzənmisən tovuz təki, Naxçıvan. **07-21.05.1981**

## MÖMÜNƏ XATUN TÜRBƏSİ

***Naxçıvan düşüncələri***

Günəşdən qopur şəfəqi,
Divarda çapır şəfəqi,
Min hilal yapır şəfəqi,
Nurlara qərqdir nəfəsi,
Mömünə Xatun türbəsi.

İnciyə bənzər naxışı,
Boynuna düzür yağışı,
Canları alır baxışı,
Sultan xanımın yar səsi,
Mömünə Xatun türbəsi.

Ərlərin qadın sayğısı,
Ana, bacıya qayğısı,
Bir kişinin pak duyğusu,
Sanıb ilahi Kəbəsi,
Mömünə Xatun türbəsi.

Daşlardan gəlir harayın,
Calallı şahlıq sarayın,
Tarixdə yoxdur heç tayın,
Bəzəmisən al günbəzi,
Mömünə Xatun türbəsi.

Bax üzümdəki heyrətə,
Əyirəm başı sərvətə,
Bəsdir qürurun millətə,
Duyğuyla sevdir hər kəsi,
Mömünə Xatun türbəsi.

Şadiman olub heyranın,
İlhama tutdun sən canın,

Dolu gül-çiçək hər yanın,
Bu da ürəyin bil bəsi,
Mömünə Xatun türbəsi.
Mömünə Xatun türbəsi.

**07-21.05.1981**

## NEFT DAŞLARINDA GECƏ

Gecədir, qaranlıqlar çəkilib göy üzünə,
Ay buruqlar adası, nə füsunkar olmusan?
Qatar-qatar işıqlar oxşar nurlu gözünə,
Şirin arzular təki ürəyimə dolmusan.

Söylə, hansı diyarda su üstə şəhər yatır,
Hər buruq bir çıraqban ulduzlar meşəsidir.
Bu dəniz ölkəsində ulduzlara əl çatır,
Neft Daşları qəlbimin ən dilbər guşəsidir.

Suların qucağında gəmilər salamlaşır,
Yatırır sinəsində gecə gəlib-gedəni.
Bu payız axşamında xoşbəxtlik başdan aşır,
Yuyunur qaranlığın dənizdə pak bədəni.

Sərin mehlər gecəylə pıçıldaşır aşiqtək,
Sanki sevgi nəğməsi həzin-həzin səslənir.
Bu gecə gözəl Xəzər bir divanə məşuqtək,
Sevgilərin evində odlu-odlu bəslənir.

Gecə ay işığında dəmir körpü uzanır,
Alır işdən gələni ehtiyatla qoynuna.
Ulduzlar da bu axşam bir tamaşa qazanır,
Heyranlıqla baxırlar maşınların oynuna.

Burda göydə, dənizdə topa-topa ulduzdur,
İşıq seli sularda ox təki düşüb qalıb.
Bu gecə gözəl Xəzər, sanki növrəstə qızdır,
Gur qara tellərini zümrüd sulara salıb.

Növbə qurtaran zaman binalar da gurlaşar,
Həyatsevər adamlar gəlirlər dəstə-dəstə.
Ürəklərin atəşi hünər ilə qovlaşar,
Şirin nağıla dönər sərin mehlər ahəstə.

Gündüzün zəhmətini unutdurar gecələr,
Təmiz dəniz havası gözləri yatızdırar.
Tufanların sehiri adamlarla gecələr.
Yuxulara şirinlik, şəkərlik qatızdırar.

Gecə yuxularına gələr su pəriləri,
Necə də baş vurarlar qorxmadan dərinliyə.
Almaz təki bərq vurar gümüşü dəriləri,
O ilahi mələklər öyrəşər sərinliyə.

Oğlan, qız sədaları sularda sınıb qalar,
Dolaşar Neft Daşların pak gecə gülüşləri.
Hər qəlbə, hər ürəyə şadlıq mehrini salar,
Yığar öz ətrafına hey tanış-bilişləri.

İşıq seli altında qaranlıqlar incələr,
Növbədən qayıdanlar yavaş-yavaş yatışar.
Yorğun düşmüş əl-ayaq rahatlıqla dincələr,
Burda halal zəhmətə şirin yuxu qatışar.

Sübhədək qalıb oyaq dəniz də layla çalar,
Mehriban ana kimi oxşayar yatanları.
Coşub-daşan dalğalar qolları üstə alar,
Şərəfli əməyiylə arzuya çatanları.

Yorğunluqdan dincələn ürəklər pərvazlanar,
Sabah görülən işi bugün ölçüb-biçərlər.
Buruqlar ölkəsində həyat necə nazlanar,
Çətin görünən yoldan asanlıqla keçərlər.

Gecə qayğılarına bürünərlər ürəklər,
Xəyallar yığın-yığın alar ağzına bizi.
Sığallar sinəmizi o mələkə diləklər,
Sabaha qarşımızda açar neçə yol-izi.

Ərzin dərdi-səriylə gözlərimiz yuxlayar,
Kiminin eşq yanğısı sinədən ərşə qalxar.
Təzə-tər könülləri bir pak sevgi oxlayar,
Bir divanə məhəbbət qəlbi yandırıb-yaxar.

Buruqlar adasında ay xoş, sevdalı gecə,
Dəniz nəsimi ilə nəvaziş göstər bizə.
Həyat da çiçəklənir, sellər gurlaşır necə.
Mübarək qədəminlə çıxmışıq hər gündüzə.

Yolumuzu gözləyir halal zəhmət, şanlı iş,
Taleyimiz, ömrümüz necə bağlıdır ona.
Bu Odlar ölkəsində baş ucaldan yüksəliş,
Həyatın yollarında olub ağ saçlı ana.

Nələr keçir qəlbimdən elə bu an, bu gecə,
Ürək min bir qürurla vurur sinə içində.
Ey Şadiman, bu dövran, bu şad, firavan busat,
İlhamdan bir qalaça qurur sinə içində.

**16-21.12.1985**

## VƏTƏN TORPAĞINA, DAŞINA QURBAN

Şərəfin, şöhrətin gəzir dillərdə,
Hünər timsalıdır adın ellərdə,
Tarixin dastana dönüb illərdə,
Zirvələrdən uca başına qurban,
Vətən torpağına, daşına qurban.

Yoxdur bərabərin, yoxdur dünyada,
Min yol baş əyirəm hər gün bu ada,
Səndən uzaq olsun hər dərd, hər qada,
Günəşli-gündüzlü düzünə qurban,
Xəncərdən kəsərli sözünə qurban.

Koroğlu güc aldı bir zaman səndən,
Qorxmadı dumandan, çiskindən, çəndən,
Çətinə düşəndə yaxından-gendən,
Göz yaşı axıtdın, yaşına qurban,
Hünərlərlə dolu yaşına qurban.

Bağrıma basıram bu od-közünü,
Görən gözlərimi bildim gözünü,
Mənə ana olan sənin özünün,
Sinəmə od tökən oduna qurban,

Adın müqəddəsdir, adına qurban.

Dağların yağıya basılmaz səddi,
Sənə xor baxanın hər işi bəddi,
Ürəyim könüldən könlünə bənddi,
Sənin yalmanına, qaşına qurban,
Vətən ağlılına, naşına qurban.

Mənə səadəti bəxş elədin sən,
Bir mahir rəssamtək nəqş elədin sən,
Qəlbləri şadlığa sən bələdin, sən,
Sənin büsatına, toyuna qurban,
Başı zirvə dələn boyuna qurban.

Nə qədər bəxtiyar qızınam mən də,
Azad dolaşıram çöldə, çəməndə,
Tapdım səadətin yolunu səndə,
Mənə övlad deyən dilinə qurban,
Odlu yurd-yuvana, elinə qurban.

Qəm-qussə boynunu burubdu burda,
Eşq əbədi yuva qurubdu burda,
Sevinclər ələnir hər addım yurda,
Bu azad, firavan çağına qurban,
Vətən aranına, dağına qurban.

Hər evin qapısın açır bərəkət,
Necə ağ günləyir hər şəhər, hər kənd,
Mən başdan, binadan oldum sənə bənd,
Çıraqban, işıqlı yoluna qurban,
İsmətli qızına, oğluna qurban.

Yurdun nə xoş gəlir al gündüzləri,
Seyir, tamaşadır çölü, düzləri,
Meh təki səadət oxşar üzləri,
Min çalar naxışlı xalına qurban,
Vətən ipəyinə, şalına qurban.

Gözlərim doymayır bu mənzərədən,
Xoş rahiyə gəlir dağdan, dərədən,
Sellərin adlayır bənddən, bərədən,

Çoşğun şəlalənə, çayına qurban,
Vətən, baharına, yayına qurban.

Yeddi rəngə çalır düzlərin yenə,
Gah sisə bürünür, gah duman, çənə,
Fərəh bəxş eləyir anların mənə,
Vətən, dəqiqənə, anına qurban,
Damarından axan qanına qurban.

Qışda ağ örtüyə bürünər çöllər,
Ovçuya bac verməz ördəkli göllər,
Dəli xəzrilərin yurdunda çöllər,
Vətən çovğununa, qışına qurban,
Odlu ürəyinin başına qurban.

Yazında bağrını yaşıllıq gəzər,
Süzər gözəlliyi qürurla Xəzər,
Gül-çiçək dağını, düzünü bəzər,
Min bir ətir saçan zövqünə qurban,
Zirvələr fəth edən fövqünə qurban.

Yayında süfrəsin açar Mil-Muğan,
Bərəkət qədəhin içər gündoğan,
Sənsən çətinliyi hünərlə boğan,
Vətən, göylər dələn qalana qurban,
Səni ürəyinə salana qurban.

Şirvanın, Şabranın bir yaraşıqdır,
Sinəm bu sinəndən doymaz aşıqdır,
Sənin zülmətin də mənə işıqdır,
Mənə gündüz olan gecənə qurban,
Sənə yüksəkliyi seçənə qurban.

Qatar qabağına cüyür ceyranı,
Dolaşar küləklər yurdda hər yanı,
Sənin od-alovun isidər canı,
Laylalı sinənin üstünə qurban,
Ocağından qalxan tüstünə qurban.

Gələr fəsillərin şahı qış baba,
Geyinər əyninə, sanki ağ əba,

Örtüyə bürünər hər el, hər oba,
Analar qeyrətli həyana qurban,
Vətən torpağını sayana qurban.

Sinən qonağının gəlişin duyur,
Qış özün arana, dağa toxuyur,
Soyuqdan qorxana meydan oxuyur,
Xəzrili, çovğunlu düzünə qurban,
Şaxtadan buz olan üzünə qurban.

Uçar səmalarda ördəklər, qular,
Düzündə yalquzaq çaqqallar ular,
Donar, buz bağlayar arxlar, sel-sular,
Göyündə döyüşən buluda qurban,
Bizə arxa olan o ada qurban.

Uğurlu günləri düzdün sıraya,
Ruzi-bərəkətin dönübdü çaya,
Çağır, ellər gəlsin qoy xoş haraya,
Hər günü bir dastan ilinə qurban,
Əlimizdən tutan əlinə qurban.

Yazda yamacların yamyaşıl olar,
Dağlara, düzlərə gül-çiçək dolar,
Arada tikanlar, qanqallar solar,
Acı tikanına, gülünə qurban,
El-obandan qalxan səs-ünə qurban.

Məğrur-məğrur süzər kəklik, turacın,
Ən uca zirvədə parlayır tacın,
Yolumuzda şahid ağarmış saçın,
Vətən, Azərbaycan, canına qurban,
Müqəddəs adına, sanına qurban.

Nə xoş səfalıdır yay-yaz ayların,
İlantək qıvrılar, coşar çayların,
Şanlı qələbənin artır sayların...
Min zəfər soraqlı illərə qurban,
Sənə can-can deyən dillərə qurban.

Bu tarlalar, düzlər hünər gözləyir,
Əmək çətinliyi necə dizləyir,
İlham cuşə gəlib yenə sözləyir,
Bol nemət istəyən kamala qurban,
Müqəddəs ocağım, amala qurban.

Alırsan qoynuna məni hər axşam,
Əbədi ilhamla tüstülənir şam,
İzin ver şəninə nəğmələr qoşam,
Müqəddəs evinə, eşyinə qurban,
Ey qartal, diqqətli, keşyinə qurban.

Buludlar toqqaşar baş-başa verər,
Gözlərtək dolanda güc yaşa verər,
Birgünlük ömrünü gün başa verər,
Zəhmət qələbəli əzminə qurban,
Min cəfaya dözən dözmünə qurban.

Şərəfin, şöhrətin gəzir dillərdə,
Hünər timsalıdır adın ellərdə,
Tarixin dastana dönüb illərdə,
Zirvələrdən uca başına qurban,
Vətən, torpağına, daşına qurban.

**30.03.1986**

## GÖZƏLDİR

Doymaq olmur torpağından daşından,
Buludların dumduru göz yaşından,
Nur tökülür zirvələrin başından,
Mərdlərinin düz ilqarı, gözəldir,
Əhdə sadiq dostu-yarı, gözəldir.

Tamaşadır başdan-başa bu diyar,
Gözəlliyə aşiq olan qəlb doyar?
Qoca Qafqaz gül-çiçəkdən tac qoyar,
Od yurdunun seyrangahı, gözəldir,
Min rəng çalan al sabahı, gözəldir.

Gözəlliyi bir dastandır yaşından,

Gözüm doymaz qayaların daşından,
Qızlarının ilahi göz-qaşından,
Başı qarlı şiş dağları, gözəldir,
Bol nemətli bu çağları, gözəldir.

Cəh-cəh vurur bağlarında bülbüllər,
Zəmilərdə aşıb-daşır sünbüllər,
Gəlib keçər hey bəxtəvər bu illər,
Od yurdunun fəsilləri, gözəldir,
Qol-budaqlı nəsilləri, gözəldir.

Sellər-sular qucaqlaşar yar kimi,
Bulaqların gözü bumbuz qar kimi,
Şəlalələr zilə qalxar tar kimi,
Uçub-qaçan turac-kəklik, gözəldir,
Seyrə çıxsan, burda təklik, gözəldir.

Xeyirxahlıq yağanda pak üzlərdən,
Mehribanlıq oxunanda gözlərdən,
Məcnun kimi mərdlik keçə düzlərdən,
Güzarı hər elə düşə, gözəldir,
Düz ilqarlı, ürək şüşə, gözəldir.

Maral təki ürək gəzsə dağları,
Könlün olsa gözəlliyin ağları,
Baş əyməli bu müqəddəs çağları,
Qeydə almaq, qiymət qoymaq, gözəldir,
Əldən tutmaq, könül almaq, gözəldir.

Qəlb şüşədir o sınarsa, bitişməz,
Tər tökməsən bağda güllər yetişməz,
Sən pis olsan heç kəs dada yetişməz,
Ata-baba təbiəti, gözəldir,
Od yurdunun hər adəti, gözəldir.

**15-16.02.1986**

## MƏNİM ƏSKƏR OĞLUM

***Əskər analarının dilindən**…*

Mənim əskər oğlum, məhəbbətinlə
Sənsən od-ocağı, qoru Vətənin.
O təmiz, o ülvi sədaqətinlə
Qoru, igid balam, qoru Vətəni.

Mənim əskər oğlum, yollarda gözüm,
Uğrunda nə qədər sinəmdə dözüm,
De, nə vaxt üzünə dəyər bu üzüm?
Qoru, igid balam, qoru Vətəni.

İndi həyatında imtahan, sınaq,
Qoy o həsrətinlə alışıb yanaq,
Hicranın əlində candan usanaq,
Qoru, igid balam, qoru Vətəni.

Rahatca yuxuya getsin körpələr,
Qızlar yolunuza pak su səpələr,
Bir sevda eşqiylə məktub öpələr…
Qoru, igid balam, qoru Vətəni.

**18.07.1987**

## VƏTƏNİM

Böyük-böyük amalları bəllidi,
Ömrü-günü nə bəxtiyar illidi,
Əzəl başdan yürd-yuvalı, dillidi,
Od-ocağım, isti evim, sən mənim,
Azərbaycan, ey müqəddəs Vətənim.

Şırıl-şırıl axar dəli çayların,
Gözəl olar o yaz-bahar ayların,
Mükafatdır pak qələbə payların,
İgid-qorxmaz oğulun var, qızın var,
Ürək açan kamanın var, sazın var.

Şəlalənin yurdu, zirvə dağ olar,
Səndən ayrı olmaq mənə dağ olar,
Sənlə olsam, gecəm mənə ağ olar,
Gen sinəndən ayırmaram özümü,
Azərbaycan, sən verdin od-közümü!

Göylərində yenə nə çox bulud var,
Yığışıbdı hara belə buludlar...
Həsrətinlə qalan könül buludlar,
Azərbaycan, yansın odun-ocağın,
Gül-çiçəklə dolu olsun qucağın.

Arzuların sonu yoxdur, bitməyir,
Yolumuzda zəhmətin zay getməyir,
El-obanın düz əməyi itməyir,
Gəlin təki bəzənmisən yenə də,
Bu nə oddu, nə yanğıdı sinədə.

Bulaqların necə qaynar çağıdır,
Küləklərin buludları dağıdır,
Şiş dağların yadlara göz dağıdır,
Qonaq eylə yol-irizdən ötəni,
Azərbaycan, yurdum, Odlar Vətəni!

Böyük anam, doğma dilim, pak elim,
Dərə-düzüm, uca dağım, gen çölüm,

Ən müqəddəs kəşf edilmiş bir elm,
Azərbaycan, yanar odlu nəfəsim,
Ən mötəbər məclislərdə gur səsim.

Qanad açıb, göylərində uçaram,
Lalə olub, dağ-dərəndə açaram,
Qartal təki şiş zirvənə qaçaram...
Azərbaycan – bəxtimizin çırağı,
Adımızın ən müqəddəs dayağı.

Telli sazım Kərəm üstə dinəndə,
Muğamatım zil üstünə enəndə,
Bağrın yenə tar, kamana dönəndə,
Azərbaycan, mən də yanıq ney ollam,
Səhər-axşam el-obana hey dollam.

Ağrıyanda, sinənə baş qoyaram,
Düşməninin bağrın, köksün oyaram,
Ömrüm mənim, səndən necə doyaram?
Azərbaycan, büdrəyəndə – yolumsan,
Yorulmayan, bükülməyən qolumsan.

Küləklərin çöllərində əsəndə,
Qapıların kəndarını kəsəndə,
Şimşəklərin bir-birindən küsəndə,
Onda güclü yağışların olaram...
Selə dönüb çaylarına dolaram.

Yaz gələndə sarı bülbül oxuyur,
Dağım-düzüm əlvan xalı toxuyur,
Kəpənəklər özün bağa toxuyur,
Azərbaycan, gəlin təki durginən,
Çəmənzarda bir toy-büsat qurginən.

Çinarların ucu göyə əl atır,
Körpə-körpə fidanların boy atır,
Qartallara zirvələrdə yer çatır,
Azərbaycan – ocağın var, odun var,
Tarixlərə gedib-çıxan adın var.

Uca-uca quşqonmazdan keçərəm,
Şəlaləndən, bulağından içərəm,
Lazım gəlsə öz canımdan keçərəm,
Qafqazımın yaraşıqlı balası,

Azərbaycan – od ürəklər qalası!

Qətrə-qətrə can qoyulub düzündə,
Zəhmət tərin bulaqların gözündə,
Bir tarixin açarı var özündə,
Azərbaycan, dahilərin yurdusan,
Təntənədən yaranan bir ordusan.

Sellər-sular dolu bərə-bəndlərin,
Keçilməzdir, aşılmazdır sədlərin,
Ürək açan şəhərlərin, kəndlərin,
Azərbaycan, ucal oğul-qızınla,
«Yanıq Kərəm» üstə köklən sazınla.

Şah dağından çöl-çəmənə baxaram,
Şimşək olub fəzalarda çaxaram,
Şəlalənəm, zirvələrdən axaram,
Dəli Kürtək dolayları sularam,
Lal Arazla bir qol-boyun olaram.

Küləklərtək dolaşaram düzünü.
Nəğmələrə çevirərəm sözünü,
Sürt üzümə od-alovlu üzünü,
Azərbaycan – od qızına atəş ver,
Titrəməsin ayağımın altda yer.

Sən anamsan, mən də sənin övladın,
Heç gedərmi dil-dodağdan xoş dadın?
Mənim adım, sənin ulu, pak adın,
Azərbaycan, qoç Koroğlu obası,
Nizamilər, Füzulilər babası.

Qoy titrəsin sazın sarı telləri,
Cuşa gəlsin Ələsgərin elləri,
Qoy kükrəsin çaylarının selləri,
Azərbaycan, Siyəzəndən keçərəm,
Qalaltının buz suyundan içərəm.

Ey Rübabə, oxu səsin çağlasın,
Telli tarım segah üstə ağlasın,
Təbrizimin yaraların bağlasın...
Lal Arazın kənarına çıxaram,
Dərdli-dərdli Savalana baxaram.

Şəhriyarım, ey ustadım, güman var,

Əzəl başdan hökmü adil zaman var,
Bu dünyada həm yaxşı var, yaman var,
Azərbaycan, son qoyular ah-vaya,
O tayından yol açılar bu taya.

Sussuz yerdə mən gur çayın olaram,
Sellər təki dəryalara dolaram,
Od qızınam, boynuna qol salaram,
Azərbaycan, əyilməyən vüqarım,
Tükənməyən ulu sevgim, ilqarım.

Dədəm Qorqud öyüdlüsən, ey Vətən,
Saçlarına kamalından düşüb dən,
Açıq qapı görər burdan hər ötən,
Azərbaycan, şəkər-tuti dilin var,
Süfrələri aşıb-daşan elin var.

Sən ürəksən, səninkidir həyatım,
Arzum, hissim, sevinclərim, qanadım,
Sənsən mənim ucalığım, pak adım,
Azərbaycan, yorulmayan qolumsan,
Gələcəyə addımlayan yolumsan.

Çox təriflər deyilibdi şəninə,
Dağ-düzünə, dumanına, çəninə,
Saysızı da qalıb neçə ay-günə,
Azərbaycan, şeir-sənət ocağı,
Dastanlarla dolu olub qucağın.

Bahar gələr yaşıllaşar düz, meşə,
Torpaq üstə ellər başlar hey işə,
Söz qoşular bu dövrana, gərdişə,
Azərbaycan – quran əllər var olsun,
Qoy təntənə hər sinəyə yar olsun.

El qədrini bilməyənlər xar olsun,
Torpağına göz dikənə ar olsun!
Daim sənə sülh, səadət yar olsun,
Azərbaycan, bəxtimizin ulduzu,
Anam mənim, ey müqəddəs od qızı!

**30.03.1986**

**HAQQ İŞİNƏ QURBAN OLUM**

Nərəsiylə min-min yağı, kafir qıran,
Parçalayan qurd dişinə qurban olum.
Taleləri hürriyətlə ulaşdıran,
Yoxuşlarda yerişinə qurban olum.

Həyat oldun haqqa məzar cəbirlərə,
O üçrəngli bayraq şahid, qəbirlərə,
Verdin düşmən məqsədini xəlbirlərə,
Yağı üstə yürüşünə qurban olum.

Dağ-daşından cəngi gəlir qulağına,
Türk yurdusan, dunya çıxıb sorağına,
Lap az qalıb düşmən düşər ayağına,
Aslanlartək döyüşünə qurban olum!..

İgidlərin səngərləri yataq edib,
Satqınları, qorxaqlığı yaltaq edib,
Yağı üstə qızğın, dəli, şirtək gedib,
Cəbhələrdən dönüşünə qurban olum.

Şirin xanım qoç igiddi, pərvazlanıb,
Eşqi-hissi cəngi ilə avazlanıb,
Cismi-canın min illərdi haqqa yanıb...
VƏTƏN, VƏTƏN, Haqq işinə qurban olum!...

**19.09.1992**

## ÇIRAQQALASI

Əsrlərin sinən üstə yatıbdı,
Yağıların keçilməzdə batıbdı,
Ərənlərin arzu, kama çatıbdı,
Azərbaycan torpağının balası,
Ulum mənim, məğrur Çıraqqalası.

İgid, qorxmaz dağlarıma anasan,
Diş donduran bulaqlara sonasan,
Dərə, düzü sənsiz necə anasan?!
Məhəbbətin ürəyimi alası,
Ulum mənim, məğrur Çıraqqalası.

Bir kitabdır həm torpağın, həm daşın,
Kimlər yola saldı qoca, mərd yaşın?
Ovucuna çox tökülüb göz yaşın,
Duyğularım dər-divara dolası,
Ulum mənim, məğrur Çıraqqalası.

İtib-batmış Şabranını haylarsan,
Dərdi doğan dəryalarsan, çaylarsan,
Olmuşlara, keçmişlərə saylarsan,
İlan təki tarix sinə çalası,
Ulum mənim, məğrur Çıraqqalası.

Uca başın zirvələrin fövqündə,
Çox sınandın əsrlərin zövqündə,
Parlayırdın padişahlar şövqündə,
Zaman durub saçlarını yolası,
Ulum mənim, məğrur Çıraqqalası.

O hikmətli duruşunda nələr var,
Qarışında, addımında ölər var,
Xarabana qonmuş bayquş mələr var,

Dər-divara dəyib burda solası,
Ulum mənim, məğrur Çıraqqalası.

Gilgil səddi Xəzərlə qol-boyundur,
Bahar gəldi, gül-çiçəklə toyundur,
Qartalları şəbnəmində yuyundur,
Harayların yenə sənə qalası,
Ulum mənim, məğrur Çıraqqalası.

Ey ağsaçlım, keşikçisən dağ-düzə,
Ötüb keçən gecələrə, gündüzə,
Dərbəndinin fəryadını de üzə…
Dərdli könül tellərini çalası,
Ulum mənim, məğrur Çıraqqalası.

Xəzərinə gizli yolun bağlımı?
Yağı əllə sinən içi dağlımı?
Aldadırsan tarixinlə ağlımı?
Uçuq binən xəyallara dalası,
Ulum mənim, məğrur Çıraqqalası.

Dumanların çən tutubdu başında,
Şahinlərin uçur hər qarışında,
Doğulmuşam torpağında, daşında,
Ormanların ürəyimin talası,
Ulum mənim, məğrur Çıraqqalası.

Şadimanın bu torpağın qızıdır,
Dərdli könlü elin telli sazıdır,
Biganəlik məzarını qazıdır…
Nə qalıb ki, səndən ilham alası?
Ulum mənim, məğrur Çıraqqalası.

**22.07.1987 Qalaaltı**

## SƏN MƏNİM SEVGİLİ YARIMSAN, VƏTƏN

Şirin nəğmələrin ağızda, dildə,
Hərarətin vardır hər keçən ildə,
Ətrin məskən salır çiçəkdə, güldə,
Sərvətim, dövlətim, varımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Açılan sabahın seyir, gülüstan,
Sanki qıpqırmızı tonqaldır al dan,
Əsil şeriyyətdir, dastandır bu an,
Zilləri fəth edən tarımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Günəşin nuruna boyanıb Qafqaz,
Nə erkən yuxudan oyanıb Qafqaz?
Səhərlə üz-üzə dayanıb Qafqaz,
İsmətim, qeyrətim, arımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Dalğalar səs verər, boylanar Xəzər,
Sinənə ləpələr mirvari düzər,
Yoluna al günəş şəfəqlər bəzər,
Almaztək işıqlı qarımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Gəl pak səmaların seyrinə dalaq,
Uçan qumruların qadasın alaq,
Dağına, daşına bir mehman qalaq,
Neməti sel olan barımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Odlu torpağında bir hərarət var,
Necə təlatümli, coşğundur sular,

Nəğmələr üstündə coşur kaman, tar,
Yağıya səd olan barımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Zülmətə də nurdur işıqlı gözün,
Bitib-tükənməyir söhbətin, sözün,
Günəştək açıqdır hikmətli üzün,
Zəhmətdən usanmaz arımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Qoluma qüvvətsən, gözümə işıq,
Ay eşqə sevdalım, olmuşam aşiq,
Mənim varlığıma sənsən yaraşıq,
İsti od-ocağım, qorumsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Köksündən ilhama gəlir bu ürək,
Bir anda yaranır yüz min pak dilək,
Gəl dola qolumu boynuna, mələk,
Ümidim, köməyim, karımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Şadiman gözündən getməz uzağa,
Dözməz sənsiz ürək bir gün sazağa,
Könlümü vermişəm sənə sadağa,
Bu cismi-tənimdə canımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

**26.10.1986**

## EY BURUQLAR ADASI

Bu qış günü sükunət var üzündə,
Qağayılar, san ki süzür düzündə,
Milyon elin işığı var gözündə,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Qatar-qatar dəmir körpü düzülüb,
Çətinliyin mərd əllərlə üzülüb,
Tufanların əli səndən üzülüb,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Amalların, istəklərin birləşib,
Hünər, zəhmət burda necə dürləşib,
Mərdlik əcəb mətinləşib, sirləşib,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Gəl burada birgə verək əl-ələ,
Bu ucalıq düşsün hər gün qoy dilə,
Şad müjdələr çatsın hər an yurd-elə,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Tufanlardan, boranlardan qorxmayaq,
Dəli-dolu xəzrilərə baxmayaq,
Biz hünərsiz sabahına çıxmayaq,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Sən anamsan, mən də sənin övladın,
Adımızla birgə gəzir pak adın,
Zəhmətlərdən qopdu çıxdı ustadın,
Vətənimin od-ocağı, odası,

Xəzərimin, ey buruqlar adası.

Ulduzmudur, buruqların düzülür?
Kəhkəşanda söylə hansı süzülür?
Nurlarınla zülmət gecə üzülür,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Neft Daşları, qolun dola boynuma,
Bir hərarət, od-alov tök qoynuma,
Hünərinin donunu biç boyuma,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

**22.01.1987**

## AZƏRBAYCAN QADINI

Uca-uca zirvələrdə çağla sən,
Hünərinlə çətinliyi bağla sən,
Sevgilinə sadə könül bağla sən,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Batsın dərdin, qəm-kədərin naləsi,
Qalxsın zilə anaların haqq səsi,
Qucağında bəslənsin od ölkəsi,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Bir layla de şəkər dilim, sən özün,
Sinəmizdən əskilməsin od-közün,
Bahar kimi gülmüsəsin ay üzün,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Ağ əllərin gül balalar bəsləsin,
Həyat səndən dərdi-qəmi həsləsin,
Bugün səni xoş sabaha səsləsin,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Ürəyində şadlıq, sevinc bir aləm,
Gözlərində görünməsin qanlı nəm,
Taleyindən uzaq olsun kədər-qəm,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Şadimanı dilləndirən sözün var,
Laylalardan qəlbə dolan közün var,
Gələcəyi azad görən gözün var.
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

**18-19.02.1987**

## VƏTƏNDİR

Kol dibində kəklikləri gəzərlər,
Çöllərini laləlləri bəzərlər,
Göllərində ördəkləri üzərlər,
Göylərində durnaları süzərlər,
Bərəkətli Tovuz, Qazax, Vətəndir,
Bu torpaqda yaxın-uzaq, Vətəndir.

Dağı orman, düzü Xəzər deyərlər,
İgidləri düşmənlərin əyərlər,
Şahdağıyla yamacları öyərlər,
Varlığıyla hər bir şeyə dəyərlər,
Çıraqqala, Şabran, Quba, Vətəndir,
Bu torpaqda hər el, oba, Vətəndir.

Batabatı o tayına göz eylər,
Dərdli Araz sinə içın köz eylər,
Heydərbaba dərd çevirər, üz eylər,
Sinəsini bu tayına düz eylər,
Pak Naxçıvan, Culfa, Təbriz, Vətəndir,
Bu torpaqda hər cığır-iz,  Vətəndir.

Cıdır düzü tarixlərin yarağı,
Göz yaşıtək duru Şuşa bulağı,
Ürəklərə cövhər Laçın yaylağı,
Natəvanın haqdan gəlir sorağı,
Ceyran gözlü Qarabağım, Vətəndir,
Bu yerlərdə solum-sağım, Vətəndir.

Şamaxının dağı, düzü yaraşıq,
Bas sinənə telli sazı, ay aşıq,
Aç pətəyi baldan dadaq bir qaşıq,
Günəş çıxıb, aləm görür gur işıq,
Şəki, Şirvan, Bakı. Gəncə, Vətəndir,
Dillən, könül, incə-incə, Vətəndir!

**17.07.1988**

## VƏTƏN OĞLU

***Torpağımızın bütövlüyü uğrunda vuruşan igidlərə***

Azərbaycan qan içində, dağ-daşı duman,
Yaman bizi imtahana çəkdi bu zaman,
Qədirbilməz övladlara vermə heç aman,
Ellər yağı tapdağında get, Vətən oğlu,
Yerin-göyün imdadına yet, Vətən oğlu.

Toxunulmaz namus, qeyrət, ismət eşqinə,
Min-min tale yazısına, qismət eşqinə,
Tapşırıram səni böyük Qurana, dinə,
Ər gözləyən el dadına çat, Vətən oğlu,
Qurğuşunu yağı köksə, at Vətən oğlu.

Şimşəklərdən ehtiraslı hər dəli nərən,
Dar məqamda bu torpağı qurtarar ərən,
Düşmənlərin qollarını arxaya gərən,
Qorxu bilməz xislətindi, ay Vətən oğlu,
Hay ver, bozqurd igidlərə, hay, Vətən oğlu.

Yurdun min-min toy-mağarı ağıya dönüb,
Qurğuşunlu göyümüzdə ay-günəş sönüb,
Süfrəmizdən yeyən itlər yağıya dönüb...
Darda qalan el-ulusu al, Vətən oğlu,
Kişiliyin zirvəsində qal, Vətən oğlu.

Tapdalanan namus ki var, bu yurda dərddi,
Əsir düşmüş qız-gəlinlər əydi çox qəddi,
Çoxdan keçib tülkü yağı neçə min səddi,
Yıx hiyləgər sərhədləri keç, Vətən oğlu,

Eylə düşmən məqsədini, heç, Vətən oğlu.

Demə, yanan Xocalının yarası közdü,
Yağı əldə qalan Göyçə bu yurda gözdü,
Bəsdir, daha haqsızlığa türk oğlu dözdü!...
Öndə gedər savaşlarda ər, Vətən oğlu,
Yağıları ayağına sər, Vətən oğlu.

Perik düşüb qız-gəlinlər isti ocaqdan,
Gəlin ərdən ayrılıbdı, bala qucaqdan...
Allah özü bizə pənah min belə dağdan,
Şəhid ruhu gecəmizə, Ay, Vətən oğlu,
Dəli nərən yağılara, vay, Vətən oğlu.

Buludlaşıb yanan sinəm, hönkürür ürək,
Qəzəbiylə bir haya bənd köksümüz, fələk,
Könlüntutan yollarını gözləyən mələk...
Güllə keçməz polad sinən, gön, Vətən oğlu,
Qurtar əsir yurd-yuvanı, dön, Vətən oğlu.

Şirin xanım qara telin ağ hörüb durar,
Asi düşməz tənhalıqdan, illəri yorar,
Şəhid olsan, ölənədək eşqi məzarlar...
Canım həsrət, ruhum sənə, yar, Vətən oğlu,
Səninkidir bu eşq, namus, ar, Vətən oğlu.

**11.09.1992**

## POLAD KÖRPÜLƏR

Siz polad qəfəsi Neft Daşlarının,
Keçir sinənizdən neftin dəyəri.
Xəzərin mirvari göz yaşlarının,
Ruhuna köklənmiş vuran ürəyi…

Qulaq eşidəndən, gözlər görəndən,
Nə qədər möcüzə var yer üzündə.
Tarix xəbərdardır igid ərəndən,
Hamı da yüksəkdir onun gözündə.

Dolaşır hey ərzi sədası, ünü,
Səbirlə hörülmüş dəmir körpülər.
Küləklər adamtək üzünə gülər,
Xəzərin bağrını əmir körpülər.

Elə bil igidin polad qolları,
Ən sərt tufanları susdurur yaman,
Zəhmətə suvanmış möhkəm yolları,
Necə sinə gərir dalğaya, aman?

Boranlar, şaxtalar, qarlar, yağışlar,
Döyüb sinənizi, polad körpülər.
Heyrətdən sancılıb qalır baxışlar,
Dənizin içində abad körpülər.

Əyilən tufanlar dərddən yaslıdır,
Saldız çətinliyi bataqlığına.
Minlərin taleyi sizdən aslıdır,
Dözün fəsillərin şıltaqlığına.

Üstündə şütüyür ağır maşınlar,
İşgüzar əllərin sirli düyünü.
Burada bir birlik, bir qələbə var,
Uğurla salırsan yola hər günü.

Ekskavatorun gur səsi yüksəlir,
Titrəyir necə də polad dirəklər.
Burada əzablar zirvələr dəlir,

Tufanlar qopanda titrər ürəklər.

Döyür çiyinləri min bir zəhmətə,
Sözlü qərinədir, polad körpülər.
Adamın bənzəri var əmanətə,
Bəxtləri oxşayar abad körpülər.

Nə qədər fırtına görür sinəsi,
Dözür hər bəlaya titrək dirəklər.
Qalxır əzəmətlə boğuq nəfəsi,
Boğuq nəfəsindən doğur diləklər.

Polad dirəklərdən aslı maşınlar,
Necə ehtiyatla şütüyür, aman.
Dolaşır dünyanı neçə qış, bahar,
Haqqı irəliyə aparır zaman.

Dəmirdən biləkli polad körpülər,
Dözümün dirilik suyundan içir.
Ürək bu mərdliyi necə sadalar?
Burda halal zəhmət canından keçir.

Ləpələr üstündə narahat diyar,
Dəli küləklərlə titrəyər, əsər.
Adam mətanətin gücündən doyar,
Ürəklər qazancçın işə tələsər.

Düşüb qonaq olsan burda bircə gün,
Dəmir dirəklərdə titrər ayaqlar.
Salar gah kədərə, gah sevincə gün,
Dalğa gurultusu tufan soraqlar…

Hər addım hekayət, hər addım əsər,
Dastanlı, boyludur işgüzar həyat.
Deməyin nisgili ümidi kəsər,
Şaqraq duyğuların laylasına yat.

Əsir sərin mehlər, acı küləklər,
Əsla təsiri yox burdakı işə.
O qurub-yaradan abad diləklər,
Nizamlı karvandır pak yüksəlişə!

Gecədir, ürəyim dincəlir bir az,
Dəmir diləklər də, sanki yuxlayır.

Könüldən göylərə dikəlir avaz,
Qismətim gələcək sabah qoxlayır.

**27.12.1985**

## TƏBRİZ AĞRILARI

Müddətdi yoluna dikilib gözlər,
İntizar içində saralır üzlər,
İşıqdan bir yaylıq bağlar gündüzlər,
Qovlayar üstündən dumanı, Təbriz,
Dəyişər dövranı, zamanı, Təbriz.

Qınama, üzünü görməmişəm, ah,
Məndəmi, yoxsamı babamda günah?
Bir gün sənin üçün açılar sabah,
Aparar dərdini küləklər, Təbriz,
Coşar min duyğular, diləklər Təbriz.

Bir tarix yaratdın öz dərdlərinlə,
Araza bələnən sərhədlərinlə,
Dur, məşvərətçi ol öz mərdlərinlə,
Dağıt ikiləşən sədləri, Təbriz,
Qolunu bağlayan hədləri, Təbriz.

Dilini alanın dili bağlansın,
Elə sənin təki qəlbi dağlansın,
Qoyma o ürəkdə dərdlər çağlansın,
Kor olsun həsrətin sarvanı, Təbriz,
İtsin ayrılığın karvanı, Təbriz.

Dağılsın başından qara buludlar,
Qoy şərqi söyləsin kamanlar, udlar,
Bu tay o tayından ayrı buludlar,
Çəkmə gözümüzdən gözünü, Təbriz,
Alışdır ocaqda közünü, Təbriz.

Mənə xəbər söylə Heydərbabadan,
Min bir elatından, min bir obadan,
Azadlıq tüstüsü qalxır sobadan,
Birləşər ayrılan qolların, Təbriz,
Açılar bağlanmış yolların, Təbriz.

O Savalanmıdır dərddən qocalan?
Bu tayı görməkçin göyə ucalan,
Hürriyyət bayrağın sancar Ərk qalan,
Ağ günlə qol-boyun olarsan, Təbriz,
Yolunu bu taya salarsan, Təbriz.

Qalanıb sinənə qat-qat intizar,
Həzər, ayrılığın əlindən həzər,
Mərdlərin şirlərtək yenə də qızar,
Dişləriylə açar qolunu, Təbriz,
Şimşəklərin tökər dolunu, Təbriz.

Kəsilməsin qəlbin taqəti, heyi,
Al sabah şehlərin azadlıq meyi,
Kölə olmamaqçın artıraq səyi,
Ümidsiz gözlərə çıraqsan, Təbriz,
Sən özün silahsan, yaraqsan, Təbriz.

Şəhriyar oğluna özüm qurbanam,
Qoyma həsrətinlə alışıb yanam,
Sənə qolu bağlı hazır qurbanam!
Qoy olum tökülən son qanın, Təbriz,
Qurtarsın zillətdən pak canın, Təbriz.

Zaman siləcəkdir acı-ağrını,
Səndə gecələyim aç bir bağrını,
Nə vaxt görəcəkdir gözüm doğrunu,
Həsrətin evini uçurtdun, Təbriz,
Başdan dərd-bəlanı qaçırtdın, Təbriz.

Gəl tutaq əl-ələ gedək sabaha,
Bəsdir sinən batdı dərdlə günaha,
Sənə yalvarıram eşit bir daha,
Bir Vətən adını daşıyaq, Təbriz,
Birlikdə əbədi yaşayaq, Təbriz.

Bu tayda intizar, o tayda həsrət,
Arazmı eylədi sinəni qürbət?
Sussuz dodağıma vüsalın şərbət,
O dəli sevginlə alışaq, Təbriz,
Bir can bir bədənə qarışaq, Təbriz.

**27.01.1987**

## ANALAR

Əriyər şam kimi beşik başında,
Alışar, qor olub, yanar analar.
Əzabı isinər hər göz yaşında,
Hər cür soyuqluqdan donar analar.

Daşıyar dünyanın ağır yükünü,
Bir şirin layladır sədası, ünü,
Açar dözümüylə min bir düyünü,
İsti yuvasına qonar analar.

Evinə arxadır, dayaqdır, səddi,
Nigartək, Həcərtək həmişə mərddi,
Hər bir çətinlikdən əyilməz qəddi,
Fəqət, dönüklükdən sınar analar.

Oğullar böyüdər elinə arxa,
Dar gündə yağıyla hər cəngə çıxa,
Qəzəbi bir anlıq, ürəyi yuxa,
İnciməz, özünü qınar analar.

Ağardar dərdi-sər qara telləri,
Övladı yolunda verər illəri,
Zəhmətdən yorulmaz işlək əlləri,
Bala böyütməklə sınar analar.

Bu gün el savaşda, yağır güllələr,
Düşmənlə üz-üzə hər oğul, hər ər,
Balası Vətənin yolunda ölər...
Yurdunun sabahın sanar analar.

Atılsa, yamandır ahı, qarğışı,
Unutsan, dondurar boranı, qışı,
Uçmaz yuvasından könlünün quşu,
Öz isti ocağın anar analar.

**05.03.1991**

## NEÇƏ-NEÇƏ QƏRİNƏ

Ana torpaq, neçə-neçə qərinə,
Salıb səni dərinlərdən-dərinə,
Qəssabında söylə ürək yerinə
Sinəsində o döyünən nə imiş?
Cəlladların ürəyini nə yemiş?!

İki qurluş bir sinədə at çapır,
Hər ikimiz qolu bağlı – yad çapır,
Əməlindən, gərdişindən dad çapır,
Ana torpaq, qulaq ver ah-vaylara,
Qan-yaş ilə axıb dolan çaylara.

Uzun olub ayrılığın ömürü,
De haçandan yazılıbdı əmiri,
İtginmidir, gəlməyir səs-səmiri,
Araz saçın yola-yola ağlayır,
Yollarını tikanlı səd bağlayır.

Bu tayında matəm tutub dünyanı,
O tayında ələm satıb dünyanı,
Dərdlilərə dərdin qatıb dünyanı,
Bu çəkilməz qəmin yalan olaydı,
Bu tayından o taya nur dolaydı.

Yollarını qucaqlayıb durmuşam,
Azadlıqçın haqq tərəfdə durmuşam,
Basılmayan sülhə qala qurmuşam,
Gəl mənimlə əl-ələ tut o tayım,
Arazıma deyilməsin qəm çayım.

Mən də sənin bir nəğməkar qızınam,
Butalanmış, ləçəklənmiş yazınam,

Kərəm üstə haray çəkən sazınam,
Bu sədama sən də bir hay verəydin,
Ürəyimi sularına sərəydim.

Xoşbəxtliyi yadlar bayraq ediblər,
Ədalətin bağrın yaman didiblər,
Bu amalla harayacan gediblər,
Demə, bizdə nəş'ə, şadlıq çağlayır,
Zalım ürək hönkür-hönkür ağlayır.

Gəl qucaqla ağlar gözüm yaşını,
Deyim sənə ayrılığın yaşını,
Bəsdi əydin dərdə enən başını!
Mən görürəm  o alışan sinəni,
Göylərində o çiskini, o çəni.

Ana torpaq, Savalanın başında
Duman gəzir, dərd-ələm var daşında,
Güneyinin, Quzeyinin qaşında,
Karvan-karvan qara bulud oynaşır,
Dağlarında, düzlərində qaynaşır.

Heydər baba qan-yaş tökür gözündən,
Od tökülür Şəhriyarın sözündən,
İnanmırsan, barı, soruş özündən,
Çıx Kəpəzə boylan bir yol Təbrizə,
O ki, hər gün əl eləyir hey bizə…

Ana torpaq, könlüm gəzir düzləri,
Babəkinin durur ayaq izləri…
Səttar xanın bükülməzdir dizləri,
Ürəyimin bir parçası ordadır,
Mənim anam, mənim bacım dardadır.

Deməyin ki, görməmişəm o tayı,
Deməyin ki, gözüm görmür ah-vayı,
Könlüm istər heç olmasa bir yayı,
Üzüm tutam gedəm Təbriz elinə,

Saçlarımı hörük edəm yelinə.

Çəmənlikdə birgə bardaş quraydıq,
Təbrizimlə bir üz-üzə duraydıq,
Yal-yamaca güllü naxış vuraydıq,
Savalanın zirvəsində qalaydım,
Heydər baba, özüm qadan alaydım.

Zülümlərdə qalan oğul, qızına,
Qan ağlayan kamanına, sazına,
Qüssə saçan gül-çiçəkli yazına,
Qəfil qapı döyən qonaq olaydım,
O həsrətli boynuna qol salaydım.

Naxçıvana düşdü bir gün güzarım,
Sərhəd boyu artdı dərdim, ah-zarım,
Ana torpaq, Araz oldu dost-yarım,
Elə sakit, elə səssiz axırdı,
Sükutuyla ürəyimi yaxırdı.

Bu tərəfdə neçə gözəl kənd, şəhər,
Aşıb-daşır naz-nemətlər bar-bəhər,
O tayında palçıq damlar bir qəhər,
Torpaq evli kəndlərini görəndə,
Qan ağladı mənə düzün, dərən də.

O tayında maşın yolda dayanıb,
Bir xanımsa dərd, ələmə boyanıb,
Yana-yana bizə sarı boylanıb,
Aram ilə qatara əl edirdi,
Sinəm altdan ürəyimi didirdi.

Ana torpaq onda yandım alışdım,
Leysan təki Arazına qarışdım,
Demirəm ki, qədər ilə barışdım,
Ayrılığın qalxır alov dilləri,
Bəlkə gələ bir gün vüsal illəri

**24.05.1986**

## QONŞU, BELƏ QONŞULUĞA AR OLSUN

Hiylə toru toxuyursan gecələr,
Şeytan, iblis, şər qulağın kar olsun!
Ağılına ağılsızlıq güc eylər,
Qonşu, belə qonşuluğa ar olsun!

Çörək kəsdin bir süfrədə xeyli vaxt,
Evimizdə əcəb qurdun yağı taxt,
Hiylələrlə millət olmaz heç xoşbaxt,
Qonşu, belə qonşuluğa ar olsun!

Torpağımı azaltmağa çalışdın,
Özgə eldə pis duyğuya alışdın,
Yuva qurdun, işimizə qarışdın,
Qonşu, belə qonşuluğa ar olsun!

Köz bağlamış yaraları qanatdın,
Yatanları yuxusundan ayıltdın,
Öz xalqını qan-qırğına sən atdın,
Qonşu, belə qonşuluğa ar olsun!

Ad axtardın özgəsinin adında,
Çox isindin bu torpağın odunda,
Tarixini pis saxladın yadında,
Qonşu, belə qonşuluğa ar olsun!

Musiqimi, mənim deyim, çalmısan,
Özgəsinin tar-kamanın çalmısan,
Adın haydı, yurduma göz salmısan,
Qonşu belə qonşuluğa ar olsun!

Sən xalqsansa özgə yurdda nə gözün,
Barışmağa su qoymayır o üzün,
Ara qatıb, qan salmağa nə sözün?
Qonşu, belə qonşuluğa ar olsun!

Millət deyib, səhər-axşam ağladın,
Albanın da sinəsini dağladın,
Günahsızın qapısını bağladın,
Qonşu, belə qonşuluğa ar olsun!

Türk şər deyib, gecə-gündüz yazırsan,
Öz xalqına yaman quyu qazırsan,
Düz olmayan yolundan da azırsan,
Qonşu, belə qonşuluğa ar olsun!

Böhtan dedin türk millətin adına,
Gətirmirsən tarixləri yadına,
Dönüb dilin qeybətçil bir qadına,
Qonşu, belə qonşuluğa ar olsun!

Yoxdur, görən, aranızda mərd ata,
İçirtdiyin zəhər suya bal qata,
Millətçilər nə verdi bu həyata?
Qonşu, belə qonşuluğa ar olsun!

Şirin xanım Nigar, Həcər övladı,
Müqəddəsdir ana yurdun pak adı,
Boşa getməz, yağı, bu el fəryadı,
Qonşu, belə qonşuluğa ar olsun!
Qonşu, belə qonşuluğa ar olsun!

**06.12.1988**

## TƏBRİZ DEDİM 7k

Gözlərimin yaşı dərya içində,
Həsrət cəllad çıxdı Vətən biçimdə,
O tayımda yadlar seçə-seçimdə,
Aralıqda qurub kədər nə bardaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Günahkarı kim idi bu torpağın?
Sahibi var hər kiçikcik yarpağın,
Altındadır, Azərbaycan, bu dağın,
Necə ayrı olsun, söylə, gözlə qaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Xəyalımda pak Savalan qəm dağı,
Qartalları oynaşanda sübh çağı,
Xudafərin söylər dərdli bir ağı,
Şəhriyarın gözlərində qanlı yaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Ağızlardan eşidirəm, ancaq mən,
Təbrizimin başı üstə duman, çən.
Savalanın saçlarına düşüb dən,
Ağırlaşır dərd əlində qalan baş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Ömür keçir, illər sürür karvanın,
Ana torpaq, yuxudamı Sarvanın?
İki yerə parçalanıb bir canın,
Zaman gedir, əlimizdən alır yaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Kim deyir ki, bəxtiyardır günümüz,
Uca-uca zirvələrdə ünümüz.
İran oldu – yaman bizim günümüz,
Bəxtimizə diyirlətdi qara daş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Ulu babam, qalx ayağa, cavab ver,
At oynatdın, qılınc vurdun, əsdi yer,
Yurdun əsir, xan Araza etdi yer,

Bu ayrılıq aləmlərə oldu faş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Bizimkidir, orda ağlar, qalanlar,
At oynadır, hiylə, fitnə, yalanlar.
Başı üstü dərd-ələmlə olanlar,
Bizə oldu həsrət dağı tək sirdaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Necə uzun oldu həsrət, iztirab,
Sinə, ürək daha etmir axı tab,
Üzü tutub sənə edir el xitab,
Bağlı yollar açılaydı bir gün kaş,
Təbriz dedim, sinəm yandı, a qardaş.

Bakı hələ səni səslər, can Təbriz,
Bir ananın övladıyıq axı biz.
Azərbaycan deyəndə qəlb çökür diz,
Neylim, həsrət zirvələrdə oldu baş,
Təbriz dedim, sinəm yandı, a qardaş.
Təbriz dedim, sinəm yandı, a qardaş.

**24.01.1987**

## PIÇILDAŞAN DEYİLMİ?

Azərbaycan, parlaq, nurlu gözlərin,
Hər addımda tarix olan izlərin,
Bəd ayaqda bükülməyən dizlərin,
Sinələrdə coşub-daşan deyilmi?
Ürəklərlə pıçıldaşan deyilmi?

Azərbaycan, bahar gəlib elinə,
Al günəşi kəmər elə belinə,
Yenə min bir nəğmə düşsün dilinə,
Qarşı dağlar bir tamaşa deyilmi?
Lalə, nərgiz başdan-başa deyilmi?

Qoy atlansın igidlərin çəməndə,
Al bəzənsin qızlar güllü çəməndə,
Sevgi salsın ürəklərin kəməndə,
Həyat gözəl, ömür şanlı deyilmi?
Zaman bizə istiqanlı deyilmi?

**07.04.1987**

## NECƏ GEDƏ BİLƏYDİM

Ay Vətənim, səni atıb, qürbətə,
Özün söylə, necə gedə biləydim?
Məhəbbəti, eşqi satıb qürbətə,
Həsrətlərin üzünəmi güləydim?

Bir ocaqsan, qarışırsan oduma,
O pak adın həkk olunub adıma,
Qəriblikdə sən düşərkən yadıma,
Acıları kimin ilə böləydim?

Qınağ ollam dostlara, tanışlara,
Sipər ollam eyhamlı baxışlara,
Ayrılığın səbəb olan yaşlara,
Öz əlimlə özüm necə siləydim?

Qürbətləri kim deyər yurd, məkandı?
Oralara düşmək özü imkandı,
Necə pozum ürəyimdən yurd andı?
Eşqimizin bağırını dələydim?

Tanrı qoyan yol-irizi azaraq,
Sevgimizin məzarını qazaraq,
Bu sevdanı baş daşına yazaraq,
Sonra onu ziyarətə gələydim?

Şadiman – od, sən yandıran çırağa,
Sığışmayır ahım-naləm varağa,
Qorxdun məni ürək sala fərağa,
Xiffətindən saralıban öləydim?!

**08.09.1994**

## YAŞAMAĞA DƏYƏR BU YERDƏ

Bol sulu selləri qaynayıb-axar,
Dağlar bir-birinə eşq ilə baxar,
Lalələr düzləri yandırıb yaxar,
Qapımı səadət döyər bu yerdə.
Könül, yaşamağa dəyər bu yerdə.

Ağ tülə bürünər günəşli göylər,
Hər qaya, hər zirvə bir dastan söylər,
Bura qədəm qoyan qüssə, qəm neylər?
Meşələr yaşıl don geyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

Bürüyər ormanı quşların səsi,
Riqqətə gətirər bura hər kəsi,
Yenə al-əlvandır Qafqaz ölkəsi,
Səni gur yağışlar döyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

Dağların sultanı Çıraqqalası,
Nağıllı, dastanlı tarix balası,
Min-min əsrlərə heyrət olası,
Sərkərdə sözünü deyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

Zümrüd bulaqların gözü aynadır,
Bülbüllər könülü, gözü oynadır,
Burda kürə günəş qanı qaynadır,
Ağaclar budağın əyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

Min nağıl, min dastan Şabran torpağı,
Könlə gəl-gəl deyir aranı, dağı,
Şadiman, zövqə bax bu bahar çağı,
İgidlər atını öyər bu yerdə,
Könül, yaşamağa dəyər bu yerdə.

12.10.1986

## SƏNİN DƏRDİN

*Xalq şairi Balaş Azəroğluna*

Deyirsən dumana bürünüb Təbriz,
Sənin dərdin, mənim dərdimdir, şair.
Deyirsən ayrıldı bu cığır, bu iz,
Təbriz yurd-yuvanın mərdidir, şair,
Sənin dərdin, mənim dərdimdir, şair.

Açılır cahana həzin bir səhər,
Qaranlıq köçünü dünyadan sürür.
İstəklər, məramlar çapır bir təhər,
Dünya özü boyda bir günəş görür,
Qaranlıq köçünü dünyadan sürür.

Sinəsi həsrətli, ey yurdun oğlu,
Çox da qəm eyləmə açılar yollar.
Dunya əyan edir yoxsulu, qulu,
Hər daşı bir tarix uludan ulu.
Çox da qəm eyləmə açılar yollar.

Güclü yağış yağar, bütün günahlar
Yuyunar dünyanın sinəsi üstə.
Al-əlvan geyinər aydın sabahlar,
Sülhün nəğməsini oxuyar pəstə.
Yuyunar dünyanın sinəsi üstə.

Ayrılıq, yurduma oxudun ovsun,
Ürək qəm yükünü çəkə bilməyir.
Başından dumanı küləklər qovsun,
Qədər irticanın burnunu ovsun!
Ürək qəm yükünü çəkə bilməyir.

25.01.1987

## TORPAĞINA YAZ GƏLİB

Güllər verib bülbüllərlə baş-başa,
Dönüb yurdum yenə də al qumaşa,
Hər addımın tamaşadır, tamaşa,
Od-alovlu sinəsində saz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Açır yenə bağçalarda çiçəklər,
Min bir növlü ağacların ləçəklər,
Uçuşarlar kəpənəklər, böcəklər,
Sanki elə bir şahanə qız gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Səmaların yeddi qurşaq geyibdi,
Şimşəklərin buludları döyübdü,
Ay-ulduz da göydə özün öyübdü,
Gözümüzə işıq verən göz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Təbəssüm var qız-gəlinin üzündə,
Od-alov var igidlərin gözündə,
Yığ sinənə lalələri düzündə,
Təbiətə həm işvə, həm naz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Baş-başadır Şahdağınla Qoşqarın,
Zirvələrdə tükənməzdir saf qarın,
Yaşıl xara geyinibdi baharın,
Köksümüzü odlandıran köz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

Yenə hörür saçlarını söyüdlər,
At belində çapır yeltək igidlər,
Qorqud dilli elim dinlər öyüdlər,
Pak dilində nəğmə, mahnı, söz gəlib,
Vətən, sənin torpağına yaz gəlib.

**08.05.1987**

## NƏ ŞİRİNSƏN, ANA DİLİM

Məmləkətin bəzəyisən,
Sən ruhumun özəyisən,
Varlığımın istəyisən,
Qovuşsun can-cana, dilim.
Nə şirinsən, ana dilim.

Yad üstündən salmasın yol,
Gəl mənimlə qol-boyun ol,
Bu sinəmə odunla dol,
Yetişsin an-ana dilim.
Nə şirinsən, ana dilim.

Çox döyüldün yağışlarda,
Çox söyüldün qarqışlarda,
Əsir oldun sərt qışlarda,
Heç doymadın cana, dilim,
Nə şirinsən, ana dilim.

Çiçək açsın Mil, Muğanın,
Sözdən keçər hər Muğamın,
Doğulandan şərbət camın,
Min can verər cana dilim,
Nə şirinsən, ana dilim.

Atam, anam gedər olar,
Gözəlliyim hədər olar,
Dünya bir gün mənsiz qalar,
Milyard ömür sana dilim,
Nə şirinsən, ana dilim.

Təbrizimdə kitaba dön,
Dilində haqq-hesaba dön,
Qələbənin yolunda ön!
Qoyma yağı dana, dilim.
Nə şirinsən, ana dilim.

Nağıl, qoşma, şux bayatı,
İsindirər bu həyatı,
Vətənimin külliyyatı

Düzülər yan-yana, dilim,
Nə şirinsən, ana dilim.

Şadimanın can odası,
Sözə bağlı hər sevdası,
Ey dilimin mübtədası,
Girmisən al qana, dilim,
Nə şirinsən, ana dilim.
Nə şirinsən, ana dilim.

**08.05.1987**

## ŞƏHİDİN QANI

Torpaqdan lalətək cücərib çıxır,
Cənnətə bəzəkdir şəhidin qanı.
Ruhu kainatın köksündən baxır,
Döyünən ürəkdir şəhidin qanı.

Bu yurdun sinəsi çox paralandı,
Bağrı min bir yerdən hey yaralandı,
Düşüb nahaq şərə çox qaralandı,
Göyündə küləkdir şəhidin qanı.

Şahidlər torpağım deyib, bağırdı,
Tarixi zülümün evnə çağırdı,
Göydən də, yerdən də güllə yağırdı,
Sınmış bir diləkdir şəhidin qanı.

Güllə yağışları həddən ziyada,
Gözlərdən yox oldu işıq, ziya da,
Ahlar parçalandı daşda, qayada,
Usanmış mələkdir şəhidin qanı.

Şadiman, boş yerə dünya döyüşdü,
Köksü paralandı, torpağa düşdü,
Haqq neçə yol enib, ayağa düşdü,
Min illər həlakdır şəhidin qanı!

**24.07.1990**

## BİR GÜN GƏLƏR

Vətən, bir gün gələr, haqqın qapısı
Üzünə açılar, dözüb səbir et.
Qarışıq dövranda kəsilib asi,
Yağının bağırın üzüb, səbir et.

Zaman haqsızlara qan ağladacaq,
Bağrına dağ çəkib hey dağladacaq,
Riyakar qapısın haqq bağladacaq,
Şeytanı əlinlə əzib, səbir et.

Varımız yağını iştaha salıb,
Özgə tikəsindən dildə dad qalıb,
Haram tikəlilər sonda alçalıb,
Hiyləni, fitnəni sezib, səbir et.

Ey yurdum, aldanma min bir sifətə,
Yol vermə bağrına dolan xiffətə,
Köksündən püskürən hər xəyanətə,
Bir çarə tapmaqçın gəzib, səbir et.

Səbirlə tapılıb hər gizli mətləb,
Səbirlə vüsala yetişər tələb,
Onsuz da dövrandan ağrı çəkir qəlb,
Zaman dəryasını üzüb, səbir et.

İnsanlıq tamaha yanan bir tifil,
Haqsızın, qansızın əlində səfil,
Həyat bir şahmatdır, udarsansa, bil,
Atını, filini düzüb, səbir et.

Ey Vətən, yadlara yağlı aş oldun,
Səni sevənlərə qanlı yaş oldun,
Şəhid düşən üçün qəbrə daş oldun!
Dünyada talandı, bezib, səbir et.

**12.10.1992**

## ÜZÜ GÜLMƏSİN

Qırıldı içimdə ümidlər, Allah,
Bizi bu zülümə salan gülməsin.
Taladı dünyanı pis cəhdlər, Allah,
İlantək sinələr çalan, gülməsin.

Müddətdi tökülür elin göz yaşı,
Yenə didərgindir yurd vətəndaşı,
Yağının başına ağırdır daşı,
Dünyanı dolaşan yalan, gülməsin.

Cəlladlar, qansızlar meydan sulayır,
Hər qanun başında quduz ulayır,
Neçə günahsızı qana bulayır,
Əldən nəş‘əmizi alan, gülməsin.

Şadiman, qırılıb elin çırağı,
Niyə eşidilməz haqqın sorağı?
Çox qanlar axıtdı yağı yarağı,
Qalsın aralıqda nalan, gülməsin.

**28.01.1989**

## CAN ARAZ

Can Araz, hey can Araz,
Eyləmədin qan Araz.
Hamı yıxır talayır,
Heç olmur divan Araz.

Gözüm baxır qan-yaşa,
Yetməyir can sirdaşa,
Bizi Vətəndən edən,
Görüm dönəydi daşa.

Göyləri çən alıbdı,
Ətəyin gen salıbdı.
Güney-Qüzey deməkdən,
Dillər qabar çalıbdı.

Yol gedir Ərdəbilə,
Bərk demə, yağı bilə.
Bizi candan ayıran,
Can deyir bilə-bilə.

Yollar üstü yağışdı,
Hər gözdə bir baxışdı.
Getdim Araz boyunca,
O taydan el baxışdı.

Təbriz üstə gün düşməz,
Sədam batar ün düşməz.
Yağı asan kəndirə,
Min yerdən düyün düşməz.

Can Araz, hey can Araz,
Eyləmədin qan Araz.
Hamı yıxır talayır,

Heç olmur divan Araz.

**17.03.1989**

## VƏTƏN TORPAĞI

Qışda quzeyimsən, yayda güneyim,
Sübh çağı şehlərlə nəş'əli meyim,
Bağrı sarı bülbül uzaq Güneyim,
Seyir, tamaşadır aranı, dağı,
Mənə candan əziz vətən torpağı.

Bir sarı siminəm, mizrab istərəm,
Çəkdiyin ağrıya hesab istərəm,
Tabsız səbirimə mən tab istərəm,
Bizi parçaladı düşmən ayağı,
Mənə candan əziz vətən torpağı.

Göyündən asılan günəşin olum,
Sönmüş ocağında atəşin olum,
Bu haqsız dövranla gərdişin olum,
Öz insanında gəz yurda dayağı,
Mənə candan əziz vətən torpağı.

Bilməm nə hikmətdir sevgin diləkdə,
Özün boylanırsan canda, ürəkdə,
Ağrın döşək salıb yatıb kürəkdə,
Sinəyə yaradır ayrılıq dağı,
Mənə candan əziz vətən torpağı.

Dur aç sərhədləri, keçim Təbrizə,
Tikələr, parçalar dağ çəkib bizə,
Asaq müjdələri gecə-gündüzə,
Sənin haraylarım yırtsın qulağı,
Mənə candan əziz vətən torpağı.

Gəzək məmləkəti istək içində,
Yıxaq sərhədləri, ötək içində,
Ya qalxaq, ya da ki, itək içində!
Yazaq misra-misra bu ağ varağı,

Mənə candan əziz vətən torpağı.

**10.07.1987**

## TORPAĞIM

Müddətdi ki, başın üstün alıbdı
Fitnə-feil, eldə yasdı, torpağım.
Bədnəzərin gül sinəndən çalıbdı,
Qəm oxuyan nə avazdı, torpağım?

Fələkdənmi yetdi qəfil fəlakət?!
Yasa batdı Odlar Yurdu məmləkət,
Yağılara qismət oldu şan-şövkət,
Zalım bizə məzar qazdı, torpağım.

Güllə keçdi, parçaladı sinələr,
Yuvasında qara geydi binələr,
Lal dünyanın fəraqına dinələr…
Ürək daha sınıq sazdı, torpağım.

Öz yurdundan qaçıb çıxan kişilər,
Öz əliylə evin yıxan kişilər,
Öz dərdinə durub baxan kişilər,
Ağlımızda nə ayazdı, torpağım.

Biz də axı bu Vətənin adıyıq,
Guya, yanan ocaqların oduyuq,
İndi yağı gülləsinin dadıyıq,
Çoxu başdan çox dayazdı, torpağım.

Müsibətlər yurd-yuvaya yeriyir,
Mənliyimiz ayaq altda əriyir,
Hər çatan da özünə bir ər deyir,
Boş-boş ötən nə nəvazdı, torpağım.

Şadimanı durun çəkin çarmıxa,
Ürək dözmür qan-qırğına göz baxa,
Düşmən gələ, yurd-yuvana od yaxa,
Qartal sanan özü qazdı, torpağım.

**26.06.1990**

## EY ŞƏHİD QƏBİRİ

Nakam igidlərin ləyaqət evi,
Tükənsin millətin bu dərdə səbri.
Biz boğa bilmədik iblisi, divi,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Günahkar batacaq qara günaha,
Qəfəsdən çırpındıq azad sabaha,
Oldu yurdumuza bu addım baha,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Sinədə şırımlar açdı bu dağlar,
Bu vaxtsız ölümlər sinələr dağlar,
Dərdlərdən ovulub töküldü dağlar,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Güllə yağdıranın haqqa qəsdi nə?
Durdu nakamların yağı qəsdinə,
Baxmadı bəndələr tanrıya, dinə,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Qarşında diz çöküb ağlaram hər gün,
Getməz bu sinədən ölüncə düyün,
Biz nə vaxt görərik dünyada bir gün?
Ey şəhid qəbiri, şəhid qəbiri.

Titrər için-için dərddən bağrımız,
Daşnakdır, ay ellər, bizim yağımız,
Yağının dişinə yem torpağımız,
Ey şəhid qəbiri, şəhid qəbiri.

Şadiman baş əyir, durub qarşında,
Gözündən yaş gəzir məzar daşında,
Min dəfə qocaldı cavan yaşında,

Ey şəhid qəbiri, şəhid qəbiri.
Ey şəhid qəbiri, şəhid qəbiri.

**22.07.1990**

## SEHRİNDƏN ALIŞDIM

***Unudulmaz səsli Rübabə***

***Muradovaya ithaf***

Səsindəki sehirindən alışdım,
Yandı bağrım oda, közə, Rübabə.
Ürəyimin hicranına qarışdım,
Doldu qan-yaş küskün gözə, Rübabə.

Nə bəladı, büryan oldu ürəklər?
Niyə bizi qarqışladı fələklər?
Ayrı düşdü o tay, bu tay diləklər,
İllər keçdi dözə-dözə, Rübabə.

Qafqazlardan Savalana səsləndin,
Ərdəbili ürəyində bəslədin,
Bu ağrını hər bir kəsdən həslədin,
Dönük Araz baxmır sözə, Rübabə.

Haqsızlıqlar parçaladı sinəni,
Uçurtdular Ərdəbildə binəni,
Doğradılar ana dildə dinəni,
Yurdun qanı çıxdı dizə, Rübabə.

Başın üstə fələklər qan ağladı,
Yurd ayrıldı, bu dərddən can ağladı,
Zaman ötdü, qapında an ağladı,
Müsibətin qalxan-nizə, Rübabə.

Bir ömürdü, biz də köçüb, gedərik,
Dərd şərbətin haqdan içib, gedərik,
Ayrılığı yovuq seçib, gedərik,
Zaman gülsün neylək üzə, Rübabə.

Segah üstə ağladırsan ürəyi,
Səsin Rəbbin könlə yatan mələyi,
Çatdırırsan yurddan yurda diləyi,
Arzun daşa dəymiş kuzə, Rübabə.

Biz qorxağıq, yoxsa fələk amansız?
Ömür ötür, köç üstündə səhmansız,
Görüb yağı, qalsın daha fərmansız,
Kim ayıra, kimlər dözə, Rübabə.

Oxu «Heydər baba»dan sən misranı,
Düşsün ərzə, silkələsin İranı,
Yandırırsan başdan-ayaq bu canı,
Ağrı-acı durub üzə, Rübabə.

Sən səhnədə Leyli olub ağladın,
Yurdda Məcnun ürəkləri dağladın,
Füzulinin harayıyla çağladın,
Harayların zalım əzə, Rübabə.

Sən də yurddan yurda pənah gətirdin,
Qüzey tapıb, Güneyini itirdin,
O tayda da bülbül kimi ötürdün…
Səsin yerdən göyə, ərzə, Rübabə.

Şirin xanım bir dünyalıq dərd daşır,
Hönkürtülər qəlbə düşür, dərd daşır,
Deyirlər ki, Araz özü yurd aşır,
El gələcək, bir gün bizə, Rübabə.

**04.04.1980**

## VƏTƏN DEDİM

Vətən dedim, ürəyimə dağlar çəkildi,
Vətən dedim, gözüm qaldı, Araz, o tayda.
Gözlərimdən leysan təki yaşlar töküldü,
Vətən dedim, dözüm qaldı, Araz, o tayda!

Bu nə həsrət, bu nə hicran, bu nə ayrılıq?
Yandı könül gilə-gilə əzab içində.
Yağıların üzdə oldu bizə xoşqılıq,
Parçaladı yurd-yuvanı qəzəb içində.

Qərib-qərib Dərbəndimə baxıb, ağlaram,
Borçalıdan qopan haray sinə parçalar.
Mən özüm də bu dərdlərə yanan dağlaram,
Dərdlərimiz mağar qurar, bizə əl çalar.

Ey soydaşlar, Vətən bizə şərəf işidir,
Bu yaralı torpaqları qorumaq gərək.
Torpağa da, dövlətə də arxa, kişidir!
Dözməlidir, sərhədlərə, sədlərə kürək.

Gəl götürək sərhədləri, yıxaq sədləri,
Köləlikdən qurtulmağın yolu savaşdır!
Məmləkətin yurdum deyən, qoçaq mərdləri,
Yağıların kəsiləcək qolu – savaşdır!

Ondan keçir dövlətçilik, yurda sədaqət,
Kişi özgə dövlətlərin əsiri olmaz.
Güclülərin əlindədir yalnız həqiqət,
Belə getsə, yurdumuzdan heç nə də qalmaz.

Araz dedim, Təbriz coşdu qanla damarda,
Cuşa gəldi ürəyimə sızan haraylar.
Araz dedim, Babək Ərkdə çarpışdı darda,
Qayalarda toz qopartdı, çatladı vaylar.

Biz hayların məkirinə duşüb qalmışıq,
Yenə qalxıb Qarabağı pay umur onlar.
Bəsdir daha künc-bucaqda yuva salmışıq,
Bir olmasaq, axacaqdır hələ çox qanlar…

Şadimanı qınamayın ərlər, ərənlər,

Parça-parça məmləkətdən Vətənmi olar?
Ey yurdları qul qismində, əsir görənlər,
Köləlik də istiqlala heç tənmi olar?

**27.12.1988**

## XALQIN SƏSi

Özgəsinin torpağına göz dikən ey cəlladlar,
Partlayacaq başınızda min-min ahlar, fəryadlar.
Yurdumuza, yuvamıza «mənimki» deyən yadlar,
Ata-baba yurdumuzda bir dövlət yaraddınız,
Havamızdan, suyumuzdan çoxaldınız, artdınız.

Bu nankorluq ulunuzdan, kökünüzdənmi miras?!
O hiyləgər əlləriniz qurdu məkirli bir tas,
Tanrı özü haqsızlığa gec-tez tutacaqdır yas,
Özgəsinin torpağında vəhşi qanqala döndüz,
Çirkin əməllər uğrunda çox alçaldız, çox endiz.

O tökülən pak qanların ruhu bir gün gələcək,
O məkirlə tutduğunuz yurdun bəxti güləcək,
Dünya gec-tez haqsızlığı anlayacaq, biləcək,
Fəqət, qiyamət o zaman duracaq qarşınızda,
Partlayacaq həm hiyləgər, həm murdar başınızda.

Əfsus, «Böyük Ermənistan» xülyasına düşənlər,
Yurdumuzu qan eyləyib aradan sürüşənlər,
Ey genosid qazanında qaynayanlar, bişənlər,
Azərbaycan çox görübdü bu məkirli donlardan,
Allah sizə keçməyəcək, bu günahsız qanlardan.

Qarabağın torpağında yenə də qan tökülür,
Kəlbəcərin şiş zirvəsi düşmən əllə sökülür,
Yağıların fitnəsiylə haqqın dizi, bükülür,
Dədəm Qorqud, aç gözünü, ey ulum, gör bü günü,
Xain əllə bəxtimizdən açılmayan düyünü.

Azərbaycan oğulları, birləşin yumruq kimi,
Yağıların sürünübdü arxada quyruq kimi,
Bu harayı yurd-yuvadan dinləyin buyruq kimi,
Düşmənlərin sinəsindən vurmaqçın dəmirləşin,

Ey qoç igid kişnərtili, Koroğlular, birləşin!

**15.05.1990**

## TƏBRİZƏ MƏKTUB

Təbrizim, ağrıyla qolladım məktub,
Sənin ünvanına yolladım məktub.

Ünümüz yetməyən, ey ana Təbriz,
Kəslib xanların açdığı yol-riz,
Barı, halımızdan hali olun siz,
Şəhidlər oğulu, qızı yurdumun,
Sındı qol-qanadı, sazı yurdumun.

Gülləyə tutuldu yalın əl-ayaq,
Bakı qan içində üzdü bu sayaq,
Ümidsiz Bakıma, gəl sən ol dayaq,
Axdı, selə döndü qanı yurdumun,
Qəhərlə boğulub canı yurdumun.

Partlayır qüssədən, ələmdən ürək,
Salsın bəlalara yağını fələk,
İki ildir qurub elimə kələk,
Tökülür gözündən yaşı yurdumun,
Açılmır fitnədən başı yurdumun.

Əgər Quzeyimə düşsə güzarın,
Görərsən yüzlərlə şəhid məzarın,
Çatdır, dünyamıza el ahu-zarın,
Yetişsin dadına ellər yurdumun,
Haqq sözün söyləsin, dillər yurdumun.

Bizdən pay umurlar el torpaqları,
Çəkilir Vətənə sinə dağları,
Solur könüllərin həyat bağları,
Davakar adlanır özü yurdumun,
İki ildir gülmir üzü yurdumun.

Bəlaya tuş olub düzü məmləkət,
Döyür qapımızı hər gün fəlakət,

Harama dönübdü halal bərəkət,
Düşüb bəd ağıza sözü yurdumun,
Sönübdü ocağı, közü yurdumun.

Yağıya tuş olub gözəl Qarabağ,
Qanlı səngərlərə dönüb dərə, dağ,
Xaraba qalıbdı evlər, bağça-bağ,
Qalıbdı əllərdə bəxti yurdumun,
Sökülür, dağılır taxtı yurdumun.

Rusun işğalına tuş olmuşuq biz,
Göylərdə vurulan quş olmuşuq biz,
İndi bəbəklərdə yaş olmuşuq biz,
Qız-gəlin harayı, vaydı yurdumun,
Dərdi yığın-yığın taydı, yurdumun.

Haya, erməniyə verib silahı,
Al qana boyayır, gələn sabahı,
Çıxıbdı, göylərə ellərin ahı,
Köksü parça-parça oldu, yurdumun,
Bağrı şəhidlərlə doldu, yurdumun.

Şadiman çağlayan, yanan el qızı,
Hönkürür qələmi, kağızı, sözü,
Gəlib yetişəndə əlinə yazı,
Təbriz, söyləyərsən dərdin yurdumun,
Çağır Koroğlusun, mərdin yurdumun.

**09.02.1990**

## VƏTƏN DEYİB

Vətən deyib suyunu, havasını sevdiyim,
Sevinciylə şadlanıb, qüssəsiylə öldüyüm,
Sonsuz acı-ağrısın könül dərdi bildiyim,
Bacarmırıq biz sənə yaxşı övlad olmağı,
Düşməninə bir yolluq son qələbə çalmağı!

Budur yenə qırğınlar, çarpışmalar başlayır,
Yağı ocaq başında, başımızı daşlayır,
Susun deyir bizlərə, məğlub hissi aşlayır,
Nə vaxt öyrənəcəyik biz də qisas almağı?!
Düşməninə bir yolluq son qələbə çalmağı!

Bizi iki yüz il yağı, qul kimi bəsləyibdi,
Vətəni sevməməyə könül həvəsləyibdi,
Millətləri bir yerə yığıb qəfəsləyibdi,
İmperya öyrədibdi bizə yatıb qalmağı,
Qarını bəsləməyi, bu yolla ucalmağı.
Bacarmırıq, biz sənə yaxşı övlad olmağı.

Bu Vətənin içini sərhədlər yarır keçir,
Düşmənlər qoşalaşıb yurdumun qanın içir,
Yenə vətən insanın yağı sünbültək biçir,
Öyrənmişik ağlayıb, saçımızı yolmağı,
Bacarmırıq biz sənə yaxşı övlad olmağı,
Düşməninə bir yolluq son qələbə çalmağı!

Yenə xain əliylə bölünür torpağımız,
Yenə şişir dikəlir sinədən qəlb dağımız,
Haçan gələr, ey Vətən, bir firavan çağımız?
Öyrəşmişik köç edib, təzə məkan salmağı,
Bacarmırıq biz sənə yaxşı övlad olmağı,
Düşməninə bir yolluq son qələbə çalmağı!

Şadiman dikib başın sinəsinə, ey Vətən,
Qulaqları batmasın gur səsinə, ey Vətən,

Yenə yad xofu düşüb nəfəsinə, ey Vətən,
Mən kişilik saymıram kölətək ucalmağı!
Bacarmırıq biz sənə yaxşı övlad olmağı,
Düşməninə bir yolluq son qələbə çalmağı! **17.03.1990**

## VƏTƏNİM HARAY

Bir anda kədərin tikir min saray,
Toqquşub içində, acı duyğular.
Haray, ey alışan Vətənim, haray,
Alıbdı üstünü yenə qayğılar.

Çırpınır, döyüşür adınla illər,
Günlər qaçaqaçda, zaman tələsir.
Aparsın ağrını qanadlı yellər,
Qarşında gah günəş, gah qatı duman.

İdrak qovhaqovda min arzu doğur,
Bəxtinsə ağlayar bir uşaq kimi.
Hər açılan sabah bir gecə boğur,
Bəxtəvərdir kimi? bədbəxtdir kimi?!

Sənin də bəxtinə köləlik düşdü,
Parça-parça Vətən, bəlalı yurdum,
Elinə istiqlal – kişiyə işdi,
Nə vaxt yaranacaq bəs Milli Ordum?!

**12.11.1989**

**TÜRK OĞLU TÜRK   8k**

Hanı Sultan tacı-taxtın?!
Niyə yatıb qalıb baxtın?
Ötüb keçir dərdlə vaxtın,
Qaldır səsi aləmə bərk,
Qurduna dön, Türk oğlu Türk.

Vətənlər əsir ağlayır,
Nalələr sinə dağlayır,
Bəxtini şər varağlayır,
İgidliyin başına sərk,
Qurduna dön, Türk oğlu Türk.

Parçalanıb, aralandıq,
Min bir yerdən yaralandıq,
Bəsdir daha paralandıq,
Acıları gəl eylə dərk,
Qurduna dön, Türk oğlu Türk.

Ərbilə əlim çatmayır,
Kərküküm gecə yatmayır,
Şərin qulağı batmayır,
Etmək olmur ocağı tərk!..
Qurduna dön, Türk oğlu Türk.

Təbrizində gözüm qalıb,
Borçalını hicran alıb,
Şər Dərbəndi dərdə salıb,
Əsir yurdlar sinəyə görk,
Qurduna dön, Türk oğlu Türk.

Bu xaçın Səlib yürüşü,
Əzilməli köpək dişi,
Şər-xətadır hər bir işi,
Sənə baxan şər gözü tök,
Qurduna dön, Türk oğlu Türk.

Qarabağın işğallarda,
Necə dursun bu hallarda?
Pak sevgi var vüsallarda,
Aralıqda iltifat tük…
Qurduna dön, Türk oğlu Türk.

İrəvanı yağı aldı,
Aramıza sərhəd saldı,
Göyçə göldə gözüm qaldı…
Dur, yağını qanına bük,
Qurduna dön, Türk oğlu Türk.

Qılıncını qart daşa sürt,
Düşməninin köksünə dürt,
Xain üzə qapını ört,
Soydaşından bu sənə ərk,
Qurduna dön, Türk oğlu Türk.

Üzü Haqqa durmaq – hünər,
Ulu sözün dilində ƏR,
Qalx, düşmənin qolunu gər,
Şadimana əhvalın görk.
Qurduna dön, Türk oğlu Türk.
Qurduna dön, Türk oğlu Türk.

**10.02.2012**

## QUBA MƏZARLIĞI

***1918-ci ilin mart-aprelində erməni-bolşevik birləşmələri 50 min azərbaycan əhalisini öz yurd-yuvasında qətlə yetirdi.***

Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi.

***

Çəkilmir üstündən ağrı-acılar,
Göylərin bağrına fəryad sancılar,
Ruhlar fəğan edir burda didərgin,
Ağrılar içində zamanlar gərgin.
Sünbültək biçilib qəfil insanlar,
Qan gürşada dönüb, yağıb leysanlar!
Erməni-bolşevik quldur dəstəsi,

Əllərində tüfəng, xəncər tiyəsi,
Batırıb qanlara şəhəri, kəndi,
Baş tutub bir zaman hiyləgər fəndi.
Evlərdən insanlar tökülüb çölə,
Qanlar suya dönüb, çevrilib gölə.
Uşaqlar, qocalar, qadınlar nalan,
Neçə yurd-yuvalar, məscidlər talan!
Hönkürən, qışqıran insan harayı,
Çox küncdə-bucaqda güldürdü vayı!
Can götürüb qaçan, sağ qaldı o vaxt,
Hər kəsin üzünə gülmədi heç baxt…
Göylər də ağladı Quba yasına,
Fələk yaş axıtdı yerin tasına.
Öz doğma evində qırıldı millət,
Yuvalar içində şah oldu illət.
Burda fərq qoymadı düşmən heç kimə,
Müsəlman tamamən ölməli, demə.
Türk, ləzgi, yəhudi, dağlı qırıldı,
Qanlardan səmanın bağrı yarıldı.
Hamı Allah deyib göyə əl açdı,
Əzrayıl özü də zülümdən qaçdı.
Onun roluna girmiş qansızlar,
İnsan öldürməkdə birmiş qansızlar.
Qanların içində üzdü məmləkət,
Qanlardan donunu geydi fəlakət!
Qadınlar saçından asıldı o gün,
Körpələr künclərə qısıldı o gün.
Qocalar Quranla məscidə qaçdı,
Diz çöküb əllərin göylərə açdı.
Allahın evinə doldu insanlar,
Allahla təmasda oldu insanlar.
Onlar məscidə də kibriti vurdu,
Qapını bağlayıb, ağzında durdu.
Yandı qadın, uşaq orda günahsız,
Yağını bəsləyən, doğan Allahsız!
O günlər Şamaxı, Bakı qırıldı,
Siyəzən, Dəvəçi aha sarıldı.
Xaçmazda el-oba qana boyandı,
Çocuqlar, körpələr beşikdə yandı!
Bunları unutmaq olmaz, ey millət,
Unutsaq yenə də doğacaq zillət!

İrəvan, Zəngəzur, Borçalı, Dərbənd,
Təbriz, Xan Qarabağ  zəncirlərlə bənd,
Gəlin bu dərdlərə edəyin peyvənd!
Türk yurdu şəhidlər məzarı olur,
Baxın, ana Vətən saçını yolur.
***
Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi.
***
Sümüklər sızlayır şivən içində…
Millətə bir haray, güvən içində!..
Ruhlar ah-fəğanla dolaşır burda,
Öz qara bəxtiylə ulaşır burda.
Körpə, qoca, uşaq, qadın kəlləsi,
Gahdan qulaqlara dəlir ah səsi.
Quyular açılıb, sirr üzə çıxıb,
Düşmənin etdiyi kir üzə çıxıb.
Lənətin o yana yolu da yoxdu,
Vətəndə bu tipli quyular çoxdu…
Nə qədər hələ də yer altındadır,
Gözəl Azərbaycan şər altındadır.
Şərin quyruğunu kəsməsək, olmaz,
Vətənin üstündə əsməsək, olmaz.
Yuvanı qorusan – yurduna dönər,
Yurdunu bəsləsən – ORDUNA dönər…
***
Yenə zaman ötüb, günlər keçəcək,
Barış şərbətini yağı içəcək…
Ancaq Soyqırımlar ürəyimizdə,
Vicdandan boylanan diləyimizdə.
Susub, bu qanlarla oturmaq olmaz,
Sandıqlar içinə yatırmaq olmaz.
Olmamış soyqırım bəsləyir yağı,
Haqqı vicdanından həsləyir yağı.
Türklərə edilən bu Soyqırımı,
Bilib, tanımalı dünyada hamı.
Haqqı qəfəslərə salanlar bilsin,
Məkiri, hiyləsi kalanlar bilsin,
Düzlüyü yoluna qaytarmaq gərək,
Düzlüklə vurmalı cahanda ürək.
Onda nahaq qanlar tökülməyəcək,

Heç bir insan könlü sökülməyəcək.
***
Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi!..

**23.04.2012**

## URMU GÖLÜ AĞISI

***Güney Azərbaycanında Urmu gölü yox olmaq təhlükəsi ilə üz-üzə, o, insanları haraya çağırır…***

Çəkilib sinəmə dağlar, düyünlər,
Tərsinə çevrilib indi beyinlər,
Quruyur sularım, tükənir günlər,
Yanıb köz oluram, oduma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

Adımı Urmugöl qoydu dədələr,
Mənim harayıma yetmir gədələr,
Dərdimi köksümdən gəlib didələr,
Yığılın, ellilər, adıma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

Tökülür bədənim, qəfəs oluram,
Anbaan quruca nəfəs oluram,
Bəmdə inildəyən bir səs oluram,
Bəmimə zil tutun, adıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Məni Urmu deyib, öyürdüz axı,
Mənə sevgili yar deyirdiz axı,
Qalxır asimana köksümün ahı,
Güneyli, Quzeyli yardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Daha quş karvanı gölə gəlməyir,
Mənim ağılarım dilə gəlməyir,
Sularım quruyur, ələ gəlməyir,
Durun, qoşun çəkin, yurduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Babəkin kəsilən qolu haqqı ki,
Nəsimi soyulan yolu haqqı ki,
Sərdari-millilər halı haqqı ki,

Hələ can üstəyəm, vardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

İndi ağım ilə yüklənib Güney,
Min bir əzablarla rənglənib Güney,
İranda, ey dunya, təklənib Güney,

Dillər haraylayan, sorduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Mən sussuz yaşaya bilməyəcəyəm,
Sularım coşmasa, gülməyəcəyəm,
Mənə can desələr, ölməyəcəyəm,
Düşün cığırıma – ardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Şadiman, bilirəm yanırsan mənə,
Sən də bu gölümü anırsan mənə,
Gəl, ey şair qızım, su lazım tənə!...
Dərdi ləşgər çəkən, orduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

**26.07.2012**

## VƏTƏN ƏQLİN HİKMƏTİDİ

Vətən əqlin hikmətidi,
Onun eşqi candan gəlir.
Hər millətin nemətidi,
Məhəbbəti qandan gəlir.

Ondan keçmək olarmı heç?
Ocaqsız el qalarmı heç?
Ürəyə od salarmı heç?
Sədası hər yandan gəlir.

O yuvadır, sökmək olmaz,
İçinə şər tökmək olmaz,
Hər qoltuğa bükmək olmaz,
Yurd özü ad, sandan gəlir.

Vətən cigər, paramızdır,
Qorumasaq, yaramızdır,
Sığınmağa çaramızdır,
Vüsalı hər andan gəlir.

Bu Şadiman qərib olsa,
Gözü dolub yolda qalsa,
Əgər  xain çıxan olsa,
Hər sözü min dondan gəlir.

**14.02.2013**

## TÜRKÜN BAYRAĞI

Yanacaqdır yerdə, göydə nurlu, parlaq çırağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

O sevdalı ürəklərdə alışacaq şam kimi,
Zülmətlərə udduracaq yağını axşam kimi,
O Turanın sinəsində coşub-daşan kam kimi,
Altaylarda, Türküstanda gəzəcəkdir sorağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Canımızdan, qanımızdan, ruhumuzdan boylanır,
Onun rəngin görən düşmən fəryad çəkir-oylanır,
Çıxır əngin asimana, başımıza haylanır,
Birləşəcək Turan ellər, görəcəkdir xoş çağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Qurd ürəkli kişilərin məkanıdır uluslar,
Qan yaddaşa qayıtmağın təkanıdır uluslar,
Şərəf, namus, qeyrət, ismət ərkanıdır uluslar,
Kəsiləcək Türk yurdlardan yağıların ayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Gələcəkdir bir araya, Ərəm, deyən oğullar,
Qurd ruhundan qopub çıxan, nərəm, deyən oğullar,
Silah qapıb xainləri, gərəm deyən oğullar,
Sibiryadan, Tatarlardan uçacaq yel sayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Çanaqqala savaşının qanı gəzir üzündə,
Şəhid ruhu alov saçır torpağının özündə,
Məhşərətək haray çəkir ocağının közündə,
Yağı özü yaddır ona, yağı sözü bayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Türk torpaqlar, Ay-Ulduzlar istiqlalın doğacaq,
Onun ruhun sındıranı künc-bucağa sığacaq,
Bayraqların, Türkəm, deyən bir sıraya yığacaq,
Artacaqdır sülhsevənin bu topluma marağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Göy atların kişnərtisi qulaqlardan getməyir,
Tarixlərin havacatı hələ başdan ötməyir.
Əllərimiz ayrılalı, bir-birinə yetməyir,
Qıpqırmızı sancağıdır könlümüzün dayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Türkiyənin səmasından gəl-gəl deyir bizlərə,
Sığal çəkir al rəngiylə şəfəqli gündüzlərə,
İşığından nur ələnir könüllərə, üzlərə,
Süslənibdi məhəbbətlə tarix dolu varağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Yanacaqdır yerdə, göydə nurlu, parlaq çırağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

**09.11.2012**

## PULUM, EY PULUM

Alimlər qarşında çökər,
Məndən yazmaqçın dil tökər,
Sözdən mənə qala tikər,
Pulum, ey pulum.

Qapımdan necə girmisən?
Məni nə yaxşı görmüsən,
Bəxtimə düşən dürmüsən?
Pulum, ey pulum.

Aldığım diplom sənnəndi,
Alimliyim o günnəndi,
Dar cığırım ennəndi,
Pulum, ey pulum.

Bu yurd nə yaxşı məkandı,
Para əldə bir sükandı,
Hər işimdə bir təkandı,
Pulum, ey pulum.

Hamı məndən danışarlar,
Tərif üçün yarışarlar,
Hər dərdimə qarışarlar,
Pulum, ey pulum.

Oxudub zalım edərsən,
Sən məni alim edərsən,
Ad üçün aya gedərsən,
Pulum, ey pulum.

Əlimdən tutub yazarsan,
Hər kəsə quyu qazarsan,
Hərdən yolu da azarsan,

Pulum, ey pulum.

Səcdəmə durub gələrlər,
Baxıb üzümə gülərlər,
Dərdimdən düşüb ölərlər,
Pulum, ey pulum.

Qapılar özü açılar,
Gözlərdən günəş saçılar,
Sədlər, sərhədlər uçular,
Pulum, ey pulum.

Qəzet, jurnal dildən düşər,
Nəşriyyatlar əldən düşər,
Adım ən başda yerləşər…
Pulum, ey pulum.
Pulum, ey pulum

**13.07.2011**

## AĞRISIN TARİXƏ SALAN ALBANYA

Əsirlər içində yatır taleyin,
Göy yeddi qatına çatır taleyin,
Səni müsibətə atır taleyin,
Qəsiri, qalası talan Albanya,
Ağrısın tarixə salan Albanya.

Sən ki, Qafqaz adlı yerdə doğuldun,
Dinlər savaşında ahdan boğuldun,
Sanki Cavanşirlə qoşa nağıldın,
Varlığın olubdu yalan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Sənin «Əsli-Kərəm» dastanın haray,
Müsəlman Kərəmlə xaç Əslində vay,
Dur, yatmış bəxtinlə sal aləmə hay,
İstəkli ellərin nalan Albanya,
Ağrısın tarixə salan Albanya.

Qalx Dədəm Qorqudun naləsin oyat,
Sənə sitəm dolu dərd verdi həyat,
Şöklü Məliklərin bağrı etdi çat,
Gəlmə Haylar oldu balan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Tarixin, əlifban yad ələ keçdi,
Sənin doğmaların şərdən qan içdi,
Təni haray çəkdi, dərdi can içdi,
Əzablar içində solan Albanya,
Ağrısın tarixə salan Albanya.

Kəlisa inancın Hay tayfasında,
Həqiqət inləyir şər səfasında,
Dünyanın nə qalıb haqq vəfasında?
Saçını ah-ufla yolan Albanya,
Ağrısın tarixə salan Albanya.

İndi Qarabağın matəm içində,

Ordakı yerlilər sitəm içində,
Haylar soy-kökünü şərlə biçində,
Öz qara bəxtiylə dolan Albanya,
Ağrısın tarixə salan Albanya.

Haylar torpağımı Hayıstan etdi,
Terrorla, qırğınla yurdu qan etdi,
Uddu tarixini, mərama yetdi,
Qıpçağın, udinin balan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Səndə iyrmi altı el birləşirdi,
Əlli iki hərfli dil yerləşirdi,
Bəxtinə çarların sehri düşürdü,
Çökdü taxtı-tacın, qalan Albanya,
Ağrısın tarixə salan Albanya.

Biz uzaq düşdükcə keçmişimizdən,
Düşmən xəta yapdı hər işimizdən,
Bizim unutqanlıq vərdişimizdən…
Bu dərdlər olubdu bəlan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Demirəm biz xaça qayıdaq indi,
Deyirəm, olmuşu oyadaq indi,
Deyirəm, haqq desin dil-dodaq indi,
Deyirəm, dur, yurdu dolan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Şadiman ah ilə bu dərdi yazar,
Çəkdiyin sitəmə eyləyər həzar,
Sənə dağ çəkənə yar olsun məzar,
Öz əsir laylasın çalan Albanya,
Ağrısın tarixə salan Albanya.
Ağrısın tarixə salan Albanya.

**07.01.2013**

## SƏNİ QANA SALAN

Səni qana salan qanda boğulsun,
İçinə dünyanın qəmi yığılsın,
Başından dərd-bəla bir yol dağılsın,

Ruhumuz içində eşqiylə bitən,
Ey candan, könüldən boylanan Vətən.
**13.05.2016**

## EY DƏRBƏNDİM

Ey Dərbəndim,
Baş kəndim,
Dar bəndim,
Heç səndən olarmı keçəsi,
Ürəyimin külçəsi…

Ey Dərbəndim,
Ey qərib şəhərim,
Boğazımda kilidlənən qəhərim,
Sənin göylərində açılsın səhərin,
Daşsın bağında, bağçanda bar-bəhərin.

Ey Dərbəndim,
Gözlərim dikilib yoluna,
Qollarım asılıb qoluna,
Çevrilmə İmperya quluna…
Qəfəsindən qopda gəl,
Bütün ağrı-acıları dəl,
Deyirlər, səs çıxarda bilmir tək əl!...

Qoy əlimiz birləşsin,
Qoy dilimiz birləşsin,
Ayrılan ürəklərə atəş düşsün,
Yandırsın yaman dilləri,
Qandırsın ayrılıq salan illəri…
Birləşsin ürək telləri…
Sən gərəksən Vətənə,
Ürəyimizdə bitənə,
Mehir salma yetənə.
Mehir salsan dönəcəksən,
Yağılara enəcəksən.
Sən ciyərparamız,
Sən bağrımızda
sağalmayan yaramız.
Ayrılıq əzabından soldun, di bəsdi,
Həsrətin səbrimizi kəsdi!

Yağı əlində qalan yuvamız,
Sənə yetmirmi duamız?!
Təbrizin, Ərdəbilin, Bakının
qanqardaşı,
Türkün unudulmaz oylağı,
Səni qəsb etdi yağı,
çəkdi sinəmizə dağı.
Axıtma ürəyə göz yaşı,
Sən Vətənə can sirdaşı.
Ey karvan yollarının sorağı,
Ey Çıraqqala çırağı,
Harda donub qalıb Sarvanbaşı ayağı?!
Ey Qubanın, Xaçmazın, Şabranın can dayağı…
Demə ki, səni
unutduq,
Demə ki, səni atdıq,
Ürəyimə pərçimlənən
bərə-bəndim,
Elə bilmə eşqindən döndüm.
İnanmırsan, ürəyimdən soruş,
Sənə doğru gəlirəm qarış-qarış…
Ey dəmirqapı Dərbəndim…
Ey Dar bəndim…

**23.11.2012**

## SEVDAMSAN VƏTƏN

Diləklər içində coşub daşasan,
Ağrından alışan nidamsan, Vətən!
Olmayır dünyada heç bir şey asan,
Sən mənim bitməyən sevdamsan, Vətən.

Gələn sabahlara işıq kimisən,
Mənim ürəyimə  aşiq kimisən,
Dərdimi hayqıran aşıq kimisən,
Ruhumun daddığı qidamsan, Vətən.

Anlamaz nə bilir ocaq istisin,
Yurdun bacasından qalxan tüstüsün,
Soyuqsa, könlümə gir bir az isin,
Sən özün dərd çəkən adamsan, Vətən!

Şadiman qəlbini sənə şam edib,
Doğulub demə ki, bir yol kam edib,

Vallah, məni aşiq bu ilham edib,
Hönkürən təbimə sədamsan, Vətən!
**14.02.2016**

## EŞQİN BİTMƏZ AZƏRBAYCAN

Nədən heç vaxt eşqin bitməz? Coşar çağlar özün kimi.
Öylə bir od tapmıram ki, alovlansın közün kimi,
Gözəlliklər ayna tutar camalına üzün kimi,
Qəlbə yatmaz heç bir istək, heç bir dilək sözün kimi,
Məhəbbətin zirvəsində daim bitən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Yadlar sənin qollarını zəncirlədi dönə-dönə,
Parçaladı torpaqları, sərhəd çəkdi, yandı sinə,
Dağ vuruldu düşmənlərin fitvasıyla od köksünə,
Sərvətini apardı yad, «dostlar» getdi hey əksinə,
Övladları savaşlarda ölüb-itən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Mən də sənin bir zərrənəm, qəbul eylə, ey çırağım,
Adın ilə bağlıdır bil hardan gəlsə xoş sorağım,
Əsir düşmüş yurdlarındı ürəyimdə can fərağım,
Ordumuzun qüdrətiylə gedəcəkdir könül dağım,
Ürəyimin tellərində dil-dil ötən, Azərbaycan.
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Gündən-günə yüksəlişin yağıları çaşdıracaq,
İgidlərin haqq yolunda qoşun çəkib səf duracaq,
Sənə olan zülümlərin hesabını ər soracaq,
Quzey-Güney bu məmləkət bir sinədə yanan ocaq!
Bu sevginlə varmı sənə dünyada tən Azərbaycan?
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Dərbəndinə, Təbrizinə, Borçalına can qurbandı,
Əsir düşmüş Qarabağın könlümüzün şərəf andı!
Bədənindən aralanmış Naxçıvanın qopan candı,
Məni, səni çalxaladan sevgi dolu həyəcandı,
Ərkim çatan, könlüm yatan, ünüm yetən Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Qalx ayağa, qap sılahı, yürü yağı üstünə, yurd,
Əsir ellər həqarəti toxunmurmu şəstinə, yurd?

Durub azğın düşmənlərin zaman-zaman qəsdinə, yurd,
Yandırdılar el-obanı çox baxdılar tüstünə, yurd,
Od götürüb müsibətdən alışır tən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Taleyimtək yollarına düzülübdü çoxlu tikan,
Yuvalarda ocaq sönmüş savaşa nə ədəb-ərkan?
Əsirlərlə yağıların əllərinə keçib imkan,
Döyüşlərdə dağılıbdı, yıxılıbdı ulu məkan,
Ocağına kül ələnib bəxti yatan Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Sevinirəm, Güneyinin müstəqillik sevdası var,
Başımızın üstə əsən bayrağının sədası var,
Himnimizin könlümüzdə havalanan nidası var,
Sənə olan sitəmlərin düşməninə qadası var,
Qürbətlərdən heç bir zaman olmur Vətən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Şadimanın ürəyini parçalayır müsibətin,
Səni sevən övladına həyat eşqi məhəbbətin,
Yavaş-yavaş faş olacaq bu dünyaya həqiqətin,
Düşməninə qan uddurmaq əvvəl-axır ibadətin!
Torpağına düşən toxum olacaq dən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

**15.05.2014**

## BƏXTİN AÇILSIN

İstərəm sənin də bəxtin açılsın,
Üstündən çəkilsin buludlar, Vətən.
Yağının başına dağlar uçulsun,
Getsin yurd-yuvadan fəryadlar, Vətən.

Hər qara gecənin ağ sabahı var,
Səhərin nurları üzündə gülsün.
Bilirəm, içində işğal ahı var,
Gözündə dünyanın sevinci gülsün.

Şadiman ağrından dağlar yaratdı,
Gözüm bulud oldu, ürəyim qəhər.

Özünün dağların üstündən atdı,
Tək sənin varlığın qoy versin bəhər.

**14.02.2016**

## BALIQ BAHA, DAHA ƏTİ YEMİRƏM

***Kasıbların dilindən***

Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Bahalaşır hər gün ərzaq qiyməti,
Nədir belə möhtəkirlər niyyəti?
Dükan-bazar yıxır-sökür milləti,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Varlıların gözü qızır, ay aman,
Haqqı danıb, yoldan azır, ay aman,
Kasıblara quyu qazır, ay aman,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Çoxdan alıb başımızı qan-qada,
Qarabağda yurdlar susub fəryada,
Niyə biz də gün görmədik dünyada?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

İşsizlərin sayı artır günbəgün,
Atlar dönüb, olur qatır günbəgün,
Millət düşüb, xəstə yatır günbəgün,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Bir vaxt xoşbəxt olacaqmı, bu ölkə?
Süfrəsin bol salacaqmı, bu ölkə?
Yenə dala qalacaqmı, bu ölkə?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Neft çıxaran Vətəndə hər şey baha,
Harınların qorxusu yox heç daha,

Nərdivanı qoyub çıxır Allaha,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Qiymətlər də gündən-günə artmada,
Kasıb-kusub sinəsini yırtmada,
Çoxu hələ xorhaxorla yatmada,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Kim olacaq bu millətin arxası?
Canımızdan nə qalıb ki, qorxası?
Şər əlində haqqımızın yaxası,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Neft çıxaran ölkənin bax halına,
Haram ciblər içdə qalan malına,
Daraşıbdı qurdlar-quşlar yalına,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Kasıbların bir dərmanlıq pulu yox,
Yaşamağa bağlanıbdı yolu yox,
Tərpənməyə, danışmağa halı yox,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

İnfarkt, xərçəng cumur xalqın üstünə,
Şəkər durub camaatın qəsdinə,
Yamanlığı artıranın qəsdi nə?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Əzizlərim pensiyaya çatmadı,
Pul-parasız xəstəliyə batmadı,
Gecələri ağrılardan yatmadı,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Millət qaçır həkim üçün İrana,
Dava-dərman burda baha, sorana,
Mühakimə yoxdu yara vurana?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Şadimana sən danışma, sus dedim,
Tut dilini, dar ağacdan as dedim,
Gətirməyən kor bəxtini pus, dedi:
«Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.» **09.01.2014**

## SƏNİ ÇOX SEVİRƏM, VƏTƏN

Bilməm qanımdasan, yoxsa canımda,
Bəlkə boylanırsan sən vicdanımda,
Sənin fəryadların var dövranımda,
Ruhumun içidi eşqinlə ötən,
Səni çox sevirəm Vətən, ey Vətən.

Dağılmış yurdların canda ağlayır,
Güneyin, Qüzeyə can sorağlayır,
Bəlalı taleyin qəlbi dağlayır,
Sənə hədyan deyir hər yoldan ötən,
Səni çox sevirəm Vətən, ey Vətən.

İşıq ucu boyda möhtacların var,
Bütün dərd-bəlaya əlacların var,
Yıxılan-ucalan baş tacların var,
Könlümün bağında güllərtək bitən,
Səni çox sevirəm Vətən, ey Vətən.

Sən bizə sahibsən, dərddə övladın,
İşğalla, təslimlə çəkilir adın,
Mənim ürəyimdən keçir fəryadın!
Ahınla bir oldu çox ölüb-itən,
Səni çox sevirəm Vətən, ey Vətən.

Bu dərdi, möhnəti nə vaxt yıxasan,
Sən də bu aləmə bir dik baxasan,
Dönüb şimşəklərə göydə çaxasan,
Olsan dünyada diləyə yetən…
Səni çox sevirəm Vətən, ey Vətən.

Gəl bu Şadimanın içinə boylan,
Ocaqtək yanıram, ahıma oylan,
Dilimdən boylanır balana laylan!

Alışır eşqinə bu bədən, bu tən,
Səni çox sevirəm Vətən, ey Vətən.
Səni çox sevirəm Vətən, ey Vətən.

**12.03.2015**

## ÜRƏK YANIR, EY ŞƏHİDİM

Əyilir önündə an, vaxt dayanır ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Pak növrəstə bədənlər döşənib qəbir evinə,
Gözdən axan yaşlarım çevrilib bir can divinə,
Çalışıb ağlamıram ki, yağı, düşmən sevinə,
Ananın fəryadını yer-göy anır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Tabutun üstə gedən bayrağımın qan izi var,
Bu qara günlərin əlbəttə ki, bir gündüzü var,
Sinələrdə alışan eşqinə istək közü var,
Bizim yurd haqqımızı dünya danır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Matəmin özü qara, üzü qara, əhdi qara,
Bizi savaşa çəkən vurur sinələrə yara,
Vətəndən baş götürüb hara qaçaq, fələk, hara?
İçdə yatmış qisasım dur-oyanır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

İstəkli qız qalacaq gözləri yolda beləcə,
Ana, bacı harayı sancılıb məzara necə?
Hönkürür əhvalına al sabah, məlalı gecə,
Söykənib başdaşına ruhu sanır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Düşmənin hər üzünü gördü Vətən torpağımız,
Qanlı köynəklərini sərdi Vətən torpağımız,
Qərənfili yasına dərdi Vətən torpağımız,
Bizə gələn bəlanı yad nə qanır, ey Şəhidim?!
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Bu əllər söylə səni qəbir evinə necə qoya?
Daha millət usanıb illər ilə qanlı vaya,
Dəxi düşmənlərimiz öz qanını içə, doya,
Könlüm borana düşüb, içim donur, ey Şəhidim,

Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Çox düşmənləri sınağa çəkdi Azərbaycanı,
Çox gənciylə məzarlara əkdi Azərbaycanı,
Çox işğalın boğçasına bükdü Azərbaycanı,

Ruhun cənnət quşutək bağa qonur, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Şadiman, Bakıya bax, Təbrizi çağır haraya,
Qalxsın yatmışlarımız yol arasınlar çaraya,
Ox unutqanlığımız Kərkükə dəyən yaraya!
Dərdini tariximiz özü tanır, ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

Əyilir önündə an, vaxt dayanır ey Şəhidim,
Tökülən al qanuva ürək yanır, ey Şəhidim.

**01.08.2014**

## SƏPİLİB YER ÜZÜNƏ

Övladların səpilib yer üzünə,
Həsrətmi sən birləşən ər üzünə?
Yağı çıxır gülənlərin üzünə,
Öz kökündən dönənlərmi ad, Vətən?!
Yurda necə divan tutur yad, Vətən?

Dur Bakıdan Təbrizinə ağ yol aç,
Sənə oğul olmayandan özün qaç,
Birlikdədir bu dərdlərə son əlac,
Et mənliyi puç olandan dad, Vətən,
Yurda necə divan tutur yad, Vətən?

Dilim taxtı yolum baxtı, yağın çox,
Sinən üstə çalın-çarpaz, dağın çox,
Göz yaşını sözə tutan ağın çox,
Qoy yandırsın bu aləmi od, Vətən,
Sənə necə divan tutur yad, Vətən?

Öz yurdunda əsir olur soydaşın,

Nə vaxt dərddən qurtulacaq bəs başın?
Nə vaxt candan ötəcəkdir təlaşın?
Bu dərdləri unutma, et yad, Vətən,
Sənə necə divan tutur yad, Vətən?

Qaça-qaça düşüb qalıb oğullar,
Qəribliyə mehr salıb oğullar,
Qaçqın, köçkün adın alıb oğullar,
Daha gedib damağından dad Vətən,
Sənə necə divan tutur yad, Vətən?

Düşmənlərin sıralanıb ətrafda,
Qol açıbdı yağılara ətraf da,
Lal eyləyib düzə dilin, sərraf da,
Qoyma qalsın yağılara dad, Vətən,
Sənə necə divan tutur yad, Vətən?

Bu Şadiman bir ömürdü hay salıb,
Sinəsinə fəryadından vay salıb,
Gözlərindən ürəyinə çay salıb,
Yaman olub zəhmətlərin bad, Vətən,
Sənə necə divan tutur yad, Vətən?

**20.12.2014**

## VƏTƏN MƏNİM İÇİMDƏDİ

Vətən mənim içimdədi,
Ondan necə qaça biləm?!
Qıfılı min biçimdədi,
Necə xeyrə aça biləm?!

O ürəkdə, canda çağlar,
Ürəyimlə könül bağlar,
İçim yanar, gözüm ağlar,
Onu candan necə siləm?

Vətən isti ocağımdır,
Cavanlıqda xoş çağımdır.

Atıb getsəm, sorağımdır,
Qürbətlərdə qərib öləm?

**12.09.2016**

## ÇANAQQALA

Ruhumuzun qürur yeri, Çanaqqala,
Ürəklə bir vurur yeri, Çanaqqala…

Üstümüzə gələn azğın yolun sapdı,
Qorxu bilməz igidlərin silah qapdı,
Süngülərlə düşmənlərin bağrın çapdı,
Varlığımız dincliyini səndə tapdı,

Sən titrətdin ərzi-göyü, Çanaqqala,
Nərə çəkdin, kəsdin heyi, Çanaqqala.

Yerlər-göylər bir-birinə dəydi o gün,
Əsgərlərin qurd ürəyi yedi o gün,
Paltarını süngülərdən geydi, o gün,
Yağıların bayraqların əydi o gün,

Türkə sönməz çıraq oldun, Çanaqqala,
Tarixinə varaq oldun, Çanaqqala.

Türkü əymək istəyənlər vaya düşdü,
Yer titrədi başlarına qaya düşdü,
Bütün dünya için çəkdi, haya düşdü,
Qan sıçradı, ulduzlara, Aya düşdü,

Ət bədənlər çəpər oldu, Çanaqqala,
Şəhidlərlə için doldu, Çanaqqala.

O qanların izi qalıb ürəklərdə,
Fəryadları cövlan edir fələklərdə,
Əsgərinin səsi gəzir küləklərdə,
Mərtəbəsi əlçatmayan mələklərdə,

Məzarına baş əyirik, Çanaqqala,
Qəhrəmana can deyirik, Çanaqqala.

Türkiyənin bağırından baxan diyar,
Osmanlını ağırınla yaxan diyar,
Düşmənlərin axırına çıxan diyar,
Ucalığa bayrağını taxan diyar,

Bugünümüz sənə borclu, Çanaqqala,
Müsəlmana şərəf taclı, Çanaqqala.

Başı uca millətinin Vətənisən,
Numusunun, qeyrətinin Vətənisən,
Anaların heyrətinin Vətənisən,
O kişilik sərvətinin Vətənisən,

Ay-ulduzlu sancağın var, Çanaqqala,
Al qırmızı ruhuna yar, Çanaqqala.

Sən şərəfli tarixinlə öyünməkdə,
Türk deyənin sinəsində döyünməkdə,
Xainlərin yalanlarla deyinməkdə,
Yenə türkün əleyhinə şər dinməkdə.

İgidlərin bu gün də var, Çanaqqala,
Vətən adlı torpağa yar, Çanaqqala!

Atatürkün şərəf dolu hərb meydanı,
O möhtəşəm İnsan uddu qan-qadanı,
Göylərində qanad açır ruhu canı,
Torpağının güllərində şəhid qanı,

Hayqırtısı dağda-daşda, Çanaqqala,
Ürəklərdə yeri başda, Çanaqqala.

Bütün dünya heyran olub şöhrətinə,
Yığışırlar hər il sənin izzətinə,
Allah özü aşiq olub zəhmətinə,
Bu Şadiman canın verər millətinə,

Heç sönməyən çırağımız, Çanaqqala,
Bir millətək sorağımımız, Çanaqqala.

**23.04.2015**

## AÇ QARANI BAŞDAN, VƏTƏN

Aç qaranı başdan, Vətən,
Ver ağrını, çəkim candan.
Keçsin qılınc daşdan, Vətən,
Gəl, qurtulaq həyəcandan.

Yurdlar bizdən imdad istər,
Hər tərəfin abad istər,
Qarabığın fəryad istər,
Xarabadı yurd divandan.

Uşaq təki tarix ağlar,
Alıb başa qara bağlar,
Döyüşməsək, bitməz çağlar,
Şər-şeytanı qov ünvandan.

Hanı Babək? Durub gəlsin,
Qılıncının ucun dəlsin,
Bilməyənlər, bunu bilsin,
Vətən keçir, əhd-peymandan.

Çoxdur bizdə İbn Sumbat,
Yaşanmayır belə həyat,
Ruhu etdik ucuz, boyat,
Keçsin ürək qoy dərmandan.

Acı ömür sürənlərik,
İşğal üzün görənlərik,
Əgər ərik, ərənlərik,
Qurtulaq bu ah-amandan.

Şuşa olsun paytaxtımız,
Ordan baxsın şah taxtımız,
Olsun daha şad baxtımız,
Düşmən ölsün bu fərmandan!

Ölənlərin gor çatladır,
Ürəkləri dərd partladır,
Düşmən ayıq, şər atdadır,
Duraq keçək imtahandan.

Vətən, səndən keçmək olmaz,
Təslim yolun seçmək olmaz,
İşğal donub, belə qalmaz,
Qalsa partlar dərd cahandan.

Şadimanın dili qısa,
Dözmür Vətən bata yasa,
Düşmənin qan qussun tasa,
Çıxmasın heç qoy hicrandan.

**12.07.2015**

### ŞANLI ORDUM

Yurdumuzda azğın yağı,
Vurur bizə sinə dağı,
Qoy kəsilsin dildən ağı,
Silahından çəkmə əli,
Şanlı ordum, get irəli!

Namusumuz sənə bağlı,
Qurd ürəklim işlət ağlı,
Düşmən qorxaq, dili yağlı,
Türk ruhlusan adın bəllli,
Şanlı ordum, get irəli!

Yağı dövran sürdü, bəsdi,
Təslimçilik nəfəs kəsdi,
Bitsin daha işğal qəsdi,
Qap bayrağı, qaldır eli,
Şanlı ordum, get irəli!

Pənahabad küsüb bizdən,
Ümidini kəsib bizdən,
Türk adımız düşüb gözdən,
İnləməsin qopuz teli,
Şanlı ordum, get irəli!

Sən xaqanlar nəsilisən,
Sənə bağlı Vətən bil, sən!
Dədələrin vurub-kəsən,
Qoy bükülsün düşmən beli,
Şanlı ordum, get irəli!

Boyunuza özüm qurban,
Vətən varsa – sevir qurban,
Azərbaycan müqəddəs can,
Qələbəyə sal bu ili!
Şanlı ordum, get irəli!

Şadimandan qopsun bu ah,

Qələbəylə gəlsin sabah,
Yağı vurmaq deyil günah,
Düşməninin car əməli,
Şanlı ordum, get irəli!
Şanlı ordum, get irəli!

**04.04.2016**

## QƏLƏMİM HÖNKÜRÜR

Bir gözüm ağrıdı, bir gözüm yaşdı,
Ürəyin içindən asılan daşdı,
Sənin əzabına köklənən başdı,
Başım yastıq olsun özünə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

Cihad istəyirsən cihada gəlim,
Asılı qalıbdı göylərdən əlim,
De, necə oxşasın səni bu dilim?!
Dərdini deyimmi üzünə, Vətən?
Qələmim hönkürür sözünə, Vətən.

Sənə layla deyən misram susmayır,
Göylər fəryadımı tutub asmayır,
Bizə İlahi də qulaq asmayır,
Vururuq min ildi dizinə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

Qurdunu öldürən ərin oyanıb,
Düşmənlə savaşa qalxıb-dayanıb,
İçimiz acıya, dərdə boyanıb,
Al at ocağına, közünə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

Şəhidin göylərə çəkilib gedir,
Cismi məzarlara əkilib gedir,
Qanı torpağına tökülüb gedir,
İgidlər can qoyur izinə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

İçdə yağıların susub durubdu,
Çöldə əl-qol açıb meydan qurubdu,
Millət yuxusundan qalxıb durubdu,
Baxma xainlərin sözünə, Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

Ürəyim ahına süslənib qalıb,

«Cəngi»nin harayı qulağı alıb,
Şadiman mehrini tək sənə salıb,
Çəkib dərdlərini üzünə Vətən,
Qələmim hönkürür sözünə, Vətən.

**28.04.2016**

## ƏSKƏR DÜRMA, İRƏLİ

Vətən səni çağırır,
Qəlb dözməyir çığırır,
Şəhid ruhu bağırır!
Düşmənin içi bəlli.
Əskər durma, irəli.

Təslimə qol qoymayaq,
Məğlub kimi qalmayaq,
Ruhumuz bizə dayaq,
Silaha öyrət əli,
Əskər durma, irəli.

İçində kin çağlasın,
Düşmən qəlbi dağlasın,
Yağı yolun bağlasın,
Coşdur ruhu, ol dəli,
Əskər durma, irəli.

İgidsiz Vətən olmaz,
Bayrağa mehir salmaz,
Torpaqdan heçnə qalmaz,
Ər ölkənin təməli,
Əskər durma, irəli.

Qarabağ qan içində,
Alışır can içində,
Ahdır vicdan içində,
Düşmən yapışan zəli,
Əsgər durma, irəli.

Qaçqın adı şərəfmi?
Biz günahkar tərəfmi?
Bu yağıya bir əfmi?
Qana bürüyüb eli,

Əskər durma, irəli.

Bəsdir yurd bağışladıq,
Qəlbə qorxu aşladıq,
Haqqa dönüş başladıq!
Götürmə haqdan əli,
Əskər durma, irəli.

Vətənçin qalx cihada,
Getsin yurddan qan-qada,
Şərəf versin övlada,
Qəlbə yaz haqq əməli,
Əskər durma, irəli.

Torpaqsız Vətən olmaz,
Ona heçnə tən olmaz,
Güc göstər, yağı qalmaz,
Bükülsün şərin beli,
Əsgər durma, irəli.
Əskər durma, irəli.

**07.04.2016**

## ƏSKƏRƏ MƏKTUB

Eşqin ürəyimdə, gözüm yolunda,
Heç vaxt tükənməsin gücün qolunda,
Səni səhər-axşam düşünürəm mən,
Qələbə xəbərin tez ol yolla sən.
Ruhumla, canımla hər günümdəsən,
Varlığım uçunar mənə gəl desən.
Könlünə bağlıdır hər ötən çağım,
Qəhrəman igidim, ümid çırağım.
Sinəni düşmənə sipər etmə yar,
Bilirsən qəlbimdə sənə sevgim var.
Bu sevgi Vətənin odundan keçir,
Sənin bahadırlıq adından keçir.

**15.05.2016**

## QOLLARI DİBİNDƏN VURULAN

Qolları dibindən vurulan Vətən,
İtrilmiş torpaqlar sənin deyilmi?
Bəxtinə qurğular qurulan Vətən,
Başın üstə gəzən çənin deyilmi?

Vətəndən yazmağı şivən sayanlar,
Qul duruma girmək kişilikdənmi?
Özgə havasına zövqlə uyanlar,
Bu cür ömür sürmək kişilikdənmi?

Vətənin sərvətin talayanlara,
Vətən qucağında imarətlər var.
Şərə quyruğunu bulayanlara,
Bitib tükənməyən səadətlər var.

Qarabağ düşmənin əlində nalan,
Milyonlar səpilir boş-boş işlərə.
Heç uca taxtından düşməyir yalan,
Nə vaxt son qoyular bu gedişlərə?

Vətən göz yaşını axıdır-tökür,
Harınlar fəryada qulaq verməyir.
Talayan talayır, sökənsə sökür,
Kimsə müsibəti, sanki görməyir.

Əgər unudulsa Qarabağ bu gün,
Bundan da dəhşətli qanlar olacaq.
Yurdun sinəsindən getsə dağ bu gün,
Törəməz heç zaman bir qanlı ocaq!

Hamı igidlikdən dəm vurur niyə?
İgidin torpağı əsir alınmaz.
Düşüb ayaqlara bəy qürur niyə?
Eşqisiz qələbə heç vaxt çalınmaz.

Cəbhədə Vətəni qoruyan kasıb,
Dönəndə özünə iş tapa bilmir.

Ümidsiz insanlar özünü asıb,
Evində daş üstə daş tapa bilmir.

Bir çoxu kef ilə dünyanı gəzir,
Bir çoxu evində çörək tapmayır.
Kəbə ziyarətin zənn edir nəzir,
İçində sevdalı ürək tapmayır.

Qarabağ yağının əlində naçar,
Söküb dağıdırlar yurdu, yuvanı,
Kimin əlindədir o məşum açar?
Kağızla susdurduq qanlı davanı.

Düşmən vaxt qazandı, biz isə təslim,
Təslimin əvvəli, sonu olmayır.
Əlim haqqı yazır, hönkürür dilim,
Yağı pardaqlanır, ümid qalmayır.

Hamı Vətən deyir, Vətən qübarda,
Onun çiçəyinə güllə ələnir.
İşğala haqq varmı, deyin bir harda?!
Bizdə qəhrəmanlıq dillə ələnir.

Artıq unudulur tökülən qanlar,
Şəhid məzarları titrəyir ahdan.
Əqidə dəyişir bu gün, insanlar,
Vətənə bir işıq varmı sabahdan!

Qorxağa dünyada hörmət edilmir,
Təslimə qol çəkdik, qorxağıq demək.
Cahanda uduzan heç mədh edilmir,
Biz özünə aşiq, axmağıq demək.

Qarabağ millətin ölüm-qalımı,
O bizim varlığa bir nişangahdı!
O necə söyləsin sorun halımı?
Onu unutmağın özü günahdı.

Kişilər, silaha sarılmaq vaxtı,
Çevirin sərvəti silah sursata.
İndi QƏLƏBƏYLƏ qurulmaq vaxtı,
Vətən ana deyil, olsun sərt ata!

Bu eşqlə Şadiman hislərə əsir,

Onun ağrısına ürək dözməyir.
Qurubdu ruhumda qasırğa qəsir,
Əsəndə küyünə fələk dözməyir.

**09.07.2015**

## TORPAĞININ QOXUSU

Torpağının qoxusunu ciyərimə çəkdim,
Könlümə eşqin dolu çiçəklər əkdim.
Hərdən qəhərim, hərdən fərəhim oldun.
Haqqım tapdalanda, ürək dolusu zəhərim oldun.
Xoşbəxt günlərimin sevinci,
Heç nəylə əvəz olunmayan bir inci,
Sənə çox göstərdilər küncü.
Küncdən çıxıb hayqırdın,
Buxovları, zəncirləri, qandalları qırdın,
Özünü qızmış şirtək düşmən üstünə vurdun,
Köləliyin qəsdinə durdun.
Dilinin yasağın unutma,
Yad havaları tutma.
Sən - ana laylasının qulağıma dolan pıçıltısı,
Sən - məzarına tələsən bir qocanın xırıltısı,
Sən - bir körpənin südlü dodaqlarının marçıltısı,
Sən - torpaq altından üzə çıxan bulaqların
sızıltısı,
Sən - sübhdən günəşin gözlərimdə qamaşan
sarıltısı,
Sən - ürəyimin dərdlərinə dözməyən zarıltısı…
Səndən vaz keçmək olmayır Vətən,
Zəhərin içimdə qalmayır Vətən.
Səndən yazmağı boğazdan yuxarı sandılar,
Ciblərinin çıxarı sandılar,
Sənsə mənim cib xeyirim yox, təb seyirim oldun,
Gilə-gilə, damla-damla qəlbimə doldun.
Səni doğmamdan doğmam sandım,
Gecə-gündüz eşqinlə yandım,
Mənim üçün güney-quzey, qərb-şərq deyilsən,
Nə qədər parçalanıb əyilsən,
Bütöv Azərbaycansan,
Bədənimdə vurnuxan cansan.
Damarlarımdan axan qanım bunu deyir,

Səndə ötən dövranım bunu deyir!
Ey dədəmin yurdu,
Ey babamın içində ulayan qurdu,
Səndən keçə bilmirəm,
Başqa yurdu özümə məkan seçə bilmirəm.
Ey işğallar altında əzilən,
Kətan təki süzülən,
Nazilən Vətən.
Sən mənim damarlarımda axan qanıma yürüdün,
Ruhumun bədən içində parlayan canıma yürüdün,
Sən məni öz ağı-acınla yıxıb sürüdün.
İlan təki süründüm ayaqlarında,
Alışdım-yandım çıraqlarında,
Nə varında gözüm var,
Nə torpağında,
Sən mənim gəlir-çıxarım deyilsən,
Nə qədər də acgözlər önündə əyilsən,
O qədər ağrımsan,
Alışıb-yanan bağrımsan.
Bu sənə sağ ikən etirafım,
Hiyləylə qaynayır ətrafım.
Səni hiylələrdən qurtarmaq olmayır,
Dərdini sinədən qoparmaq olmayır.
Ey anamın dili,
Ey ürəyimin nazilən teli,
Atamın basılan səbri,
Çatdıyan qəbri,
Səni könlümdən uzaqda tuta bilmirəm,
Sənsizliyə bata bilmirəm.
Torpağı işğallarda itən,
Başı bəlalı Vətən,
Vətən…
Vətən… **26.07.2015**

## BİR PARÇA ODUM

Bir içim suyumsan, bir parça odum,
Səninlə başlayır ağzımda dadım,
Sənə xor baxanın könlümə yadım,

Külü ocağına tökür hər yetən…
Allahım qorusun səni, ey Vətən!
**28.04.2016**

## HEÇ KƏS SƏNİ ƏYƏ BİLMƏZ, TÜRKİYƏ

Sən şərəfli bir millətin ölkəsi,
Sən türklüyün pak döyünən nəfəsi,
Sən Turanın haqq hayqıran gur səsi.
Şər özünü öyə bilməz, Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Şəhidinin al qanıdır Bayrağın,
İgidinə çoxdan bələd torpağın,
Daim hazır silah, sursat, yarağın,
Kimsə məğlub deyə bilməz, Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Ey Bozqurdum, Böyük Hunum, Oğuzum,
Könül dadım, ürək odum, ulduzum,
Min illərdi türkü deyir Qopuzum,
Haqqını şər döyə bilməz, Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Türkün sözü heç bir zaman boş olmaz,
Düşmənlərin yeri yurdda baş olmaz,
Türk olanın könlü, qəlbi daş olmaz,
Bilməm dünya niyə bilməz, Türkiyə?!
Heç kəs səni əyə bilməz, Türkiyə!

Sən Sultanlar məkanısan, ey diyar,
Türk atının kişnərtisi can oyar,
Dəmir qollu igidlərin el duyar,
Vətəni yad yiyə bilməz Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Boylanırsan canımızın içində,
Keçəcəkdir düşmənlərin biçindən,
Qurd ulayır millətinin içində,
Haqqını şər yeyə bilməz, Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Yağıları hıçqırdacaq can ahı,
Hönkürtüylə çağıracaq Allahı,
Əskərinin atəş saçır silahı,
Xəncər, biçaq, tiyə bilməz Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

Qara dəniz hayqırtına oyanır,
Bağrındakı qasırğına boyanır,
Türk qəlbində şanlı adın dayanır,
Ordan onu kimsə silməz, Türkiyə,
Heç kəs səni əyə bilməz, Türkiyə!

**20.02.2016**

## BAXMAYIN ÖLÜ KİMİ

Baxmayın ölü kimi dünyada heç vaxt Şəhidə,
Deməyin ki, gülməyib fələk verən baxt Şəhidə.

Var adamlar yaşayır uzun ömür yoxdu özü,
Gəlib şəhidlik adı Rəbbidən bivaxt Şəhidə.

Vətəni olmayanın məzarı da itib-batır,
İlahidən qurulub ən uca bir taxt Şəhidə.

Tökməsin göz yaşını bu ölümə yaxın, yadı,
Deyir kim ki, ölüdü özüdü bədbaxt, Şəhidə!

Mənasız ömürlərin yoxdu sayı-hesabı heç,
Mənalı ömür yazıb Yaradan sərvaxt Şəhidə.

Deməsinlər öləcəm, ruhun özü yalan-filan,
Bütün ruhlar gələcək səcdəyə o vaxt Şəhidə!

Qucacaq sevgi ilə cismi Vətən torpağını,

Ruhu pərvaz edəcək, hönkürəcək vaxt Şəhidə.

Şadiman, çəkiləcək əməllərin haqq-hesabı,
Bil ki, baxır kainat aləmdə xoşbaxt Şəhidə!

**03.04.2016**

## ƏSKƏRİM

Qalx ayağa titrət yeri, Əskərim,
Vətənimin qorxmaz əri, Əskərim!

Yurdlarımız çox talandı, yıxıldı,
Üstümüzə qara ləkə yaxıldı,
Üzümüzə təslimçitək baxıldı,
Düşmən üstə dimdik yeri, Əskərim.
Vətənimin qorxmaz əri, Əskərim!

Nərən düşsün əsir düşmüş ellərə,
İgidliklə dastan yarat dillərə,
Düşmən qanı dönsün axan sellərə,
Yağı görsün qızmış nəri, Əskərim,
Vətənimin qorxmaz əri, Əskərim!

Azərbaycan adlı bütöv yurd yarat,
Azğınlara ömürbillah dərd yarat,
Şahə qalxsın altındakı göy Qırat,
Görsün dünya qoy hünəri, Əskərim,
Vətənimin qorxmaz əri, Əskərim!

Əsir düşmüş qız-gəlinin imdadı,
İçimizdə qövr eləyir fəryadı,
Qaldır ərşə o qəhrəman mərd adı,
Qoy gəlməsin yağı bəri, Əskərim,
Vətənimin qorxmaz əri, Əskərim!

Atilladan qopub gələn ruhun var,
Döyüşlərdə nərə çəkən ahın var,
Saf qanında sərkərdəlik şahın var!
Tök bu yolda alın təri, Əskərim,
Vətənimin qorxmaz əri, Əskərim!

Biz hamımız ölümmüzü anlarıq,

Müvəqqəti gəlib gedən canlarıq,
Məğlub qalsaq özümüzə qanlarıq…
Vur düşməni, qopsun dəri, Əskərim,
Vətənimin qorxmaz əri, Əskərim!

Sən Vətənin boybuxunlu oğlusan,
Qeyrətinlə bu torpağa bağlısan,
Şəhid olsan el dilində nağılsan!
Yol gözləyir gözəl pəri, Əskərim…
Vətənimin qorxmaz əri, Əskərim!

Şadimanın canı qurban Vətənə,
Qoyma yurdlar əsir olsun yetənə,
Bizə gəlir hər ağızdan min tənə,
Tənələrin qopsun zəri, Əskərim,
Vətənimin qorxmaz əri, Əskərim!

Qalx ayağa titrət yeri, Əskərim,
Vətənimin qorxmaz əri, Əskərim!

**04.04.2016**

## TİTRƏSİN DÜŞMƏNİMİZ

Titrəsin düşmənimiz Ordumuzun nərəsinə,
Çağlasın torpağımız Əsgərimizin səsinə.

Uğurumuz dikəlib Vətənə versin dəyərin,
Yerisin igidimiz bayrağının həvəsinə.

Nərəsi dağı, daşı lərzəyə salsın hər ərin,
Dönməsin oğulumuz yadların qul-köləsinə.

Analar saçın yolub ağlamasın əsir kimi,
İgidi doğan ana alov qatsın nəfəsinə.

Bu Vətən hər doğulan körpəyə qucaq kimidir,
Dönməsin hər yetənin öz xüsusi qəfəsinə.

Əsgərin ayaq səsi düşməni lərzəyə sala,
Doğula yavru, bala sevgimizin şöləsinə.

Şadiman, yurda sevgi keçsin qana, girsin cana,
Bir təbib dərmanıtək çarə etsin hər kəsinə.

**17.06.2016**

## EY TÜRK OĞLU, TÜRK ƏSKƏRİ

Ey türk oğlu, türk əskəri,
Qolu güclü, ruhu güclü yurdun əri,
Qardaşına dəyən güllə,
Cilalanıb xain əllə!...
O gecədən doğan ağrı,
Ruhu, canı boğan ağrı,
Səmalarda buludlanıb,
Dəhşətini necə danım?!
Bu ağrına, bu acına dayanmıram,
Bu düşdüyün durumuna inanmıram!

Ətrafında yağıların sipərlənib,
Atatürkə baxan gözün çəpərlənib,
Ankaraya, İstanbula dəyən zərbə,
Çevrilibdi düşmənində ruha, təbə,
Çanaqqala haray salır,
Ürəyimi qüssə alır,
Şəhidlərin qəbirləri sızıldayır,
Başı üstə qardaşının gülləleri vızıldayır,
İçimdəki hönkürtülər tapmır aram,
Əzabına dözməyirəm, dayanmıram,
Bu düşdüyün durumuna inanmıram.

Türk əskəri, səninlə biz əsrlərlə qürur duyduq,
Bu qüruru könlümüzə zəfər saydıq.
Gözümüzün nuru bildik hayqırtını,
Yağılara çevirmə sən gəl sırtını.
Onlar səni parçalayıb didəcəklər,
Yavaş- yavaş qorxaq, tifil edəcəklər.
Ey əfəndim, ey igidim,
Varlığına baş əyməyim, bəs nə edim?!
O gecədən sızıldayır könül yaram,
Əzabına dözməyirəm, dayanmıram,
Bu düşdüyün durumuna inanmıram.

Türk əskəri, həbislərə düşməməli,
Görüm sınsın, parçalansın xain əli!
Sənin ruhun QURD ruhudu,
Kim söndürüb atəşini, çat ocağı, yandır odu!
Ey Göy Tanrım, ey Allahım,
Parçalayır ürəyimi içdə ahım!
Türk əskəri tutuqlanıb zindanlarda yatmamalı,
Kürəyinə xain yükün çatmamalı…
O gecədən dünya boyda ahu-zaram,
Əzabına dözməyirəm, dayanmıram,
Bu düşdüyün durumuna inanmıram.

Türk əskəri,
özün boyda qürurun var axı bizə,
O gecədən ruhumuza dəydi nizə.
Kimdi xain, kimdi satqın?!
Bilməyirəm,
Pak adınla mən heç bu fikrə gəlməyirəm.
And verirəm Türk dədənin məzarına,
Sən çevrilmə satqınların azarına.
Qolumuzun quvvətisən,
Könlümüzün ülfətisən,
Sən Bozqurdlar nemətisən.
Kimdi düşmən, kimdi yağı özün ara,
Sağalmazsa millətinə dəyən yara,
Bil, o gündən bu dunyada biz də yoxuq,
Varlığınla bu dünyada hələ çoxuq.
Sənə olan pak sevdamdan usanmıram,
Əzabına dözməyirəm, dayanmıram,
Bu düşdüyün durumuna inanmıram.
Bu düşdüyün durumuna inanmıram.

**18.07.2016**

## QƏRİBƏM, VƏTƏN…

Bir içim suyumsan, bir udum havam,
Dilimdən göylərə ucalan duam,
Köksümü sığdığım ən isti yuvam,
Ruhum ağuşunda bülbültək ötən,

Sənsiz yerdə, göydə qəribəm, Vətən.
**29.04.2016**

## VƏTƏNİN VARLIĞI

Vətənin varlığı əsgərdən başlar,
İgidin sədası sərhəddən gələr.
Yurduna arxadır düşünən başlar,
Düşmənə nifrətlər hiddətdən gələr.

Torpaqsız, yuvasız insan qəribdi,
Dünya ayağına hicran səribdi,
Məğlubun barını yağı dəribdi,
Çəkdiyi sitəmlər zillətdən gələr.

Vətən ev-eşikdi, Vətən diləkdi,
Bədənin içində vuran ürəkdi,
Allah nəsib edən məsum mələkdi,
Onun mükafatı nemətdən gələr.

Biz ağrı-acısın uduruq hər gün,
Dərdini minnətsiz dadarıq hər gün,
Onunla sevdalı dildarıq hər gün,
Tək ona sevgimiz izzətdən gələr.

Vətən duyğu dolu həyata bağlı,
Çağladır ruhları, coşdurur ağlı,
O candan boylanan bir el nağılı!
Onun sədaqəti millətdən gələr.

Şadiman, nə eşqdi boylanır candan?
Ağrına qoşulub oylanır candan,
Qopa yurdlarımız acı hicrandan,
Sağalmaz yaralar illətdən gələr.
**14.02.2016**

# UŞAQLARA ƏRMAĞAN

## VƏTƏNİ CANDAN ƏZİZ SANMALIYIQ 3k

### GƏLİN, SEVƏK VƏTƏNİ

Ay uşaqlar, ürəkdən,
Gəlin, sevək Vətəni.
Üstün tutaq çörəkdən-
Yar etməyək yetəni.

Onu sevməyən insan,
Yurduna gərək olmaz.
Yad eldə alsa ad-san,
Elin qəlbində qalmaz.

Vətən halal yerindi,
Qorumasaq yadındı.
Onun eşqi dərindi,
O- özün, övladındı.

Yar edək nidamıza,
O könüldə bitəni.
Can deyək sevdamıza,
Gəlin sevək Vətəni!

**16. 02. 2000**

## ÖZ YURDUNA GƏRƏK OLAQ

Ay uşaqlar, Vətən əziz,
Ona vuran ürək olaq.
Bir sevdadır – eşqi dəniz,
Öz yurduna gərək olaq.

Onunla gur çırağımız,
Odur könül varağımız,
Bu dünyada sorağımız,
Gəlin ona dirək olaq.

Cahan içrə bir cahandır,
Damarlardan axan qandır,
Ocağın aç, odun yandır,
O bədəndə duran candır.
Qorumağa zirək olaq.

Vətən ana, Vətən bacı,
Dərdimizin hər əlacı,
O millətin başda tacı,
Ona ürək-dirək olaq.

**16. 02. 2005**

## HİMNİMİZ - BAYRAĞIMIZ

Himnimiz – Bayrağımız,
Vətənin ürəyidir.
Sabaha növrağımız,
Millətin dirəyidir.

Hər ölkəyə qonaqdır,
Qorumasaq qınaqdır!…
Ömrümüzə sınaqdır,
Ölkənin gərəyidir.

Hər ikisi müqəddəs,
Bunu bilməli hər kəs,
Biz kimik onlarsız bəs?…
Bu dünyanın rəyidir.

**16. 02. 2005**

## ANA DİLİ

Hər dili öyrənmək yaxşıdır, amma-
Öz ana dilini bilməmək günah.
İnsanlıq dünyanın baxşıdır, amma-
Dil ilə açılır həyata sabah.

Bu dillə öyrəndik ana sözünü,
Vətənin hər qarış yerin sevməyi.
Bu dillə tanıdı millət özünü,
Başladı həyatı dərin sevməyi.

Bayatı-laylamız bu dildən gəldi,
Hopdu ruhumuza, canımıza o.
Vətənə məhəbbət odu yüksəldi,
Yeridi damara, qanımıza o.

Keçdi anamızın layla səsindən,
Həkk oldu eşq ilə kamalımıza.
Ürəyi oxşayan xoş nəfəsindən,
Yapdı dil sarayı amalımıza.

Öz ana dilini bilməyən kimdi?
Onun varlığı da Vətənə yaddı.
Bu dil dərmanımız, bu dil həkimdi,
Bu dildə danışan yurda övladdı.

**16. 02. 2005**

## VƏTƏNİ CANDAN ƏZİZ SANMALIYIQ

Vətəni candan əziz sanmalıyıq,
Onun hər istəyinə yanmalıyıq.

O ki, öz eşqinə yar etdi bizi,
Onu səatdə elə anmalıyıq.

Verməyək yağıya heç bir qarışın,
Verəriksə, əbədi donmalıyıq.

O bizə can deyəsi tək anadır,
Bunu biz, ay həzarat, qanmalıyıq!

Ağrısı, acısı olsa Vətənin,
Hər işimizi təmam danmalıyıq.

Yetərək dadına ər balasıtək,
Ocağına od olub yanmalıyıq.

Olub əskər, çəkərək keşiyin,
Səf durub önündə dayanmalıyıq!
Vətəni candan əziz sanmalıyıq!…

**16. 02. 2005**

## MƏKTƏB

Məktəb-həyat kamalı,
Ağlımıza incidir.
Gələcəyin amalı,
Yaşamaq sevincidir.

Kitablarla o bizə,
Dil tapmağı öyrədir.
Düşüb zamanla izə,
Düz çapmağı öyrədir.

Odur ömrün işığı,
Gələcəyin can barı.
Həyatın yaraşığı,
Uşaqlığın nübarı.

**16. 02. 2005**

## MÜƏLLİM

Müəllim – gözə çıraq,
Dilimizə bəzəkdir.
Elimdən verər soraq,
Kitablara – özəkdir.

O səadət işığı,
Bəxtimizin özüdü,
Sabahın yaraşığı,
Xoş həyatın gözüdür.

Onun dilindən qopan,
Hər kəlmə dür, incidir.
Biliklə haqqa çapan,
Dünyanın sevincidir.

Müəllimdir bu günün,
Gələcəyin kamalı.
Ən xoş sədanın, ünün,
Onunladır amalı.

**16. 02. 2005**

## TƏZƏ İL

Təzə il, ay təzə il,
Sevinc gətir bizə il.

Uşaqlar pərvazlansın,
Yerlər, göylər nazlansın,
Hər ürək avazlansın,

Təzə il, ay təzə il,
Ömrümüzü bəzə il.

Əsən küləklər həzin,
Nə verər ki, əvəzin?
Qapımızı aç özün,

Təzə il, ay təzə il,
Şadlıq çıxsın dizə il.

Qar ələnsin aləmə,
Qoy yetişək xoş dəmə,
Səadəti qoş dəmə,

Təzə il, ay təzə il,
Gəlməyəsən gözə il.

**15. 02. 2005**

## UŞAQLAR

Qış ötüşüb yaz gələr,
Avazlanar uşaqlar.
Günlərin bağrın dələr,
Pərvazlanar uşaqlar.

Səadətlə oynaşar,
Qanlar odla qarışar,
Şadlığı aşıb-daşar,
Nə yazlanar uşaqlar?

Dər-divarı eşərlər,
Torpaqla güləşərlər,
Can deyib dilləşərlər,
Hey nazlanar uşaqlar.

Oynamaqdan doymazlar,
Evə ayaq qoymazlar,
Nə yoruldum duymazlar?
Bəyazlanar uşaqlar.

Dünyaya işıq təki,
Evə yaraşıq təki,
Sinəyə aşıq təki,
Nə sazlanar uşaqlar?

**15. 02. 2005**

## UŞAQ BAĞÇASI

Uşaq bağçası bu gün
Bürünüb al qumaşa.
Hər gülüş xoş səda, ün,
Hər körpə bir tamaşa.

Gülür, oynayır qızlar,
Oğlanlar yallı gedir.
Bu balaca ulduzlar
Adamı heyran edir.

Onlar dostların belə,
Məktəbə yola salır.
Şeirlər axır dilə,
Qızlar piano çalır.

Körpələrin gözləri,
Gülüşdən pərvazlanır.
Tükənməyir sözləri,
Ürəklər avazlanır.

Beləcə bayram edir,
Son bağça günün onlar.
Ayrılıq çatıb nədir?
Ayrılacaq ünvanlar.

**15. 02. 2005**

## GƏLİB AXIR ÇƏRŞƏNBƏ

Gəlib axır çərşənbə,
Uşaqlar tonqal çatır.
Tüstü ağappaq pənbə,
Özünü göyə atır.

Küçədə bir hay-həşir,
Dövrə vurub qız-oğlan.
Hər tonqal, sanki bir tay,
Gülür sevinir hər yan.

Uşaqlar papaq atır,
Hər evin dəhlizinə.
Çərşənbədə kim yatır?
Gecə düşür izinə. **15. 02. 2005**

## NOVRUZ BAYRAMI

Bu gün Novruz bayramı,
Gəlib yurda, yuvaya.
Gülür şadlanır hamı,
Şam atılır havaya.

Gur tonqallar qalanır,
Uşaqlar dövrə vurur.
Göydə tüstü bulanır,
Burum-burum tor qurur.

Əllərdə papaq, torba,
Körpələr qaçışırlar.
Şadlıq edir el, oba,
Ürəklər uçuşurlar.

Novruz bayramı gəlir,
Küsüşənlər barışır.
Hər qəlbi sevda dəlir,
Könül canla yarışır.

Uşaqların sevinci,
Aşıb-daşır sel kimi.
Hər birisi dür, inci,
Qaçışırlar yel kimi.

Bitməsin bu toy, büsat,
Yurdu alsın ağzına.
Qaynasın, daşsın həyat,
Çıxaq ömrün yazına.

**15. 02. 2005**

## YANSIN BAYRAM ŞAMLARI

Yansın bayram şamları,
Gəlsin el adamları
Şö'lələnsin kamları,
Ürəklərdə nur olsun,
Novruzumuz gur olsun.

Tonqalları çatılsın,
Üstündən el atılsın,
Hər ev bura qatılsın,
Sinədə qürur olsun,
Novruzumuz gur olsun.

Qoy yığışıb qış getsin,
Novruz ruhu xoş etsin,
Süfrə açan nuş etsin,
İşimiz uğur olsun,
Novruzumuz gur olsun.

Paxlava, şəkərbura,
Pilovun üstə qara,
Xəbər ver dosta, yara,
Bayram elə cur olsun,
Novruzumuz gur olsun.

Securityəməni qalaq-qalaq,
Alaq süfrəyə salaq,
Biz canbirqəlbdə olaq,
Söz ağızda dür olsun,
Novruzumuz gur olsun.

Vətənin gözü gülsün,
Gecə-gündüzü gülsün,
Millətin üzü gülsün,
Evdə yur-yuğur olsun,
Novruzumuz gur olsun.

Bu yazın leysanları,
Torpağın ehsanları,
Ay Vətən insanları,
Sübhdən durhadur olsun,
Novruzumuz gur olsun.

Bir kimsə qəm görməsin,
Qəmlə süfrə sərməsin,
Ah qolunu gərməsin,
Qışla vurhavur olsun,
Novruzumuz gur olsun.

**20. 03. 2005**

## HƏR İLİN ÖZ SEVİNCİ

Hər ilin öz sevinci,
Öz hikmətli sözü var.
Uşaqlar ondan inci,
Dünyaya od-közü var.

Dilləri bala bənzər,
Dildə-ağızda gəzər,
Əgər eyləsən nəzər,
Ömürlərdə özü var.

İllər fəsillərə yar,
Uşaqlar ömrə bahar,
Sanyələr ana nahar…
Hərənin öz izi var.

**16. 02. 2005**

## ÇOX QİYMƏTLİ İNCİDİ

Uşaqlar – bu dünyaya,
Çox qiymətli incidi.
Bənzərlər coşqun çaya,
Həyatın sevincidi.

Dillərindən bal axır,
Ürəkləri ovlayır.
Könlü yandırıb-yaxır,
Qəlbləri alovlayır.

Uşaqlar – göz işığı,
Ata, ananın canı.
Cahanın yaraşığı,
Gələcəyin ünvanı.

Hər körpənin öz nazı,
Baldan şirin dili var.
Gətirər evə yazı,
Hər qəlbdən dərdi qovar.

Uşaqlar dünyamızın,
Sabahına açardır.
Onlarla xülyamızın,
Dərd qapısı naçardır.

Siz, ey həyat günəşi -
Bapbalaca körpələr.
Gözünüzün atəşi,
Cahana od səpələr.

**15. 02. 2005**

## QAR ADAMI

Uşaqlar qar adamı,
Düzəldibdilər qardan.
Gülüb-oynayır hamı,
Bu şaxta gəlib hardan?

Yanaqlar qıpqırmızı,
Əllər soyuqdan donur.
Ələnir qar ulduzu-
Qaşa, kipriyə qonur.

Qar adamın başında
Uşaqlar dövrə vurub.
Çəkilmiş göz-qaşında
Bəyaz naxışlar durub.

Bu zaman günəş çıxıb
Boylanır yerə sarı.
Qışın sinəsin yaxıb,
Əridir yağan qarı.

Qar adamı əriyir,
Havanın xoş hovundan.
Gün qüruba yeriyir,
Nəş'ələnir ovundan.

Uşaqlar birdən-birə,
Baxır boylanır göyə.
Səma göndərib yerə
Su, dolu, qar hədiyyə.

**15. 02. 2005**

## QAR YAĞIR DAĞA, DÜZƏ

Qar yağır dağa, düzə,
Qış qonaq gəlib bizə.
Üzə, gözə ələnir,
Aləm qara bələnir.
Külək əsir ahəstə,
Sərçələr də qar üstə-
Qoyur ayaq izini,
Qış göstərir özünü.
Uşaqlar dilləşirlər,
Qar ilə əlləşirlər.
Gülüşlər şaqqıldayır,
Qarğalar qaqıldayır.
Aləmə səda düşür,
Ürəyə sevda düşür.
Uşaqların səsindən,
Quşların nəğməsindən.
Can, könül pıçıldaşır,
Həyat qaynayıb, daşır.

**14. 02. 2005**

## YAZ GƏLİR

Yaz gəlir, sular coşur,
Soyuq buzlar əriyir.
Təbiət nəğmə qoşur,
Gün göylərə yeriyir.

Bağçaların içində
Quşlar cəh-cəh vururlar.
Qışın köçə-köçündə,
İsti yuva qururlar.

Qaranquşlar qürbətdən,
Uçub gəlibdi yenə.
Eşq döyünür xəlbətdən,
Az qalır könül dinə.

Uşaqlar oynaşırlar,
Otların arasında.
Diləklər qaynaşırlar,
Gözlərin qarasında.

**15. 02. 2005**

## BİR OVUC HARAM YEYƏN 9k

Bir ovuc haram yeyən yükləyir dərdi Vətənə,
Qoymurlar çarə edə heç zaman mərdi Vətənə.

Zalımın nəfsə yatan mədəsinə yoxdu nicat,
Çəkib çirkabı üzə kirini sərdi Vətənə.

Bir yığın kütbeyinin hiyləsinə mübtəlayıq,
Bunca nicat yolunu hər cürə gərdi Vətənə..

Ağ günün eşqi ilə sevmişik öz yurdumuzu,
Ağ günü binəva xalq yuxuda gördü Vətənə.

Boş qalan təknələrin çarəsin oğru aramaz,
Talayıb hər nə ki var, cibini gördü, “Vətənə”.

Qanunlar dilin qısıb ac-yalavac insanına,
Girib illət bağına kədəri dərdi Vətənə.

Şadiman, üzünün heç gülməyini görməmişəm,
Bilirsən nadan olan hər dərdi sərdi Vətənə.

**10.01.2017**

## SƏHƏRİN MÜJDƏYLƏ AÇILSIN

Qurtar işğal altdan yurdu, torpağı,
Səhərin müjdəylə açılsın, əskər.
Şuşa qalasına get sanc bayrağı,
Düşmənin yuvası uçulsun, əskər.

Qurtar intizardan ürəkləri sən,
Çalxat asimanı, fələkləri sən,
Coşdur sinələrdə diləkləri sən,
Atəşin aləmə saçılsın, əskər.

Bu dərdi daşıdı çoxu məzara...
Dönsün iradənlə Vətən gülzara,
Son qoyaq əbədi dərdə, ah-zara,
Məğlub düşüncədən qaçılsın, əskər.

Əsir yurdlarımız səsləyir səni,
Boğ o əllərinlə qanlar içəni,
Buraxma yuvana haqqı biçəni,
Bağlı yollarımız açılsın, əskər.

Səni doğan ana yetsin şərəfə,
Qapımız ağzına gəlib ərəfə,
Yetiş əsirlikdə qalan tərəfə,
Yağının əl-qolu qurusun, əskər.

Parlat günəş təki ümidimizi,
Qalib ol, bu eşqlə sevindir bizi,
Xainlər önündə qatlama dizi,
Adın zirvələrdə bulunsun, əskər!

Yenən şərəfimiz qalxsın ayaqdan,
Qələbə qoxusu gəlir torpaqdan...
Əllərin qopmasın şanlı bayraqdan,
Axı fateh olub ulusun, əskər!

**26.08.2020**

## DİNMƏ, DANIŞMA, BALA

Qoy edək kef-damağı,
Sürək firavan çağı,
Görməyirik sol-sağı,
Dözmüsən  döz, hər hala.
Dinmə, danışma, bala.

Varımız-sərvətimiz,
Hər cürə hörmətimiz,
Sizdən əziz itimiz,
Yol vermə qeylü-qala,
Dinmə, danışma, bala.

Keçərlidi sözümüz,
Heç nə  görmür gözümüz,
Haram yolda özümüz,
Talarıq bala-bala,
Dinmə, danışma, bala.

Qurub yurdun vayını,
Batırmışıq hayını,
Artırıb var sayını,
Daha çıxdıq ağ yola,
Dinmə, danışma, bala.

Sərvətdən havalandıq,
Milləti dəxi dandıq,
Keflə yatıb oyandıq,
Tikdik min yerdə qala,
Dinmə, danışma, bala.

Suyumuz, havamız bol,
Bahalı yuvamız bol,
Millət  top, vururuq qol,
Fırladırıq sağ-sola,
Dinmə, danışma, bala.

Şadiman, tut dilini,
Misradan çək əlini,
Qırma ürək telini,
Sözünü döndər, bala.
Dinmə, danışma, bala,
Dinmə, danışma, bala.

**08.01.2017**

## FƏLAKƏTƏ ÇƏKƏNLƏR

İnsanları fəlakətə çəkənlər,
İntihara açar oldu bu millət.
Qəlbə dərdi toxum təki əkənlər,
Niyə belə naçar oldu bu millət?!

Kreditlər boğazlardan yapışır,
Yalan, hiylə şeytanlarla tapışır,
Çarəsizlər hər günüylə çarpışır,
Fitnələrə düçar oldu bu millət.

Çıxış yolu yoxmu nalan insana?
Gözlər daha güc veribdi leysana,
Qismət olsun haram pullar ehsana,
Yuvasından qaçar oldu bu millət.

Hər metroya girəndə can ağlayır,
Gözlərdəki dərd sinəmi dağlayır,
Yalan dillər bülbül təki çağlayır,
Qəm qapısın açar oldu bu millət.

İnsanların ciblərini soyanlar,
Qazanları sobada boş qoyanlar,
Özlərini xalqdan üstün sayanlar,
Yad ellərə uçar oldu bu millət.

Banklar durub camaatın qəsdinə,
Faizləri yükləyirlər üstünə,
Çevriliblər haramxorlar üstünə,
İntiharla nə car oldu bu millət.

Tapılmayır yazıq xalqın əlacı,
Rüşvət yeyən hər bir işdə əlaçı,
Ömür keçir, para qıtdı, gün acı,
Cana qəsdi qucar oldu bu millət.

Şadimanın sınsın dedim qələmi,
Harayları ayıltmayır aləmi,
Qoy misralar bəyan etsin naləmi,
Ölümə dil açar oldu bu millət...

**27.01.2017**

## OD TUTUB YANIR

Od tutub yanır yenə dükan, bazar,
Məzlumu soyanları tutsun azar...
Eyləyir ahu-fəğan ürəyimiz,
Yetməyir məqsədinə diləyimiz.
Bürünüb əzablara millətimiz,
Artır, azalmayır heç zillətimiz.
Məmurlar azıb yolu haqqı danır,
Binəva insanımız dərdlə yanır.
Artır gündən-günə xalqın borcu,
Görünmür bu işlərin xeyrə ucu.
Ümidsiz gözləri qəsb edir kədər,
Gedir əldən ilmiz, ömür hədər.
Edirik cəhdi sabah yaxşı olar,
Müstəqillik Vətənin naxşı olar.
Amma ki, günlərimiz zəhər olub,
Gözümüzdə boğulan qəhər olub.
Kasıbın ümidi sönüb sabaha,
Yoldan azmışlara yox çarə daha.
Haram pullar qudurdub özlərini,
Bürüyüblər yalana sözlərini.
Ölkədən baş götürüb qaçanları,
Yad ölkələrə yolu açanları,
Qalanlar bəxti gülüb deyir hələ,
Vətəndən gedənləri öyür hələ.
Qarabağ işğala düçar olunub,
Məzlumu əzməyə açar olunub.
Bankların cummağı var üstümüzə,
Durub talançıları qəsdimizə.
Olub intiharlar həyat amalı,
Acizdir şeytana insan kamalı.
Şadiman, bu dərdləri çək nəzmə,
Bəlkə qulaq verən oldu sözümə.
Zalımın bir adı var mərdüməzar,
Əlim dinc durmayıb dərdləri yazar.
Od tutub yanır yenə dükan, bazar,
Məzlumu soyanları tutsun azar...

**17.02.2017**

## ŞİRVANŞAHLAR SARAYI

Şirvanşahlar Sarayı,
Keçmişinin bal ayı,
Bügününün sükutu,
Bir tarixdir hər qatı,
Ruhların məzar evi,
Zamanın yazar evi.
Sirr dolu divanxana,
Səsi düşüb hər yana.
Şah babamın məscidi
Azanına tac idi.
Şövqlü saray hamamı,
İçində şahın kamı.
Cəlb eləyən ovdanı,
Su udardı qadanı.
Bakuvinin türbəsi,
Xaliqinə gur səsi.
Keyqubadın məscidi,
Allahına yol dedi...
İşğallardan sağ çıxan,
Haqqa üzüağ çıxan,
Tariximin güşəsi,
Dərinlərə işləyib
əsrlərdi rişəsi.
Dünəninin nağlı,
Ram eləyir ağılı.
Gəldim ziyarətinə,
Düşdüm haqq zinətinə.
Ruhların pıçıltısı
qulağımdan getməyir.
Zamanın zehinində
Nə olubsa ötməyir.
Yaddaşından köçürtdü
Yaddaşıma harayı,
Şirvanşahlar Sarayı,
Şirvanşahlar Sarayı.

**27.03.2017**

## TÜRKÜM MƏNİM

Vətənin adı kimliyi olan,
Əsrlərlə aralıqda qalan,
Yurdları talan,
Ürəyini düşmənə süfrə salan,
Dərdi kalan,
Ərkim mənim,
Türküm mənim.
***
Qərbdən Şərqə,
Güneydən Quzeyə,
Qılınclarının səsi göy titrədən,
Öz şanlı keçmişi ilə bizi bihuş edən,
Təklənmisən nədən?
Ərkim mənim,
Türküm mənim.
***
Sən ruhum içindən
boylanan güman yerim,
Sən haqqıma veriləcək fərman yerim,
Sən yurdlarımı isidəcək səhman yerim,
Sən Tanrıma qovuşacaq iman yerim,
Sən ruhumun duyacağı can yerim,
Ərkim mənim,
Türküm mənim.
***
Şəhidlər məzarstanında anaların göz yaşı,
Mən də sənin torpağının bir məzar daşı,
Sızlayır, inləyir işğallarda Vətən daşı,
Səni duya bilməz haqqına qənim kəsilmiş naşı,
Sil ürəyindən təlaşı,
Duman alan dağlarının başı,
Göylərin şəbnəm savaşı...
Ərkim mənim,
Türküm mənim.
***
Sənin adın tarixdən silinməz,
Sənin çırağın heç zaman sönməz,
Oturub qalma dinməz,
Qartala dönüb şığısan yağı yuvana sinməz,
Basılmasan əcdadlarının ruhu ahla döyünməz,
Basılsan tariximiz bir daha öyünməz,

Ərkim mənim,
Türküm mənim.
***
İçində Qurdunu səslə,
Atıl dünyaya yeni həvəslə,
Barışma işğalla, qəfəslə,
Yaşama, boğulan nəfəslə,
Dünya hesablaşmır məğlub kəslə,
Ərkim mənim,
Türküm mənim.
***
Sən qalib olacaqsan,
Sən tarixdə qalib kimi qalacaqsan,
Sən yağıdan qısasını alacaqsan,
Sən dağılmış yurdlarında yuva salacaqsan,
Sən üç rəngli bayrağınla zəfər çalacaqsan!
Sən – Sən olacaqsan,
Ərkim mənim,
Türküm mənim.

**06.04.2017**

## VƏTƏN DEDİLƏR

Vətən, səni tikə-tikə, parça-parça yedilər,
Utanmadan, çəkinmədən sənə Vətən dedilər...

Çalxatdılar içindəki göz yaşını nəhrtək,
Boğazlarda kilidləndin hönkürməyən qəhərtək...

Araz boyda kədər oldun bağrımızda nə vaxtdı,
İçi ulusun qarışıq qara elədik baxtı.

İndi sənə barmağını silkələyir gədələr,
Səni udmaq diləyiylə eşqə düşüb mədələr.

Torpağının ortasında xain yuva saldılar,
Bu minvalla hissə-hissə hər neyin var aldılar.

Buludlardan axan yaşdan çoxdu gözün yaşları,
Məzar-məzar şəhid etdin igid vətəndaşları.

Xəritənə boylananda utanıram özümdən,
Tapdağlarda qalan yurdlar boylanırlar sözümdən.

Vətən, səni tikə-tikə, parça-parça yedilər,
Utanmadan, çəkinmədən sənə Vətən dedilər...

**06.05.2017**

## PULU PULLA TUTAN KİŞİ

Pulu pulla tutan kişi,
Dünəninə diqqət yetir.
Tanrı görür bu gedişi,
Saray uçur, məzar bitir.

Başa getməz böylə bu hal,
Bir ətrafa nəzəri sal,
Keçmişlərdən ibrəti al,
Əməlinə ölçü götür.

Gəl doğrama kefə soğan,
Göydən enmib səni doğan,
Başına pul-para yağan,
Haram işlər bir gün bitir.

Bax güzgüyə içini gör,
Vicdanında biçini gör,
Bircə dəfə suçunu gör,
Anla boşa deyil sətir.

Pulu pulla tutan kişi,
Uğur sanma pis vərdişi,
Zalım zaman əzir dişi,
Heç bir kəsə qoymur xətir.

Əzəl-axır sonun gələr,
Hay salarsan dilin mələr,
Hər doğulan, bir gün ölər,
Əməlindən hesab götür.

**06.05.2017**

## AY DƏMİR ALAN

Elə bu küçəni var-gəl edirsən,
Bu necə həyatdı, ay dəmir alan?!
Evlərdə, küçədə dəmir tükənib,
Səsin hara çatdı, ay dəmir alan?

Yüz dəfə keçirsən eyni küçədən,
Yüz dəfə səsinlə fəryad edirsən.
Ömür-gün boylanır acı necədən?
Ağrı-acıları həyat edirsən!

Dərdli hislərinə qarışıb ömrün,
Bir parça çörəyin acısısan sən.
Həyat kitabına kiliddi dəmrin,
Dünyanın dərd dolu sancısısan sən.

Hər səhər harayın dolaşır burda,
Alan kim, satan kim? Cahan dərd dolu.
Boğazın ilişib kəndirə harda?
Cızılıb gününə müsibət yolu...

Artıq uşaqlar da adını bilir,
Onlar “Dəmiralan” deyirlər sənə.
Dünya qəhqəhəylə ağrına gülür,
Yaşanacaq günü buraxır sənə...

Səsin sınıb qalır qulağımızda,
Sonra gubbultuyla ürəyə düşür.
Haqqın nalə çəkir sorağımızda,
Sanki vücudumuz buz kimi üşür.

Sənin dəmir təki möhkəm iradən
Həyat yaşamını öyrədir bizə.
Gündəlik çıxarın dəmiri didən –
Bizim insaf salmır heç qəlbimizə...

Bir parça çörəyin möhtacısan sən,
Çörəklər zibillik içində gəzir.
Dərdini misraya bənd elədim mən,
Bu həyat hekəyən haqqa müntəzir...

Gündən yanan dərin bəxtintək qara,
Yaşadığın günə üzqarasıdı.
Çəkiblər burada ümidi dara,
Hələ də deyirlər bu harasıdı?!

Sən dəmir yığmaqla məşğul olarkən,
Havaya sovurur bir çoxu pulu.
Zavallı aclığa meyil salarkən,
Artır haramyeyən, tapdayır qulu...

Elə bu küçəni var-gəl edirsən,
Bu necə həyatdı ay dəmir alan?!
Evlərdə, küçədə dəmir tükənib,
Səsin hara çatdı, ay dəmir alan?

**10.06.2017**

## VƏTƏN TƏRƏFƏ

Qərib yurd-yuva seçənlər,
Gedəyin Vətən tərəfə.
Nə olar bir yol boylanaq
Ruhumuz ötən tərəfə...

O yurdlar axı bizimdi,
Yorğun bükülən dizimdi,
Hər talasında izimdi,
Baxaq dil yetən tərəfə.

Əyinə geydik qürbəti,
Ağladıq küncdə xəlvəti,
Hər yurd tanıdır milləti,
Gedək qəlb bitən tərəfə.

**10.06.2017**

## “DEYİRLƏR”Ə DEYİRLƏR

***Güneydə gündəm olmuş rəqs ritmində yazılmış”Deyirlər” mahnısına çağrış***

“Deyirlər”ə ağız büzən,
Yoxdu səndə Vətən eşqi!
Pozulacaq bir gün düzən,
Çox çəkməz zülümün məşqi.

Silkələn manqurt deyirlər,
Kimliyi arıt deyirlər,
Bizlərə Bozqurt deyirlər.

Niyə susub çağlamırsan?
Bağrımı yandıran, Araz?!
Biz yanırıq ağlamırsan,
Haqqı dayandıran, Araz!

Bütövləş Vətən deyirlər,
Ürəkdə bitən deyirlər,
Azərbaycan tən deyirlər.

Qol götürüb oyna, millət,
Rəqs özü birlik sədası.
Dərd üzünə ayna, millət,
Bitmir Vətənin qadası!

Qarabağ darda deyirlər,
İgidlik harda deyirlər?!...
Yurdlar ah-zarda deyirlər.

Urmi yurdumun gözüdür,
Dəryası suya həsrətdi...
Təbriz canımın özüdür,
Doğma yurdda nə qürbətdi?!

Qalxın birləşək deyirlər,
Haqq içdə şimşək deyirlər.
Bəzzdə görüşək deyirlər!...

Canımız, gözümüz gənclik,
Ümidimiz sizdən keçir.
Dünyaya sözümüz gənclik,
Sizə səhvlər bizdən keçir...

Sizə aslanlar deyirlər,
Yurda qalanlar deyirlər,
Basılmaz canlar deyirlər.

Əsgərimiz, qalxın gedək,
Düşmənin bağrı yaxılsın.
Yurda axın-axın gedək,
Zülümün evi yıxılsın!

Bu hiyləyə don deyirlər,
İşğallara son deyirlər,
Qarabağa qon deyirlər...!

Göyçə gölü qanlı əldə,
Ellər yurdlardan köç edib,
Biz varıq deyirik dildə,
Lovğalıq bizi heç edib.

İrəvan bizim deyirlər,
Ağlayır gözüm deyirlər,
İtməsin izim deyirlər..

Birləşin Türklük eşqinə,
Üçrəngli bayraq yar olsun!
Basılmaz birlik eşqinə,
Ay-ulduza dildar olsun!

Güney-Quzey can deyirlər,
Bu dərdə hicran deyirlər,
Qalx Azərbaycan deyirlər!

Şadimanı boğur qəhər,
O tay, bu tay nə deməkdi?!
Görüm düşmən udsun zəhər,
Yağıdan gələn əməkdi!

Ayırma, Araz, deyirlər,
Rəqsə xoş avaz deyirlər,
Gəl bu dərdi yaz deyirlər...

**14.09.2018**

## YURDU YADA SATANLARA

Yurdu yada satanlara
Bazar oldun yaman, Vətən.
Səni ucuz tutanlara,
Nəsib deyil iman,Vətən.

Məmurların tamahı çox,
Çəkinəcək Allahı yox,
Zənn eləyir günahı yox,
Tanımayır fərman,  Vətən...

Yurdlar qalıb işğal altda,
Sirlər yatır neçə qatda,
Qürurumuz yox həyatda,
Haçan olar səhman, Vətən?

Şəhid ruhu fəryad edir,
Məzarları dərd yad edir,
Yer də, göy də imdad edir,
Təbib bulmaz dərman, Vətən!

Yağı nazı bitən deyil,
Şər arxalı, itən deyil,
Qorumasaq, Vətən deyil...
Çox ötürdük zaman, Vətən.

Tərifimiz başdan aşır,
Yaltaqların salıb həşir,
Ürək yanır, can savaşır,
Tapılmazmı loğman, Vətən?!

Şuşana bax, bağrı yanır,
Oğru kefdə, doğru yanır,
Köksüz, soysuz, yurd nə qanır?!
Bağır, qopar aman, Vətən!

Şadimanın dili susmaz,
Qanmaz sözə qulaq asmaz,
Can yanmasa, əlim yazmaz,
Könlüm sızlar kaman, Vətən...

**23.11.2018**

## ŞƏHİDLƏR

Düzülüb qəbirlərə,
Susub baxır şəhidlər.
Sancılıb səbirlərə,
Canı yaxır şəhidlər.

Göz yaşına diləkdi,
Qəmimizə dirəkdi,
Bir ağlayan ürəkdi,
Bulud sıxır şəhidlər.

Məzarlar ah içində,
Dərdi sabah içində,
Dünya günah içində,
Düşmən yıxır şəhidlər.

Hər qəbir bir oğuldu,
Ahı ərşə dağıldı,
Dilə dastan, nağıldı,
Göydə çaxır Şəhidlər.

Döyünür könlümüzdə,
Qeyrət daşdırır bizdə
Adları dilimizdə,
Qana axır Şəhidlər.

Şəhidsiz Vətənmi var?
Bu ada heç tənmi var?
Məzarları daş-divar...
Ruh darıxır Şəhidlər...

**28.09.2018**

## GƏLİR SORAĞIN

Xarıbülbül, Qarabağın
qalıb yağı şər əlində.
Qusar eldə var sorağın,
Şəbnəm ağlar hər telində.

Sən Vətənin o başından
bu başına niyə gəldin?
Hayların qan savaşından,
Şuşa nalan – deyə gəldin!

Xarıbülbül, düşməndənmi
sən də düşdün qaça-qaça?
Fəryad doğub sinəndənmi
Yaradandan imdad quca?!

Bənövşəyi üzündədir,
Avazlanan yürd həsrəti,
Əsir Cıdır düzündədir,
Yağıların həqarəti.

Nə vaxt bitər bilməyirik,
Nə sən, nə biz, xarıbülbül.
Bir məxrəcə gəlməyirik,
Demək olmur göz yaşın sil!

Gəl ağlama, düşmən gülər,
Şehlərini qurut üzdən.
Ah-ufundan can sökülər,
Bir səda yox Cıdır düzdən.

Xarıbülbül, gözəlliyin
Parlaq ulduz aləm bəzər.
Fəqət, fərqli özəlliyin,
Qarabağla adın gəzər.

Xarıbülbül, dik tut başı,
Yurd yağıya heç vaxt qalmaz.
Sel olmasın qoy göz yaşı,
Dəyərindən düşməz almaz.

Harda bitsən Vətən gülü,
Harayısan Qarabağın.

Gəl oyatma sən bülbülü,
Köz eyləyər sinə dağın!

Xarıbülbül, bu Şadiman
Səni gördü, bağrı yandı.
Bir Şuşana ola dərman,
Dildə bitib Vətən andı!!!

**24.05.2018**

## YURDUMUN CƏSUR QIZI

***Bəzz qalasına üçrəngli bayrağımızı***
***çəkən Raymonda Əliyevə***

Üçrəngli bayrağmızı Bəzz qalasına çəkən,
Güneyin bağrında qartallar təki səkən,
Vətən kiçildənlərə dərmandı o dərrakən,
Misralar haray salıb təzim edir bu ada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Düzlüklə, təmizliklə, saflıqla peyman etdin,
Haqq deyib haray saldın, sən haqqa iman etdin,
Azərbaycan eşqini ürəyə fərman etdin,
Biz hamımız gedəri şərəf qalar dünyada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Adının mənasını vallah bilmirəm xanım,
Sənin o qeyrətinə qurban olsun bu canım,
Əldə tutduğun bayraq mənim şərəf ünvanım,
Güney- Quzey Qarabağ deyib yanır fəryada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Içində Vətən eşqi Güneyə işıq salıb,
Bütöv Azərbaycanın ürəyində ucalıb,
Bəzz qalası eşqinə özü heyrətdə qalıb,
Bir ocaq cat, yığılsın o tay, bu tay bu oda,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Qürurunun önündə qartallar səcdə edir,
Vətənin bütövlüyün dünyaya müjdə edir,
Ürəklər bir vurarkən bəs bu ayrılıq nədir?
Birləşsin yurd-yuvalar, dəf olsun bu qan-qada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Bəzz qalası Babəkin ruhun bağrında gizlər,
Bütöv Vətən eşqini daş-dıvarda əzizlər.
Dilimiz kilidlənib hələ susuruq bizlər...
Sənin dəli harayın yatmışları oyada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Şadiman cəsurluğun önündə qəhərlənir,
Köləlik havasıyla bir çoxu zəhərlənir,

Düşmənə əyilməklə xainlər bəhərlənir,
Dillər ayrı havada, baxışları boyada,
Yurdumun cəsur qızı,  mərd ürəkli Raymonda!

**21.06.2018**

## KİMƏ SÖYLƏYİM

Acından günorta duranlarının
Ağrısın mən kimə söyləyim Vətən?
Sən işğal altında didirsən ağlı,
Bu ağrı-acıyla neyləyim Vətən?!

Niyə şər-xətanın yolu sapılmır?
Sənə hansı hiylə, fitnə yapılmır?
Çəkilməz dərdinə çarə tapılmır,
Varmı haqq eşidən, mən deyim, Vətən?

Hər yerdən üstünə cumur köpəklər,
Pullanan ciblərdən yedin kötəklər,
Kasıb millətinə yetmir diləklər,
Bəs necə mən səni de öyüm, Vətən?!

Yatır ağı deyən dilinə məni,
Batır göz yaşının selinə məni,
Sarı ürəyinin telinə məni,
Kəsilib taqətim, yox heyim, Vətən.

Dönüm başın üstə əsən küləyə,
Sən can ağrısısan, qoyma mələyə,
Hər nə dərdin varsa ələ ürəyə,
Dəyirman daşıtək qoy üyüm, Vətən.

Mən də şadimanlıq eşqiylə saçdım,
Bahardan bahara sevgiylə qaçdım,
Sənin dərdlərinə gözümü açdım,
Eşitsin haqqını yer-göyüm, Vətən...

Çəkdilər yağılar səni oyuna,
Oturdu qansızlar min yol vayına,
İşğalın libasın biçdi boyuna,
Əyninə yaraşmır bu geyim, Vətən.

Şadiman zülümə enməz, uaxşı bil,
Ağrını dünyanın əzab naxşı bil,
Hayqıran misramı xalqın baxşı bil,
Sözdən üsyan geyir hər deyim, Vətən...

**24.05.2017**

## YOL BAĞLI ŞUŞAYA

Sən də İrəvantək yağıya ocaq,
Elin pərərn-pərən düşüb nə vaxtdı.
Dilimiz olubdu ağıya ocaq,
Nə zaman uçular bəs şərin taxtı?!

Yol bağlı Şuşaya, əsir Qarabağ,
Həsrət bıçaq təki kəsir Qarabağ,
Könül vüsalınçın əsir, Qarabağ…
Qorxaqdan Allah da küsür, Qarabağ!

Leşə döndərdilər torpağı, daşı,
Quzğuntək tökülüb yadlar üstünə.
Bizim qismətimiz elə göz yaşı,
Durdu için-çölün, durdu qəsdinə.

Ahı könlümüzdə donan, Qarabağ,
Elə özümüztək yanan, Qarabağ,
Susur Azərbaycan, anan Qarabağ!
Azalır, artmayır qanan, Qarabağ.

Yağılar sülh deyib bağlayır ağzı,
Bizə sülh deyənlər talana gəlir.
Görüm yoxa çıxsın qələm-kağızı,
Möhürlər, imzalar yalana gəlir.

Dərdi qəlbimizə dolan, Qarabağ,
Bizimtək lallığı olan, Qarabağ,
İblislər əlində qalan, Qarabağ!
Var-yoxu əllərdə talan, Qarabağ.

Niyə silkələnmir daşın, torpağın?
Gələnlər yurdunu taladı, çapdı.
Nə vaxt sona yetər bu qanlı çağın?!
Düşmənlər, xainlər haqqını qapdı.

Susma, fəryadını bağır, Qarabağ,
Vətəni haraya çağır, Qarabağ,
İşğal hər bir dərddən ağır, Qarabağ!
Partlayır dözməyir bağır, Qarabağ.

İşğala savaşla verilər cavab,
Cavab verilməsə qurban çoxalar.
Ürəklər partlayır, eyləməyir tab,
Qələbə olmasa, yağı çox olar!

Bunu qorxaqların qana, Qarabağ,
Doymuşuq hicrandan cana, Qarabağ,
Qarşında yağılar sına, Qarabağ…
Gələsən yenidən cana, Qarabağ.

Çağır harayına, çağır Ordunu,
Düşməni qorxusu silahdan keçir.
Ayılt içindəki yatmış Qurdunu,
Qalib olmağımız sabahdan keçir.

Bunu qananların duyur, Qarabağ,
Əmrə qadirlər uyur, Qarabağ,
İçində göyərir çayır, Qarabağ...
Dostunu düşməndən ayır, Qarabağ!

**04.12.2018**

## DURUN GEDƏK QARABAĞA

Nə sızlayıb ağlaşırıq,
Ah-ələmlə bağlaşırıq,
Dillə neçə dağ aşırıq-
könlə hicran yağa-yağa,
Durun gedək Qarabağa!

Inlər, sızlar hər sözümüz,
Göz yaşına yar gözümüz,
Açılmayır heç üzümüz,
Bəsdir dözdük daha dağa,
Durun gedək Qarabağa!

Möhür, imza torpaq almaz,
Qorumasaq Vətən olmaz,
Heç bir zülüm sona qalmaz,
Qonub yağı çox oylağa,
Durun gedək Qarabağa!

Bəsdir qaçqın, köçkün olduq,
Bəxtimizdən küskün olduq,
Bu dünyada miskin olduq,
Düşmənlərə dağ vurmağa,
Durun gedək Qarabağa!

Yağı dolu hər yanımız,
Məğlub qalıb ünvanımız,
Nə vaxt olar fərmanımız?
Son qoyağın ağlamağa,
Durun gedək Qarabağa!

Şəhid ruhu fəğan edir,
Bu susqunluq içdə nədir?
Namərd heç vaxt bilməz qədir,
Yağı külün sovurmağa,
Durun gedək Qarabağa!

Düşmənlərə dil verdilər,
Əllərinə əl verdilər,
Əsir düşmüş el verdilər,
Kimliyini doğurmağa,
Durun gedək Qarabağa!

Dərdimizin qədəriyik,
Biz savaşı edəriyik!
Bu dünyadan gedəriyik...
Varlığını bağırmağa
Durun gedək Qarabağa!

Dil-ağıza olduq qınaq,
Yurd işğalda bu bir sınaq,
Təhdid böyük, birgə qanaq,
Verək şərəf, şan bayrağa,
Durun gedək Qarabağa!

Atilladan yetib səda,
Şadimana çatıb nida,
Sözlərimdə yoxdur əda,
Yurdu şərdən qorumağa,
Durun gedək Qarabağa,
Durun gedək Qarabağa.

**07.12.2018**

## BU DƏRDİ DEMƏYƏ DİLİM GƏLMƏYİR

Bu dərdi deməyə dilim gəlməyir,
Götürüb yazmağa əlim gəlməyir.

Qanı torpağında batan Xocalı,
Qanların içində yatan Xocalı.

Bu dünya kar olub ağrına sənin,
Şəhidlər döşənib bağrına sənin.

İlləri tarixə köçürdürük biz,
Ürəyə kədəri içirdirik biz.

Ey yurdun övladı, dəhşətə susdun,
Bəsdir qanun pozan vəhşətə susdun!

Xocalı harayın bağır dünyaya,
Allahı göylərdən çağır dünyaya!

Silsin caniləri bu yer üzündən,
Qalmasın cahana qanlı izindən.

Hayların vəhşəti səngiyən deyil,
İçdə xəyanəti təngiyən deyil.

Düşmənin kimliyi bəlli, susuruq,
Qəzəblə bir-birin kindən asırıq.

Yağı torpaqlardan çəkilən deyil,
Şərin beli heç vaxt bükülən deyil.

Bəs kimi gözləyib dururq bu gün,
Yalançı xəyallar qururuq bu gün.

Qisasın zamanı yetişməyibmi?
Ürəyi yumşaqlıq ötüşməyibmi?!

Nə zaman bitəcək işğalın sonu,
Vətəndə hər bir kəs gözləyir onu!!!

Nəsillər dəyişir, yara közlənir,
Düşmən elə düşmən, bəs nə gözlənir?!

Qarabağ işğalda, qız-gəlin əsir,
Susub dayanmışıq, nə möhlət, nə sir?

Yağı danışıqla çəkilib getməz,
Bu elə bəladı sülh ilə ötməz.

Üstən götürməsək məğlub adını,
Vətən xoşbəxt görməz öz övladını.

Yeni işğallara düçar olarıq,
Yadların əlində naçar olarıq.

Xocalının qanın almalıyıq biz,
Bahadur adıyla qalmalıyıq biz.

Sonu olacaqmı bu atəşkəsin,
Ordu kəsməlidir, düşmən nəfəsin!

İşğalla barışmaq, şərə qol qoyur,
Yeni işğallara açıq yol qoyur!

Gəlin qorxaqlığı içdə ovlayaq,
Yağını yurdlardan, haydı, qovlayaq!

Milli danışanım, Milli Məclisim,
Yetişirmi sənə harayım, səsim!

Ehey, Milli Ordum, qap silahını,
Düşmənin içində qopar ahını.

Ali Baş Komandan, əmri bəyan et,
Savaşın gününü durma əyan et!

Xocalı, Malıbəyli, Quşçu ağlayır,
Şuşanın harayı sinə dağlayır.

Sönmüş ocaqların ahından qopaq,
Nə olar qoy biz də rahatlıq tapaq.

Bu dərdi deməyə dilim gəlməyir,
Götürüb yazmağa əlim gəlməyir.

**24.02.2019**

## DEYƏN OLMADI

Hamı güzəranın söylədi o gün,
Kimliyin necə faş eylədi o gün,
Özləri bilmədi neylədi o gün,
Vətən, niyə sənin yiyən olmadı?!
İşğala dözmürük deyən olmadı...

Qələmim başıma qəm daşı tökür,
Ağlım ürəyimə təlaşı tökür,
Gözüm bulud olub gurşadı tökür,
Səbir deyiləsi bir şey qalmadı...
İşğala dözmürük deyən olmadı...

Başımızdan getsə qorxu havası,
Başlar düşmənlərlə qisas davası,
Vətənin çiçəklər hər yurd-yuvası,
Hayqırıb şərəfi öyən olmadı,
İşğala dözmürük deyən olmadı...

Məğlubluq acısı yaşayırıq biz,
Bu dərdi hər günə daşıyırıq biz,
Axı niyə belə yaşayırıq biz?!
Yağının şər yolun əyən olmadı,
İşğala dözmürük deyən olmadı...

Hönkürür içimdə ziyalı adım,
Vətənin namusu, əyalı adım,
Bağrıma sığınıb həyalı adım,
Vətən, qələmimdən həyan olmadı,
İşğala dözmürük deyən olmadı...

İçdə ziyamızı məhbus eylədik,
Hayqırtı salanda sən sus, sus dedik!...
Qolun qandallayıb biz həbs eylədik,
Pas atan qılınca bəyan olmadı,
İşğala dözmürük deyən olmadı...

Hamı öz dərdini ələdi bir-bir,
Demədilər, Başçı, tükənib səbir,
Hamıya dünyada qalacaq qəbir...
Məğlubluq əzabın sayan olmadı,
İşğala dözmürük deyən olmadı...

Bu nə ziyalılıq havası, Qələm,
Qışqıran səbrimin davası, Qələm,
Mən qula çevrildim, sən asi, Qələm,
Səhv getdiyin yolu əyən olmadı,
İşğala dözmürük deyən olmadı...

Böylə kiçilərmi, ey Tanrım, şərəf,
Çoxu eşq eləyir yağıya tərəf,
Nəsillər deyəcək bizə bişərəf,
Vətən, hıçqırtını duyan olmadı,
İşğala dözmürük deyən olmadı...

Vətən işğaldasa nə ev, nə para?
Dərinə işləyir getdikcə yara,
Yazıb-yaratmağa ürəkdir çarə,
Qorxunun başına yüyən olmadı,
İşğala dözmürük deyən olmadı...

Biz niyə kiçilib ölürük, Vətən,
Bu dərdi misrayla bölürük, Vətən,
Hansı günümüzə gülürük, Vətən?!
Heç qorxu-hürkünü oyan olmadı,
İşğala dözmürük deyən olmadı...

Deməyin faş etdim Şadimanlığı,
Itirib tapmıram heç səhmanlığı,
Ruhum alıb qaçır məndən canlığı,
Qaytarıb yerinə qoyan olmadı,
İşğala dözmürük deyən olmadı...
İşğala dözmürük deyən olmadı...

**04.03.2019**

## ŞƏHİD SORAĞI

Yenə şəhid sorağı döydü qapını bu gecə,
Qara xəbər tələsib oydu qapını bu gecə.
Ötüşür hər günümüz, işğala adət edirik,
Yağının bəd əməli öydü qapını bu gecə.
Niyə bu ağrı-acı bitməyir illərlə, fələk?!
Düşmənim qan-yaş ilə qoydu qapını, bu gecə.
Pozulub növrağımız işğala düçar olalı,
Bağlayaq bəd xəbərə haydı, qapını bu gecə.
Vətənin hər qarışı varlığımızdan yuxarı,
Yandıran ahla dolu vaydı qapını bu gecə...

**27.03.2019**

## ƏSKƏRƏ MƏKTUB

İndi məktublar da yazılmır daha,
İnternet mesajlar işə düşəndən.
Ümidim bağlıdır uca Allaha,
Ötür günlər, aylar biz görüşəndən.

Əzizim, bilirsən ürəyim səndə,
Sənsən bu dünyada həyat işığım.
Eşqə bağlı olan diləyim səndə,
Sənsən gözüm nuru, qəlb yaraşığım.

Hər yerdə gözümə görünürsən sən,
İgidim, Vətənə dayaq əskərim.
Qəlbimin oduna bürünürsən sən,
Səngərlər içində oyaq əskərim.

Bilirsən necə mən həsrətindəyəm,
Günləri sayıram, ötüşsün aylar.
Səninlə qovuşmaq niyyətindəyəm,
Axır kirpiklərdən qəm dolu çaylar.

Hərbə qışda getdin, artıq yaz indi,
Ağaclar çiçəyə bürünüb bağda.
Bir cavab məktubu mənə yaz indi,
Sözlərim həsrətlə yanır varağda!...

Hər gün duaçıyam yoluna, əskər,
Tanrım qoy ömrünə nurlar ələsin.
Düşmənin qandal vur qoluna Əskər,
Ayağın altına düşüb mələsin.

Sevgilim, bilirəm qolunda qüvvət,
Bu yurdlar Ordunun əmanətidir.
Vətən namus, şərəf, əvəzsiz sərvət,
Qurd ürəklilərin zəmanətidir!

Söylə, yadındamı sən gedən günü?
Kəndə gəlmişdilər sənlə görüşə.
Bir qoç da qurbanlıq sən gələn günü,
Nişanlım, gəlişin bayrama düşə...

Bu Novruz bayramı sənsiz keçirtdik,
Gözüm qapınızda qaldı, əskərim.
Keçən il çərşənbə biz and içirdik,
Andımız ruhuma baldı, əskərim.

Qapımız yan-yana, axı qonşuyuq,
Hər gün anan-bacın mənlə görüşür.
Bu eşqlə Allahın cənnət quşuyuq,
Ruhum uyğularda sənlə görüşür.

Vətən işğaldadı, işğala çarə
Sizin əlinizdə, ey vətən oğlu.
Bu dərd sinəmizi eyləyib yarə,
Düşmənlə bir yerdə məhv olsun nağlı!...

Sənin uğuruna amin deyirəm,
Yağıya qələbə çalsın Ordumuz.
Vətən igidlərə zamin deyirəm,
İşğaldan qurtulsun daha yurdumuz!

Yoluna həsrətli nişanlın baxır,
Salamat dönəsən evinə, əskər.
Eşqin ürəyimi yandırıb yaxır,
Gələsən, el-oban sevinə, əskər.

Mən rica eylədim şairimizdən,
Nəzimlə söyləsin ürək sözümü.
Bəndlər haray salıb bəhs etdi bizdən,
Sən də yolda qoyma daha gözümü.

Saf eşqi misraya düzdü Şadiman,
Məktubum yetişə əlinə, əskər.
Olaq bir-birinə daim mehriban,
Xoş xəbər yayısın elinə, əskər.

**20.04.2019**

## YORULDUQ OYNAMAQDAN

Havanı dəyişməyin vaxtı çoxdan çatıbdı,
Zili, bəmi nə vaxtdı biri-birinə qatıbdı,
Baxma ki, bir çoxunun səs-sədası batıbdı,
Bu hava yordu bizi, qırıldıq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Əllər dikəlib göyə fələyə yalvarırıq,
Hər ağrıdan yorulan ürəyə yalvarırıq,
İçimizdə ağlayan diləyə yalvarırıq,
Parasız cibimizə sarıldıq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Yerdə əsəbləşibdi nərə çəkib hayqırır,
Kimi qapıb qılıncın nəfəs kəsir, vay qırır,
Allah verən ömürdən, il qoparır, ay qırır,
Öz-özünün dərdinə vurulduq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Hamı dönüb yağıya bir-birinə daraşır,
Oğru, əyri çoxalıb, ev soyur, barı aşır,
İlan təki sürünmək bəlkə bizə yaraşır?!
Qazılan məzarlara sorulduq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Əsir düşən yurdların sədası qanda gəzir,
Həyatdan doymamışlar canını verir nəzir,
Məğlub olan tərəfik, məyusluq eli əzir,
Ümid gurşad olanda durulduq oynamqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Bəsdir, vicdan hönkürür, kəs bu havanın səsin,
Bu hava söndürübdü vallah həyat həvəsin,
Əzrayılı çoxalıb bir udumluq nəfəsin!...
Saat təki zamana qurulduq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Zənn etməyin, sözlərim pıçıldayır pəstədi,
Misralar haray salıb ağrıma ahəstədi,
Şadimanın ruhunu qırmağa həvəsdədi,
Dərdimizlə sevişib yar olduq oynamqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan. **10.02.2019**

## RUHUMU OYNATDIN

Gəlmişəm, izn ver çıxım qarşına,
Ruhumu oynatdın sən, Həsənqala.
Qonum buludunun axan yaşına,
Göyündən çəkilsin çən, Həsənqala.

İnan, xiffətini illə çəkmişəm,
Ayrılıq acısın qəlbə tökmişəm,
Eşqini gizlicə könlə bükmüşəm,
Dərdindən Məcnunam mən, Həsənqala.

Yaşıldan don geyib yenə bəzəndin,
Nolar yanılmasın sevgimə zəndin,
Alıbdı ağlımı feilin, fəndin,
Ürəyim sevdana dən Həsənqala.

Ağaclar başına çətirin tutub,
Güllərin bağlarda ətirin tutub,
Könlüm görüşünə xətirin tutub,
Əyilir önündə mən, Həsənqala!

Çayın zümzüməsi bəstəkar kimi,
Bunu duymayanlar, sanki kar kimi,
Oxşarsan qəlbimi eşqə yar kimi,
Alışar oduna tən Həsənqala...

Hər səni görəndə vəcdə gəlirəm,
Sənə misra-misra müjdə gəlirəm,
Dindir Şadimanı, deyər bilirəm,
Ürəyim səninlə tən Həsənqala...

**02.06.2019**

## BİR İGİD TAPŞIRDI VƏTƏN MƏZARA 9k

***“MİQ-29 təyyarəsinin pilotu, şəhid polkovnik-leytenant Rəşad Atakişiyevin ruhuna ithaf***

Bir igid tapşırdı Vətən məzara,
Ruhunu Yaradan çəkdi göylərə.
Görüm ölüm düşsün özü azara,
Buludlar göz yaşın əkdi göylərə.

Tabut şahid oldu insan selinə,
Tutuldu məzarı gül yağışına.
Ananın yurd saldı ağı dilinə,
Axdı gürşad dolu sel baxışına.

İki körpə oğul atasız qaldı,
Atalı günləri xəyala döndü.
Göylər şahin oğlu yerlərdən aldı,
Etdiyi dəhşətə sanki öyündü.

O gecə Xəzər də hıçqırdı bəmdə,
Dalğalar Rəşada İgid vay dedi!
O gecə hönkürdü dərdə aləm də,
Tanrıya üz tutub, ay haray dedi!

İgid ər itirdi, xanım qızımız,
Könülün könlünə sığmadı kədər.
İnlədi matəmə kaman, sazımız,
Qoşunun içinə yığmadı kədər.

Hərbə həyatını həsr edən igid,
Vətən səmasında nağıla döndü.
Ər təki böyüyüb yol gedən igid,
Bütöv Vətən üçün oğula döndü!

Ruhuna baş əyir Vətən insanı,
Səni ürəklərə köçürtdü ölüm!
Tökür gözlərimiz kədər leysanı,
Bizlərə çox acı içirtdi ölüm...

Yurdun şahin oğlu, ruhun şad olsun,
Düşdüyün qəzaya ağlayır Vətən.
Görüm o gecənin gözü oyulsun,
Şərəfinə tarix bağlayır Vətən...!

Bu qara xəbərin özü müəmma,
Zülmət yol olarmı gecə quşlara?!
Hər sualın özü doğur min əmma...
Qarışır gözləri boğan yaşlara.

Yazdı Rəşad adın rəşadətini,
Hər kəs öz adına çəkər deyirlər.
Göy duydu şəhidlik ibadətini,
Ruhun asimanda səkər deyirlər!..

Şadiman, bağrından qopan fəryadın,
Gəzir söz içində, misra içində.
Qoy haqqa yetişsin daim imdadın,
Dilin dolaşmasın niyə, neçində?!...

**26.08.2019**

## BİZ NİYƏ TƏSLİMÇİ OLDUQ

Qarabağ ah deyir, Vətən oylanır,
Naxçıvan uzaqdan dərdlə boylanır,
Qüzeyli-Güneyli yurdlar vaylanır,
Dərdi dəyər bilib aldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Söz oynu edirik işğalçılarla,
Təslimə gedirik işğalçılarla,
Bağrımız yüklənir bu acılarla,
Bir-birin ilantək çaldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Qaçqinlar yerləşir daş qutulara,
Enir təslim olan baş qutulara,
Yurdunu dəyişir çaş qutulara,
Necə şər əlində qaldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Düşməndən imdadmı gözləyirik biz?!
İçimiz od tutur, kozləyirik biz,
Ancaq bir-birini bizləyirik biz,
Qolumuza qandal saldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Gedib yurd-yuvalar, dəyişir zaman,
Bizə qalan elə kədər, ah, aman,
Savaşa bəs nə vaxt verilər fərman???
Bəsdir, saçımızı yolduq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Yurdlar əldən gedib, keflər kökəlir,
Xalqı soyanların cibi yekəlir,
Yağı şirniklənir, təbi yekəlir,
Elə bulud təki dolduq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

İşğal uzandıqca unuduruq biz,
Əsirlər ah yeyir, qan uduruq biz,
İlləri ötürüb, an uduruq biz,
Qırıldıq, çatıldıq, solduq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Göydə nalə çəkir şəhid ruhları,
Ötürdük boşuna biz sabahları,
Yığdıq üstümüzə çox günahları,
Dərdi içimizə aldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Niyə şadlanırıq, niyə gülürük?
Millətdən qoparıb sərvət bölürük,
Yaman-yaxşı onsuz bir gün ölürük...
Bəs nədən bu günə qaldıq, İlahi?
Biz niyə təslimçi olduq, İlahi?!

Varsansa, sən bizi düz yola qaytar,
Yoxsa yurd-yuvamız tamamən batar,
Qarabağ yüklənən – yol gedir qatar...
Bu necə xəyaldı daldıq, İlahi?
Biz niyə təslimçi olduq, İlahi?!

Şadiman bu dərdi ah ilə yazır,
Deməyin kafirdi, yolunu azır,
Düşmən bizə dərin bir quyu qazır,
Bəlkə haqqın yolun bulduq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!
Biz niyə təslimçi olduq, İlahi?!

**10.09.2019**

## QALX AYAĞA

Nə yatmısan, qalx ayağa, torpağın işğal altında,
İlantəki səssiz yatan ağrılar var hər qatında.
Harınlaşıb haramxorlar öz kefində, büsatında,
Yurd-yuvası paramparça, qolları vurulan Vətən!
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

Məğlubluğun tarixini çalxalayıb vurdu yerə,
İçimizdə haray salan qurdu tapıb çırpdı yerə,
Şəhidimin qanı axdı, ah-nalələr sardı yerə,
Məğlubluğu çox çeynənib, yurdları sorulan Vətən
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

Ciyərimiz dağlanıbdı, tüstüsündən göy bulanır,
Sığındığım isti yuvam, adın qəmlə bir hallanır,
Ağrılar əzaba dönüb ürəklərdən yük sallanır,
Gah gümana, gah ümidə göl olub durulan Vətən,
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

Paramparça yurdlarını yadellilər qapıb tutdu,
Ya biz döndük öz yolundan, ya onlar el çapıb tutdu,
Hiylə gəzdi hər qarışda haqq yolunu sapıb tutdu,
Yurddaşının fənasından üzülüb yorulan Vətən,
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

Şadimanın hıçqırtısı boğazına qısılıbdı,
Dilimdə hayqıran sözüm misralardan asılıbdı,
Yurdlarımız pərən-pərən, zaman-zaman susulubdu,
Tarixinə üsyan deyib saattək qurulan Vətən,
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

**10.09.2019**

## BİRCƏ KƏRƏ YAN VƏTƏNƏ

Çıxma dönük nə olar, bircə kərə yan Vətənə,
Dodaqda kəlmələrin desin min yol can Vətənə.

Sahib ol öz yurduna, sahibliyi qalsın sənə,
Qurban et təninə yox, sığındığın can Vətənə.

Qurtaraq işğal acısında qalan yurdumuzu,
Onda alqış deyəcək vallahi hər yan Vətənə!

Qələbə sevincini daddıraq ürəyimizə,
Qoy gülsün üzlərimiz, çatsın həyəcan Vətənə.

Bir çoxu kimliyini çaş salıb, yox soyu, kökü,
Nəki təndə canını, qıymaz bir fincan Vətənə.

Yığışıb dövrəsinə, cibini öz yurdu sayır,
Çoxalıb ilan təki bağrını sancan Vətənə.

Satır öz mənliyini yağılara heç neçəyə,
Soxulur künc-bucağa, sanki, soxulcan Vətənə.

Şadiman qələmini kağızına elədi dost,
Eləyə xidmətini ömrü sonacan Vətənə!

**14.09.2019**

## YUXUMA GƏLMİŞDİ VƏTƏN BU GECƏ

Göyündə buludlar, üzü pərişan,
Verirdi kədərdən baxışı nişan,
Deyirdi: “De nədi ucuz şöhrət-şan”?!
Gözündən göz yaşı axırdı necə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Yaman qarğıyırdı atəşkəsi də,
Boğulub çıxmırdı batan səsi də,
Gedib gəlməyirdi heç nəfəsi də,
Qısılıb qalmışdı qəribtək küncə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Deyirdi: “Atəşkəs mənim yağımdı,
Şəhid məzarları sinə dağımdı,
Kimlər ki, zənn edir xoş növrağımdı,
Yatan ağılların qoyublar dincə”
Yuxuma gəlmişdi Vətən bu gecə.

Qurumuş ağactək budanmışdı o,
Düşmənə uduzub aldanmışdı o,
Qarşımda sualtək dayanmışdı o,
Bu uyğu izləyər məni ölüncə...
Yuxuma gəlmişdi Vətən bu gecə.

Şəhid məzarına qoyurdu başın,
Tökürdü qəbirə acı göz yaşın,
Tutmuşdu laylaya öz vətəndaşın,
Sanmayın göy dələn harayı becə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Deyirdi: “Uymayın yalan vədlərə,
Torpağı pay etmin siz namərdlərə,
Əyilmin təslimdən doğan dərdlərə,
Mən sizə yuvayam, saymayın heçə.”
Yuxuma gəlmişdi Vətən bu gecə.

İlahi: “Vətənin dili olarmış?
İnsantək gözləri yaşla dolarmış?
Vətəntək dünyada bir canlı varmış?”
Dərdini xalıtək toxurdu incə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Qarabağ deyərək bağırırdı o,
Tanrını haraya çağırırdı o,
Torpağı gurşadla yoğururdu o,
Boyu oxşayırdı bir yetkin gəncə...
Yuxuma gəlmişdi Vətən bu gecə.

Deyirdi: “İgidlər yağı vurmayır”?!
“O İrəvan xanı yatıb durmayır”?!
“Əskərim düşmənin yasın qurmayır”?
Qananlar sualdan sualı seçə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Mən heyrət içində susub baxırdım,
Canımı boğazdan asıb baxırdım,
Yaşanan ömrümə küsüb baxırdım,
Demin Şadimana röya boş keçə...
Yuxuma gəlmişdi Vətən bu gecə.
Yuxuma gəlmişdi Vətən bu gecə.

**23.09.2019**

## İŞĞAL ALTDA YURDUMUZ

Hanı Vətən, qılınc çəkən mərd ulun?!
Biz susuruq düşmən atır əl-qolun,
Hamı bilir, azıb yağı haqq yolun,
Tapdalayaq ayaq altda şər qulun,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Sözlər daha misralardan yan qaçır,
Səbir daşır, bədənindən can qaçır,
Zaman gedir, vaxt dəyişir, an qaçır,
Kişilikmi bu bəladan can qaçır?!
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Bu nə həyat, ağrılarla dolur qəlb,
Ürək dözmür, infarktla yol olur qəlb,
Həqarətdən xəzan təki solur qəlb,
Ölüm-qalım arasında qalır qəlb,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Dözümümüz daha tüktək nazilir,
Bəsdir, Vətən təhqirlərlə əzilir,
Ümidimiz cuna kimi süzülür,
Yavaş-yavaş yurdulardan əl üzülür,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Tevelərmiz işğal deyib bağırır,
Ermənidən qorxulu şir doğurur,
Qorxaqlığı içimizdə yoğurur,
Qulaq nalan, gözlər talan, yox uğur,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Rus tulasın üstümüzə qısqırdır,
İçindəki şər-şeytanın asqırdır,

Ermənini tribunadan qışqırdır,
Soydan gələn fəsadını hayqırdır,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Biz nə qədər susmalıyıq vəhşətə?!
Şəhid ruhlar ah-vay edir dəhşətə,
Harınların ağlı qızıb işrətə,
Qan uddurur bu müsibət millətə,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Can ürəyi çəkir dara kökündən,
Çoxu qaçır bahadurluq kökündən,
Nalə qopur yerin-göyün tərkindən,
Azğın yağı ayrılarmı heç kindən?!
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Biz nə qədər sızıldayıb ağlayaq,
Ümidləri sabahlara bağlayaq,
Aramızda asıb-kəsib çağlayaq,
Şərə uyan dil-ağızı yağlayaq,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Ürəyimiz yerbəyerdən çatlayır,
Can dözməyir bu fərağa partlayır,
Ermənini ağaları atlayır,
Şər həmişə haqqın dizin qatlayır,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Şadimanı səbir kəsir bıçaqtək,
Yoxdu bizdən bu dünyada qaçaqtək...
Hiddət yanır sinələrdə ocaqtək,
Vətən bizə isti, doğma qucaqtək,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?! **09.10.2019**

## LAZIM GƏLİB ÇIXMAYIR

Gözlərimiz dikilibdi yoluna,
Can yandırmır heç millətin halına,
Şələləyib ümidmizi dalına,
Üz döndərib bizə tərəf baxmayır.
Gözləyirik lazım gəlib çıxmayır.

İşğal altda yurdlarımız dağılır,
İçimizdə qisas hissi boğulur,
Təslimçilik qanımızda doğulur,
Səsləyirik, gəlib bizi yolxmayır,
Gözləyirik, lazım gəlib çıxmayır.

Bu lazımın ürəyinə ox batsın,
Yatıbsa da yuxudan ah oyatsın,
Çağırırıq dadımıza qoy çatsın,
Könlümüzdən qorxu hissin yıxmayır,
Gözləyirik lazım gəlib çıxmayır.

O da bizə niyə belə kəc baxır?!
Məktubumuz çatıb ona gec baxır,
Bəlkə o da dərdimizə bic baxır,
Fəryadımız ərşə çıxıb qorxmayır,
Gözləyirik lazım gəlib çıxmayır.

Yəqin bizdən üz döndərib niyə bəs?!
Sözüm çata  nişangaha dəyə bəs,
Boy-buxunun dilim necə öyə bəs?!
Od tuturuq atəş onu yaxmayır,
Gözləyirik lazım gəlib çıxmayır.

Saraldıb qəm gözümüzün kökünü,
Unutmuşuq özümüzün kökünü,
Cana yovuq bildik qorxu-hürkünü,
Su axdığı yerdən daha axmayır,
Gözləyirik lazım gəlib çıxmayır.

Dünya əhli, bu lazımı görsəniz,
Vicdan atın ona tərəf sürsəniz,
Süfrənizi onla birgə sərsəniz,
Sorun ondan, niyə bizə baxmayır?!
Gözləyirik lazım gəlib çıxmayır.

Şadimanın haqq düşməyir dilindən,
Haray qopur könlünün hər telindən,
Soraq verin nolar lazım elindən?
Deyin ona söz qılınctək çaxmayır,
Gözləyirik lazım gəlib çıxmayır.
Gözləyirik lazım gəlib çıxmayır.

**09.10.2019**

## GÖZÜMÜZ YOLUNDA, “ BARIŞ PİNARI”*

Dönəsən-gələsən bizim ölkəyə,
Bəxtimiz qalıbdı bəlkə-bəlkəyə...
Neçə il düçarıq min mərəkəyə,
Qurtar bəlalardan sən bu diyarı,
Gözümüz yolunda “Barış Pınarı”.

İşğaldan qəlbimiz bağlayıb qubar,
Dərd dərdin üstünə yüklənən anbar,
Biz də qələbəni gəl edək nübar,
Budur yaşammıza həyat meyarı,
Gözümüz yolund “Barış Pınarı”.

İşğalın hər üzün görənlərdənik,
İşğalla bir ömür sürənlərdənik,
Ağrı meyvəsini dərənlərdənik,
Axtarmaq olarmı düşməndə arı?!
Gözümüz yolunda “Barış Pınarı”.

Terroru eşq ilə öyür yağılar,
Haqqı dəyirmanda üyür yağılar,
Şər rişə artdıqca dünya dağılar...
Tükənib xeyirin yəqin ki, barı,
Gözümüz yolunda “Barış Pınarı”.

Ucalsın göylərə Türkün bayrağı,
Yansın üfüqlərdə haqqın çırağı,
Dilə dastan olsun zəfər sorağı,
Müjdə sevindirsin qoy dostu, yarı,
Gözümüz yolunda, “Barış Pınarı”.

Ədalət yox etsin siyasətləri,
Canilər əlində can alətləri.
Qan töküb, ev yıxan ədavətləri,
Ürəklərin buzu, dağların qarı,
Gözümüz yolunda “Barış Pınarı”.

Şeytan ürəklərin savaşı artır,
Fitvalar çoxalır, göz yaşı artır,
Hər hiylə kökündə min qəzəb yatır,
Həmişə təklərlər haqqa yanarı,
Gözümüz yolunda "Barış Pınarı".

Allahım qorusun Ərdoğanmızı,
Dualar hifz etsin şər boğanmızı,
Ataq başımızdan qoy yorğanmızı,
Ürəyim cığırın bitən çinarı...
Gözümüz yolunda "Barış Pınarı".

Zaman insafsızdı, Şadiman xəstə,
Çoxdan düşüb qalıb haqqı diz üstə.
Yaradan susqunmu bu qədər qəsdə?!
Bürüyüb cahanı çocuq ah-zarı...
Gözümüz yolunda "Barış Pınarı".
Gözümüz yolunda "Barış Pınarı".

**15.10.2019**

Pinar*- çeşmə, bulaq.Qədim türk sözü

## BÜTÖVLƏŞ AZƏRBAYCAN

***Bu gün Milli Dirçəliş günündür,***
***kaş bütöv Dirçəlişini görəydim, VƏTƏN....***

Sənin yarımçıqlığın – qəlbimizə yaradır,
Əldən getmiş yurdların bil ki, hardan haradır...
Haqqını almayanın daim üzü qaradır,
Yalnız bütövləşməyin yaralara çaradır.
Bəsdir qaldın yarımcan diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövləş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Kimliyimiz illərdi adımızdan silindi,
Dostun, düşmənin kimdi, aşkar olub bilindi,
Türkliyinə yiyə çıx, çağlayan Türk dilindi,
Min illərdi yağıya qılınc vuran əlindi.
Bəsdir qaldın yarımcan diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Sərvətin yağıların cibində pula döndü,
Qulbeçələr çoxladı, əyilməklə öyündü.
Dərdin ürək yerinə sinəmizdə döyündü,
Söylə kor taleyinə vurulan nə düyündü?!
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Dədəm Oğuz bəyinə yaraşarmı bu illət?
Cəllad fitvası ilə adın unudub millət.
Öz Vətənin içində qaçqın olmaq həqarət,
Həqarəti daşımaq dünya boyda zəlalət.
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövləş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Sənin övladlarının özü döndümü səndən?!
O üzdən qurtulmağın müşküldü duman, çəndən,

Hönkürür misralarım, sözlər üzülür dən-dən,
Üzüdönük oldumsa qalx qısası al məndən...
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövləş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Qulaq ver Güneyinin Türkəm deyən səsinə!
Al Quzeyin harayın nəfəs qoş nəfəsinə,
İlahi şüvən qursun zülümün qəfəsinə,
Qalx pərvazlan, Vətənim, Babəklər həvəsinə.
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövləş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Ey sevgisi tükənməz, canımın yarı Vətən,
Soy-kökümün məkanı, əhdi-ilqarı, Vətən,
Qəlbimin sığındığı könül nübarı Vətən,
Xərcləmə xainlərə bağından barı, Vətən,
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı bülövləş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Şadimanın ruhuna ağrılarla dolma, gəl,
Düşmənlərin önündə qolu bağlı olma, gəl,
Xainə can söyləyib, qol boynuna salma, gəl,
Məğlubluğa eşq edib, yağıya alçalma, gəl,
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövləş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

**17.11.2019**

## QUL OLMAQ DÜNYADA ƏN AĞIR CƏZA

Qul olmaq dünyada ən ağır cəza,
Başından ötüşməz heç zaman qəza.
Unutmaz ağanı çıxsa da canı,
Dolaşar bağrında qul həyəcanı.
Hər qul ağasına endirər başın,
Artırar içində daim təlaşın.
Üzündən, gözündən çaşqınlıq yağar,
Qorxu hissi onu dəmbədəm boğar.
Beyninə həkk olar ağanın əmri,
Qorxudan çıxarda bilməz səs-səmri.
Qəlbində saraylar tikər hakimə,
Əzilmək, kiçilmək yarlıq məhkuma.
Ağanın dilinə qoşar dilini,
Onun ətəyindən çəkməz əlini.
Kökünü, soyunu silər yaddaşdan,
Kimliyin itirər, o, əzəl başdan.
Heç ağanın hökmü başından getməz,
Bir addım sağ-sola ağasız yetməz.
Qul olmaq ram edər tez ağlı-huşu,
Qəfəsə eşq edən bir tutuquşu.
Qul olmaq yarlığı – yaxasına gül,
Bağa eşqə gələr vəfalı bülbül.
Ağanı mədh edər gecəbəgündüz,
Utanmaz, çəkinməz, qızarmaz heç üz.
Ağa qarşısında ölər, dirilər,
Anasız quzutək önündə mələr,
Ağa da hərdən bir qulu təriflər,
Kimliyin alçaldar, soyun hərifləр.
Tərifi artıqca qulun şellənər,
Sahibi önündə batıb lillənər.
Ağa bağladıqca qulun dilini,
Qul da sürükləyər dərdə elini.
Mukafat eyləyər yurd-yuvasını,
Cəhd edər enməyə dil duvasını.
Quldan uzaq düşər mənlik, ləyaqət,
Ona bayraq olar yalnız həqarət!
Eşq ilə mədh edər əsirliyini,

Alçadar, endirər öz mənliyini.
Başına tac olar ağanın soyu,
Batar onu əkib doğanın soyu!
Quyusu qazılar qul ömrün dərin,
Səcdəyə qaldırar şərə əllərin.
Endirər önündə oğul-uşağın,
Ağaya səcdə də görər xoş çağın.
Ağa sevindirər təltiflə qulu,
Ona kimliyi yox, əyilmək yolu.
O da qul ömrünə şükürlər edər,
Sanar alçalmağı getməyib hədər.
Çıxarmaz başından qorxu hissini,
Ağlına gətirməz umu-küsünü.
Edər ağasına dua minnəti,
Önündə alçalmaq həyat zinəti.
Qulun müşkül olur başçı olmağı,
İnsantək dünyada xoş sayılmağı.
Cahanda var olan qula dönməsin,
Alçalıb, enməklə heç öyünməsin.
Ondan ağır bəla yoxdu dünyada,
Qul oldun yetişməz kimsə fəryada.
İstər ölkə olsun, istərsə insan,
Qul olan ağaya edilir ehsan!
Heç zaman bu addan qopa bilməyir,
Kimliyin, varlığın tapa bilməyir.
Tutsa da üstünü bərə-bəzəyə,
Vücudu oxşayar quru təzəyə.
Dünya qarşısında enib alçalar,
Yalnız enməyinə ağa əl çalar.
Bu minvalla keçər ömrü, həyatı,
Sanar bu onunçın Tanrı büsatı.
Tapar alçalmaqla xoşbəxtliyini,
Zatən dərk eləməz bədbəxtliyini.
Soyuna pay edər bədbəxtliyindən,
Çox vaxt vəcdə gələr təlxəkliyindən!
Qul olmaq heç kəsə qismət olmasın,
Tarixə bu adla soyun salmasın!
Heç zaman qulların olmur vəfası,
Fəqət, yurd-yuvaya çoxdur cəfası.

Dərdə ürcah edər məmləkətini,
Vətənə geydirər fəlakətini.
Çünki ağa yazır qula həyatı,
Onun əmrindədir günü, saatı.
Qulun əyilməkdən aynımaz başı,
Heç yurdun olmasın qul vətəndaşı!..

***

Zənn etmin qul olub orta əsrdə,
Naləsi boğulub min bir qəsirdə!
Hər dövürün qulu olub - olacaq,
Mənliyin qoruyan hakim qalacaq...
Həyatda belədir hər zaman qayda,
Qulun yeri-yurdu yoxdur dünyada!!!

**24.11.2019**

## YOXLUĞUNA ÜRƏYİMİZ YANACAQ

***Almaniyada haqq dünyasına qovuşmuş qeyrətli Vətən oğlu Mirzə Xəzərin ruhuna***

Doxsanıncı ilin soyuq qış günü...
Yurdumuzun gözdən axan yaş günü,
Xalqımızın köməksiz, çaş-baş günü,
Mirzə Xəzər, səsin oldu ox-bıçaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Səsimizi aləmə car eylədin,
Vətən eşqin qəlbinə yar elədin,
İşğalçının əməlin xar eylədin,
Mirzə Xəzər, Vətən səni anacaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Azərbaycan həqiqətin hayqırdın,
Düşmənləri sözlə candan çox vurdun,
Haqq səsinlə qəfəsmizi tez qırdın,
Mirzə Xəzər, çatdın qəlbdə gur ocaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Hara getdin, Vətən eşqin yaşatdın,
Düşmənlərə qələminlə daş atdın,
Dildən qopan haqq sözünlə yaşıtdın,
Radioda səsin səni sanacaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Yer üzünə Azərbaycan çağlatdın,
İblislərin yolun kəsdin, ağlatdın.
Harayınla yağı yolun bağlatdın,
Hər səsini eşidəndə sınacaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Sən Vətənə haqqı öyən dil idin,
Avropada şəri vuran əl idin,
Qürbətlərdə şan-şərəfli el idin,
Mühacirlik ürəyinə oldu dağ,
Yoxluğuna ürəyimiz yanacaq.

Boğulurdu nəfəsimiz, səsimiz,
Oynanırdı fitvalarla hissimiz,
Yazılmışdı şər əlində qəsdimiz,
Boyanmışdı çirkablara üstümüz,
O günlərdə sənin üzü oldu ağ...
Yoxluğuna ürəyimiz yanacaq.

Mirzə Xəzər, ölümündən sarsıldım,
Qara Yanvar ağrısından asılıdm,
O günlərdən qopan vaya qısıldım,
Nə yaxşı ki, sən var idin, sən ancaq!...
Yoxluğuna ürəyimiz yanacaq.
Yoxluğuna ürəyimiz yanacaq.

**02.02.2020**

## DƏRDİN ÇƏKİLMƏZDİR

Vətən, dərdin çəkilməzdir,
Ölüm düşüm ayağına,
Ürəyimi paramparça
Bölüm, düşüm ayağına.

Şəhidlərin tabutlanır,
Bağır çökür, diz qatlanır,
Min bir yerdən qəlb çatlanır,
Qəm yazılır varağına.

İşğallarda ahar oldun,
Yağılara nahar oldun,
Bağrımızda qəhər oldun,
Qan ələndi çırağına.

Söylə, necə atəşkəsdi?
Hər addımı ölüm, nəhsdi!
Olan-qalan səbri kəsdi,
Bir boylan bax sol-sağına.

Talayanlar kef içində,
Hər addımı səhv içində,
Qəlb inləyir, dil neçində?
Alışıbdı söz ağına!

Bu zülümə son olarmı?,
İşğala min don olarmı?
Nicatına yön olarmı?
Ölüm olsun qoy yağına!

Əzdi səni yoldan ötən,
Yolunda çox ölüb-itən,
Dözək olmur, vallah, Vətən,
Hər gün şəhid sorağına?!

Şadimana öyüd eylə,
Öyüdünlə igid eylə,
Gəl məni son şəhid eylə,
Ölüm düşüm torpağına!!! **07.03.2020**

## NECƏ YAŞAYIRIQ BİZ 7k

Gülləboran olunduq, yenə ocağımızda,
Dərdi daşıyırıq biz.
Bəslədik iblisləri isti qucağımızda,
Necə yaşayırıq biz?

Vətən ahlar içində, fəryada gələni yox,
Qırılıb-çatılırıq, ölümüz var yerdə çox,
Ürəyimiz partlayır, nə dözürük dərdə çox?
Necə yaşayırıq biz?

Kölə babalar bizə, kölə Vətən saxlayıb,
Hər əsrdə min dəfə, ölüb-itən saxlayıb,
«Böyük qardaş» qəzəbli, yalançı eşq laxlayıb,
Necə yaşayırıq biz?

Düşmənin tanımayan, başa yaman kül olur,
Ağlayan ürək üçün, haray salan dil olur,
Millət tökülür çölə, dünyada səfil olur,
Necə yaşayırıq biz?

Azərbaycan, kimdədir sənin torpağın,daşın?!
Niyə dərddən qurtulmır, dincəlməyir heç başın?
Səni qorumaq üçün, nə etdi Vətəndaşın?!
Necə yaşayırıq biz?

Hanı Borçalı, Dərbənd, İrəvan, Göyçə hanı?
Nədən qorumuşuq bəs, tən içində bu canı?
Bürüyüb vücudumu bir illət həyəcanı,
Necə yaşayırıq biz?

İndi də Qarabağa göz dikib qansız yağı,
Dağılır kənd, qəsəbə, sönür yurdun çırağı,
Çatdırın məzarlarda yatanlara sorağı,
Necə yaşayırıq biz?

Təbriz, qaldır başını, bax o taydan, bu taya,
Bax Vətənin qəlbindən dikələn ahu-vaya,
Uçub töküləydi kaş başımıza daş-qaya!
Necə yaşayırıq biz?

Biz nəyin fəxrindəyik, ey dilibir yurddaşlar,
Axı necə sinədən dikəlib qalxır başlar?
Axıdırıq kişili, qadınlı acı yaşlar!!!
Necə yaşayırıq biz?

Köləlik eşqiylə çox ey yanıb yaxılanlar,
Ey rusun ayağına qul təki yıxılanlar,
Bəsdir, sizi qorxutdu ayı donlu xoxanlar,
Necə yaşayırıq biz?

Hanı atlar üstündə qılınc çalan dədələr?
Qalxıb qəbirlərindən bağrımızı didələr,
Hanı başı papağlı, hanı Vətəndidələr?
Necə yaşayırıq biz?

Şadimanı dilindən durun çəkin çarmıxa,
Ya mən doğulmayaydım, ya ruhum çıxsın yoxa,
İşğala dözmək olmur, axı göz baxa-baxa,
Necə yaşayırıq biz?
Necə yaşayırıq biz?

**17.03.1990**

# NƏZM HEKAYƏTLƏR

## TAĞAYIM

**«Salam olsun şövkətüzə, elüzə»**

***Şəhriyar.***

### I HİSSƏ

Səndə qalıb uşaqlığın illəri,
Əndirmənin ilan mələr çölləri,
Yaşıdların şirin-şəkər dilləri,
Qızlar gəlsin bulağına, Tağayım,
Səsim yetsin qulağına, Tağayım.

Şən açılan sabahımın özüsən,
Mənim üçün bu dünyanın üzüsən,
Dodağımdan qopan yurdum sözüsən,
Çiçəklərdən tül toxuyan, Tağayım,
Gecə-gündüz gül qoxuyan, Tağayım.

Anam Xəzər tellərini hörəndə,
Səhər şehin bağ-bağçaya sərəndə,
Üzümündən, əncirindən dərəndə,
Dad qalardı dilimizdə, Tağayım,
Şirələnmiş əlimizdə, Tağayım.

Gilavarın arxasınca uçardıq,
Çay aşağı dəli kimi qaçardıq,
Qayalara qayadan yol açardıq,
Göy Xəzərdən gün qalxardı, Tağayım,
Gilgilçayı lal axardı, Tağayım.

Asmakörpü çay üstündə durardı,
Qızmar Günəş başımıza vurardı,
Körpə qızlar gəlin-evcik qurardı,
Körpü üstə oynayardıq, Tağayım,
Qarışqatək qaynayardıq, Tağayım.

Gün çıxanda adamların hay-hoyu,
Ötürərdi heyvanları gözboyu,
«Kəndyeri»nə ot çıxardı dizboyu,
Biz də quzu otarardıq, Tağayım,
İsti düşdü yatırardıq, Tağayım.

Hərə bir gün çobanlığı dadanda,
Al səhərin gül havasın udanda,
Quşlar nəğmə oxuyardı hər yanda,
Gün doğardı canımızda, Tağayım,
Alışardı qanımız da, Tağayım.

Çıraqqala dumanlardan çıxanda,
Məsud, məğrur bizə tərəf baxanda,
Uzaqlarda qəfil şimşək çaxanda,
Biz də qorxub qaçışardıq, Tağayım,
Kəpənəktək uçuşardıq, Tağayım.

Bilməz idik xəstəlik nə, mərəz nə?
Dava-dalaş, umu-küsü, qərəz nə?
Dürməclərdik şor-lavaşı, çərəz nə?
Göz olardı el nəzəri, Tağayım,
O illərin yox bənzəri, Tağayım.

Bir zamanlar sellər dağdan gələrdi,
Gilgilçayı kəndi iki bölərdi,
Suya düşən qoyun-quzu mələrdi,
Sel bilməzdi bağça-bostan, Tağayım,
Ötənlərin özü dastan, Tağayım.

Elin ağzı kəndi belə öyərdi,
«Yuxarıbaş », « Aşağıbaş » deyərdi,
Novruz oldu, bir-birinə dəyərdi,
Gur tonqallar alışardı, Tağayım,
Uşaq, böyük yarışardı, Tağayım.

Ətirliydi kəndin gözəl yazları,
Alyanaqlı, ucaboylu qızları,
Yandırardı oğlanları nazları,
Coşdurardı diləkləri, Tağayım,
Oxşayardı ürəkləri, Tağayım.

Uşaqlığım zamanımın qoynunda,
Taleyimiz fələk qoyan qanunda,
Mat qalmalı röyaların oynunda,
Ram edərdi qorxuları, Tağayım,
Şirin-şəkər yuxuları, Tağayım.

Qız-gəlinlər bulaq üstə gələrdi,
Dərdi-sərin bir-biriylə bölərdi,
Xısın-xısın pıçıldaşıb gülərdi,
Beş addımdı bulaq bizə, Tağayım,
Səs dolardı evimizə, Tağayım.

Anam səhər işə-gücə qaçardı,
Qapımızı ana nənəm açardı,
«Bala» deyib bizi eşqlə qucardı,
«Nənə qurban» kəlməsiylə, Tağayım,
Sevinərdik gəlməsiylə, Tağayım.

Bəy xanımı Səfurənin odundan,
Heç doymadım sözlərinin dadından,
Oğul dağlı loğman-şair qadından,
Bayatılar dinləmişəm, Tağayım,
Dinlədikcə inləmişəm, Tağayım.

İslam əmi muğamatı xoşlardı,
Tarın səsi bəbəklərin yaşlardı,
O yazdığı şeirlərlə huşlardı,
Nura həsrət gözləriylə, Tağayım,
Çox yanıqlı sözləriylə, Tağayım.

İlk müəllim, bizə Sabir dayımız,
Dərsi bir gün bilməsəydik vayımız,
Döyülərdik qalmaz idi hayımız,
Dərsdən evə dönməz idik, Tağayım,
Necə həlim, dinməz idik, Tağayım?

Evə gəldim taxçamıza çıxardım,
Tapşırılan dərslərimə baxardım,
Şeir oldu elə bərkdən oxardım,
Lap ürəkdən alışardım, Tağayım,
Öz səsimlə yarışardım, Tağayım.

O Mənsurə anamın can kəlməsi,
Tikəsini bizim ilə bölməsi,
O Gülsabah bibimin gənc ölməsi,
Onda gördüm fələk üzün, Tağayım,
Qohumların yaşlı gözün, Tağayım.

Hacıbaba qardaşımın zəhimi,
Dərs zamanı müəllimlik fəhimi,
Uşaqlara hərdən qəfil rəhimi –
Keçənlərdən xoş xatirə, Tağayım,
Tarix olub hər sətirə, Tağayım.

Ağabala atamın mərd ərliyi,
Anamızla saf məhəbbət birliyi,
Atalığı, evdarlığı, dirliyi,
Bir örnəkdir bu günlərə, Tağayım,
Bugünki toy-düyünlərə, Tağayım.

Nə düşərdi tərs Fərhadın beyninə?
Təzə paltar geyinməzdi əyninə,
Pis gələrdi onun uşaq eyninə,
Qurban olum cəfasına, Tağayım,
Qardaşımın vəfasına, Tağayım.

Xanimənin dodağında gülüşü,
Gül bacımın o nazənin yerişi,
Sehir idi başdan-başa hər işi,
Çox almısan qadasını, Tağayım,
Canlar üzən ədasını, Tağayım.

Mirvarinin şirin-şəkər yeməsi,
Bişmişləri yeməyəcəm deməsi,
Dür bacımın hələ özün öyməsi,
Dəyməz idi heç xətirə, Tağayım,
Ötənlərdən bir xatirə, Tağayım.

Heyran idim Mətanətin nazına,
Qardaşımın yeddi gözəl qızına,
Mən nə deyim, fələk hər kəc yazına?
Qəribliyə düşdü canım, Tağayım,
Sənlə keçdi ən xoş anım, Tağayım.

Gül anamın cehiz saxsı nehrəsi,
Gəlinimiz Minanın ay çöhrəsi,
Xanımana nənəmin yun cəhrəsi –
Hanalarda çiçəklərdi, Tağayım,
Xalılarda gerçəklərdi, Tağayım.

Oğlanların çırtma vurub oxması,
Uşaqların dambacadan qorxması,
Qız-gəlinin çal-çəpərdən baxması,
Dil-dodağda noğullaşdı, Tağayım,
Xatirələr nağıllaşdı, Tağayım.

Səbirənin hər sözünün ballığı,
Gəlnimizin böyük-kiçik hallığı,
Kənd qızına xas üzünün allığı,
Bir səadət bağışlardı, Tağayım,
Nə müqəddəs baxışlardı, Tağayım?

Neçə-neçə gəlinin dul qalması,
Qarıların yaslarda saç yolması,
Ağacanın tək dam altda olması,
İranın fars, qərib oğlu, Tağayım,
Bəxti kimi yolu bağlı, Tağayım.

Toydan qabaq qızların cəm olması,
Yunu didib yorğan döşək salması,
Kəndimizin bulaması, dolması,
Ağızlarda dada döndü, Tağayım,
Qohumlar da yada döndü, Tağayım.

O Cəmilə nənə olan somiyə,
Tanış idi sadəliklə hamıyə,
Pişikləri eyləyərək hamiyə,
Tən bölərdi payını da, Tağayım,
Çoxaldardı sayını da, Tağayım.

Kənd məscidi ağzı bağlı olandan,
İmanımız avazıyıb solandan,
Cavanların sərxoş olub qalandan,
Hey boşaldı tabaqların, Tağayım,
Nə yaxşıydı qabaqların, Tağayım?!..

Şəfiqənin qəfil gələn ölümü,
Zalım fələk eləyəndə zülümü,
Gördüm ağlar məzar üstə elimi,
Yazıq bibim şamtək söndü, Tağayım,
Göz yaşımız selə döndü, Tağayım.

Xalam oğlu gənc Teyyubun vəfatı,
Cavan ikən nakam olan həyatı,
Bu fələyin qara gələn saatı,
Aldı Güllü bacısını, Tağayım,
Verdi bəxtin acısını, Tağayım.

On dörd yaşlı canım xəstə düşəndə,
Ürəyimi yaralıyıb deşəndə,
Zalım əcəl yatağımı eşəndə,
Əzrayılın üzün gördüm, Tağayım,
Başım üstə özün gördüm, Tağayım.

Qazı baba kənddən küsüb gedəndə,
Təpə üstə dam salıb yurd edəndə,
Qocalığı, rəhmətliyi güdəndə,
Onda bildim dünya fani, Tağayım,
Hər can üstə ömür ani, Tağayım.

Qarıların yayma-lavaş yayardı,
Qoşalayıb sonra cüt-cüt sayardı,
Kənddə hərə bir ayama qoyardı,
Ağızlara yaraşardı, Tağayım,
Dildən-dilə dolaşardı, Tağayım.

Dəliqanlı cavanların dəlliyi,
Qocaların çalmaları, belliyi,
Toyda, yasda adamların elliyi,
Ev də evə həyan idi, Tağayım,
Bir-birini sayan idi, Tağayım.

Sərincimiz südlə dolub-daşanda,
Ala inək çöl eşqiylə coşanda,
Süd ocağda qazanlardan aşanda,
Anam bizə söylənərdi, Tağayım,
Sonra gülüb əylənərdi, Tağayım.

Bəzənəndə toyxanalar əl-əlvan,
Nüsü dayı olardı cəld, pəhləvan,
Güləşərdi güləşçitək çox rəvan,
Zillənərdi zurna səsi, Tağayım,
Zurnaçının xoş nəfəsi, Tağayım.

Gəlin köçən qızların naz satardı,
Başlarına al örtüklər atardı,
Qayınata belə kəmər çatardı,
Gəlin üzün gizlədərdi, Tağayım,
Bəy evini gözlədərdi, Tağayım...

Novruzgülü torpaq altdan çıxanda,
Buludların bahar gözün sıxanda,
Uşaq ikən mən də dolub baxanda,
Alışardım yellər ilə, Tağayım,
Xoş, müqəddəs illər ilə, Tağayım.

Bayram gəldi elin pilov asmağı,
Torba atıb qapıları pusmağı,
Çərşənbədə damdan qulaq asmağı,
Sancılıb qan yaddaşıma, Tağayım,
Dönüb ürək sirdaşıma, Tağayım.

Aman Allah, elim, obam qanımda,
Ocağımın odu hələ canımda,
Kəndin özü röyalarda yanımda,
Qoynunu aç övladına, Tağayım,
Sal məni də bir yadına, Tağayım.

***24-25.03.1998***

## İKİNCİ HİSSƏ

Salırsansa əgər məni yadına,
Yaddaşını əylə, gətir dadına,
Baş əyirəm pak, müqəddəs adına,
Yansın hər an ocaqların, Tağayım,
Görməyəsən qəm dağların, Tağayım.

Həyacanla qorxulara gəlmişəm,
Şirin-şəkər yuxulara gəlmişəm,
Ətir saçan qoxulara gəlmişəm,
İlhamıma aç yuvanı, Tağayım,
Ciyərimə səp havanı, Tağayım.

Təb xalısın çalarlara tutmuşam,
Yaddaşımda boyaların qatmışam,
Xatiratı can mülkünə çatmışam,
Çıxmışam söz pişvazına, Tağayım,
Qələmimin döz nazına, Tağayım.

Keçmişini birər-birər izlərəm,
Zəmanənin yoxuşların düzlərəm,
Astarına üz tutaram, üzlərəm,
Vaxt atının könlün allam, Tağayım,
Ötənlərə nəzər sallam, Tağayım.

Bəy adımız tarixlərə köçdülər,
Gədə-güdə qanımızı içdilər,
Varımızın çəkisini ölçdülər,
Sən bunlara şahid oldun, Tağayım,
Hamı üçün vahid oldun, Tağayım.

Kərim bəyin iki oğlu var idi,
Hacıağa, Ağabala car idi,
Ad-sanları el-obaya yar idi,
Bu şöhrəti sən də gördün, Tağayım,
Sərvətinin barın dərdin, Tağayım.

Hacıağa bəyliyin bar-bəhəri,
Yar-yoldaşı Qubanın can gövhəri,
Qonaqlıqda içirtdilər zəhəri,
Öldürdülər bəy kişini, Tağayım,
Vay etdilər gərdişini, Tağayım.

Bəy xanımı qızlarını götürdü,
Özlərini Quba xana yetirdi,
İzlərini düşmənləri itirdi,
Özün gördün bu ağrını, Tağayım,
Sən bilirsən hər doğrunu, Tağayım.

Ağabala oğlu Məmməd babamdı,
Ondan qalan bizə palçıq, gil damdı,
Dünya özü ağı dolu bir camdı,
Şirini az, zəhəri çox, Tağayım.
Kim deyər ki, heç dərdim yox, Tağayım?!

Ata babam bu dərdlərlə göyərdi,
Pıçıltıyla bəy adını öyərdi,
Dönə-dönə baisləri söyərdi,
Keçmişiylə çağlayardı, Tağayım,
Bəxtin haqqa bağlayardı, Tağayım.

Mən babamın heç üzünü görmədim,
Nəvələrə can sözünü görmədim,
Adı qaldı, bir özünü görmədim,
Zindanlara düşdü canı, Tağayım,
Əzablardan dondu qanı, Tağayım.

Yaddaşının tarixini əylədi,
Atam mənə yana-yana söylədi,
Zalım zaman bu adları neylədi?
Çox susmusan bu sorğuma, Tağayım,
Olan olub, sən ağrıma, Tağayım.

Əzizlərim bu dünyadan köçdülər,
Əzrayılın zəhər suyun içdilər,
Əbədilik o dünyanı seçdilər,
Sən də buna durub baxdın, Tağayım,
Ürəyimi yaman yaxdın, Tağayım.

Xiffətlərdən bağırları yarıldı,
Bəy babamın uşaqları qırıldı,
Bədənləri məzarlara sarıldı,
Bu dərdləri sən də bildin, Tağayım,
Gözlərinin yaşın sildin, Tağayım.

Keçmişinə gedib çıxan köküm var,
Bu ölçüdə dağdan ağır çəkim var,
Tarix kimi məlhəm edən həkim var,
Bu həkimin sözü dərman, Tağayım,
Gec-tez haqqa verir fərman, Tağayım.

Qocaların ölüb getdi qalmadı,
Heç birisi bu günlərə qalmadı,
Heç onlardan dilim soraq almadı,
Keçmişləri birər-birər, Tağayım,
Unutqanlıq haqqı gərər, Tağayım.

On səkkizdə Vətən zəfər çalanda,
İstiqlalı al qanıyla alanda,
Pak, üç rəngli bayrağımız olanda,
Bəyli, xanlı bayram etdin, Tağayım,
İyirmüç ay kama yetdin, Tağayım.

Sonra gəldi, bolşevikin havası,
Erməninin müsəlmanla davası,
Dağıdıldı el-obanın yuvası,
Qana döndü çöllərimiz, Tağayım,
Qara geydi ellərimiz, Tağayım.

Ruslar gəlib, qanımıza susanda,
Ermənilər yurdumuzu basanda.
Dağda, düzdə kolu-kosu pusanda,
Yağı qəlbdə yara açdı, Tağayım,
Arvad, uşaq kənddən qaçdı, Tağayım.

Nənəm çaşıb körpəsini atıbmış,
Özün kənddən qaçanlara qatıbmış,
Məmləkətin qara bəxti yatıbmış,
Qarı belə danışardı, Tağayım,
Sonra halı qarışardı, Tağayım.

Xanımana nənəm türkü öyərdi,
Ermənin adı gəldi, söyərdi,
Qaşlarını düyünləyib əyərdi,
Balasını haylayardı, Tağayım,
Yağıları vaylayardı, Tağayım.

Qocaların keçmişlərə varardı,
Kərim, Qasım, Sücəddin bəy arardı,
Deyərdilər, başda bəylər durardı,
Böyük-kiçik bilinərdi, Tağayım,
Yaşlı gözlər silinərdi, Tağayım.

Kərim bəyin ocağının oduyam,
Harda olsam elə onun adıyam,
Torpağının mən də ağız dadıyam,
Ucalaram şərəfinlə, Tağayım,
Öc alaram sələfinlə, Tağayım.

Sonuncu bəy – Hüseynalı əmimiz,
Bəylik getdi, soldu tale zəmimiz,
Gədələrə qaldı büsat gəmimiz,
Ev-eşiyi taladılar, Tağayım,
Qazanları yaladılar, Tağayım.

Səfurən də bəy ərinə ağlardı,
Xanımlığın yada salıb çağlardı,
Hüseynağa ürəyini dağlardı,
Yas tutardı balasına, Tağayım,
Ocağının qalasına, Tağayım.

Hüseynalı körpüsündən keçəndə,
Keçib kəndin evlərini seçəndə,
Yol uzunu gül-çiçəkdən biçəndə,
Oxşayardın üz-gözümü Tağayım,
Qəlbə məlhəm od-közümü Tağayım.

Seyid Camal ağanın pak məzarı,
Nəzir etsən apardı azarı,
Azalardı sinələrin ah-zarı,
Qəbir evi nurla dolsun, Tağayım,
Ruhu yurda məlhəm olsun, Tağayım.

Hər Gülsurə bibi kəndə gələndə,
Anasıyla dərdlərini böləndə,
Zemfirası, cavan qızı öləndə,
Dərd bürüdü ürəyini, Tağayım,
Yıxdı könül dirəyini, Tağayım.

Hacıağa əmimin bəy görnüşü,
El içində ağayana yerişi,
Bu fələyin zalımanə gərdişi,
Etdi onu oğul dağlı, Tağayım,
Heç qalmasın qapı bağlı, Tağayım.

O rəhmətlik əmim məni aparmış,
Körpəlikdə xəstəlikdən qoparmış,
Gəlməsəydi, təni məzar taparmış,
Kəsdiribmiş yanımı da, Tağayım,
Xilas etmiş canmımı da, Tağayım.

Deyirlər ki, müharibə başladı,
Başlayanda hər qapını daşladı,
Anaların gözün qanla yaşladı,
Öldü getdi cavanların Tağayım,
Boş qaldı çox ünvanların, Tağayım.

Papaqlılar evlərindən getdilər,
Qan-qadalı cəbhələrə yetdilər,
Arvad-uşaq necə fəğan etdilər?!
Qatı oldu dumanların, Tağayım,
Qanlı gəldi zamanların, Tağayım.

Ata babam Məmmədi də tutdular,
Tutub elə zindanlara atdılar,
Niyə adın xainlərə qatdılar?
Xəstə gəldi, evdə öldü, Tağayım,
Əzrayıl da üzə güldü, Tağayım.

Qarı, qoca hey Hitleri söyürdü,
Qara xəbər hər qapını döyürdü,
Zalım ölüm boy-buxunun öyürdü,
Çox üyütdü mərdlərini, Tağayım,
Çox artırdı dərdlərini, Tağayım.

O vaxt rusun torpağıyçın öldülər,
Tikələrin onlarla tən böldülər,
Evlərinə yüzdən biri gəldilər,
Sitalinçin baş verdilər, Tağayım,
Gözlərindən yaş verdilər, Tağayım.

Anam deyir, aclıq kəsdi amanı,
Elin çıxdı ərşə ahı-amanı,
Bəhram dayı müharibə zamanı,
Neçə aca çörək verib, Tağayım,
Elə ürək-dirək verib, Tağayım.

Kənddə çoxu acından qan qusurdu,
Canavarlar ev-ev qapı pusurdu!
Arvad-uşaq qorxusundan susurdu,
Ot otlardı günlər ilə, Tağayım,
Dərd gələrdi ildən-ilə, Tağayım.

Kənd yoluyla ana, bala gedəndə,
Ac canavar qəfil  hücum edəndə,
Sinələrin parçalayıb didəndə,
Bu dərd dildə ağı oldu, Tağayım,
Elin sinə dağı oldu, Tağayım.

Kənd məscidin etdin taxıl anbarı,
Doldu ora neçə illər dən-darı,
Yıxdı bizi İlahinin ah-zarı,
Döydük yasda dizimizə, Tağayım,
Heç gəlmədik özümüzə, Tağayım.

Var əlində İlahinin əsası,
Alır bizdən günbəgündən qisası,
Babı olduq, vallah, sözün qısası,
Açılmadı din qapımız, Tağayım,
Çox qırıldı bəxt sapımız, Tağayım.

Müslüm əmi qızılcayla çarpışdı,
Yandı bədən xəstəlikdən alışdı,
Qızdırmadan gecə halı qarışdı,
Həkim, dərman tapılmadı, Tağayım,
Öldü dərdi çapılmadı, Tağayım.

Meyrənsənin ürəyin qəm böləndə,
Ata nənəm damdan düşüb öləndə,
Atam, əmim yetimliyi biləndə,
Ana deyib haray saldı, Tağayım,
Evlə dolu yetim qaldı, Tağayım!

Tək, köməksiz atam quzu otarmış,
Samanlıqda quzularla yatarmış,
Qurd özünü sürü üstə atarmış,
Canavarı qovlayarmış, Tağayım.
Dəyənəylə hovlayarmış, Tağayım,

Ərsiz qalan gəlinlərin ağladı,
Cavan ikən başa qara bağladı,
Qanlı savaş qapıları bağladı,
İgidləri aldı qaçdı, Tağayım,
Eli dərdə saldı qaçdı, Tağayım.

Cavanların cəbhələrə getdilər,
Gedib orda yoxa çıxıb, itdilər,
Ruhlarıyla obamıza yetdilər –
Dolandılar yuxularda, Tağayım,
Ahın batdı qorxularda, Tağayım.

O illərin qorxusundan çıxmadıq,
Sinəmizdə qorxu hovun yıxmadıq,
Qibləmizə, Tanrımıza baxmadıq,
Sən də güldün ağlımıza, Tağayım,
Tükürpədən nağlımıza, Tağayım.

İndi Şuşa ermənінin əsiri,
Qurub yağı Qarabağda qəsiri,
Özün söylə, ey ocağım, bu sirri?
El yolunda hanı ölən, Tağayım?
Fəğanına varmı gələn, Tağayım?

Kəndimizin qutab, küftə-bozbaşı,
Qazanların bəzəyiydi dəm aşı,
Süfrələrin sayılardı lap başı,
Zəfəranın ətirliydi, Tağayım,
Qonaqların xətirliydi, Tağayım.

Yaymaların üstə bıçaq çəkərdik,
Kəsdiyimiz yerlərə ət tökərdik,
Düşbərəni xırda-xırda bükərdik,
Su qazanda qaynayardı, Tağayım,
Düşbərələr oynayardı, Tağayım.

Şorqoğalı, şəkərbura, paxlava,
Səmənidən hazırlanan bərk halva,
Dişimizlə eləyərdi cəng, dava,
Ovcumuzda sıxılardı, Tağayım,
Əlimizə yaxılardı, Tağayım.

Anam tabaq içrə xəmir salardı,
Çırpı yığıb, təndirdə od qalardı,
Suyu səpib, odun közün alardı,
Kündələri tez yapardı, Tağayım,
Üz-gözünü od qapardı, Tağayım.

Yayılardı təndirin xoş ətiri,
Anaciyim xoş tutardı xətiri,
Yana-yana hər yazdıqca sətiri,
Ürək elə alovlanır, Tağayım,
Atəş düşür, od qovlanır, Tağayım.

Kəndə köhnə qəbirstanlıq yar idi,
Albanların xaç məzarı var idi,
Hər qəbirin daşı bir ah-zar idi,
İtib-batdı keçmişimiz, Tağayım,
Belə oldu hər işimiz, Tağayım.

Əncir, üzüm bağları səf durardı,
Hərə orda özünə ev qurardı,
Doşabları küpələrə vurardı,
Mürəbbəsi, irçalı bol, Tağayım,
Oradan da dənizə yol, Tağayım.

Sövet gəldi, hamısını yıxdılar,
Bu bağların axırına çıxdılar,
Öz elində xalqa qultək baxdılar,
Çox dağıldı xanimanlar, Tağayım,
Qayıtmaz ki, keçən anlar, Tağayım?

Kənddən qıraq şimalda bir sədd vardı,
Səddin burnun dəniz suyu ovardı,
Quzuları səddə külək qovardı,
Biz də qorxub hürküşərdik, Tağayım,
Çöldə, düzdə bərkişərdik, Tağayım.

Gilgilçayı dəli-dolu axardı,
Yaz zamanı bərəsini yıxardı,
Şahə qalxıb məcrasından çıxardı,
Uçurdardı çal-çəpəri, Tağayım,
Çay da elə şıltaq pəri, Tağayım.

Sel gələndə döndü nağıl divinə,
Qaçdıq-getdik Gəncalının evinə,
Yazdım bunu xatirələr sevinə,
Çay canlarla güləşirdi, Tağayım,
Uşaq-böyük əlləşirdi, Tağayım.

Kənd yerində Tuğay kəndi olubmuş,
Hansı rüzgar tellərini yolubmuş?
Bəlkə yağı, bəlkə rüzgar dolubmuş,
Adı qalıb, özü yoxdu, Tağayım,
Ocağı yox, közü yoxdu, Tağayım.

Kol dibindən bənövşələr açardı,
Çöllərində dovşanların qaçardı,
Səmalarda şahinlərin uçardı,
Buludların axışardı, Tağayım,
Bir-biriylə baxışardı, Tağayım.

O şıdırğı yağışların yağardı,
Gecələrə pərvanə Ay doğardı,
Zülmətinin boğazından boğardı,
Ulduzların gözləşərdi, Tağayım,
Öz dilində sözləşərdi, Tağayım.

Çəmin içi lil sularla dolardı,
Camışların özün orda bulardı,
Axşam çağı hamı çaş-baş qalardı,
Qamışlığa hay düşərdi, Tağayım,
Camışlara vay düşərdi, Tağayım.

Məzarların çox üst-üstə qazıldı,
Hər məzara bir baş daşı yazıldı,
Tarixinin yol-irizi azıldı,
Ölənlərin unuduldu, Tağayım,
Hər ölənçin qəm uduldu, Tağayım.

Qarıların xəşil-quymaq çalardı,
Səmənini döyüb halva salardı,
Xır-xingalı, əriştəsi qalardı –
Gündən-günə, aydan-aya, Tağayım,
Xörəklərin gəlməz saya, Tağayım.

Rəfimizə çini kasa düzərdik,
Bir otağı qonaq üçün bəzərdik,
Dam-daşında səliqəlik gəzərdik,
Həyət-baca kürünərdi, Tağayım,
Hər şey təzə görünərdi, Tağayım.

Nov daşında üzümləri əzərdik,
Sonra onu tavalara süzərdik,
Od üstündə irçallarla közərdik,
Mürəbbələr qaldı qışa, Tağayım,
Küpələrdən daşa-daşa, Tağayım.

İnək doğdu anam ağuz sağardı,
Qazanları ocaq üstə yığardı,
Kələkəsi hər kasaya sığardı,
Pendirtəki kəsilərdi, Tağayım,
Kim yeməsə küsülərdi, Tağayım.

Zülmət qaçıb səhər nəfəs dərəndə,
Anam südü ləyənlərə sərəndə,
Günəş qalxıb pəncərəni gərəndə,
İşə-gücə qaçışardıq, Tağayım,
Arıtəki uçuşardıq, Tağayım.

Geyinərdik al-qırmızı donları,
İsidərdi bu təzəlik canları,
Yaddaşımda iz qoyan xoş anları,
Heç unuda bilməyirəm, Tağayım,
O zamantək gülməyirəm, Tağayım.

Qonum-qonşu evimizə gələrdi,
Dərdlərini anam ilə bölərdi,
Bir-biriylə pıçıldaşıb gülərdi,
Boy-buxunlu gözəllərin, Tağayım,
Harda qaldı o illərin, Tağayım?

Xalidənin gənc qız ikən ölməsi,
Əzrayılın belə vaxtsız gəlməsi,
Anasının, oy balam, vay kəlməsi!
Tük ürpətdi başımızda, Tağayım,
Sel oldu göz yaşımızda, Tağayım.

Yay gələndə Xəzərə üz tutardıq,
Özümüzü gur sulara atardıq,
İsti qumlar üstündəcə yatardıq,
Heç nə çatmaz ötənlərə, Tağayım,
Xəyalımda bitənlərə, Tağayım.

Şən-sevdalı günlərimiz ötüşdü,
Çox yaralar ürəklərdə bitişdi,
Keçən ömrün qocalığı yetişdi,
Qəbirlərin gülzarlandı, Tağayım,
Ahılların məzarlandı, Tağayım.

Ziniyət xalam uca boylu bir xanım,
Bağlı idi tək qızıyla xoş anım,
O Balaca xanımı qəlb mehmanım,
Əlim yetmir çoxdan ona, Tağayım,
Əhvalıma gəlib yana, Tağayım.

Xanımbacı bibimi qəm yoxladı,
Oğül dərdi ürəyini oxladı,
Gözün yumdu, əbədilik yuxladı,
Rəhmətliyi dərd apardı, Tağayım,
Bu dünyadan tez qopardı, Tağayım.

Atam heç vaxt keçirməzdi namazı,
Divarları dolaşardı avazı,
Ürəklərə yayılardı nəvası,
Diləyərdi cana sağlıq, Tağayım,
Örnək idi dinə bağlıq, Tağayım.

Narınc xala çərəkəni alardı,
Avazıyla məclisə səs salardı,
Hüzrə gələn qadınların dolardı,
Bir səs ilə ağlaşardı, Tağayım,
Ruhlar ilə bağlaşardı, Tağayım.

Gecə sıxıb köynəyini sərərdi,
Ulduzları göydən bir-bir dərərdi,
Ay zülmətin qollarını gərərdi,
Baş balışa atılardı, Tağayım,
Səhərədək yatılardı, Tağayım.

Nehrəmizə anam qatıq tökərdi,
Ağzın bərk-bərk sələ ilə bükərdi,
Çalxalayıb yağın üzə çəkərdi,
Yırğalayıb oldurardı, Tağayım,
Yağ bardağın doldurardı, Tağayım.

Quzuları qoyunlardan alanda,
Haraylayıb küzülərə salanda,
Qarıların süddən qatıq çalanda,
Bıçaq vursan kəsilməzdi, Tağayım,
Heç üstündə əsilməzdi, Tağayım.

Deyirlər ki, quleybanı gələrdi,
Qap-bacanı döyüb üzə gülərdi,
Qız-gəlinlər qorxusundan ölərdi,
Tükürpədən nağılları, Tağayım,
Ram edərdi ağılları, Tağayım.

Oğlanların çilingağac oynardı,
Nərlər kimi qaçışardı, qaynardı,
Anaların başı işdən aynardı,
Balaların səsləyərdi, Tağayım,
Ürəkdə eşq bəsləyərdi, Tağayım.

Gəncliyimiz ötdü, keçdi neylədik?
Sevdamıza canı qurban eylədik,
Bir-birinə can deyib, can söylədik,
Yaman ötdü illərimiz, Tağayım,
Yetişmədi dillərimiz, Tağayım.

Keçmişlərə ağı deyən neyimsən,
Ürəyimdə taqətimsən, heyimsən,
Xəyalları sərxoş edən meyimsən,
Qoy dolanım mən başına, Tağayım,
Qurban olum dam-daşına, Tağayım.

Anam sacı ocaq üstə qoyardı,
Kündələri əl içində oyardı,
Lavaşının iyin ərşə yayardı,
Unutmaram ocağını, Tağayım,
Könlə məlhəm qucağını, Tağayım.

Bişən zaman isti təndir çörəyi,
Ətri ilə məst edərdi ürəyi,
Qızarardı qadınların biləyi,
Yanaqları al olardı, Tağayım,
Bişən çörək bal olardı, Tağayım.

Təndir üstü qarılarla dolardı,
Bir-birinə sözlə həyan olardı,
Çörəklərin ətri günlə qalardı,
Nemət idi qarnımıza, Tağayım.
İy dolardı burnumuza, Tağayım,

Sübh gözünü açar-açmaz durardıq,
Səsimizi başımıza vurardıq,
Hörükləri ufa-ufla darardıq,
Tez məktəbə yollanardıq, Tağayım,
Gündəliklə qollanardıq, Tağayım.

Ətirənin, Rəhilənin gülüşü,
Həlimənin, Şükufənin yerişi,
Elmiranın möcüzəydi hər işi,
Nəğiyməydi can sirdaşım, Tağayım,
İndi kimlə pıçıldaşım, Tağayım?

Qocaların onda hələ sağ idi,
Məktəbimiz bizə pak ocaq idi,
Hamımızın kef-damağı çağ idi,
Uşaqlığım şirin-şəkər, Tağayım,
Yuxulara məni çəkər, Tağayım.

Sinifmizin vardı bircə Şakiri,
Oxumağa həvəsliydi fikiri,
Dalaşanda heç yox idi məkiri,
Biliyi də yeddi qatdan, Tağayım,
Niyə çıxmır heçnə yaddan, Tağayım?

Atam axşam gündəliyi açardı,
Beş görəndə sevincindən uçardı,
Dilimizdə kitablar od saçardı,
Elmimizi daşdırardı, Tağayım,
Zirvələri aşdırardı, Tağayım.

Kitabxana uşaqlarla dolardı,
Kitab üstə mərəkələr salardı,
Bir-birinin yenə könlün alardı,
Yamanlığı üşüdərdik, Tağayım,
Can deyib, can eşidərdik, Tağayım.

Bir səadət oxum dəydi daşlara...
Gözüm batdı ahlar boğan yaşlara,
Qar ələnir saça, telə, qaşlara,
Uşaqlığı məndə gəzmə, Tağayım,
Qonaq olsam könlü üzmə, Tağayım.

Əqrəb qaçır suya həsrət sel kimi,
Saatlarım ayrılırlar yel kimi,
Nə var söylə, cana şirin el kimi?
Ürəyimi saldın közə, Tağayım,
Çox açmısan qoynu bizə, Tağayım.

Ayazının şaxtasında donmuşam,
Qış gələndə yay-yazını anmışam,
Sevgilitək mən oduna yanmışam,
İstəyimi gətir yada, Tağayım,
Çox alışır düşən oda, Tağayım.

Məhəbbətin ürəyimdə daşırdı,
Dəli təki dağdan, daşdan aşırdı,
Qövr eləyən yaramı dərd qaşırdı,
Eyləmədin buna çarə, Tağayım,
Sağalmayır demə yarə, Tağayım.

Uzaq düşmüş xatirələr uyudu,
Kirin-kirin yaman məndən soyudu,
Xulyaların nə dərin bir quyudu?
Düşüb qalıb zamanlarım, Tağayım,
Pozulubdu səhmanlarım, Tağayım.

Bədnəzərin yaman gördüm üzünü,
Camışımız vurdu yerə özünü,
Onda bildim kəsərdə el sözünü,
Ahı çıxdı yerə-göyə, Tağayım,
Fəryadını boğdu pəyə, Tağayım.

Yamanların, nisgillərin ağladı,
Ürəyimdə köç salıb, söz bağladı,
Közün atıb bağrım-başın dağladı,
Ötənləri harayladı, Tağayım,
Misra-misra sarayladı, Tağayım.

Seyidriza, qərib Məmməd İrandan,
Ayrılıq da dilə düşür sorandan,
Çalışdılar işdə ala-torandan,
Üzlərinin nisgilləri, Tağayım,
Açılmadı müşgülləri, Tağayım.

Cənub dərdi qəlblərini oxladı,
Ayrılıqlar ürəklərin qoxladı,
Gözlərində həsrətləri yuxladı,
Vətən eşqi olmur talan, Tağayım,
Kimdir onu qəlbdən alan, Tağayım?!

Cahan nənə tez-tez bizə keçərdi,
Anam onla dərdləşib çay içərdi,
Zalım ölüm cana yovuq nə çərdi?
Aldı-qaçdı qocaları, Tağayım,
Qaldı tüstü bacaları, Tağayım.

Səfurəylə Banu uşaq tutardı,
Doğulanla bir somyədə yatardı,
Ursu nənə tez haraya çatardı.
Əsəbləri darılardı, Tağayım,
Nəvələrlə sorulardı, Tağayım.

Fərrux nənə sakit-səssiz gəzərdi,
Qonşuluqda bizi eşqlə süzərdi,
Laylasına şirin-şəkər düzərdi,
Nəvələrin oxşayardı, Tağayım,
Söz özü də baxşa yardı, Tağayım.

Aynisənin kəndə qonaq gəlməsi,
Yun corabda rəngli naxış ilməsi,
Hər milinin öz dilini bilməsi,
Cəhrəsiylə oxunardı, Tağayım,
Barmaqlarla toxunardı, Tağayım.

Mirfeyzulla-Seyidkübra ocağı,
Zəlil Bahar o evdən bir qəm dağı,
Nəzir edən tez tapardı xoş çağı,
Peyğəmbərin nəsilidi, Tağayım,
Müqəddəslər əsilidi, Tağayım.

Səriyyənin, Gülzadanın zəhməti,
Üzlərində mehribanlıq neməti,
Atamızın xalalara hörməti,
Dodağında səslənərdi, Tağayım,
Qəm sozalıb, süslənərdi, Tağayım.

Rübabənin o oğulsuz harayı,
Tək dam altda uğuldayan ah-vayı,
Qurtarmırdı dərdlərinin heç sayı,
Qəmi ərşi qarsıyırdı, Tağayım,
Qəm özü də yansıyırdı, Tağayım.

Həmayılın haray-həşir salması,
Gur səsiylə yaddaşımda qalması,
Örtüyünü düngə vurub çalması,
O, anama əmiqızı, Tağayım,
Söndü getdi bəxt ulduzu, Tağayım.

Əlkiramın qəfil gələn qəm yası,
Yetim qaldı arvadı, üç balası,
Bibim oğlu Paşa oğul qalası,
Tahirənin yaşın gördüm, Tağayım,
Dərdə düşmüş başın gördüm, Tağayım.

Cabir dayım heyvanları döyərdi,
Cəbirliyi xatirimə dəyərdi,
Əsəbləşib it-pişiyi söyərdi,
Mən də ondan yan qaçardım, Tağayım,
Ürəyimə dərd açardım, Tağayım.

Rıza əmi atamın qan qohumu,
Dava etdi ərşə atdı ahımı,
Dodağımda qopartdı gah-gahımı,
Atam ilə yollaşmadı, Tağayım,
Doğma təki ballaşmadı, Tağayım.

Abdullanın çox davada olması,
Almanyada əsir düşüb qalması,
Mehrin bizim kəndimizə salması,
O, almanla rusu söydü, Tağayım,
Ömrü boyu haqqı öydü, Tağayım.

Qaraçöpü yığıb şələ bağlardıq,
Çətin işin sinəsini dağlardıq,
İlan gördük qorxub, hürküb ağlardıq,
Şələ çiyni ağrıdardı, Tağayım,
Ahımızı bağırdardı, Tağayım.

Qaçıb çaya tor torbalar atardıq,
Xırda çapaq balıqları tutardıq,
Quru biyan yığıb ocaq çatardıq,
İsidərdik əlimizi, Tağayım,
His tutardı telimizi, Tağayım.

Sünbülləri kombayınlar biçərdi,
Biçinçilər ayran, qatıq içərdi,
Xəzər üstən günəş dağa keçərdi,
Qız-oğlanlı toplanardıq, Tağayım,
Əkin boyu saplanardıq, Tağayım.

Kəndçilərin bərəkətlə yaşardı,
Zəmilərin dənlə aşıb-daşardı,
Sünbüllərin boyumuzdan aşardı,
Hürkə-hürkə dən yığardıq, Tağayım,
Bir-biriylə tən yığardıq, Tağayım.

Kolanılı Məmmədbağır at üstə,
Qırmancını haylayardı ahəstə,
Qarovulçu peşəsinə lap xəstə,
Bizi atlı qovlayardı, Tağayım,
Dilə tutub tovlayardı, Tağayım.

Kisəmizdə başşağılar daşardı,
Doldurduqca kisələrdən aşardı,
Gözətçinin səsi qızıb coşardı,
Üstümüzə kükrəyərdi, Tağayım,
Kisə beli lap əyərdi, Tağayım.

Şığıyaraq üstümüzü alardı,
Qovub atla kisəmizi çalardı,
Zəhmətimiz gözətçiyə qalardı,
Ot içinə bükülərdik, Tağayım,
Ağlaşaraq əkilərdik, Tağayım,

Uşaqlıq da tezcə gəlib ötüşdü,
Biz böyüdük, gənclik çağı yetişdi,
Bəxtimizə üzümlükdə iş düşdü,
Tale yolum ordan keçdi, Tağayım,
Karvan-karvan ömür köçdü, Tağayım.

Bağlarında meynələrin bol idi,
Qız-gəlinin taleyinə yol idi,
Ağır beldən sızıldayan qol idi,
Zəhmətlərə bürünürdük, Tağayım,
İlan təki sürünürdük, Tağayım.

Məmmədbağır Səliməni yanladı,
Bizim sıra dala qalıb anladı,
Üzün tutub bəy adımı danladı,
Əyilmirsən dedi mənə, Tağayım,
Bu təpkilər nəydi mənə, Tağayım?

Bəy adını başımıza qaxdılar,
Hər addımda bizə qara yaxdılar,
Adımıza eldə ögey baxdılar,
Bu ağrını bizlə çəkdin, Tağayım,
Ocaq yaxan közlə çəkdin, Tağayım.

Qadınların əli suluq atardı,
İşdən sonra belə şələ çatardı,
Qız-gəlinlər şələ altda yatardı,
Bu əzabın özün gördüm, Tağayım,
Hər naqisin üzün gördüm, Tağayım.

Cərgə-cərgə qızlar kətmən vurardı,
Kim yoruldu, nəfəs alıb durardı,
Məmmədbağır o saat vay qurardı,
Şırım açdı bağırımda, Tağayım,
Bunu daddım ağırımda, Tağayım.

Gəlinlərin dözmüb bala salması,
Qəzəblənib bu zülümdən dolması,
Üzlərində gözəlliyin solması,
Ağarardı tellərində, Tağayım,
Əzablıydı illərin də, Tağayım.

Həlmə xala un daşını salardı,
Buğda töküb ondan yarma alardı,
Daşın səsi aləmə səs salardı,
Sıyığından ətir qalıb, Tağayım,
Ürəyimdə xətir qalıb, Tağayım.

İmamilin ağıryana olması,
Xanım kimi xətirləri alması,
Banu ilə birgə günü qalması,
Düşdü elə ağızlara, Tağayım,
Mən də saldım kağızlara, Tağayım.

Qab-qacağı bulaq üstə yuyardıq,
Bir-birini pıçhapıçla duyardıq,
Anamızın gözün yolda qoyardıq,
Uşaqlığa qarışardın, Tağayım,
Könlümüzə sarışardın, Tağayım.

İsmayılın su maşını gələrdi,
Arvadların bəxti üzə gülərdi,
Su üstündə əsəblər də mələrdi,
Vedrələri tez qapardıq, Tağayım,
Uzun yolu su apardıq, Tağayım.

Ağrın keçib ürəyimdən aşardı,
Yaddaşımda xatirələr yaşardı,
Uşaq ikən şadlıqlarım daşardı,
Boy verərdi başım üstən, Tağayım,
Oxşayardın məni pəstdən, Tağayım.

Yay öz köçün gün üstünə çatardı,
El-camaat dam üstündə yatardı,
Gecə oldu yastığa baş atardı,
Xəzər yaman guruldardı, Tağayım,
Fırtınanı gur udardı, Tağayım.

Yağış oldu palçıq damlar damardı,
İşin qoyub hamı dama cumardı,
Ayaq altda çatlar damar-damardı,
İş-gücümüz ötüşməzdi, Tağayım,
Dincliyimiz yetişməzdi, Tağayım.

Axşam anam lampa üstə əsərdi,
Lampamızın piltəsini kəsərdi,
Əl vursaydıq yaman bizdən küsərdi,
İşığımız korlaşardı, Tağayım,
Göz tutulub, kor aşardı, Tağayım.

Dəryazlarla ot biçilib dolardı,
Adamların yabaları olardı,
Həyətlərdə tayaları salardı,
Zəhmət üzdə qırışardı, Tağayım.
İşlər yazda qarışardı, Tağayım,

Zaman ötdü, uşaqların yekəldi,
Sinələrdən min bir qayğı dikəldi,
Gəncliyimiz qapı açdı, tez gəldi,
Saldı bizi cığırlara, Tağayım,
Tale gülməz fağırlara, Tağayım.

Obaşdannan xoruz banı başlardı,
Yatanların qulaqların daşlardı,
Səhər şehi bağ-bağatı yaşlardı,
Qaranlığın içi şərdi, Tağayım,
Sübhümüzə gün düşərdi, Tağayım.

Nöhəddin də al şərabdan içərdi,
Lenini çox söyüb səddi keçərdi,
O da, bir gün bu dünyadan köçərdi,
Sən ki, buna şahid oldun, Tağayım,
Ölənlərə saç da yoldun, Tağayım!...

Zaman elə uçub-gedən quş oldu,
Hər ömürün payızında qış oldu,
Cavan canım qürbətlərə tuş oldu,
Burnumuzun ucu göynər, Tağayım,
Səndən ayrı düşən neynər, Tağayım?

Gəldi, getdi uşağlığın havası,
Sızıltıtək qaldı qəlbdə davası,
Candan çıxmaz heç bir kəsin yuvası,
İyi gələr yellər ilə, Tağayım,
Könlümdəsən illər ilə, Tağayım.

Ev-eşikli oldu bacı-qardaşım,
Dərdlərinə girdi, çapdı çox başım,
Qələm oldu ömürlə can yoldaşım,
Belə yazdı qədər mənə, Tağayım,
Agah etdim bunu sənə, Tağayım.

Ata evdə çox qızların qarıdı,
Ər evində bəxti olan yarıdı,
Ömürmüz də Rəbb əlində darıdı,
Səpdi, biçdi, hissə-hissə, Tağayım,
Tuş olmasın heç kim pisə, Tağayım.

Cavanların vaxt yetəndə toy etdi,
Səadətlə elə, yurda hay etdi,
Sinələrdə sevincləri çay etdi!,
Özün gördün nəş'ələrin, Tağayım,
Canda şadlıq guşələrin, Tağayım!...

İzlərində, cığırında itmədim,
Könlə düşməz haya-hoya getmədim,
Mən bülbüləm, qazlartəki ötmədim,
Sən bilirsən vüqarımı, Tağayım,
Soya olan ilqarımı, Tağayım.

Əzizlərim döndü oldu yad mənə,
Hey verdilər kədər dolu dad mənə,
Bu ömrümü etdilər heç zad mənə,
Hıçqırtılar qəlbdə yatdı, Tağayım,
Yaxşı-yaman, bu həyatdı, Tağayım.

Bir kimsəni təbimtək yar bilmədim,
Ömür ötdü, vaxtını dar bilmədim,
Qələmimi kağıza bar bilmədim,
Misralarım aman etdi, Tağayım,
Bu amanı yaman etdi, Tağayım.

Qönçə-qönçə güllərində ətir var,
İstək olsa, sevgi dolu xətir var,
Şeirlərdə hicran dolu sətir var,
Sən də doğdun xətirlərdən, Tağayım,
Boylanırsan sətirlərdən, Tağayım.

Xıdırzində uca dağlar başında,
Yuyunardı buludun göz yaşında,
Qarıların nəziri dam-daşında,
Boylanardı kəndə sarı, Tağayım,
Yox edərdi ahı-zarı, Tağayım.

Kənd yerinin adı Tuğay, deyildi,
Gözüm açdım Tuğay-Tağay deyildi,
Qocaların dillərində öyüldü,
Adı qalıb, özü hanı, Tağayım?
Kim dağıdıb bu ünvanı, Tağayım?

Ürəyimdə acılarım vay kimi,
Tuşlanıbdı ürəyimə yay kimi,
Yerdən qopub göyə dəyir hay kimi!
Bu hayımı sən də oxu, Tağayım,
Sinəni çək, dəyər oxu, Tağayım!

Sənlə olan günlərim bir yuxudu,
Bu yuxunu tale mənə oxudu,
Burunumda qalan şirin qoxudu,
Xoş qoxudan boylanırsan, Tağayım,
Başım üstə haylanırsan, Tağayım.

İndi mənə daha izzət vermirsən,
Keçənlərtək artıq ləzət vermirsən,
Peymanıma bir yolluq qət vermirsən,
Damağımda qaldı dadın, Tağayım,
Ürəyimdən çıxmır odun, Tağayım.

Gəlin gəldi, ata evim yadlaşdı,
Ötən günlər ağzımızda dadlaşdı,
Ürəyimdə bu ağrılar odlaşdı,
Yad qızının varmış üzü, Tağayım,
Qaçaq saldı evdən bizi, Tağayım.

Günlər zəhər tökür qeylü-qalıma,
Mən yanıram, sən də bir yan halıma,
Qoca anam gözün dikib yoluma...
Bu sinəmdən dur gəl qopar, Tağayım,
Ürəyimi ora apar, Tağayım.

Səsimizi, səmrımizi itirdik,
Çol-çocuğa əmrimizi itirdik,
Sevda dolu ömrümüzü itirdik,
Nə tez ötdü hünər çağı, Tağayım?
Ötən günlər oldu ağı, Tağayım.

Yaz ayının çiçəkləri açdılar,
Ətirləri burnumuzda saçdılar,
Yay gəlməmiş bağ-bağçadan qaçdılar,
Bihuş etdi məni halın, Tağayım,
Bu olaydı qeylü-qalın, Tağayım.

Yaxşılığı ağlatdılar qul kimi,
Etibarı xərclədilər pul kimi,
Rəbb hər ömrü ötüb keçdi yol kimi,
Bizdən qaldı yaxşı-yaman, Tağayım,
Hər kəsə də gülmür iman, Tağayım.

Pak atamın – Ağabalan vəfatı,
Yetimliklə qəmə batan həyatı,
Yaman çapdı Əzrayılın bəd atı,
Aldı qaçdı əzizimi, Tağayım,
Necə bükdü dərd dizimi, Tağayım?!

Atam getdi, şanım getdi əlimdən,
Xoş növraqlı anım getdi əlimdən,
Elə bil ki, canım getdi əlimdən,
Sən ahımın özün gördün, Tağayım,
Ürəyimin közün gördün, Tağayım.

Fələk dərdin heç birisin çözmədi,
Əzabları ürəyimdən üzmədi,
Mənim kimi ata deyib gəzmədi...
Atamlaydı dadın-duzun, Tağayım,
Dərdin ağır, dərdin uzun, Tağayım!

Məşədxanım ata evə gələrdi,
Əzizlərlə hey şadlanıb gülərdi,
Kim deyərdi o da vaxtsız ölərdi...
O atama xalaqızı, Tağayım,
Tez qırıldı könül sazı Tağayım.

Əmim qızı Hüsniyyənin ölümü,
Məyus etdi qara xəbər elimi,
Çox yandırdı ağı deyən dilimi,
Bəy əmimin xanım qızı, Tağayım,
Nə dəhşətli oldu yazı, Tağayım?!

Hər Gülbanı bibim qardaş deyəndə,
Ağrı-acı ürəyini yeyəndə,
Zalım əcəl qəlb qapısın döyəndə,
Bağrım-başı parçalandı, Tağayım,
Gözlərimə qan calandı, Tağayım,

Səkinən də itğilərə dözmədi,
Yazıq bibim ömür köçün sezmədi,
Yığın-yığın ağrıları çözmədi,
Sinəsində qəm daşırdı, Tağayım,
Qürbət eldə can tapşırdı, Tağayım.

Bəy babamın balaları getdilər,
Üzü soyuq məzarlara yetdilər,
Keçən günlər niyə belə ötdülər?
Heç qayıtmaz bir də geri, Tağayım,
Onlar ölü, biz də diri, Tağayım.

Ölənlərin ah-vayla can verəndə,
Zalım əcəl cismidən can dərəndə,
Göz yaşını bəbəklərə sərəndə,
Göy üzünü bulud aldı, Tağayım,
Gözüm yurdda, eldə qaldı, Tağayım.

Atam öldü, ev-eşiyi yad oldu,
Ağzımızda ondan qalan dad oldu,
Qardaşım da, şükür, soya ad oldu,
Bu ad üçün can verərəm, Tağayım,
Damarımdan qan verərəm, Tağayım.

Ata evim çox elədi dərd mənə,
Bu ağrını etmədi namərd mənə,
Ömür ki var, oldu sirli nərd mənə,
Günlərimi zərtək atdı, Tağayım,
Ötənlərlə birgə batdı, Tağayım.

Əzizlərim ürəyimi təklədi,
Könülümü kədər üstə köklədi,
Yəqin istək nəsillədi, köklədi,
Mən də bunu daddım belə, Tağayım,
Xəyallarım döndü yelə, Tağayım.

Gənclərimiz kənddən çıxıb getdilər...
Bəziləri arzulara yetdilər,
Bəziləri arzudan yan ötdülər,
Sən onları qarşıladın, Tağayım,
İstəyini aşıladın, Tağayım.

Deyirlər ki, şəhər ağlı alandı,
Parlaqlığın ürəklərə salandı,
Yurdun eşqi sinələrdə qalandı,
Mən bu eşqi səndə duydum, Tağayım,
Mehrini də qəlbə qoydum, Tağayım.

Sevda dolu günlərimiz ötüşdü,
Könlümüzə gah sevinc gah, qəm düşdü,
Hər anı da başa vurmaq bir işdi,
İşlərimiz çox dolaşdı, Tağayım,
Hicran gəlib başdan aşdı, Tağayım.

Sevdiklərim çox etdilər naz mənə,
Dərdləri bol, sevincləri az mənə,
Qəlbim oldu simi qırıq saz mənə,
Mən bunları sadaladım, Tağayım,
Yaddaşında qalsın adın, Tağayım.

Yaltağlığı, məddahlığı aldılar,
Bir dəb kimi kitablara saldılar,
Ürəklərdə bu adla da qaldılar,
Hər düz sözün xeyrinə çıx, Tağayım,
Təmizliyin seyrinə çıx, Tağayım.

Saldım sənin pak adını kitaba,
Sığışasan haqq tarixlə hesaba,
Zaman bənzər ət doğrayan qəssaba,
Bu ömrümü alıb kəsər, Tağayım,
Mən gedərəm, qalar əsər, Tağayım.

Yolun gedib gələnlərə astana,
İltifat et şagirdinə, ustana,
Çevirdim ki, pak adını dastana,
Bir sənə də qiymət olsun, Tağayım,
Qoy adına hörmət olsun, Tağayım.

Dədə yurdum, atamın od ocağı,
Aç balana ana kimi qucağı,
Göstərməsin Tanrı sənə qəm dağı,
Nağıllaşan, sehirləşən, Tağayım,
Xəyallaşan, seyirləşən, Tağayım.

Bir gələydim, dolanaydım boynuna,
Sığınaydım doğma, isti qoynuna,
Qatışaydım mən uşaqlı oynuna,
Bağ-bağçadan gül üzəydim, Tağayım,
Tellərimə bir düzəydim, Tağayım.

Gəl söyləmə oxumurlar şeiri,
Şeir olub ağılımın seyiri,
Çox deyirlər nədir mənə xeyiri?
Xeyirimi güdməmişəm, Tağayım,
Heç dalınca getməmişəm, Tağayım.

Ömür-günün keçib cana rişəsi,
Uzun yolda ya qəmi, ya nəş'əsi,
İstəyinin qəlbə girib tişəsi,
Ötənləri qoymur yatsın, Tağayım,
Kədərinin adı batsın, Tağayım.

Sinəmdəki acılarım selləndi,
Yelləncəktək ruhi-canım yelləndi,
Xəyallarım birər-birər dilləndi,
Dərd alanda ürəyimi, Tağayım,
Doğdu ilham mələyimi, Tağayım.

Yeddi qurşaq göylərini çalanda,
Buludların qovub yerin alanda,
Gilavarın ovqatında qalanda,
Mehlərini oxşayardı, Tağayım,
Füsnükarlıq baxşa yardı, Tağayım.

Sevda yolun çəməninin içiydi,
Uşaq könlüm bir dəlicə keçiydi,
Zamanımın yaman biçə-biçiydi,
Ocağında keçdi ömür, Tağayım,
Doğumumuz haqdan əmir, Tağayım.

İndi səni yuxularda gəzirəm,
Ayrılıqla ürəyimi üzürəm,
Yenə, Vallah, bu tağda mən dözürəm,
Saralıram həsrətindən, Tağayım,
Ayrı olmaz can bətnindən, Tağayım.

Sənlə olan ötən ömür yaz mənə,
Sənsiz keçən bu günlər ayaz mənə,
Nə dərdin var götür məktub yaz mənə...
Ocaq çatım ürəyimdə, Tağayım,
Kükrəsin təb mələyim də, Tağayım.

Şadimanın atəşindən odlaşıb,
Ayrı düşüb, demə sənə yadlaşıb,
Məhəbbətin həsrətindən dadlaşıb,
Haqqa duam, təmiz havam, Tağayım,
Elim-arxam, yurdum-yuvam, Tağayım.

**26. 01. 2002 – 08. 03 2006.**

## AĞI-DASTAN

***20 YANVAR 1990-ci il***
***şəhidlərinin müqəddəs ruhuna…***

Sinəsi yara, Bakı,
Yaxdılar qara, Bakı,
Yağının fitvasıyla
Qarışdı ara, Bakı.

Didilən canlarım oy!
Tökülən qanlarım oy!

Başım, qollarım hanı?
Axır köksümün qanı,
Qana susayan yağı,
Sən verdin, aldın canı?

Bağlanan yollarım oy!
Zəncirli qollarım oy!

İgidim ölmə dayan,
Bağlı gözün aç, oyan,
Çərxin tərsə çevrilsin,
Bizi bu günə qoyan.

Lay-divar nərlərim oy!
Qeyrətli ərlərim oy!

Yağı canın üzülsün,
Bəxt ulduzun süzülsün,
Bağrıma dəyən güllə
Ürəyinə düzülsün.

Sussuz dodaqlarım oy!
Sinədə dağlarım oy!

Lənkəranda ölən mərd,
Üzdü bizi şivən, dərd,
Qara geyib gələrdim…
Kəsib yolları namərd.

Dağılan sinələr oy!
Uçulan binələr oy!

Qalanın yolu bağlı,
Qalmışam qolu bağlı,
Gəlməyə yağı qoymur,
Yol güllə dolu, bağlı.

Binədə şəhidim oy!
Əyilməz igidim oy!

Dilimi bağladılar,
Sinəmi dağladılar,
Arxamca gülənlərim
Üzümə ağladılar.

Torpağa düşənim oy!
Qanında bişənim oy!

Haqqımı min yol dedim,
Vətəndən hara gedim?
Qanun-hököm yağıda,
Kimə şikayət edim?

Ay şəhid cavanım oy!
Batırılan qanım oy!

Məzarsız qalan, şəhid,
Varlığı talan, şəhid,
Torpağında doğulub
Torpaqdan olan, şəhid.

Bəxtsiz igidlərim oy!
İtgin şəhidlərim oy!

Maştağa qana batıb,
Orda bir şəhid yatıb,
Tanrı qanı görmədi,
Dünyanın axrı çatıb.

Yollarda ölənim oy!
Yüzə bölünənim oy!

İstəklim gülləlәndi,
Köksü qana bələndi,
Ahımdan fələyin də,
Gözündən qan ələndi.

Nakam solanlarım oy!
Şəhid olanlarım oy!

Yatağın buza döndü,
Talesiz qıza döndü,
Ömrün yağı əlində
Sönən ulduza döndü.

İgid, qorxmaz ərim oy!
Didilən hünərim oy!

Bu sinəmi qəm yarar,
Gözlərimsə haqq arar,
Şəhid atasın balam
Ömrü boyu axtarar…

Əsir qalalarım oy!
Yetim balalarım oy!

Torpağa düşən, bacım,
Canla əlləşən, bacım,
Şəhid sinən didilib
Yuyulmur nə‘şin bacım.

Qanlı köynəklərim oy!
Ölən diləklərim oy!

Nə’şimi tanklar üyüb,
Can üstə min yol söyüb,
Məhkumam döymə, yağı,
Məni öz bəxtim döyüb.

Tək ayaq məzarım oy!
Bu qanlı gülzarım oy!

Qara yanvar nə nəhsdi?
Yağı yolları kəsdi…
Əliyalın Bakımı
Öldürməyə tələsdi.

Sınan ayaqlarım oy!
Qanlı bayraqlarım oy!

Gecəmi gündüz etdim,
Zülümlə mərd böyütdüm,
Yağı tank altda əzdi,
Əcəb kamıma yetdim.

Şəhid ananlarım oy!
Ərsiz sonalarım oy!

Şəhid anam, bacım vay,
Aşdı başdan acım vay,
Kimə dil açım, Allah,
Yoxmu bir əlacım vay?

Batıbdı harayım oy!
Uçubdu sarayım oy!

Yağdı güllələr qəfil,
Bu dərdi götürməz fil,
Sən toyların qızıydın
Yasa batdın qərənfil.

Ah, qanlı güllərim oy!
Dəhşətli illərim oy!

Neftçalanı tutdular,
Sinəsin qanatdılar,
Tikəmiz boğazlarda
Haqqı-say unutdular.

Bəbəkdə sellərim oy!
Köməksiz ellərim oy!

Düşmən tələ qurubdu,
Evdə üzə durubdu,
Sinəmdən qorxan yağı
Kürəyimdən vurubdu.

Qanlı qucaqlarım oy!
Sönən ocaqlarım oy!

Ayaqlarım yox gələm,
Sınmış qollarım qələm,
Güllə başda, sinədə,
Ürək can vermir öləm.

Dayanan saatım oy!
Pozulan həyatım oy!

Yaram sürər ağlama,
Uzun sürər ağlama,
Örpəyi üzünə tut,
Yağı görər ağlama.

Ağrılı ürəyim oy!
Puç olan diləyim oy!

Anam, bacım qarada,
Min güllə bir yarada,
Yağı qaldı kənarda
Biz qırıldıq arada.

Dərdli dağım, daşım oy!
Şəhid vətəndaşım oy!

Yağı çırağın sönsün,
Sinənə əcəl ensin,
Nahaq qanlar tökənin
Qanı çaylara dönsün.

Haqqsız güllənənim oy!
Əcəlsiz ölənim oy!

Allah, bu necə işdi?
Süngü sinəmi deşdi,
Bağrımdan keçən güllə,
Min yol yerin dəyişdi.

Zəncirli Vətənim oy!
Min ölüb-itənim oy!

Yağını dərd əyəydi,
Qapısın vay döyəydi,
Sənə dikilən güllə
Ürəyimə dəyəydi.

Bəxti kəm sevgilim oy!
Öz qismətim, gülüm oy!

Qəddi əyilən canım,
Bağrı üyülən canım,
Əsirlik zindanında
Haqsız döyülən canım.

Zəncirli qollarım oy!
Heysiyyatım, arım oy!

O vay sözünə qurban,
Çıxan gözünə qurban,
Bircə oğul itirən,
Özüm özünə qurban.

Sinəsi dağlarım oy!
Min yerdə ağlarım oy!

Dağ-daş nalədən dindi,
Yaralı qəlb döz indi,
Ölüm əcəl işidi,
Heyif, yağı sevindi.

Yaralı gözlərim oy!
Ağlar gündüzlərim oy!

Nahaq qanlara uyan,
Zülmün Tanrıya əyan,
Balan atasız qalsın,
Məni atasız qoyan.

Qanlı dodaqlarım oy!
Sınan budaqlarım oy!

Suraxanı, yol qanlı,
Həm sağ, həm də sol qanlı,
Düşmən atan gülllədən
İgidim yarımcanlı.

Çəkilməyən dərdim oy!
Qalıb yerdə mərdim oy!

Şəhid qollarım üstə,
Ağı desin el pəstə,
Səni bu hala salan-
Ürəyimdən su istə.

Soyuq otaqlarım oy!
Qara yataqlarım oy!

Min-min güllə çapardı,
Başımı tank qopardı,
Mən səni tək qoymazdım,
Qəfil güllə apardı.

Mənsiz qalan yarım oy!
Əhdə vəfadarım oy!

Yağı köksümü diddi,
Öldürdü kama yetdi,
Yarsa mənim üstümdə
Özünü şəhid etdi.

Dünyada ğərəyim oy!
Sən mənim mələyim oy!

Bu güllə hardan yağır?
Tökülür  ağır-ağır.
Aç gözünü bax, fələk,
Parça-parçadır bağır.

Kimdən haqq diləyim oy?
Dünyada gərəyim oy!

Gəncənin yolu müşkül,
Güllə açdı qəlbdə gül…
Nahaqqı haqq eyləyən,
Qanunun başına kül.

Sönən sobalarım oy!
Dərdli obalarım oy!

Laçının yolu yağı,
Güllədir solu-sağı,
Məni Şuşamdan edən
Balan görsün yurd dağı.

Dərdli Qarabağım oy!
Pozulan növrağım oy!

Qubanın yolu bəlli,
Tanklar gəlir yüz, əlli,
Qalmısan qan içində
Yox dada yetən, elli.

Qəfil fəlakətim oy!
Əsir məmləkətim oy!

Belə əsmə qəm yeli,
Tutub zülüm, qan eli,
Gülləni yağdıranın
Haqdan kəsilsin əli.

Bağrımı paralar oy!
Dərd məni qaralar oy!

Xankəndinə tank çapar,
İçimizə qəm yapar,
Qanımızı tökəni
Əzrayıl, özün apar.

Qurda yem canlarım oy!
Günahsız qanlarım oy!

Dilim lal, ürəyim qor,
Qanun, höküm əldə zor,
Günümüzü tar edən
Görən gözün olsun kor.

Bükülən dizlərim oy!
Boğulan sözlərim oy!

Göyçənin bağrı qandı,
İnsaf, mərifət yandı,
İmperiya əliylə
İrəvan Yeravandı.

Hanı igid ordum oy?
Əldən gedir yurdum oy!

Ağdərəni tutdular,
Spitak ucaltdılar,
Bağrımdakı körpəyə
Qəfil güllə atdılar.

Evdə yananlarım oy!
Çöldə donanlarım oy!

Göyçə gölü qanlıdır,
Göyləri dumanlıdır,
Yağı əldə məzarlar,
Necə ah-amanlıdır.

Ağır müsibətim oy!
Qanlı hekayətim oy!

Ünüm haqqa ucalsın,
Düşmən dərddən qocalsın,
Məni yurdumdan edən-
Yurdun yadlara qalsın.

Qanlı ev-eşiyim oy!
Gülləli beşiyim oy!

Naxçıvanım dardadır,
Haqq, ədalət hardadır?
Harda ki, qan tökülür
Allahsızlıq ordadır.

Ağrılı günlərim oy!
Bağlı düyünlərim oy!

Yaman gün gedər, gəlməz,
Mərd namərdə əyilməz,
Zor ilə alınan yurd-
Özününki deyilməz.

Əldən gedən elim oy!
Qıfıllanmış dilim oy!

Güllə şimşək tək çaxır,
Küçədən qanlar axır…
Sən can üstə, şəhidim,
Gözüm gözünə baxır!

Gücüm çatmır sənə oy!
Düşmən daşa dönə oy!

Yağı quduzdu, yaddı,
Köksə min güllə atdı,
Əcəl olsa nə dərdim?
Öldürənim cəlladdı.

Yoxdu bir günahım oy!
Hardadı Allahım oy?!

Ağlasın kaman, neyim,
Kəsilib daha heyim,
Öz gülləmdi sinəmdə
Bu dərdi kimə deyim?

Tanklarla döyüldüm oy!
Yetiş dada öldüm oy!

Sumqayıt yolunda qan,
Bədən öldü, uçdu can,
Alimi tank altında
Yox olsun belə dövran.

Kağızım, qələmim oy!
Qaralan aləmim oy!

Sumqayıtı çaldılar,
Qan töküb alçaldılar,
Yurdun alimlərini
Tank altına saldılar.

Şəhid olan adım oy!
Boğulan fəryadım oy!

Hava şaxta, soyuqdu,
Qəlb gülədən oyuqdu,
Allahın günahı yox,
Yuxarıdan buyruqdu.

Qanla dolu küçəm oy!
Ay imkansız gecəm oy!

Qurda ümid əbəsdi,
Haqsızlıq haqqı kəsdi!
Şirinxanım bir bülbül…
Çırpındığı qəfəsdi.

Ölən həqiqətim oy!
Didərgin millətim oy!!!

**26.01.1991-27.10.1991**

## BURDAN BİR ATLI KEÇDİ

***Ahıl vaxtında yurd-yuvasından məcburən qovulmuş, Xızıya pənah gətirmiş və yurd xiffətindən dərdə düşüb vəfat etmiş dağ cüssəli Vəliyev Qasım Hüseyn oğlunun müqəddəs ruhuna!..***

I

Burdan bir atlı keçdi…
Dona çayından içdi,
Bağçasında, bağında,
Əkdiyini yad biçdi!..

***

Aman, Ləlvər dağı, ellərin cəmi,
Harda ocaq saldı, haraya düşdü?
Yurdların bir olan, gur olan dəmi
Fitnəyə, fe‘lə, qaraya düşdü.

*

Niyə Nuh gəmisi gəlmədi Qafa?
Yurdlar sahibinə etmədi vəfa,
Millət cəfa çəkdi, yad gördü səfa,
Köçhəköç, qaçhaqaç araya düşdü.

*

Tarix unudarmı o qanlı çağı?
Dərddən ürəklərin əridi yağı,
Düşmənin vurduğu o sinə dağı,
Yenə yara üstdən, yaraya düşdü.

*

İrəvan, Zəngəzur, Qaf, Göyçə talan,
İki yüz il dolaşır dünyanı yalan,
Ey Vətən, didərgin azəri balan,
Hara qovladılar, oraya düşdü?

*

Niyə içimizin sönübdü kini,
Cihada çağırır o İslam dini,
Dünyanın iblisi, şeytanı, cini,
Bizim yurd-yuvaya, saraya düşdü.

*

Sınaq yarışırmı, Allah, mərdlərə?
Qol-qanad verirsən hey namərdlərə,
Çarə arayarkən biz bu dərdlərə,
Zülüm də, ölüm də çaraya düşdü.

## II
## HANI AXTALA...?

Müddətdi olubsan elindən uzaq,
Necə gəzdirirsən vayı, Axtala?
Kəsibdi başının üstünü sazaq,
Qanlıdır o Dona çayı, Axtala!

*

Hanı, o dağların düzləri, hanı?
Çeşməsi çağlayan gözləri hanı?
Sönmüş ocaqların közləri hanı?
Necə unuduldu sayı, Axtala?

*

Bağında bülbülün dili kəsildi,
Sazında siminin teli kəsildi,
Türkün beli sındı, eli kəsildi,
Hanı o dağların yayı, Axtala?

*

Suyundan içdiyim o buz bulaqlar,
Atımı sürdüyüm o göy yaylaqlar,
Yağının əlində qalan oylaqlar,
Niyə eşitməyir hayı, Axtala?

*

Mənə söylədilər yurd et Xızını,
Yayın yaylaq eylə, oxşa yazını,
Dindir dərdə düşmüş teli sazını,
Vur başa hər günü, ayı, Axtala.

*

Dünya hürr deyirkən hey millətlərə,
Biz niyə tuş olduq de zillətlərə?
Bu qoca vaxtımda bu minnətlərə
Qalmadı könlümün hayı, Axtala.

*

Atla dolaşdığım gədiklər hanı?
Kabablıq etdiyim əmliklər hanı?

O haylı, haraylı şenliklər hanı?
Hanı o xoş bahar ayı, Axtala?
*
Gəzdikcə Xızıda çölü, çəməni,
Ürəyim unuda bilməyir səni,
Bilirsən, qubarın yandırır məni,
Yoxdu o yerlərin tayı, Axtala!..
***
Bu ahlar içində çırpınan qoca,
Haqqına könlündən açıbdı baca.
Fəraqı dilindən könlə yaxılır,
Köksündə elə bil şimşək çaxılır.

Bütün canı ilə titrəyir, əsir,
Ruhu o yerlərə yenə tələsir.
Bumbuz əllərində hərarət gəzir,
Allaha ömründən istəyir nəzir.
Bir də o yerləri dolaşmaq üçün,
Bu eşq alışdırır könlünün için.
Ona qərib gəlir Xızı dağları,
Unuda bilməyir ötən çağları…

III

## BU PAYIZ QANLI GƏLDİ…

Bu payız qanlı gəldi,
Yaman divanlı gəldi,
Yurdundan perik düşən,
Köynəyi qanlı gəldi.
***
Min doqquz yüz səksən səkkiz-soyuq noyabır ayı,
Qalxır ərşə haray deyən anaların ah-vayı.
*
Yüz ildi ki, köçəköçdü Zəngəzurdan, Qafandan,
Ələsgərin eli Göyçə silindimi cahandan?
O gündən ki, rusların şər ayağı dəydi yurda,
Babamıza nökər olan erməni döndü qurda.
O tayqulaq Andranik də at oynatdı bir zaman,
Qonaq oldu hər mənzilə nalə, qırğın, ah-aman,
Anaların, bacıların namusu tapdalandı,

Ocaqların odu söndü, üstünə su calandı.
Məzarlığa döndü ellər bir əsirdə min kərə,
Qana döndü axan sellər, qanlı oldu hər dərə…
Vətən oğlu, sinən yansın bu ellərin ahına,
Şəhid olmuş babaların, nənələrin ruhuna –
Baş endirib, silah götür qisasını al daha,
And verirəm Yaradana qoyma qalsın sabaha.
Sən Cavanşir əzəmətli bu yurdun övladısan,
Azərbaycan dediyimiz məmləkətin adısan.
And verirəm doğulduğun bu torpağa, havaya,
Şah İsmayıl qüdrətli ol, qalx, yağıyla davaya!..

***

Min doqquz yüz səksən səkkiz, soyuq noyabır ayı,
Necə qəmli, necə miskin axırdı Dona çayı.
O Axtala yurdunun da köçəköçü baş alır,
Anaların, qarıların bəbəklərin yaş alır.
Ləlvər dağın, Çətin dağın başında duman gəzir,
Hanı haqqım, Qibləgahım, evləri aman gəzir.
Keçəlgodun, Мələkyurdun mənsiz necə olacaq?
Ermənimi o yaylağa, o oylağa dolacaq?
Köndüoğlu xəyaldadı sındırmayır vüqarın,
O ömrünün yoldaşı da gizlətməyir ah-zarın.
Deyir: «Məni bu yaşımda qəribliyə atma gəl,
Qəm yükünü, dərd yükünü sən çiynimə çatma gəl.
Məzarları erməniyə tapşırıbmı gedirik?
O imansız yağıları yerli, yurdlu edirik.»
Köndüoğlu Qasım kişi alışırdı bu dərdlə,
Necə qalsın bir obada bu yaşında namərdlə?
O Tükəzban qarı ilə keçirdiyi günləri,
Bircə anda xatırladı sazlı toy-düyünləri.
Boğazını boğdu qəhər qocalığın anladı,
Ürəyində milyon kərə öz-özünü danladı.
«Kilimə bürün, elnən sürün … -dedi, arvadına,-
Ləkə salmaz kişi olan, ey qarı, öz adına…»
Köndüoğlu Qasım kişi dildə dedi bu sözü,
İçin-için alışaraq yandı ürəkdə özü.
O sıçradı at üstünə yaraşmayan yaşıyla,
Yol üstündə əyalına gəl eylədi başıyla…
Öz evindən bir kibrit də almadı Qasım kişi,
Fikirləşdi qayıdacam gec-tez buraya əşi.
Həmişəlik getmirəm ki, öz yurdumdan kənara,

Bir az keçər sakit olar düzələr yenə ara…
Çevrilərək, baxdı bu an o Ağlağan dağına,
Sanki qandal vurdu fələk atının ayağına.

O ucaboy qamətini əydi Göyün köksünə,
Çapdı atın hikkə ilə Axtalanın əksinə...

***

Adəm oğlun, neçin verdin, Allah, yağı cahana?
Bu o günlər son köç idi yurddan Azərbaycana!…
Batmamaqçın o ellərin insanları al qana,
Azərbaycan torpağından köçdü Azərbaycana…
Qaçhaqaçda körpə öldü ananın kürəyində,
Yara açdı, o gün fələk Axtala ürəyində!

## IV

## AXTALA ƏFSANƏSİ

Deyirlər ki, Ayrım eli yurd çadırın quranda,
Kişiləri ova çıxıb, xatını ocaq quranda,
Dona çayı lap yaxından gurultuyla axarmış,
Sel gələndə qurduqları yurd-yuvanı yıxarmış.
Bir kişi də xatınına tapşırmış ev-eşiyi,
Mən gedirəm quş ovlayım sən, gəlin, çək keşiyi…
Bu üç oğul amanatın analıq peymanına,
Tapşırıram mən onları sənin pak imanına.
Deyib çıxır əri evdən gedir meşəyə sarı,
Paltar yuyur gəlin çayda anlar ötür gün yarı.
Uşaqlar da oynayırmış çaya yaxın talada,
Allah, necə şirin olur cana candan bala da?
Birdən sakit axan çayda sellər necə köpürür?
Sanki Dona bir əjdaha ağzından od üfürür.
Alır körpə balaları axan sellər qoynuna,
Mat qalıbmış fəryad çəkən gəlin fələk oynuna.
Xatunun «ah tala …» sözü o yurdun adı oldu,
Min il qabaq Axtalanın şəhid fəryadı oldu!…

## V

## KÖNDÜOĞLUNUN SIĞINDIĞI XIZIDAN YURDUNA DÖNMƏSİ

Köndüoğlu köçlə birgə uzun bir yol gedirdi…
Ürəyini yurd həsrəti parça-parça edirdi.
Sadaxlıya yetişəndə əl elədi o köçə,
Gözlərində şimşək çaxdı, qəlbi od biçə-biçə…
Dedi: «Dostum bu yaxında, bir ona baş çəkim mən,
Nə qədər ki, gecə düşmüb, bu dağlara çökmüb çən»…
Atını o Sadaxlıda tapşırdı qonağına,
Dedi:«Kişi, daş da belə dəyməsin ayağına.
İnəyim də sənə daha ərmağandı bu gündən,
Bağlayanda ip boğaza qoru onu düyündən.
Sağ, ye, halal eyləyirəm südünü də bil sənə,
Bəlkə bir də dönər oldum bu yerlərə mən yenə…
Köndüoğlu ellə birgə evini tərk edəndə,
Göz gəzdirib tövləsinə bu niskillə gedəndə,
Sanki heyvan duyuq düşmüş bu qərib köçhəköçdən,
Ərşə düşmüş mələr səsi, ahı gəlmişdi içdən…
İnək onsuz durmamışdı yiyəsinə ağlamış,
Atla birgə inəyi də, o, yedəyə bağlamış…

***

Köndüoğlu Qasım kişi gəldi Xızı elinə,
Bir neçə gün çay-çörək də heç vurmadı dilinə.
Dörd ay hələ keçməmişdi Axtalanın həsrəti,
Alışdırdı sinəsində elə dönmək niyyəti.
Dönməliyəm qoca dedi: «Erməni kimdi, bala,
Salıb məni qoca vaxtı böylə didərgin hala?..
Keçəlgodun qartalıyam, mənə enmək yaraşmaz,
Qartal ölər, hənuz ona qarışqalar daraşmaz…»
Novruz hələ gəlməmişdi, Köndüoğlu yığışdı,
O, Tükəzban qarısıyla bir maşina sığışdı.
Öncə gəldi Sadaxlıda qonağının evinə,
Gedək, qarı, kişi dedi, gərək dostum sevinə.
Dostu onu çox ürəklə qarşıladı həmən gün,
Qonağının ağrısına ürəyindən qopdu ün.
Köndüoğlun daşındırmaq istədi öz fikrindən,
Gördü qocanın ürəyi aşıb-daşır lap kindən.
Dedi: «Getmə, ermənilər öldürər səni orda,

Sən ədalət arayırsan, haqq, ədalət de harda?…»
Qasım kişi sakit-sakit qonağını dinlədi,
Qəddi-qamətin düzəldib yumruğun düyünlədi,
Hirisindən, hikkəsindən elə qanlı inlədi…
Atını və inəyini, arvadını götürdü,
Özünü bir mart səhəri Axtalaya yetirdi.

***

Ermənilər mat qalmışdı kişidəki hünərə,
Qəlblərində alqışladı bəlkə onu min kərə!..
Yer də, göy də heyran olmuş ondakı bu mərdliyə,
Qasım kişi üsyan etdi yağıda namərdliyə.
O ucaboy qamətiylə yaraşırdı atına,
Qarısıyla qovuşmuşdu Axtala həyatına…
Ermənilər doluşmuşdu boş qalan o evlərə,
Qalib-qalib baxışları bənzəyirdi divlərə.
O Novruzu öz evində keçirtdi Qasım kişi,
Əkmək oldu bağ-bostanı o yaz onun hər işi.
Səhər gəldi qovardı o Göy atını şamlığa,
Niyə gəldin kəlməsini demirdi heç bir dığa.
Çörək alıb dönərdi tez Axtalanın mərd əri,
Çiyinində qoşalülə, altındaca kəhəri…
O yay oğul nəvəsi də gəldi baba yanına,
Döndü Tükəzban qarının uşaq da həyanına.
Köndüoğlu Qasım kişi qalmaqda öz elində,
Keçəlgodu, Mələkyurdu dolaşdı at belində.
Bir gün erməni uşağı nəvəsin hədələdi,
Elə bil Köndüoğlunun başına daş ələdi,
Getdi qoca qürur ilə erməni qapısına,
Dedi: «Gəlmə sənsən dığa, oturaram yasına!
Bu oğlumun oğluna da Axtaladı yurd-ocaq,
Babalardan ərmağandı, bizimki də olacaq.»
Deyərək, o, hikkə ilə qamçı çəkdi atına,
Ermənini  işlədi söz, sanki yeddi qatına.
İkiüzlü yağı hələ uşağını danladı,
Ər kişinin yanındaca onu hey yamanladı.

***

Qanıqara evə gəldi Qasım kişi o gecə,
Dilindən bir fəryad qopdu, necə oldu, el necə?
Onun Tükəzban qarısı inəyini yemləmiş,
Ocaq çatıb xörək asmış, pürrəngi çay dəmləmiş.
Erməninin dərsin verdim dedi, o, arvadına,

Sədr olan vaxtı düşdü qocanın tez yadına…
Ermənilər bir zamanlar əl-ayaqda işləmiş,
Süfrəmizə qonaq olub çörəyimdən dişləmiş…
Kişi olub it uşağı, bilmirəm nə zamandan?
Qorumadıq bir-birini yüz ildi ah-amandan.
Deyərək, o qürur ilə əlini istilədi,
Ürəyində ocağına Allahdan haqq dilədi…

***

Payız gəldi Köndüoğlu başı işə qarışdı,
Mer-meyvəsi doldu-daşdı, bağ-bağatla yarışdı.
Kartofunu, soğanını yığdığca hey daşırdı,
Bir səhər də nəvəsiylə bostanda dolaşırdı…
Səsə döndü darvazaya bir maşın gördü kişi,
Dünya görmüş qoca qartal anladı bu gəlişi.
Boris idi Şamlıqdakı tanışlarından biri,
Gələn kimi bəyan etdi ürəyindəki sirri.
Dedi: « Qoca, saqqalılar dolubdu kənd-kəsəyə,
Bolünürlər hər küçədə onlar neçə hissəyə.
İstəmirəm colma-cocuq ürəyinə hey dəyə,
Bir sürüdü qırılmışlar nə ev tutur, nə pəyə.
Qasım kişi, kəsdiyimiz o çörəyin eşqinə,
Məzhəb haqqı, biz də qaldıq nə zamandan pis günə…
Başımıza kəndir salıb sürüyür it uşağı,
Dilimizi tərpədəndə bizə vurur qəlb dağı.
Heç bilmirik hardan gəlib töklüşüblər buraya?…
Qan-qırğını salıb yenə qırılmışlar araya.
Məzhəb haqqı, sağ erməni olmayaydı dunyada,
Nə siz, nə biz düşməyəydik bir bu qədər fəryada!..
Elin köçüb, sən burada neyləyərsən yetənə?
Künc-bucaqda, ya meşədə, kol dibində bitənə.»
Məğrur qoca qürur ilə uca dağlara baxdı,
Ləngi-Teymur qalasında seyrək şimşəklər çaxdı.
Şeypurxanın başı üstü dumanlara büründü,
Qara bulud o qalanın kölgəsiylə süründü…
Köndüoğlu erməniyə döndərərək üzünü,
Qəzəb doğan hiddət ilə söylədi son sözünü.
Yığışdırın hər neyim var doldurun siz maşina,
Allah özü düçar etsin ömrünüzü qışına.
Tarixlər də şahid buna bu yerlərin oğluyam,
Bu dağların sərkərdəsi, mən binadan dağlıyam.

Allahımız əlac etsin bu yurdların ahına,
Tapşırıram yurd-yuvamı məzarların ruhuna…!

## VI
## KÖNDÜOĞLUNUN YENİDƏN XIZIYA DÖNMƏSİ

Köndüoğlu qayıdaraq gəldi Xızı elinə,
Bel götürdü bu yaşında o yenidən əlinə.
Bir ev tikdi, o, Tükəzban qarısıyla özünə,
«Bizimlə qal dədə» deyən oğul-uşaq sözünə,
Qulaq belə asmadı heç dağdan uca bu qoca,
El içində uca oldu, başı zirvətək uca.
Hey evinin eyvanından baxdı bomboz dağlara,
Uçdu xəyal atı yenə Axtalalı çağlara,
Yurd həsrəti birdən-birə parçaladı köksünü…
Tapmadı, o, təzə yurdda o yerlərin əksini.
O gəzdiyi Kəçəlgodu gördü qoca yuxuda,
Alışdırdı ürəyini ocaq odu, qoxuda.
İsitmədi vücudunu bu təzəcə binəsi,
Kədər verdi evi ona, yandı ahla sinəsi.
Əydi uca qamətini o yerlərin xiffəti,
Dərdli idi özü kimi can yoldaşı, afəti.

***

Köndüoğlu Qasım kişi hər gün solub saralırdı,
Uzaqlara dikir gözün, yaman qanı qaralırdı.
Xızı ona verməyirdi o yerlərin heç dadını,
İçdə boğdu qoca qartal qəribliyin fəryadını.
Qürbətlərin şəkəri də zəhər kimi acı olur,
Doğulduğu ocağında kişi yurdun tacı olur.
Köndüoğlu baxışlardan duydu qərib olduğunu,
Hiss elədi payızlartək yarpaq töküb solduğunu…
Ayrım eli Axtalada doğulmuşdu, canı orda,
Necə təkan versin ağlı içindəki yatmış qurda?!
Haqq bilməyən yağılara necə sübut eyləsin, o?
Haqq arayan bu dünyaya haqsızlığı söyləsin, o.
Hey üzüldü ayrılığın dağdan ağır əzabından,
Qırılırdı ömür simi tale adlı rübabından.
Köndüoğlu Qasım kişi yatağına düşdü xəstə,
Dağdan ağır vüqarıyla, gidi dünya, o, can üstə…
Nə loğmanlar, nə təbiblər tapmadılar dərdə çarə,

Köksü üstə yurd ağrısı şişdi qəmdən, açdı yarə.
Vida dedi, Qasım kişi yaxınına, uzağına,
Qərib ömrü söndü şamtək qürbətlərin sazağına.
Əbədilik yümdu gözün bu dünyanın zülümünə,
Qurtulmaqçın iztirabdan o qovuşdu ölümünə!
Ruhu uçdu ər kişinin yağı əldə qalan elə,
O şərəfli həyatı mən dastan edib saldım dilə.
Son nöqtəni qoyarkən ah, bu ağrılı misralara,
Qələm məhəl qoymadı heç ürək üzən israrlara.
Köndüoğlu, ruhun bəlkə qarqışlayır yağıları,
Ya qeyibdən qulağıma gəldi hicran ağıları…

***

Burdan Göy atlı keçdi,
Atı qanadlı keçdi,
Elindən ayrı düşən,
Hicran əkdi, qəm biçdi.

*

Bu ayrılıq keçəydi,
Haqqın yolun seçəydi,
Eli dərdə salanlar,
Qəm əkib, dərd biçəydi.

*

Atımın yalına bax,
Didərgin halına bax,
Yurdum yağı əlində
Elimin halına bax.

*

Həsrətəm Göy atıma,
Bəxtəvər büsatıma,
Bu müxənnət qonşular,
Qəm qatdı həyatıma.

*

Eləmi, Ləlvər dağı,
Yağı, həmənki yağı?
Ruhum gələndə ora,
Ayrılıqdan de ağı.

*

Ləngi-Teymur qalası,
Yurdumun Axtalası,
Keçəlgoda çatdırın,
Öldü igid balası.

*

Axtala gündüzləri,
Ey igidsiz düzləri,
Qürbətdə öləninin,
Qaldı qərib sözləri.

*

Baxma qoca yaşıma,
Nələr çəkmiş başıma,
Öldüm ki, ruhum uçsun,
Yurduma, dam-daşıma…

*

Dərd var ki, böləni var,
Dərd var ki, biləni var,
Axtalaya deyin ki,
Xızıda öləni var!..

**07-08.04.1998**

## DÜKAN ADAMIN HEKƏYƏTİ

Dünəndən üzü dönən hava şaxta içində,
Dondurur evsizləri, yoxsulları içində.
Günəş gah küsüb qaçır, gah da üzün göstərir,
Xəzri cana işləyir, adamın köksün gərir.
İlikləri göynədir soyuq noyabr ayı,
Küçədən bir səs gəlir, zəif, qalmayıb hayı.
Canlı yeriyən dükan ağır çanta əlində,
Sözlər titrəyir gəzir haray çəkir dilində!
Kalkotka corab deyib eşidəni üzdürür,
Bədbəxt, canlı dükanlar yükü əldə gəzdirir.
Küçə boyu qışqırır qonum-qonşu çıxmayır,
Qapıdan baş çıxarıb çölə tərəf baxmayır.
İnsanlar tapdığına munis olub evində,
Çöldə kimin nə işi havanın sərt günündə?!
Hamı çəkilib evə, küçələr bomboş qalıb,
Sanki göyə, yerə də xəzri lövbərin salıb.
Küləyin vıyıltısı bir şivənə bənzəyir,
Arabir yağan qarla yolu-izi bəzəyir.
Bu minvalla soyuqdan dükan adam keyləşir,
Səsinin yazıq halı gah inilti, gah həşir.
Xəzrinin əsməsi də sızıltıya bənzəyir,
Özün çırpır hasara daşa, divara dəyir.
Əlləri donmuş adam küçə boyu qışqırır,
Soyuğun üstə gedir, hərdən bir də asqırır.
Ümidi var corabdan, kalqotkalardan satsın,
Heç olmasa cibinə bir-iki manat atsın.
Sonra qaçsın dükana, bir isti çörək alsın,
Taqətdən düşməmkçin ağzına çörək salsın.
Küçə də amansızdı, soyuq sükuta dalmış,
Canlı dükan adamı qara xəyallar almış.
Evdəki körpələri ondan imdad istəyir,
Evini düşündükcə kədər qəddini əyir.
Küçə boyu səsinə səs verir soyuq külək,
Şaxtanın təsirindən donub daha əl, bilək.
Ayaqların dalınca sürüyərək o gedir,
İçindəki əzablar, ümidsizlik can güdür.
Bəxtini yamanlayır, İlahi, bu nə gündü?!
Boğur məni iztirab, boğazımda düyündü.
Bir hasarın küncünə sığınır o bir anlıq,

Çəkdiyi müsibəti ömrə-günə viranlıq…
Ümid edir bir Allah bəndəsi çıxar çölə,
Qəfildən qapı açıb, bir anlıq baxar çölə.
İsti çay təklif edər, alıb içərəm çayı,
Taqətim daha yoxdu qalmayıb canın hayı.
Fikirləşir bir anlıq niyə çıxdım evimdən?
Axı nə istəyirəm şaxta kəsən bu gündən?!
Küçələrin lallığı ümidlərimi qırır,
Elə bil ürəyimə dalbadal güllə vurur.
Gəlməsəydim evdəki iki uşaq nə yesin?
Boğur kişi qüruru içdən ümidsiz səsin.
Ömür-gün yoldaşım da körpələrlə çalışır,
Evin dərdi-səri də onun başından aşır.
Ümidi tək mənədi, niyə evdə oturum?
Bir günümü necə mən aclıq ilə batırım?
Bu fikirlər içində küncə sığınıb qalır,
Sanki külək yazığın dərdin içinə alır.
Bir müddət təntiyərək səsin batırır xəzri,
Şaxtanın ağrısını, sanki yatırır xəzri.
Dükan adam hasarın dibindən qalxıb durur,
Onu alan xəyalın başına qapaz vurur.
Diksinərək xəyal da qaçıb getdi uzağa,
Ürkək-ürkək boylanıb baxdı xeyli sol-sağa.
Adamlar mənzilində, osa küçədə gəzir,
Öz halı ürəyini iri addımla əzir.
Şaxtanın təsirindən itiribdi özünü,
Dil dolaşır ağızda çaş salır öz sözünü.
Dükan adam titrəyən ayaqların sürüyür,
Donub ölmək qorxusu bir an onu bürüyür.
Sahibsiz it uzaqdan baxır ona hirslə,
Canı da ram olubdu ürək didən bu hisslə.
Əyilir yerə daşı götürüb atsın itə,
Soyuqdan titrək əli bəs daşa necə yetə?
İt də dükan adamın gücsüzlüyün hiss edir,
Çöküb quyruq bulayır, ona güzəştə gedir.
Haradan rəhim gəldi bu heyvana görəsən?!
O özü də acından deyilmi tir-tir əsən?
İki acın taleyi bir məqamda birləşir,
Bütün canlılar yəqin bu həyatla güləşir.
Qalibi öyən dünya, məğluba deyir ağı,
Doğulan gündən sönür kasıbın bəxt çırağı.

***

Könlü daş insanların bəs ruhu nə, qəlbi nə?!
Bu qədər müsibəti götürərmi qəlbinə?!
Ətrafda yoxsulların naləsi göyü yarır,
Bir tikə çörək üçün İlahiyə yalvarır.
Çəkdiyi müsibətin ağrısıyla yollaşır,
Kasıbın ömür yolu dərdlərlə aşıb daşır.

***

Dükan adam qəfildən dizi üstə oturur,
İçindəki ağrının bircə anlıq batırır.
Çökür itin önündə başına sığal çəkir,
Ümidsiz gözlərindən qanlı-qanlı yaş tökür.
Əlinin altındakı it də titrəyir əsir,
Onun da varlığını rüzgar qılınctək kəsir.
Hər ikisi ac-sussuz, qalıb küçə içində,
Dükan adam it günün var-gəl edir içində!
Çantasın yerə qoyur dərd işləyir qanına,
Soyuğun kəskinliyi çökür miskin canına.
O gömgöy dodaqlarla əllərini isidir,
Canına hopan ağrı, donan canın yasıdır.
Diliylə tumar çəkir it də soyuq çantaya,
Az qalır ki, aclığa üsyan edə, ulaya.
Heyvan yemək eşqiylə ağzını çox sulayır,
Dükan adam önündə quyruğunu bulayır.
O da titrək səsiylə itlə dərdləşir dilsiz,
Donan əllər cansızdı, sanki qalıbdı əlsiz.
Dükan adam qalxaraq davam edir yoluna,
Sanki it də acıyır onun miskin halına.
Adam gedir, it gedir, hər ikisi ac-sussuz,
Ayaqlar süründükcə, baxışdan asılıb buz…

***

Dükan adam çalışır çörək pulu tapmayır,
Halallıqla ömür edir, bir dəm yolu sapmayır.
Qapı-qapı gəzərək malın satır pul alsın,
Qazandığı paranı boş ciblərinə salsın.
Evinə çörək pulu aparsın heç olmasa,
İnsan necə var ola, canda imid qalmasa?!
Ona görə küçədə qul həyatı yaşayır,
Evinin dərd-sərini çiyinində daşıyır.
Hər günü qapılarda keçir dükan adamın,
Doğulduğu yurdumu qoyub gözündə kamın?

Şaxta qılınctək kəsir onun bu qul həyatın.
İnlədir acı bəxti göylərin yeddi qatın.
İtin də sahibi yox küçələrdə yesirdi,
Payızın əllərində hər ikisi əsirdi.
İti sahibi atmış küçəyə qatil təki,
Bəs bu dükan adama kim eyləmiş bu ərki?!
Doğulduğu Vətənmi, yoxsa ata-anası?
Bəlkə ata-ana da olub canından asi.
Ömrü  bu it gününə, sanki fəryad eyləyir,
Arabir əsən xəzri ahına dad eyləyir.
Dükan adam bəxtinin ağrısına bürünür,
Hər gün məhəllələrdə ilan kimi sürünür…

***

Mən də bu hekayəni qəm-qəhərlə yazmışam,
Gözümün leysanına, gürşadına azmışam.
Bir kasıbın əzabın ürəyimdən keçirtdim,
Onun fəryadlarını misralara içirtdim.
Sözlərim də könlümə qoşulub hönkürdülər,
Mənim ağrılarımı gözləriylə gördülər.
Kasıb it günündədi, it də kasıb günündə,
Hər ikisi həyatın açılmaz düyünündə!
Keçib bəxtin kəndiri boğaza, açmaq olmur,
Bəlkə bu bir yazıdı heç ondan qaçmaq olmur.
Yazını da pozuya aparmaq hünər istər,
Hər bir yoxuşu aşmaq qoluzorlu ər istər.
Ərləri də çox zaman haqsızlıqlar çökdürür,
İçlərinə sevinc yox, ağrı-acı tökdürür.
Baxa bilmir evində qadın, uşaq üzünə,
Pozulur rahatlığı yuxu getmir gözünə.
Günün bir ağrısını hekayəmə gətirdim,
Oxuyub dəyər verən, hüzuruna yetirdim.
Özünü dükan edən adama baxmaq olmur,
Yoxsulluq acısını qəlbə buraxmaq olmur.
Taleyin nəql etdiyim dükan adam göz dağı,
Ağrıdır görənləri, salır könlümə ağı.

***

Bu hekayə həqiqi həyat hekayəsidi,
Hardansa qazanc tapmaq hər kəsin qayəsidi.
Bol-bol nemətlər dolu süfrə qisməti olan,
Bil ki bu yazdıqlarım həqiqətdi, yox yalan,

Silib yağlı əlini yazdığımı aç oxu,
Bir gün sənə də dəyər həyatın aclıq oxu.
Ona görə qəlbini açıq eylə yoxsula,
Allahın mərhəməti birinci yetir qula.
Sən də dükan adamın çəkdiyini çəkərsən,
Dünyanın dili altda, sanma ki, bir şəkərsən.
Heç bir kəsin başından əskik deyil şər, qada,
Kasıb da varlı kimi insandı bu dünyada.

**22.11.2016**

## QUZEY ELİN GÜNEY ELƏ MƏKTUBU

Bir məktub var, yollayıram elinə,
Ey Təbrizim, dilim doğma dilinə,
Sən bir hə de, qoşularam yelinə,
O tikanlı sərhədləri keçərəm,
Bu həsrəti ürəyimdən biçərəm.

Ərdəbildə, Urmiyada harayım,
Qalxıb ərşə qəlbimdən qəm sarayım,
Savalandan, Ərkdən keçir can hayım,
Bir biləsiz nə çəkirik bu yanda,
Siz də deyin nə var, nə yox o yanda?!

Bizi niyə ayrı saldı cəlladlar?
Yurd sevgisin hardan qanar, de yadlar?
O tay, bu tay haray çəkir övladlar,
Ocağımız ayrı yanır nə vaxtdı,
Bizi əsir salanımız xoşbaxtdı.

Bu tərəfdə Rübabənin segahı,
Ağlar qoyub həm gecəni, sabahı,
Bu ayrılıq heç oyatmır Allahı,
Yaraları könlümüzdən qopara,
Bu niskili sinəmizdən apara.

Diləkçəmin sətri qəmlə doludu,
Haqq yolunda Babəklərin uludu,
Dibdən düşən Nəsiminin qoludu,
Səttərxanın, Pişəvərin hardadı?
De olara, Vətən yenə dardadı!..

Xərcləyirlər bizi çirkli pul təki,
Ağladırlar qolu bağlı qul təki,
Bir ağrı var keçir gedir yol təki,
Şəhriyarın misrasından boylanır,
Ey Güneyim, canda nə var, oylanır!..

Heydərbaba Şəhriyara gəl dedi,
Qırılıbdı əlimizdən əl dedi,
Ayrılıbdı bir Arazla el dedi,
Mən də onun səsinə səs qatıram,
Demə Vətən, başı atıb, yatıram!...

Ağrın heç vaxt itib getmir sinəmdən,
Gözlərimdə sel azalmır heç nəmdən,
Baş çıxarmır kağız, qələm aləmdən,
Hansı əllər bizə imza atıbdı?
Başımızı qardaşlıqla qatıbdı…

Mən istərəm Təbrizimdə dolaşım,
Külək əssin, toz-torpağa bulaşım,
Əlim yetməz yurdlar ilə ulaşım,
Vətən eşqi çox şirindi ürəkdə,
Asılıbdı şanı təki diləkdə!

Dərbəndimdən qolun açıb gəlir qış,
Nə zamandı yurd-yuvada gülür qış,
Bizim üçün niyə belə ölür qış?!
Donduracaq ayrılığın sazağı,
Görməyirik burnumuzdan uzağı.

Hələ gəncəm, arzularım böyükdür,
Həsrətlərin ürəyimə lap yükdür,
Tükənibdi, səbirimiz bir tükdür,
Çəkə bilmir ağılımız bu dağı,
Kəsiləydi yurddan yağı ayağı…

Deyirlər ki, xoşbəxt olub yurdumuz,
Deyirlər ki, vardır şanlı ordumuz,
Harda itib, harda batıb Qurdumuz?!
Məmləkəti çək-çevirə salıblar,
Əlimizdən nəyimiz var alıblar.

Vətən dərdi ürəyimdə yaradı,
Kağızlarda yazılanlar qaradı,
Niyə bizim yolumuz ah-zaradı?!
Bir biləsən nə çəkirik Güneyim,
Bədənimdə sızıldayır can neyim.

Bardaş qurub içimizdə ayrılıq,
Yoldaş olub köçümüzdə ayrılıq,
Durub baxır suçumuzda ayrılıq,
Yurd neyləsin, qoruyanı olmasa?
Ürəyinə sarıyanı olmasa?

Şah Xətayi, gorun yaman çatlayır,
Cavad xanın qəbirində partlayır,
Yağı yaman dizimizi qatlayır,
O yan, bu yan deyib haray salırıq,
Cavabını məktublardan alırıq.

«İrəvanda xal qalmadı, deyirlər,
Xalq mahnısı deyib adın öyürlər,
Bu söz ilə xalqın adın əyirlər,
İrəvanın xanı gəlib yuxuma,
Deyir xanı xal eyləyib, oxuma.

Bir göyərçin bəsləmişəm nə vaxtdı,
Onu qəmdən həsləmişəm nə vaxtdı,
Niskilini süsləmişəm nə vaxtdı,
Ayağına diləkçəmi bağlaram,
Yetirməsə o tayıma, ağlaram.

Deyirlər ki, Ərkqalası dumandı,
Üzün tutub buludlar nə zamandı,
Təbim coşub misralarım ümmandı,
Sətir-sətir hüzuruna yollaram,
Hər sətirin sonun ahla qollaram.

O tayımda Şəhriyarım var olsun,
Gözəl günlər taleyinə yar olsun,
Sərhəndinə mənim dərdim car olsun,
Deyin, qızı Vətən deyib, ağlayır,
Sinəsində Azərbaycan çağlayır.

Bütövləşə bilməriksə, ölərik,
Bütövləşsək, ömrü boyu gülərik,
O niskilli gözlərdən nəm silərik,
Arazımız ayrılığa görk oldu,
Döyüşlərin nişangahı Ərk oldu!

Bura gözü yaşlıların Vətəni,
Bura bağrı daşlıların Vətəni,
Yar deyərək, basdıq bağra yetəni…
Əhvalımız gündən-günə qaradı,
Ürəyimdə sağ yerim de, haradı?!

Arazının gur suları qırmızı,
Yağı yaxdı böhtan bizə qırmızı,
Yad edirlər könlümüzə yarmızı,
Bu talanan Vətəndən bir yurd edək,
Ağlımızın dovşanların – Qurd edək.

Özüm billəm nə çəkirəm sinəmdə,
Bu ağrıya dözmür daha sinəm də,
Bu yurd təki tapmaz kimsə aləmdə,
Ağrıların daşıyırıq yük təki,
Asılıbdı könlümüzdən tük təki.

Bir simim var ürəyimdə sızlayır,
Dərdi qalxıb Şahdağına, nazlayır,
Ocağında min bir niskil yazlayır,
Əgər düzsəm misralara, ağlarsan,
Hönkürtünlə ürəkləri dağlarsan.

Deyirlər ki, Təbriz üstü buluddu,
Ayrılığı kökün atan palıddı,
Səsi batmış Vətən, sanki bir uddu,
Hıçqırtısı mizrab üstə köklənib,
Niyə mənim yurdum, elim təklənib?

O tikanlı sərhədlərdən hay gəlir,
Bəbəklərdən axan yaşlar çay gəlir,
Qulağıma nisgil dolu vay gəlir,
Bu vayımı Şəhriyara söyləyin,
Ayrılığın ürəyin qan eyləyin.

Quzeyliyəm, dərdim daşdan ələnir,
Gözdə qəmim keçib yaşdan ələnir,
Ürəklərə ağrı başdan ələnir,
Əhvalımın sorun halın bədəndən,
Bu başımı gəlin alın bədəndən.

Çünki mənə ondan gəlir ağrılar,
Vətən eşqli candan gəlir ağrılar,
Bilən bilir qandan gəlir ağrılar,
Qanımızda gəl coşduraq qeyrəti,
Salaq bütün küllü-ərzə heyrəti.

Aşıqların saz götürüb çalsınlar,
O tay, bu tay səslərini salsınlar,
Ürəymizi qoy bir qədər alsınlar,
Bilmək olmaz, dünya özü bir boxça,
Boxçasından qəm çıxara, dərd aça.

Güney elim, şad sorağın şirindi,
Dağ-düyünlər köksündədir sirindi,
Pöhrə güllər, yal-yamaclar dirindi,
Dəvasıdır, çünki şır-şır bulaqlar,
Çox söz alıb, söz eşidib qulaqlar.

Nakam gedib sənə neçə mərd, ər də,
Başlar qalıb neçə qanlı yəhərdə,
Ay Güneyim, yaxşı dözdün hər dərdə,
Göz yaşların gülab təki əl yuyub,
Pak qoynunda bir həsrətli yurd uyub.

De, ovunsun ürək necə bu qəmlə,
Qara günlü, qara ünlü ələmlə?
Çılğın ürək hesablaşmır bu dəmlə,
Sən halisən hər cür dağdan, düyündən,
Dağlar çəkən o nalədən, o ündən.

Hər ikimiz boğuluruq hicranda,
Qalmayıbdı daha taqət heç canda,
Tanınırıq kölə təki hər yanda,
Uçurt, dağıt sərhədləri uç da, gəl,
Könlüm istər yubanmadan qaç da, gəl.

Ərk qalanda Babəkindən nişan var,
Keçmişlərdən gələn ulu bir şan var,
İki yerə parçalanan bir can var,
Götür canı tellərini bağla gəl,
Hönkür-hönkür halımıza ağla gəl.

İnsan oğlu dözməz heç vaxt qandala,
İşlərimiz gedir hər gün lap dala,
Xırdalanıb, döndük qəpik bir pula,
İmperyalar hər dövürdə beləydi,
Özlərin də haqqın özü böləydi.

Ana yurdum, bu köksümdə dərd böyük,
Ürəyimdən qəm asılan ağır yük,
Könül, sanki qırılacaq nazik tük,
Kömək elə həsrətləri biz sökək,
Pak vüsala bir imarət, yurd tikək.

Ozanların, aşıqların boyladı,
Əhdü-peyman deyib səni hayladı,
Qış qışladı, yayında da yayladı,
İgidlərdir sənə neçə söz qoşan,
Pak qoynunda yüz keçilməz səd aşan.

Ey Güneyim, qurban olum daşına,
Sərt şaxtana, sazağına, qışına,
Gilə-gilə axan gözün yaşına,
Dönə-dönə mən qurbanlar kəsərdim,
Vüsal mehi olub eldə əsərdim.

Çiçəkləri göz yaşlarım sulayır,
Qanlı həsrət çöllərində ulayır,
Aləm səni çirkabına bulayır,
Bir deyən yox bu nə qüssə, bu nə ah,
Niyə sənə qəmlər verir hər sabah?

Ey Güneyim, düzlərində gözüm var,
Həsrətini tək çəkməyə dözüm var,
Görməsəm də deyiləsi sözüm var,
İçin-için yanan ürək çağlayır,
Gözlər sənin hicranından ağlayır.

Babəklərin at çapıbdı düzündə,
Ov ovlayıb, quş quşlayıb düzündə,
Çox ərənlər şahidisən özün də,
Neçin indi susub dinmir daşların?
Sakit-səssiz çatılıbdı qaşların.

Neçə igid at kişnədib dağında?
Neçə gözəl seyrə çıxıb bağında?
Tufan, boran qondu yetkin çağında,
Ey Ərkqalam, sirli dünyam ayılıb,
Gözün aydın, qorxünc yağın bayılıb.

Qanad açıb, quş oluban uçardım,
Ayaqyalın yamaclıqda qaçardım,
Şahin təki qanadımı açardım,
Qucaqlardım qarışını, düzünü,
Kaş doyunca bir görəydim üzünü.

Aman Güney, xəyalamı dalıbsan?
Qan tökülür aradamı qalıbsan?
Varlığına üşütməmi salıbsan?
Mən bilirəm, gözüm ordan uzaqdır,
Aramızda çiskin, duman, sazaqdır.

Ağır-ağır qəmlər qalxır obamdan,
Bu dərd mənə yadigardır babamdan.
Sevin yurdum, tüstü çıxır sobamdan,
Bura odlar ölkəsinin parası,
Yavaş-yavaş sağalacaq yarası.

Dağ-daşıma həsrət necə dağ çəkir,
Gecə-gündüz iztirabdan qəlb bükür,
Səhər-axşam göz yaşını hey tökür,
Səbəb həsrət, möhnət qəmi olubdu,
Düz-dərəmə mülkü-hicran dolubdu.

Obam yatır, qucağında dərdlərin,
Qubarı var, niskili var kəndlərin,
Aşılmazlar oylağıdır sədlərin,
Aşrımlarda səba yeli nəsim var,
Aman Güney, könüllərdə səsim var…

Dünya hali, qəmlər sonsuz, gün qara,
Həyat şirin, həsrət donsuz, qəlb yara,
Ellər hara, qüssə hara, qəm hara?
İnan Güney, ələm bizim deyildir,
Bu hicrandan gələn acı meyildir.

Mən yanıram için-için qəmlərə,
Ağrı-acı çəkdiyim o dəmlərə,
Göz yaşımın boyadığı nəmlərə,
Neçə dərya yığılıbsa çatmayıb,
Gözlər bir gün arxayınca yatmayıb.

Ulu Hörmüz sənə arxa olardı,
Könlü-gözü bir dünya nur alardı,
Şadlıq odla nəğməsini qalardı,
Qitə-qitə dolaşardı can yalnız,
Sabiq həsrət bir qalaydı tək, yalqız.

Aman Güney, bir sevda var ürəkdə,
İstəyirəm bircə azad diləkdə,
Gəlib düşüm yamacına küləkdə,
İlim-ilim itim sərin yaylaqda,
Sədam gəlsin neçə düzdə, oylaqda.

Şeh düşəndə otlarının üstünə,
Səba yeli qoy qarışsın al günə,
Mən də baxım ocağına, tüstünə,
Fərəhlənsin qəlb rübabım, qoy dinsin,
Saf varlığım od-alovda isinsin.

Ey Güneyim, sənə mənim sözüm var,
Belə xəyal olacaqmı mənə yar?!
Bir təsəllin bu dünyaya altun var,
Aman Güney, bu köksümün harayı,
Gəl uçurma könlümdəki sarayı.

Düşmən bağlar qollarımı qandalla,
Qapanmışam dağ-düyünə bu halla,
Kim deyər ki, bu dərdləri dur dalla,
Bağlanıbdı yaraların qapısı,
Qurulubdur, artıq ona qəm yası.

Narahatdır köksü qübar ellərim,
Zəhmətindən əli qabar ellərim,
Əməyindən almayıb bar ellərim,
Heydər babam, qızın dərddən halidir,
Həyat dərin, böyük insan alidir.

Bu zülümü, əzabı mən çəkmişəm,
El dərdini ürəyimə tökmüşəm,
Səhər-axşam göz yaşımı tökmüşəm,
Həsrət məni aparıb öz qoynuna,
Qonaq edib çıxartdığı oynuna.

Öz-özümə dərdlər çəkən olmuşam,
Bu qəmləri qəlbə tökən olmuşam,
Şitillərin bir-bir əkən olmuşam,
İnan Güney, mənim dərdim böyükdür,
Həyat dibsiz, dərdlər ona bir yükdür.

Qubarlıdır, niskillidir əllərim,
Çox mənasız gəlib keçir illərim,
Oylağımda ilan təki sellərim,
Hər daşımda, torpağımda qan izi,
Çalxalayıb nehrə təki dənizi.

Arazım da həzin-həzin ağlayır,
Pıçıltısı ürəyimi dağlayır,
Niskilləri dəstə gültək bağlayır,
Kürdən Xəzər sularına yollayır,
Ahlarını dalğaları qollayır.

Bu Vətənə yad dillilər qor olub,
Cəh-cəhləri ruhumuza zor olub,
Haqqı deyən indi gözdən kor olub,
Bəxtimizdə əsir hicran yelləri,
Batırıbdı niskillərdə elləri.

Əsillərin qara geyib, bəlalı,
Nəsillərin dağ möhnətli, məlalı,
Bütöv olsa artar yurdun calalı!
Bizim yerlər dərd üstündə doğulub,
Şadlıq burda qəm əlində boğulub.

Bulaqların gecə-gündüz qaynayır,
Düzlərində ceyran, cüyür oynayır,
Azərbaycan, dost-düşməni gəl ayır…
Həsrət məni çöllərində sürüyür,
Şad könlümü agrılara bürüyür.

Parçalanmış yurdlarımız ağlayır,
Simə dönüb, qəlbi tel-tel bağlayır,
Ürəyimdə bir dərdim var, çağlayır,
Xan Arazın selləritək gurlaşıb,
Səbrim qalmıb, çünki zaman darlaşıb.

Şəhriyartək şairimin qəmi var,
Vərəqlərdə yazılmamış dəmi var,
Gözlərində həsrət dolu nəmi var,
Bu həsrətin şəbnəmləri qurusun,
Vüsalımız canbir olub yarısın…

Biz də bir gün birləşərik, ey Vətən,
Bir bayraqda dürləşərik, ey Vətən,
Bu amalla sirləşərik, ey Vətən,
Bunu sənə dərdli qızın söyləyir,
Paramparça bədəndə can neyləyir?!

O üzdən də kağızları üzürəm,
Sətir-sətir dərdə çarə gəzirəm,
Fərəhim yox, qolu bağlı əsirəm,
Əsirliyin tikanların qıraydıq,
Qolumuzu bir-birinə saraydıq.

Kaş o günün bizə qismət olaydı,
Bizim üçün əziz nemət olaydı,
Bu ayrılıq tarixlərdə qalaydı,
Xan Arazın üstə körpü tikəydik,
Ətrafına gül-çiçəklər əkəydik.

Bu eşq ilə misraları çözürəm,
Qələm tutub beyitlərdə gəzirəm,
Demə, Vətən, ayrılığa dözürəm,
Bu dözümün əlacına duam yox,
Birləşməsək, bir sakitcə yuvam yox.

Ağrıları misralara yetirdim,
Sapa düzüb xan Araza ötürdüm,
Bu məramla dastanımı bitirdim,
Sağlıq olsa, görüşərik, Güneyim,
Yurd-yuvanla birləşərik, Güneyim…**19.03.1980**

## XOCALI SOYQIRIMI

***Xocalıda rus və erməni işğalçıları tərəfindən qanına qəltan olunmuş minlərlə şəhər sakininin ruhuna…***

-I-

Haqqı-sayım zay oldu,
Diləklərim vay oldu,
Başım cəllad əlində
Axan qanım çay oldu…

***

Qarabağ, yarası qan sızan torpaq,
Qarabağ, yaralı hər kol, hər yarpaq.
Xalqın ölüm-qalım müqəddəratı.
Qeyrətin, namusun son hesabatı!
Ölən ərənlərin şəhid beşiyi!
Qana bələnibdi evi-eşiyi.
Millətin özünə qayıtma andı!
Qarabağ, ahınla xalqım oyandı.
Yüz ildi qan sızır torpağı, daşı,
Əsrin əvvəlinin qanlı yaddaşı.
Daşnaklar əlində sozalan torpaq,
Sızqa işığı da azalan torpaq.
Yanan yurdlarımın dərdli anası,
Azərbaycanımın əsir balası.
Qanlı imperyanın oyun meydanı,
Daha yaddaşından silmə bu anı,
Silmə ölənlərin şivən səsini,
Silmə, həyat deyən son kəlməsini.
Babam da unutdu əsrin əvvəlin,
Uzatdı gavura gül kimi əlin,
Ocağı başında yer verdi ona,
Girdi kafir yağı, girdi min dona…
Ey ürəyi yumşaq ərlər, ərənlər,
Daşnak yuvasında min qan görənlər…
Tarixdən silməyin siz bu günləri,
Çıxarılan gözlər, soyulan dəri,
Min-min kitabların əsəri olsun!
Küt qılıncımızın kəsəri olsun!

Susmasın qələmlər yazsın bu qanı,
Faş etsin dünyaya genosid anı!
Doğulan körpəyə bu öyüd olsun!
Xocalı yurduma son meyid olsun!..

-II-

Analar ağlar naçar,
Sinələr dağlar naçar,
Yurdunda doğulanlar,
Elindən hara qaçar?!..

***

Fevraldı, boz qışın əzazil çağı…
Əsrin yazılmamış qanlı varağı!
İyirmialtısı… qaranlıq gecə,
Udacaq şəhəri şəhər ölüncə..!
Hər an təhlükədə gedib-gələnlər,
Birdi, yüzdü, mindi burda ölənlər…
Sığınıb taleyin qanlı kürkünə,
Şükür edir Xocalı hər ötən günə…
Ermənilər kəsib işığın, suyun,
Qurulub bəxtinə məkirli oyun!
Düşmən uçaqları qəzəblə uçur,
Şəhərin üstündə fəlakət saçır.
Dünyanın axırı çatıb burada,
Bu yurd dərd-ələmdə, bu yurd qarada.
Ümidi qırılmış insanlar qəmgin,
Doğrayır buludlar səmanın əngin.
Tanrı da üzünü döndərmiş burdan,
Xainlər, satqınlar çıxır aradan…
Günbəgün bu yurda bir ölüm çökür,
Körpə fəryadları qəlbləri sökür.
Bunu yer-göy bilir, şəhər əsirdi,
Yağı qan tökməyə çox tələsirdi…
Çünki o Şuşanın yolunda qala,
Kürsü sahibləri yanmadı hala.
Təsəlli verdilər əsir şəhərə,
Dönmüşdü evlərdə çörək zəhərə.
Nə gedən, nə gələn var idi yurda,
Demə, qurbanlıqmış bu yurd da qurda!
Kəsilən yollardan kömək gəlməyir,

Bu nalə, bu zülüm haqqı dəlməyir.
Yaralı Xocalı imdad diləyir,
Yağısa başına güllə ələyir.
Əllər yalnız göydən aman gözləyir..!
Burda hər addımı ölüm izləyir.
Fikirlər beyində belədən-belə,
«Gələr bizimkilər, məhv olar tələ…»
Bu cür xəyallarla dayaq el-elə.
Şəhər ümidini üzməyib hələ…
Gəlinlər, qocalar, analar naçar,
Bağlanan yollardan yurd hara qaçar?!..
Anlar bir-birini gülləyə tutur,
Nə ürək dincəlir, nə gözlər yatır.
Bu mühasirədə ölüb-itən çox,
Fəryada, naləyə, aha gələn yox…
Xocalı Şuşanın ümid çırağı,
Tükənib olanı, yoxdur yarağı!
Çox evdə qatildən xəbərsiz nənni,
Sığıbdı köksünə məsum körpəni.
Kimsə eşitmədi ahı-fəğanı,
Qan oldu gecənin qara yorğanı!
Düşmənin məkirli pılanı hazır,
Bu günahsız yurda bir ölüm yazır…

-III-

Xerosima, Naqasaki başını qaldır,
Bax bu əsrin sonunda bu nə qeylü-qaldır?!
Xocalıya ruhun uçsun məhv olmuş Xatın,
Nədir bu Soyqırımında şəhid həyatın?!..
Nə Napaleon, nə də Hitler bu hökmü vermib,
Heç bir millət, var olandan, bu zülmü görmüb!
Heç bir yağı körpələrə qıymayıb, Allah,
Görən gözün, duyan köksün oymayıb, Allah.
Heç bir yurdun sinəsində bu dağ olmadı,
Bir gecədə Xocalıda heç kim qalmadı…
Zəlzələmi bu torpağın sinəsin yardı?
Selmi coşdu Xocalının qoynuna vardı?
***
Yox, yox, nə zəlzələ, nə də daşqındı,
Yuxulu Xocalı hələ çaşqındı.

Qanlı rus alayı var Xankəndində,
Min badə qaldırır daşnakla gündə.
Kafirlər, gavurlar birləşib yenə,
Salıb Xocalını bu qara günə.
Gecədi, cocuqlar, körpələr yatmış,
Əsir Xocalının axırı çatmış.
Doldu tavanlara güllə yağışı,
Heyrətdə buraxdı boranlı qışı.
Qocalar, uşaqlar qaçır küçəyə,
Ayaqlar düşürdü od gölməçəyə…
Yanır çırta-çırtla evlər, eşiklər,
İmdada möhtacdı körpə beşiklər…
Şəhərə hər yandan tanklar şığıyır,
Bu yurd varlığıyçın özün qarğıyır.
Qaçanı yollarda güllə haqlayır,
Kafirlər şikarı odla dağlayır.
Döşənib torpağa minlərlə meyid,
Yağıya gərəkmi yalvarış, öyüd?
Düşmənin əlində əsir camaat,
Qana boyanıbdı burdakı həyat.
Zinətli barmaqlar kəsilir o an,
Fışqırır başlardan, üzlərdən al qan.
Döşlərdə körpələr süngüyə keçir,
Bu gün ermənilər türk soyun biçir!..
Sinəsi yaralı qadınlar nalan,
Əcəl də, ölüm də bu yerdə yalan.
Yaralar qan tökür, yağılar güllə,
Bu qan deyiləsi deyildi dillə.

***

Ayağladın azğın yağı,
Namusumu, arımı,
Tarixlərin qan varağı,
Xocalının Soyqırımı!

*

Min illərin yaddaşında,
Qalanların göz yaşında,
Şəhidlərin başdaşında…
Xocalının Soyqırımı!

*

Tapdalanmış qeyrətimiz,
Ayaqlanmış millətimiz,
İşgəncəmiz, zillətimiz,
Xocalının Soyqırımı!

*

Yağıların kəsər dişi,
Başkəsənin haqq vərdişi,
Qanlı əlin qan gərdişi,
Xocalının Soyqırımı!

*

Əsir düşmüş birliyimiz,
Parçalanmış ərliyimiz,
Murdarlanmış pirliyimiz,
Xocalının Soyqırımı!..

***

Gecə öz yerini vermiş səhərə…
Gündüz əyləşmişdi qara kəhərə.
Bağrı qan zülmətin gülləsi susmuş,
Qaranlıq ötən gün min yol qan qusmuş!..
Allah vəhşilikdən səsini qısmış…
Günahsız gecəni boğazdan asmış.
Qara örpək geyib ağappaq səhər,
Nə ölüm, nə də qan görmüb bu təhər.
Əsir Xocalının sinəsi yanır,
Həyatın nəbzi burda dayanır.
Meyidlər çöllərə, yollara dolmuş,
Burda həqiqət də, həyat da solmuş!
Canı boğazından çıxmamış canlar…
Qırmızı lalə tək torpaqda qanlar…

Yanan Xocalının sinəsi dağlı,
Haqqın, ədalətin qapısı bağlı!..

***

Ey milli qırğına çağıranlarım,
Kürsüdən xalq deyib bağıranlarım,
Ağır saatlarım, ağır anlarım,
Erməni əlində yandı Xocalı,
Milyon il keçsə də qandı Xocalı.

*

Qucağı al qanla dolmuş analar,
Daşnak zindanında əsir sonalar,
Getdi əlimizdən namus, ismət, ar,
Xalqın sinəsinə dağdı Xocalı,
İndi yuxularda sağdı Xocalı.

*

Ağlama, Qarabağ, azəri yurdu,
Hanı ər oğullar, hanı ər ordu?
Evimdə, çölümdə yağı tor qurdu…
Tökülən qanlardan göldü Xocalı,
Cocuğlu, çağalı öldü Xocalı.

*

Allahım, İlahim, hardasan, harda?
Qalıb neçə bölgəm, elatım zorda,
Sədəlövh millətim inləyir darda,
Milli hissimizə qordu Xocalı,
Daşnak ğenosidin yordu Xocalı.

*

Özgə havasıyla yuxulayanlar,
Min nazü-neməti qoxulayanlar,
Eli ağır gündə darda qoyanlar…
Yandı diri-diri, yandı Xocalı,
Xalqın ölüm-qalım andı Xocalı!

*

Umudlu, Malıbəyli, Quşçunun malı,
Dağıldı didərgin əhli-əyalı…
Göyləri titrədir bu yurdun halı,
Qanlı Daşaltıya taydı Xocalı,
Eli satanlara vaydı Xocalı.

*

Əyilmə, ey Vətən, dik tut başını,
Tökmə gözlərindən qanlı yaşını,
Uğrunda hər şəhid vətəndaşını –
Tarixin köksünə yazdı Xocalı,
Xainin məzarın qazdı Xocalı.

*

Köksü kabab olmuş, ellərim, ağla,
Dağlarım, daşlarım, çöllərim, ağla,
Sinəsi yaralı illərim, ağla,
Süngüylə doğrandı əsir Xocalı,
Əlacsız Şuşama qəsir Xocalı!..

***

Qoca dünya, bu tarixi silmə öz yaddaşından,
Min-min qanlı sellər oldu ellərin göz yaşından…
Od püskürür yerə, göyə ürəyimin başından…
Yandı içim, yandı köksüm imdad eylə, Allahım!
Vəhşi, barbar beyinləri abad eylə, Allahım.

*

Fəqət yetər, yetər, Vətən min yerə parçalandı,
Ürəklər  də, məramlar da elə hey haçalandı…
Ağır yurdlar, ağır ellər göz önündə talandı,
Xocalının müsibətin yerdə qoyma, Allahım!
Divan qurub, sən hökmü ver, qana uyma, Allahım.

*

Kərəminə sığınmışıq, Sənsən ümidgahımız,
Qara çadra geyinibdi hər gələn sabahımız,
Ərşə bülənd olub daha qan ağlayan ahımız,
Uçurt, dağıt  zülüm evin qərəzinlə, Allahım!
Ölç-biç vəhşi insanlığı tərəzinlə, Allahım.

*

Millətimin sinəsində şəhid ağrı-acısı,
Yandı daşnak sitəmində min-min qardaş, bacısı,
Səbirimiz tükənibdir ürək ası, dil ası,
Parçalandı Azərbaycan bir Arazla, Allahım!
Sənə bəlli vəhşiliklər, sən tarazla, Allahım!!!..

-IV-

Yandıracaq dağ-daşı,
Yurdda hər vətəndaşı,
Qurumaz gözüm yaşı,
Xocalı qiyaməti…

*

Göylərdən qan ələyər,
Min il keçsə qədd əyər,
Dünyadan haqq diləyər,
Xocalı qiyaməti.

*

Ölən bacı, qardaşdı,
Yanan torpaqdı, daşdı,
Min-min qanlı başdaşdı…
Xocalı qiyaməti…

*

Sındı qolum, qanadım,
Yandım, Allahım, yandım,
Yağıya savaş andım,
Xocalı qiyaməti…

*

Zülümü düzdə qoyan,
Yalanın köksün oyan,
Haqqı dünyaya yayan,
Xocalı qiyaməti…

*

Fələkətlə üz-üzə,
Düşmənə qalxan, nizə,
Döndü qanlar dənizə,
Xocalı qiyaməti.

*

İntiqam, qisas deyər,
Qeyrət qapısın döyər,
Ölüncə qəlbi döyər…
Xocalı qiyaməti…

*

Yurdlar pərən-pərəndi,
Zülüm ərşə dirəndi,
Haqq haqqına ərəndi,
Xocalı qiyaməti…

*

Ağlayar kağız, qələm,
Yanar ahımdan aləm,
Əcəl can verməz öləm,
Xocalı qiyaməti…

*

Əsir yurdun fəryadı,
Yetməz Tanrıya dadı,
Soyqırımıdı adı –
Xocalı qiyaməti…

-V-

Ey rus xalqı, gözünü aç, bax bu qanlara,
Yandırılmış, parçalanmış şəhid canlara.
Tarixlərdə yer verilmib bu divanlara,
İmperyalar millətini şərəfli etmib,
Heç bir cəllad taxtı-tacı axıra yetmib.

*

Daşnakların dəyirmanı çox su apardı,
Tanrı özü bu qanlarçın tufan qopardı,
Neçə-neçə Pyotrlar atın çapardı…
Göstər mənə tacı-taxtın şərəfin, adın,
Onları da bu dünyaya gətrib rus qadın.

*

Ey rus xalqı, Yesenin əziz övladı,
Bu gün azad ölkənizdə azadlıq dadı,
Sizə-bizə yaxşı bələd faşizim adı!
Min-min ölən-itən oldu o qalmaqalda,
Yaxşı bildik nədir o vaxt zəncirlər qolda?!

*

Bakı nefti evinizdə çırağa döndü,
Faşistlərlə vuruşlarda yarağa döndü,
Vətənimin pak ürəyi sizlə döyündü…
Qanımızla, canımızla birləşdik onda,
Doğulandan ölənədək bu xalq bir donda!

*

İndi daşnak taununa yurdum gillənib,
Nə olubdu axar sellər belə lillənib?!
Andranik havalılar yenə şellənib,
Planı cızır, möhür basır o rus oğullar,
Vətənimin istiqlalın yenə boğullar.

*

Ey rus xalqı, özün ara kimdi savaşan,
Sənin, mənim silahımla həddini aşan,
Özgə yurdda vəhşi kimi gəzib dolaşan,
Oğulların hara tökür güllə yağışın?!…
Bilməliyəm, bu qanlara nədir baxışın?

*

Ey rus xalqı, sənin oğlun bu yurdu böldü,
Qarabağın axan qanı min çaydı, göldü,
Böyütdüyün qansızlarla Xocalı öldü!
Bir qiymət ver əli qana boyananlara,
Daşnakların arxasında dayananlara.

*

Para ilə vicdanları satana, lənət!
Haqqı danıb vəhşiləri tutana, lənət!

Cəlladların kölgəsində yatana, lənət!
Ey rus xalqı, şirindirsə azadlıq əgər,
Pak yolunda şəhid yurdum dünyaya dəgər!

-VI-

Düyünlənən yumruğumuz silah davaya,
Bağrımızdan püskürən od qalxsın havaya,
Qan çanağı Xankəndində çevrilsin vaya!
Qurğuşuna dönsün orda şər gözü ovsun,
Əsli-kökü olmayanı bu yurddan qovsun.

*

Ey Vətənin oğlu, qızı, gedək səngərə,
Sipər olsun yağılara hər dağ, hər dərə,
Dığaların qollarını gərək el gərə!
Gül qoxulu qızlarımız yağı əlində,
Qisas yurdun ürəyində, qisas dilində!

*

Eldən gələn el malını çalıb-çapdılar,
İki yüz il məmləkətə zülüm yapdılar,
Çoxaldılar mikrob təki, yolu sapdılar…
Yetər daha bu aldanış, verək əl-ələ,
Zəfər çalaq bu savaşdan gün doğsun elə.

*

Qalibiyyət bizimlədir, Tanrı haqqa yar,
Qisas deyib haray çəkir namus, ismət, ar,
Azərbaycan qədim yurdsa-qurd ərləri var…
Xocalının şəhid ruhu qan bu dağ-daşa,
Zəfərlə çıx savaşlardan, ey Vətən yaşa!

*

Meşələrdə donanların ruhu eşqinə,
Xocalının yanan köksü, ahı eşqinə,
Geyin bozqurd libasını, igid, əyninə,
Əyilməyən qürurunu göstər yağıya,
Son qoy Vətən torpağında vaya, ağıya!

*

Bunu sənə gözü yaşlı qız, gəlin deyir,
Min illərlə qılınc vuran sərt əlin deyir,
Azərbaycan adlı böyük bir elin deyir,
Vətənsizə nə səadət?! Vətənlə yaşa!
Qırılmalı zəncir, buxov, yol qurtuluşa!
Zəfərlə çıx savaşlardan, ey VƏTƏN, yaşa!!!

**03-05.03.1992**

## DAĞ EVİN NAĞILI

### *Nəzm-hekayə*

Səhər durub yığışıb bir məkana yol aldıq,
Həsənqala yurduna qəfil güzarı saldıq.
Ruhumuza köçürtdük şimala gedən yolu,
Yollar istidən qaçan maşınlarla lap dolu.
Heyran olduq bu yurdun torpağına, daşına,
Az gedib düz dolaşdıq, yetdik mənzil başına.

***

Biz günorta yetişdik getdiyimiz diyara,
Bakının istisindən düşmüşdük xoş bahara.
Ev yiyəsi, qız-gəlin, ata-ana yığışdı,
Gözlərində bir dünya sevinc qaynayıb daşdı.
Gəlib qapı ağzına qarşıladılar bizi,
Sevinclə aşıb-daşdı evdəkilərin üzü.
Allahın sevdiyi yurd, cənnət məkandı bura,
Yaşıllıq içindədir, yer-göy seyrinə dura.
Başı göyləri dələn ağaclar bar içində,
Əkilmiş tərəvəzlər dadlı nübar içində.
Yerin köksündən baxan gül-çiçək şehə batıb,
Budaqlar xışıldayır, yarpaqlar mehi tutub.
Təzə tikilmiş evdə memarın əli gəzib,
Zəhmətə köklənənin çəkici, beli gəzib.
Evin dörd bir tərəfi yaşıl ota bükülüb,
Elə bil göy üzündən bura nemət tökülüb.
Oxur cırcıramalar bağça içrə ahəstə,
Səslərinə səs verir toyuq-cücə də pəstə.
İlahi bir məkanın cənnətinə gəlmişik,
Dünyanın gözəlliyin biz burada görmüşük.
Uzaqdan Şahdağının ətəkləri görünür,
Qara bulud topası zirvələrdə sürünür.

***

Evin lap yaxınından çayın səsi gəlirdi,
Suların zümzüməsi qulaqları dəlirdi.
Xəfif sərin küləklər ağacları oynadır.
Havanın sərinliyi günəş istisin udur.
Evin təmizliyinə, xoş mehrinə düşmüşdük,
Biz cənnətin özüylə burada görüşmüşdük.
Can yoldaşım, bir də mən təbəssümə büründük,
Duyğumuz təzələndi, mələk kimi göründük.
Evin xanımı, sanki göyərçintək uçurdu,
Gülmüsər baxışıyla ora-bura qaçırdı.

Qaynana-qaynatanı gözlə əzizləyirdi,
Masaya süfrə sərib xörəkləri düzürdü.
Samovar lap adama xüsusi zövq verirdi,
Çayın ətri ürəyə xoş duyğular sərirdi.
Manqalın cızıltısı bağ içrə dolaşırdı,
Burnumuz da kababın iyinə bulaşırdı.
Bağ içində toyuqlar, cücələr qaçışırdı,
Hinduşkalar çəpərin üstündə uçuşurdu.
Günəş hərdən buludlar içindən çıxıb baxır,
Ürəyə atəş tökür, köksü yandırıb yaxır.
Qoca palıd uzaqdan budaqların tərpədir,
İlahi, bu mənzərə adamı bihuş edir.
Yarpaqları ipəkdən akasiya ağacları,
Başlarında bərq vurur yaşıl-bəyaz tacları.
Elə bil biz illərin tanışıydıq, bu evdə,
Sıxılmaq, çəkinmək nə, çətinlik yox heç nədə.
Həyətin bəzəyidi masa və oturacaqlar,
Səhər oldu bəyaz şeh ot-əncəri qucaqlar.
Biz masanı gün düşən tərəfdən qaçırardıq,
Tapıb kölgə bir yeri günəşi uçurardıq.
Evin dörd tərəfində masamız gəzişirdi,
Bu iş hər birimizə vəzifətək düşürdü.
Hamının üz-gözündən mehribanlıq yağırdı,
Səhərin erkən şehi buludları sağırdı.
Ayılıb xoruz banı bağ içinə çıxırdıq,
Kəndin gözəlliyinə göz dolusu baxırdıq.
Uzaqdan çayın səsi, gözəl nəğmə oxurdu,
Quşların civiltisi qəlbə xalı toxurdu.
Doyunca saf havanı ciyərə doldururduq,
Ruhumuz zirvələrdə, könlə məkan qururduq.
Dadlı kürə çörəyi ətiriylə gəl deyirdi…
Ruhumuz qanadlanıb öz-özünü öyürdü.
Bu evin uzun saçlı Günel qızı bir aləm,
Qaşlarna Tanrıdan çəkilib qara qələm.
Ağ üzündə dünyanın sevinci dolaşırdı,
O körpəcə ürəkdə dilək aşıb daşırdı.
Ananın buyruğuna canla-başla qaçırdı,
Elə bil yerlərdə yox, o, göylərdə uçurdu.
Yeniyetmə Elmanın fikirləri dolaşıq,
Gözlərindən aləmə nur saçırdı gur işıq.
Bu il orta məktəbin sonuncu sinifində,
Taleyi yürü deyir qulağına hər gün də!

***

Evin yiyəsi Ceyhun həm şair, həm müəllimdi,
Ürəyi, söz-söhbəti bulaq təki həlimdi.

O tarixdən dərs deyir şagirdlərə məktəbdə,
Sözləri aşıb daşır, şeriyyət gəzir təbdə.
Hələ neçə kitabı işıq üzü də görüb,
İlhamın bağçasından güllər, çiçəklər dərib.
Balaqusarın eli ona yaxşı bələddi,
Səsinin avazında uçur şeirin səddi.
Ruhu xeyir misallı, qəlbi açıq  ziyalı,
Bütün uğurlarına dəstək olan əyalı.
Onun şair ürəyi söz-söhbətin məkanı,
Oturub dərdləşirdi tapan kimi imkanı.
Bizi götürüb hərdən dağa, düzə gedirdi,
Ruhumuzun içində sevinc pərvaz edirdi.
Dil-dodağından şeir əskik olmurdu heç vaxt,
Bu beş günün içində sutək axıb getdi vaxt.
***
Can yoldaşı Vəsilə evin gözəl gəlini,
Hər bir buyruğa qaçar, işdən çəkməz əlini.
Atası da Vəlixan üzügülər adamdı,
Ətrafda oğul-uşaq ürəyə yatan kamdı.
Anası Cəmilənin gözündə dünya gülür,
Nəvələrin sevinci qəlbə axıb tökülür.
Demə, ürəkdə şe‘rə böyük həvəsi yatır,
İçində ilhamının hıçqırtıları batır.
Onun da şeriyyəti gözlərindən boylanır,
Qəlbində yazmaq eşqi gizli alışıb yanır.
Yazdığı şeirləri bir kitabda toplanıb,
Keçdiyi həyat yolu ürəyinə saplanıb.
Demə, şair ananın şair oğludu Ceyhun,
Ruhuyla şeriyyata candan bağlıdı Ceyhun.
Sözünün qibləsini, Kəbəsini tanıyır,
Onu yaşadan eşqdi, ağlı eşqlə sınayır.
Həmkarımın evinin havası necə safdı,
Dostluğa qiymət verən, onu duyan sərrafdı.
***
Bu beş günün sevincin köçürtdük qəlbimizə,
Ruhumuz təzələndi, işıq bəxş etdi bizə.
O günləri hələ də məhəbbətlə anıram,
Bir də ora dönməyin havasıyla yanıram.
Dağ evin nağılını burda sona yetirdim,
Siz sağ, bizsə salamat. Hekayəmi bitirdim.

**24.08.2016**

## KAHADA ÖLÜM HÖKMÜ

***Bütün yer kürəsində öz torpaqlarında günahsız şəhid olmuşların müqəddəs ruhuna!***

**İki pərdəli, dörd şəkilli mənzum dram**

İştirak edirlər:

Sultan kişi-60 yaşında
Fatimə ana-52 yaşında
Azərtac-onların qızı16 yaşında
Günay-onların qızı 14 yaşında
Qorqud-oğlu 18 yaşında
Suzanna-erməni qadını 45 yaşında
Boris - onun əri 50 yaşında
Digər əskər və zabitlər, gözətçilər
İlahi səs

### I-Cİ PƏRD. I-ci şəkil

***1 mart 1992-ci il. Bir neçə gündür ki, Xocalı şəhəri erməni işğalçıları tərəfindən darmadağın edilib. Vəhşi işğalçılar hələ də dağ-daşda, meşədə, düzənlikdə qalan yüzlərlə meyidin öz torpaqlarında dəfn olunmasına belə aman vermir. Təsadüf nəticəsində işğalçılardan canı qurtulmış Sultan kişi üç uşağı və həyat yoldaşı ilə birlikdə rast gəldikləri balaca kahada gizlənirlər.***

***Sübh, səhər dan yeri yenicə sökülmüş, bu zaman yaxınlıqdakı cığırdan Əskərana gedən erməni qadını Suzanna seyrək ağaclıqda bir kişinin əyilə-əıyilə quru şaxları yığdığını görür. Suzanna tələsik Əskarana üz qoyur. Bütün bunlardan xəbərsiz binəva Sultan kişi kahaya gəlir. Növbəti facİəni hələlik alın yazısı olsa, belə ağlına gətirməyərək içəri daxil olur…***

**Sultan kişi /qayğılı və iztirablı/**

Bir az odun yığıb gətirdim sizə,
Şaxta da dayanıb yağıtək üzə.
Bura gözdən iraq, könüldən uzaq,
Dondurmamaq üçün bizləri sazaq,
Dedim çır-çırpını yığım gətirim.
Azca sıcaqlıqçın sizə yetirim.
Balaca bir ocaq qalayım gərək,
Bəlkə imdad etdi, yol açdı fələk…

**Fatimə ana /gözü yaşlı və həyacanlı/**

A kişi, tüstünü görər erməni,
Nə olub, a balam, qan tutub səni?
Yorğana bürünüb oturmuşuq da,
Bir az suyumuzda vardır tuluqda.
Bakıdan ümidi üzməyirəm mən,
Qarabağ göyündən çəkilər bu çən…

**Azərtac /son dərəcə gözəl/**

Ana, Xocalının ahı-vayları,
Qanlı çeşmələri, qanlı çayları,
Hər gecə yuxumda tufana düşür,
Bir çaylaq daşıtək həyat sürüşür…
Görürəm, Günayla məni yağılar
Tutub, ləkələnib namus, ismət, ar.
Onsuz əsirlikdən qurtulmaq çətin,
Biz qurbanı olduq ah, xəyanətin!
Doğma ocağında əsir olasan?

**Günay /həyacanla /**

Tanrım, aralıqda yurdsuz qalasan?
Ata, yalvarıram öldür sən bizi!
Qurtar fəlakətdən bu qəlbimizi.
Hər tərəfdə yağı qurtulmaq çətin,
Əsir düşməkdirmi sənin niyyətin?
Öldür anamı da, qoy qul olmasın,
Enib yağılara saçın yolmasın…

**Qorqud /yumruqlarını hikkə ilə sıxır/**

Günay nə danışır, ah, aman, Allah,
Biz qaçaq siz ölün, bu ki, lap günah.
Onsuz çörəyimiz daha qurtarıb,
Axır günlərimiz kahaya varıb,
Acından hamımız ölərik bir gün,
Bəxtimizin quşu düşüb didərgin.
Ömrümüz sərgərdan, yurd, zaman gərgin.

**Sultan kişi /son dərəcə qəzəbli/**

Aman, ya Rəbbim, bir az səbr ver,
Qopmasın ayağım basdığım bu yer…
Öz doğmalarımı özüm öldürüm?
Zəlil olduğumu bir də bildirim!
De, Tanrı nə deyər nahaq qanlara?

Əlimlə etdiyim bu divanlara?!
Bəs yağı əlinə düşsələr necə?
Ləkəli namusla yaşamaq becə.
Ah, nələr söyləyir dilim, İlahi?
Özün yerdə qoyma qırğını ahi!
Səbr edin, gecəni bir başa vuraq,
O qadir Allahdan bir çarə bulaq…

**Fatimə ana**

Nə deyim Tanrının səbri böyükdür,
Bəxtimiz havadan asılı tükdür…

**Pərdə bağlanır**

2-ci şəkil

***Əskaran, Borisgilin evi. Suzanna şam yeməyini mizin üstünə düzə-düzə səhər gördüyü mənzərəni ərinə nəql edir.***

**Suzanna**

A kişi, şad xəbər verəcəm sənə,
De, nə alacaqsan əvvəlcə mənə?
Bəxtimiz gətirib qazanc yeri var…

**Boris /acgözlüklə/**

Axçi, ay arvadım, a sevimli yar,
Bir tuluq çaxırım sənə muştuluq,
Süfrə aç, mən özüm eyləyim qulluq.
Axırları çatıb, türklər öləcək,
Vazgen özü, bir gün, bura gələcək

**Suzanna /tədbirliklə/**

Oğuldan, uşaqdan heç nəyimiz yox,
Bir məni saxlaya bilməyirsən tox.

**Boris /əsəbli/**

Arvad, bildiyini bir danışsana,
Özün öz işinə sən qarışsana.
Məzhəb haqqı məni gətirdin cana,
Nə qədər var-dövlət gərək insana?
Hələ Xocalıda yığdıqlarını,

Özgə inəklərin sağdıqlarını…
Ay qız, itirmisən sən lap arını,
Qızılı, sərvəti min bir varını,
Qoymağa yerin yox, hey ağlayırsan.

**Suzanna /arxayınca/**

Boris, yenə nə çox yorğalayırsan?
Yaxşı, sən öl, çıxma özündən daha,
Məzhəb haqqı, işin qalıb Allaha!
Türkün var-dövləti mənə şirindi,
Bizim ulduzumuz göydə göründü!..
Mükafat gözləyir ocağımızı,
Şad müjdə verəcək erməni qızı!

**Boris /son dərəcə maraqla/**

Söylə, qəlbindəki muradı anım,
Uzatma, bir danış, sən mənim canım.

**Suzanna** (pıçıltıyla)

Meşənin yanından keçirdim, Allah,
Gördüm kol-kosluqda türk kişisi, ah,
Əyilə-əyilə odun yığırdı,
Göydən lopa-lopa lam qar yağırdı.
O məni görmədi, canımda qorxu,
Sakitcə sivişdim, sanki bir yuxu!
Dedim, görsə məni boğar bir anda,
Sus, bunu danışma sən də hər yanda.
Özüm deyəcəyəm sabah zabitə,
Ki, ovun üstünə sakitcə yetə.
Mən var atəşindən bir an sönmərəm,
Bəxşiş verməsələr evə dönmərəm.
Gərək bəhərini əlimlə dərəm,
Bu işin bəhrəsin özüm də görəm.

**Boris /hiyləgərcəsinə/**

Ay arvad, gözlərin yaman itidir,
Hə, sabah gedirsən, fikrin qətidir?
Bəlkə biz işlədək onu həyətdə,
Saxlayaq heyvantək onu xəlvətdə.

**Suzanna** (tədbirli)

Bəlkə, heç tək deyil o türk kişisi,
Çoxdur ağaclıqda erkək, dişisi…
Ətrafdan gəlirdi ocaq iyisi.

**Boris** (kefi kök)

Yəqin ölüm çəkib onun da meysi,
Erkən rast gəlib sən əzrayıla,
Vallah, canı-dildən könlüm maila,
İş sənə havalə, özün bilərsən,
Əhsən, belə arvad fəhminə əhsən.

## 2-Cİ PƏRDƏ. 3-cü şəkil

***Sübh açılır, səhər öz üzünü göstərmək üzrədir. Əskəranda erməni zabitlərinin olduqları bir mərtəbəli bina, uzaqdan sərxoş əskərlərin qəhqəhələri gəlir. Sanki onlar rus qoşunlarının köməkliyi ilə qanlar içində boğduqları Xocalının ahı-fəryadlarını bayram edirlər. Bu zaman Suzanna tələsə-tələsə özünü dəhlizə yetirir. Dəhlizin qapısında əli avtomatlı erməni əskəri dayanıb, erməni qadını onun qulağına nə isə pıçıldayır və içəri daxil olur. Gözətçi onu başqa bir əskərlə baş erməni zabitinin olduğu otağa yollayır. Suzanna qapını döyməmiş özünü içəri salır.***

**Suzanna /hiyləgərcəsinə/**

Başımızın tacı gəlmək olarmı?

**Baş zabit /təkəbbürlü/**

Millət bir-birindən izin alarmı?
Erməni hardasa, orda dayağım,
Meşinli qapılar açar ayağım!
Canımla, qanımla millətə qulam,
Mən ölsəm yolumla gedəcək balam.

**Suzanna /nazla/**

Erməni zabiti, xoş gördük sizi,
Mən dünən tapmışam növbəti izi…
Göylərə qaldırar igidlik eli,
Axsın türkün qanı gurlatsın seli!
Bizim şöhrətimiz dünyanı aşıb,
Ayrı planeti gəzib dolaşıb.
Amerka, Fransa bizə can deyir,
Ruslar bir süfrədə bizimlə yeyir.
Sizdəki qüdrətə baş əyirəm mən,

Çəkilsin Arsaqdan çiskin, duman, çən.
Ondoqquzuncu əsr yüz əlli nəfər,
Eylədi İrandan Arsaqa səfər.
İndi yüz əlli min olmuşuq bu gün,
Sadəlövh türklərsə yurdsuz, didərgin.
Bir də xristian albanlar bizi,
Can bilir, buraxmır heç əlimizi…
Çox da onları biz saymırıq qandan,
Onlar birləşiblər bizimlə candan…
Mərhəba, erməni xalqı, bir gün də,
Şahı olacaqsan yerin, göyün də!..

**Baş zabit /qəhqəhə ilə/**

Axçi, ay madonna, dilin bıçaqdır,
Erməni qızları, vallah, qoçaqdır!
Millət tarixini bilməli yaxşı,
Varlığın belədir həyata baxşı…!
Gəl yüz tut, arağı vurum səninlə,
Mən bir tost deyəcəm, sən məni dinlə.

**Suzanna /Özündən razı/**

Mən ki, cənab zabit, əmrə müntəzir,
Könlümdə dəhşətli bir qisas gəzir.

**Baş zabit / mizin üstündəki tut arağından iki qədəhə süzür./**

Erməni gözəli, qədəhi götür,
Könlümə bir dürlü səadət yetir.
Gəl vuraq qədəhi qədəhə bir an,
Qoy cövlan eləsin bu hiss, həyacan …
İç, böyük xalqımın gözəl maralı,
Mələklər tərəfdən sinəm yaralı!..

**/zabit Suzannanın dodaqlarından öpür…/**

**Suzanna**

Yaralı köksünə mən özüm qurban,
Sənə müjdə verim izin ver bir an.
Söylə, mükafatım sonda nə olar?
Bu işdə bəndənə nə bəxşiş qalar?

**/Baş zabit bir az kefli mizin siyirməsini çəkir, orda bir xeyli zinət əşyaları bərq vururdu, o göz oxşayan altunların içindən qızıl bir saatı əlinə alır və özü Suzannanın qoluna salır. O, təkəbbürlü/**

Dünən türk qızını gəbərtdim burda,
Cəsədin tullatdım meşədə qurda!
Öncə iynə vurub, gecə kef etdim,
Kefim istəyəntək kamıma yetdim,
Qızları pak çıxır bu batmışların…
Qoynuna qoymuşdu altunun, varın.
Əvvəl danışmırdı o heç bir ağız,
İynə vuran təki bülbül oldu qız.
Demə, nişan olmuş ona keçən ay…

**Suzanna /əsəbi/**

Yaxşı ki, siz ona tez qurdunuz vay!

**Baş zabit**

Bu qızıl saatı, xeyli altunu,
İnsanın sabahı, yaşam atını,
Tökdü ayağıma, buraxım onu,
Bilmədi çatıbdı bədbəxtin sonu..!
Yalvardı toxunmum mən paklığına,
Nə qədər girdimsə çox qılığına,
Yaxın buraxmadı məni o zalım.
Basım qucağıma kamımı alım.
Yaman möhkəm olur bu türk qızları,
Namus-ar onların bəxt ulduzları.
İynə öz işini gördü bircə an,
Bir gecə qoynumda oldu gözəl can.
Zülmlə öldürdüm türkün gözəlin,
Günah özündəydi, kəsmədi dilin…
Sonra da döşlərin üzdüm yerindən,
Köksünə güllələr düzdürdüm dən-dən…

**Suzanna /razılıqla qoluna baxır/**

Türklər qırılmalı Arsaqdan daha,
Az qalıb o xoşbəxt, gözəl sabaha.
Dünən bir türk gördüm meşədə qəfil,

Yamanca qorxurdu yəqin ki, tifil.
Əzrayıl da yoldan məni çağırdı…
Arsaqda türk görmək necə ağırdı?
O kişi tək deyil gərək ki, orda,
Qaçıb gizləniblər o vurhavurda.

**Baş zabit /qəhqəhələrlə/**

Erməni qızına eşq olsun bu gün,
Qoy Stepanakerdə çatsın müjdə, ün
Xankəndini etdik stepankəndi biz,
Bu yurdla əbədi vurur qəlbimiz!..
Gedib axtararıq elə indicə,
Bilirəm, Suzanna söyləməz becə.
Özün apararsan gördüyün izə,
Göstər o yuvanı bu saat bizə.

**Suzanna /qürurla/**

Baş üstə, göz üstə, ey Vətən oğlü,
İlahi tək bizə veribdi ağlı…

***Onlar tələsik çıxırlar, on nəfər erməni əskəri ilə yola düşürlər. Gedənlərin arasında iki nəfər muzdlu zənci, iki nəfər də rus var.***

**4-cü şəkil**

***Dolu nahar vaxtı. Sultan kişinin ailəsinin gizləndiyi kaha, Azərtac gecə gördüyü yuxunu həyacanla danışır. Kahanın bir küncündə ocaq tüstülənir, ocağın üstündə hisli qazanda su qaynayır…***

Azərtac /ağlar/

Yuxuda gördüm ki, qurulub mağar,
Burada nə qədər qohum, tanış var.
Qorquda toy edir bütün el, elat,
Dava yox şadlıqla çağlayır həyat.
Mən də qol götürüb toyda süzürəm,
Sanki, yad baxanın bağrın üzürəm.

**Fatimə ana /həyacanla/**

De ki, axırımız çatıb bu sabah,
Özün arxa dayan bizə, ey Allah!

Ya bir ölüm yolla hamımız bataq,
Köçlə, külfət ilə kahada yataq.
Yada ki…

**/Ümidsiz hönkürür. /**

**Sultan kişi /qəzəbli və qorxulu düşüncələr İçində/**

Sus, sus, şivən salma, ay arvad, dayan,
Allaha borcluyuq bir quruca can.
Gəlsələr əlimlə qıraram sizi,
Görən olmayıbsa kim tapar bizi?

**/qəlbi ilə danışır…/**

Bir quş tüfəngi də yoxdu, ay Allah,
Düşmən sinəsindən qoparım min ah!
Yağının əlində topu, tankı var,
Bəli, silahsızı silahlı qovar…
Biz hələ yatmışıq fil qulağında,
Vətənin, torpağın ağır çağında.
Kürsü düşkünləri kürsüyə əsir,
Anamız, bacımız yağıya əsir…

**/Bu zaman Fatimə ananın fəryadı gəlir…/**
**Fatimə ana /nalə ilə/**

A kişi, nə getdin xəyala yenə,
Alışır nifrətdən, hiddətdən sinə.

**Sultan kişi /diksinir/**

Ay arvad, ağzını bağla bir hovur,
Axmaq fikirləri başından sovur.
Erməni evləri talayır indi,
Xocalı odlanıb, Allah, nə gündü?!

***Bu zaman yaxınlıqda erməni, fransız, rus dillərində danışıq, kobud əskər çəkməsinin səsi gəlir…***

**Fatimə ana /qorxa-qorxa/**

Qız, yuxun qaraya qalaydı, bala,
Bu qədər zülm olar, ey Alla-Taala!

**Sultan kişi tələsik baltanı axtarır, fəqət dünən meşəlikdə salıb itirmiş…**

Hardadı, baltanın yerini deyin?
Necə hiss etmədim düşüb itdiyin?

Fatimə ana /vahimə içində/

Balta avtomata nə edər kişi?
Sən də itirmisən canla gərdişi!

**/bir qədər fasilə/**

***Bu zaman Susanna, erməni zabiti və əskərlər kahaya doluşurlar. Onların əlində ölüm saçan avtomatlar…***

**Baş zabit /quduzcasına/**

Suzanna, gör necə ov bəxşiş mənə,
Qəhrəman adını verəcəm sənə!

**Suzanna /kinli-kinli/**

Əgər türklərdə də olsaydı nifrət,
Bizi məhv etməkçin tapardı cür'ət!
Yaxşı ki, onların ürəyi yumşaq,
Sanki ağılları bir körpə uşaq.
Biz pislik edirik, onlar yaxşılıq,
Bu millət əbədi niyə xoşqılıq?…
Bu türk köpəkləri qırılmalıdır,
Hər köksə min güllə vurulmalıdır.
Hansını göstərsəm birinci onu,
Doldurun gülləylə murdar qoynunu!

**Baş zabit /həqarətlə/**

Kişi, Xocalıdan siz qaçmısınız,
Burada nə gizli yurd açmısınız?
Ara, o dəhşətdən siz qalırsınız?
Qırıla-qırıla çoxalırsınız…
Necə itirmisiz o gecə izi?
Ölmü kor etdiniz tapmasın sizi…
Tanrıdan güclüdür bizdəki qüvvət,
Əzrayıldan aldıq sübh-səhər dəvvət.
Sizin ki, ünvanı o verib bizə,
Qanınız dönəcək, indi dənizə.

Ha, ha, ha, kim gəlsin öncə irəli?
Çıxarılsın gözü, kəsilsin əli…
Nə olsun, söylərsiz bizlərə dığa?
Erməni hakimdir, fəqət Arsağa!

**Sultan kişi /qəzəbli/**

Sizdəki vicdandan xəbərim vardır,
Əfsus, beyninizdə hələ bahardır.
Biz gəlmə tayfanı millət eylədik,
Yurduna çevrildi hər düz, hər gədik.
Siz ki, qoltuqlarda daldalanansız,
Vazgen havasından ilham alansız.
İrəvən bölgəsin dövlət etdiniz,
Torpaq oğurlamaq ana xəttiniz.
Savaş istəyənlər bir gün qan qusar,
O taylı, bu taylı Azərbaycan var.
Ruslara güvənib, qan tökənsiniz,
Ocaqlar söndürüb, yurd sökənsiniz…
Savaş istəyənlər birgün qan qusar,
Dövran zalımları boğazdan asar!
O taylı, bu taylı Azərbaycan var…
Qana hərisləri tutar ahı-zar!
Ölsək də yerimiz sabah min olar,
Vətən oğulları qələbə çalar!..

**Baş zabit /tapançanı ona tuşlayır…/**

Al, bu tapançadan açılan güllə,
Sənə, millətinə dəyərli sillə.

***Sultan kişi yıxılır, Fatimə ana nalələr içində qışqırır və ərinin üstünə atılır. Üst-başı qana bulanır…***

**Fatimə ana / fəryadla/**

Aman, Tanrı, göstər öz qüdrətini,
Silahsız bəndənə sədəqətini…

**Baş zabit /qəhqəhələrlə/**

Qalibin əsəbin bir anda gərmək,
Hə, nədi döşünə yatdı gəbərmək?!
Ölüm ayağında əyilmir bunlar,
Türkləri qorxutmur tökülən qanlar…

**/Bu zaman Azərtac gözlənilmədən ocaqdakı qaynar suyu zabitin üzünə atır, dəhşətli türkürpədici bağırtı qopur…Rus əskəri avtomatdan bir qatar gülləni kahadakıların üstünə səpir. Təkcə Qorqud anasını qucaqlamış halda sağ qalır. Kahanı insan iniltisi bürüyür! Qorqud bir əliylə Fatimə ananın qoynundan çıxardığı düyünçəni ocağa atır, bir əliyləsə neçə gündən bəri gizlətdiyi qumbaranı gödəkçəsinin cibindən çıxarıb əskərlərə tərəf atır. Özünü itirmiş düşmən əskərləri nə zaman qumbaranın onların ayağı altında partladığını duymadılar. Yaralanmış Suzanna ocaqda yanan pullara doğru can atır… Kaha alışır… Qanlar bir-birinə qarışır, can verən insanların iniltisi kahanı titrədir…/**

**Suzanna /ağır yaralı/**

Ah, canım, üz-gözün yəqin ki, yandı,
Sən ki, can üstəsən, qana boyandın!
Türklərin qorxusu yoxdu dünyada,
Doğra diri-diri, at yanan oda…

**Baş zabit /iniltiylə/**

Suzanna, kor oldum, yandı gözlərim,
Yanıb tuluq olub büs-bütün dərim.
Bu türklər puç etdi hər diləyimi,
Qızıl qan aparır bu ürəyimi…
Qırılsın, qalmasın qoy müsəlmanlar,
Dənizlərə dönsün bu axan qanlar…

(**ölür..**)

***/erməni əskərləri və Suzanna artıq ölmüşdür. Qorqudun anası, atası və bacıları da şəhid düşmüşlər, qumbaradan ağır yaralanmış Qorqud can üstə pıçıltılarla…/***

**Qorqud**

İlahi, son nəfəs, son an, son zaman,
Qəlpə ürəyimdə, ölürəm, aman.
Əzizlər şəhidsə gözüm önündə,
Köksüm qan içində bu qara gündə!
Rəbbim, qisas aldım, qazidir adım,
Hənuz Allahıma çatdı fəryadım!
Aldın ürəyincə kamını, Qorqud,
Qayıt öz soyuna, ey qurd oğlu, qurd!..
Yatın atam, anam, mərd bacılarım,

Fəqət ləkəsizdir namusum, arım…
Qızqardaşım Günay, Azərtac uyu,
Bizi yad edəcək bu yurdun soyu!
Sabah Milli Ordu zəfər çalacaq,
Qarabağ bizimdir, bizim olacaq…
Qarabağ bizimdir…

**Qana bulaşmış sinəsiylə torpağı qucaqlayır, şəhid olur. Kaha yanır və yana-yana bir-birinin ölümünə fərman verən adəm övladlarına ilahi səs gülür…ha, ha, ha…**

**İlahi səs /kahanın içində gurlayır/**

Qırın, bir-birini vəhşi insanlar,
Yandırın, dağıdın qoy axsın qanlar…
Torpağı, ey bəşər, mən verdim sizə,
Mən həyat verirəm gecə-gündüzə.
Sonunuz ölümdür, dilsiz məzarlar,
Qalanlar ölənə məzar qazarlar.
Sizi Yaradanı unudub nədən?
Məmləkət cızırsız dağdan, dərədən.
Qoymaram çoxalsın acgöz əsliniz,
Min il, milyon ildi qandı nəsliniz.
İnsan sümüyündən daşlar yarandı,
O adəm kökünüz hey pozdu andı.
Cəbrayıl, əzrayıl mənə müntəzir,
Ölüm ucuzlaşıb əllərdə gəzir.
Sizi qırdırıram bir-birinə mən,
Məzarlar içində çürüyəcək tən…
İblis içinizdən verəcəm ehsan,
Ruhunuz deyəcək bu işə əhsən…
Uçan boşqabları, səma daşları,
Dəmir canlıları, dəmir başları,
Göndərdim neçə yol yerin tərkinə,
İnsanlıq bürünsün həya kürkünə.
Xeyri yox, qorxusu yoxdur bəşərin,
Kesib caynağına adəmlər şərin…
Dünya başdan-başa batıb günaha,
Dönün iblislikdən, yetin Allaha!..

**3-7.01.1994.**

## SEVGİ VARA SATILMAZ

### 4 pərdəli, 8 şəkilli mənzum dram

**İştirak edirlər:**

**Ərqaya**-25 yaşında mühəndis
**Altunşah**-30 yaşında xüsusi dükan sahibi
**Narınc xala**-Altunşahın anası 60 yaşında
**Süsən**-18 yaşında gənc bir qız
**Süsənin xəyalı**-göy libasda
**Nazan**-22 yaşında pozğun qadın
**İnci**-17 yaşında pozulmuş qız
**Sultan**-40 yaşında heç yerdə işləməyən balıq alveri ilə varlanmış şəxs
**Aypara**-Sultanın həyat yoldaşı 35 yaşında
**Lamiyə**-qızı12 yaşında
**Qadınlar, Həkimlər, Şəfqət bacıları**

### I PƏRDƏ. 1-ci şəkil

***Hadisələr Bakıdan bir xeyli kənarda şəhər tipli böyükada qəsəbəsində cəryan edir. Səhərdir. Ərqaya bir gözdən ibarət mənzilində çay tədarükü görür. Elə bu zaman yayından çıxmış ox təki telefon cingiltisi otağa yayılır.***

**Ərqaya** *(həyacanlı)*

Alo, alo, Süsən, danış yandı ürək,
Nə taledir yazdın mənə aman-fələk?
Ah, Allahım, böylə sükut, böylə təlaş,
Sinəm üstdən asılıbdı qara bir daş.
Bilirəm ki, sonu yoxdur bu sevdanın,
Kasıb evin oğulusan, çıxsın canın.
Hardan mənim pulum-param cehiz alım?
Ürəyimcə başa varsın qoy vüsalım.
Doğub məni cocuqluqdan atdın, ana,
O gündən də, hənuz suça batdın, ana.
Uşaq evi qucağına aldı məni,
Yad əllərlə, yad dillərlə çaldı məni.
Məşəqqətlə ali məktəb bitirmişəm,
Neft çıxaran mühəndisdi indi peşəm.
Bir tərəfdən bahalığın üzü dönük,

Səadətim, sevgim, eşqim, bəxtim tünük.
Sevdiyimi kimdi mənə verən ucuz?
Köksüm yara, yara üstdən tökülür duz.
Yazılıbsa taleyimə bu qızcağaz,
Bir gün mənim ömrümə də gələcək yaz.

**O telfonun dəstəyini yerinə qoyur. Dilindən tökülən ah, fəqanlarla Süsənin xəyalı gözünə görünür. Onun canı atəşlərə bürünür.**

**Süsənin xəyalı**

Uyğularda gördüm gecə bir qatarda,
Sənin ilə oturmuşam ağ paltarda.
Sevgimizin zirvəsinə biz yüksəlib,
Əzabların, zülümlərin bağrın dəlib,
Yol gedirik paralardan qurtulmaqçın,
Pak, ayrı bir səyyarəyə atılmaqçın.
Sultan qardaş da yox idi yanımızda,
Altun duyğu, bəxtəvərlik qanımızda.
Ac-yalavac adətləri qoyub burda,
Həsrət ilə qərib-qərib baxır yurda,
Hey qaçırdıq bu dünyadan, vurhavurdan,
Bir-birilə didişmədən qırhaqırdan…

**Ərqaya** (çaşqın)

Ah, sevgilim, yenə gəldin səhər-səhər,
Ah, sevgilim, yenə gəldin sən bir təhər.
Xəyalların qəlbə sitəm, ələm, qəhər,
Zəhər oldu bu məhəbbət mənə, zəhər!
Telefonda pak səsin də xəyalmıdır?
Kölgələrin taleyimə vusalmıdır?
Hünərim yox qapınızı açmağa da,
Alıb səni qərib yerə qaçmağa da.
Xülyalarla sevgimizi böləsiyik,
İkimiz də bu eşq ilə öləsiyik.
Ah, Allahım, al kölgəni apar məndən,
Parçalandı köksüm nartək oldu dən-dən.

***Süsənin xəyalı yox olur. Ərqaya, əsəbi, mühəndis işlədiyi neftçıxarma idarəsinə gedir.***

## 2-ci şəkil

***Dolu öynə, Sultanın qırmızı kərpicdən yapılmış qəsrəbənzər dəbdəbəli evi. Süsən və Ərqayanın eşqindən xəbər tutan Sultan bacısını evdə əsir edib, heç yerə buraxmır. O Süsəni, özü kimi pullu-paralı adama, ərə vermək istəyir. Vaxtsız ata-anasını itirmiş, Sultan balıq alveri ilə varlanmışdır. Dörd divar arasında dustaq edilmiş Süsən, qardaşı arvadı Aypara və qızı Lamiyə ilə evdədir.***

**Süsən** (qəmli-qəmli)

Bəzəkli ev-eşik, bu var, bu dövlət,
Hamı suç, hamısı heyvani qələt.
Ürək sevgi, dostluq, saflıq oyuncaq,
Haram pul-parayla doludur qucaq.
Kiminin yeməyə çörəyi yoxdur,
Kiminin varı çox, ürəyi yoxdur.

**Aypara**

Masanın üstündə necə yeməklər,
Meyvələr, şirnilər, özün de nələr?
A Süsən, nəyimiz əskikdir, balam?
Kəsilib arada iltifat, salam.
Üzünün çöhrəsi tufandan betər,
Yenə başlamısan, sən Allah, yetər!
Bilmirəm kefini nə ilə alam?
Dözürəm hər cəngə, mən Rüstəm-zalam!
Axı tək deyilik bu el içində,
Qonşuların dili niyə, neçində?
Sənin Ərqayayla məhəbbətin car,
Həya yaxşı şeydir el, camaat var.
Qardaşın nə vaxtdı üzümə baxmır,
Məni də heç yerə daha buraxmır.
Nəzir-niyaz ilə bir qızımız var.
Firavan günümü eyləmisən tar.
Sevgi də, eşq də bir quru sözdür.
Axı qonum-qonşu bu evə gözdür.

**Lamiyə**

Mənim gözəl bibim bir nağıl söylə,
Nədən pərişanlıq bu qədər böylə?
Bu evdə tək sənsən qəlbimə yaxın,
Qüssəni, kədəri buraxma yaxın.

**Süsən** (Lamiyənin boynunu qucaqlayır)

Mənim kədərlərim qaynayan çeşmə,
Ürəkdir tab edir keşməkeşimə.
Mən gedən deyiləm, o Altunşaha,
Qoy naləm, fəryadım yetsin Allaha.
Onun dükanı var, adamdır deməк?
Bəşərin başında pul-para, yemək.
Boğur bu cəh-cəlal, bu sərvət məni,
Bağlanan bəxtimin üzülüb dəni…

**Lamiyə** (məsum-məsum)

A bibi, nağılı qoy bir tərəfə,
Nə yazıq taleyin keçib kələfə.
Vallah, o Ərqaya çox sevir səni,
Qov gözəl çöhrəndən çiskini, çəni.
Hər gün pəncərənin önündə durur,
Məktəbdən dönəndə o məndən sorur…
«Salam söylə» dedi, dünəndə yazıq.

**Aypara** (əsəbi)

Allahım, nə qədər gör biz dayazıq?
Sus, ay qız, nə olub dil-dil ötürsən,
Kitabı əlinə bir dəm götür sən.
Altunşaha verdik onun hərisin,
Atan mən yazığa tökür hirisin.
Bilsə, hamımıızı qırar, öldürər,
Bütün el-obanı bizə güldürər.
Sevgi kişilərin fitnə-fəsadı,
Dünyada yaşayar pak qadın adı.

**Lamiyə** (sadəlövhcəsinə)

Bibimin günahı nədir ki, ana?
Yazığ qızcağazı yığmısan cana.
Ərqaya yaxşıdır, Altunşah lovğa,
Niyə buraxmırsız onu yovuğa?
Əgər oxuyana qiymət yoxdursa,
Alver edənlərdə para çoxdursa,
Haram yeyənlərdə cəh-cəlal böyük,
Halallar dünyanın boyununa yük,
Bəs elm niyə lazım, deyirsən oxu?
Buraxıb məktəbi indi ki, çoxu.

**Süsən** (qəmli)

Qönçəm, qərənfilim, ey saf bulağım,
Yeganə təsəllim, könül dayağım.
Lamiyə, ürəyin bir şəlalədir,
Bəyaz səhərlərdə şehli lalədir.
Bibinin dərdinə çarə bulunmaz,
Zamanım, həyatım, qəlbim ovunmaz.
Zorla Altunşaha verirlər məni,
Böylə bəxt tapmasın dünyada səni.
Ümid əsirgəmə məndən, Allahım,
Yetsin hüzuruna bu qəmli ahım.

**Aypara** (əsəbi)

Yenə səhər-səhər başlama qəmə,
Acı fəryadınla çapma aləmə.
Nə var, nə görmüsən o ac gədədə?
Yaralar açılar bomboş mədədə.
Malsız, mülksüz sevgi – bir qədəh zəhər,
Üzəcək ömrünü ehtiyac, qəhər,
Parasız sevginin heç faydası yox.
Barı, Allahından, Tanrından bir qorx,
Şahlıq quşu qonub başına yazıq,
Niyə biz qadınlar belə dayazıq?
Sevgi ər evində, xoş gün-güzəran,
Çıxar Ərqayanı qəlbindən bu an!

**pərdə örtülür.**

## II PƏRDƏ 3-cü şəkil

***Nazanın 3 gözdən ibarət mənzili. Nazanın anası işə gedən kimi o, başına qəsəbənin pullularını yığıb kef məclisi qurur. Düz 10 ildir ki, pulluların pulları ilə Nazan bu həyata qurşanıb. Yüngül həyata alışıb, rəfiqəsi İnci də ondan dala qalmır. Yenə də o kef məclislərindən biri Nazanın evində. Sultan, Altunşah, Nazan və İnci bir masada cəm olublar.***

**Nazan** (kefli və papiros damağında)

Baxtım gətirməyib mənim heç zaman,
Bu qara taleyim edir ah-aman.
Anam ermənidir, atam azəri,
Düz kişi sayılar ailənin əri.
Gözümü açandan hiss elədim mən,
Evimiz içində gəzir duman, çən.
Onlar bir-birinə heç can demədi,
Bir acı sözü də heç kim yemədi.
Qırğın, dava-dalaş artdı günbəgün,
Qırıldı bağlılıq bu toy, bu düyün.
Sonra atam atdı bir gün anamı,
Uçdu ailənin xoşbaxtlıq damı.
Gəmidə keçirir anam vaxtını,
Dağıtdı tənhalıq könül taxtını.
Bilməm azəriyəm, yoxsa erməni,
Siz deyin kim necə çağırsın məni?
Mən lazım deyiləm ata, anama,
Neylim doğulmuşam dünyaya, amma…

**Sultan** (canyanalıqla)

Nazan bu söhbəti yığışdır daha,
Salma kef məclisin naləyə, aha.
Sən özün həm ata, həm də anasan,
Mənimçin nazlı bir ürkək sonasan.
Doldur, ey mələyim, eşqlə beyini,
Sən ki, doğmamısan valideyini.
Əymə qəm, kədərlə belə qəddini,
Qoy onlar çəksinlər sənin dərdini.

**Nazan** (qayğılı)

A Sultan, bu yerin kişisi sənsən,
Ağlına, puluna alüdəyəm mən.
Səninlə olduğum anlarım dadlı,
Zamanım, ömürüm, günüm qanadlı.
Atadan, anadan yaralı İnci,
Bugün süfrəmizə verər sevinci.
Fəqət sən mənimsən, rəfiqəm bilir,
Bu dəli eşqimə İnci də gülür…

**Sultan** (qəhqəhələrlə)

Kef məclislərimin yaraşığısan,
Görən gözlərimə sən ki, işığısan.
Sənsiz fələklərə sipərdi ahım,
Hər qara gecəmə bəyaz sabahım.
Səni uca tutdu həmişə könlüm,
Bir an ayrılmaram gəlməsə ölüm.
Altunşah, İncinin qulluğunda ol,
Bugün süfrəmizdə qədəhlərə yol.
Birinci sağlığı Nazan eşqinə,
Tanrıdan diləyim şükür bu günə.

**Altunşah** (nəş‘əli İncinin belini qucaqlayır)

Əlbəttə, bu xanım incidən inci,
Nəş’əli könlümün odur sevinci.
Şərablı dodağı dodağıma bal,
Gəl kef məclisində ürəyimi al.

**İnci** (nazla)

Ah, dostum, nə qədər alovlu sözlər,
Alışır eşq ilə sevgili gözlər.
Bu nahar nəş’ələr bəxş eylə mənə,
Mən də bu könlümü qoy verim sənə.

**Nazan** (kefli)

Şərab şüşələri boşalır bir-bir,
Vaxtımız daralır, tükənir səbir.

İndi dönəcəksən yenə evinə,
Sultan, bilsən necə çətindir mənə?
Nə qədər pul-para töksən başıma,
Bunlar əlac olmaz bu göz yaşıma!
Səni qısqanıram öz arvadına,
O mətbəx qarısı, yazıq qadına.

**Sultan** (qəzəbli)

Şərabın çox düşdü deyesən, Nazan,
Yenə kəllə-çarxa vurdu başda qan.
Eyvah, istəyinə hazır pul-para,
Çox da çərənləmə, bəsdir, avara!
Sənin dilin ki var, başa dərd açar,
İçki məclisindən sevgilər qaçar.
Səni arvadımdan artıq tutmuşam,
Ona istəyimi tam unutmuşam.
Atımmı, deyirsən, evimi daha?
Son qoy göz yaşına, son qoy bu aha!

**Nazan** (qəhqəhələrlə)

Səni çox sevirəm canımdan öncə,
Könül qapısında hər gündüz-gecə,
Xəyallar əl açır dilənçi kimi.
Kimi fəryadıma çağırım, kimi?
İndi gedəcəksən, evim bir məzar,
Tənha həyatıma qəm quyu qazar.
Yatağım, otağım boş qalacaq, boş,
Taleyim mənimlə baş-başa sərxoş.

**Altunşah** (amiranə)

Yenə tüğyan etdi eşq nağılları,
Qopartdı başlardan saf ağılları.
Nazan qısqanclığa başladı yenə,
Gərək ki, İnci də qoşulsun sənə.
Süsənlə toyumuz tezliklə olar,
İnci də səninlə bir hava çalar.

**İnci**

Mənmi, ah, mənimçin kişilər birdir,
Sevgi təbiətdə açılmaz sirrdir.
Nə qədər könlümü salsa min hala,
Qəlbim sevgiləri buraxmaz qala.
Nazan, qurtar canım cəfəngiyyatı,
Sevgiyə qul etmə azad həyatı.
Bu kef masasında dadlı yeməklər,
İştahı ovlayan ləziz xörəklər.
Çeşmətək qədəhə süzülən şərab,
Həm bir səadətdi, həm də iztirab.
Budur, əzizlərim, nəş'əli həyat.
Mən buna deyirəm ən şirin busat,
Ailə də, uşaq da iyrənc bir röya,
Ömrümü ram edər bu qorxunc xülya.

**Sultan**

Ha, ha, İnci, səndə bu sözlər hardan?
Ağıllı xəlq edib səni Yaradan!

**Nazan** (son dərəcə sərxoş)

Ah, Sultan ömürlük mənim olmalı,
Mənimlə bir evdə hər dəm qalmalı.
Ya sona yetirmək bu qeylü-qalı,
Tükənib canımın qüssədən halı.

(şərabla dolu qədəhi Sultanın ayaqları altına atır…)

**Sultan** (qəzəblə ayağa qalxır)

Sərvətim, dövlətim bəs etmir sənə,
Əvəzində budur yaxşılıq mənə?
Nə sevgi, məhəbbət ağılsız qadın?
Soyumda çatmayır o pozğun adın?
Qadınlar heç zaman bilməz yaxşılıq,
Bircə anlıq kefi, ya bir xoşqılıq…
Sevginin adına yazar o saat,
Budur, aman Allah, qadınlı həyat!..

**pərdə örtülür.**

### 4-cü şəkil

***Xeyli zamandır Süsən Altunşaha nişanlanıb. Bir azdan Altunşahla Süsənin restoranda toyu gözlənilir. Toydan qabaq Süsənə qardaşı Sultanın evində oğlan evindən gələn qadınlar gətirdikləri gəlinlik paltarını geyindirməklə və bəzək-düzəklə məşğuldurlar. Süsən qadınlardan icazə alıb kədərli halda ayrı otağa keçir.***

**Süsən** (son dərəcə kədərli)

Allah, çəkdiklərim nədir dünyada?
Öz doğma qardaşım çevrilib yada.
Gözüm görə-görə könlə dağ çəkir,
Qəlbində hardandır bu hiylə, məkir?
Məni sevmədiyim adama verir,
Könlümü əzabla, ağrıyla gərir.
Bu dərdin çarəsi yalnız intihar,
Qardaşım Sultana qoy bu olsun ar.
Bilirəm, özünə qəsd etmək günah,
Fəqət Altunşahla günüm olar ah.
Ahlarla çarpışan ömür vay keçər,
Bəbəyin yaşları qəlbdən su içər.
Bu çayda boğular bütün diləklər,
Bir-birin sevmirsə, əgər ürəklər.
Sinəmdə bir başqa məhəbbətim var,
Bir başqa biriylə can ülfətim var.
Ərqayanın eşqi könlümə yardır,
Onsuz dünyam mənə büsbütün dardır.

(Bu zaman Sultanın arvadı Aypara otağa daxil olur.)

**Aypara** (acıqlı)

Ay qız, niyə belə aha batmısan?
Özünü dərd, qəmə, vaya atmısan.
Səni bəzəndirir oğlan adamı,
Qoyma sinələrdə, sən Allah kamı.
Analar bəsləyir eşqlə balanı,
Bir düşün, ay balam, Narınc xalanı.
O da Altunşahı kamla saxlayıb,
Xalqdan, caamatdan ayıbdır, ayıb.
Söylə, nə edirsən bu tək otaqda,
Dərdə salıb canı qoyma yataqda.

**Süsən** (əsəbi)

Sən məni güdürsən, vallah, ay gəlin,
Mənimçin hər zaman zəhərdir dilin.
Az qalıb, arzuya yetərsiz daha,
Siz məni batırdız büsbütün aha.
İndisə, izləmə məni hər addım,
Mən sənə bu evdə həmişə yaddım.
Qardaşın arvadı baldızı sevməz,
Baldız da heç zaman yad qızı sevməz!
Bunu eşitməkçin gəldin sən bura?
Bəsdir, ürəyimi etdiyin yara.
Keçdim bu otağa bir az dincəlim,
Gəlmədim dilinlə solum, incəlim.

**Aypara** (məyus)

Nə dedim dilindən töküldü zəhər,
Zəhər danışana bəxt verməz bəhər.
Ağlını başına yığ, ay biçarə,
Bir azdan toyundur arama çarə.
Üzünün gülüşün qaçırtma belə,
Salma öz adını ağıza, dilə.
Mənim deyəcəyim sözlərim budu,
Evimizi yıxar bu dedi-qodu.
Qadınlar oturan otaqda otur,
Elin söz-söhbəti aləmi qatır.
Gedirəm, sən də gəl tez yanımıza,
Salma ağrı-acı bu canımıza.

(Aypara son dərəcə hirsli otağı tərk edir.)

**Süsən** (həyacanlı)

Allahım, bu dərdin əlacı dərman,
Doldursam mədəmə el eyləməz man.
Onsuz da bir azdan gedirik toya,
Mənim əzablarım qoy dönsün vaya.
Başağrı dərmanı çatar dadıma,
Yetişər əzablı can fəryadıma.

(Bir ovuc dərmanı qoynuna qoyub qadınların yanına keçir.)

**Pərdə enir.**

## III PƏRDƏ. 5-ci şəkil

***Gəlini aparmağa gələn maşın həyətdə gözləyir. Qadınlar Süsənin üst-başına və üz gözünə axırıncı dəfə fikir verirlər.***

**Qadınlar** (bir səslə)

Qızlar, gözünüz aydın,
Deyin Süsənin adın.
Bəxtiniz qoy açılsın,
Qüssə, qəmdən qaçılsın,
Qızın bəxti ər evi,
Qadın edər zər evi.
Gəlin evə din-iman,
Onsuz ev boş dəyirman.
Ay qızlar, xoşbaxt olun,
Baxın, səadət yolun
Açarı Süsəndədir,
O hamıdan öndədir.

**Aypara** (üzünə təbəssüm verərək)

Ay qadınlar, sağ olun,
Daima xoşçağ olun.
Toy hər qıza büsatdı,
Bu bir xoşbaxt saatdı.

**Qadınlar** (yenidən bir səslə)

Ay Aypara, mübarək,
Coşub-daşsın qoy dilək.
Sən qardaş arvadısan,
Süsənin imdadısan.
Sən ona ana oldun,
Çox məğrur sona oldun.
Hər subaya bu gündən,
Bu toydan, bu düyündən,
Qismət olsun inşallah,
Hər işdə böyük Allah,
Qoy bizlərə yar olsun,
Millətimiz var olsun.

Toy evlər yaraşığı,
Hər evin gur işığı,
O, hər qapını açar,
Heç kim olmasın naçar.

**Lamiyə**

(dolmuş halda bibisi
Süsənə yaxınlaşır)

Bibi, gözüm işığı,
Evimiz yaraşığı.
Mən sənsiz nə edəcəm?
Vallah, gəlib-gedəcəm,
Unutmaram mən səni,
Ayrılıq, həsrət çəni
Gözlərinə dolmasın,
Gözəl üzün solmasın.
Sənin qardaşın qızı,
Salar könlünə yazı.
Bibi, qadanı alım,
Səni qəlbimə salım,
Orda könlümü bəzə,
Gəlməyəsən heç gözə.

(Süsəni qucaqlayır.)

**Süsən** (pıçıldayır)

Bu evdə tək sevincim,
Mənim dürdanəm, incim.
Sən əzizdən əzizsən,
Çeşmələrtək təmizsən.
Candan sevirəm səni,
Sən də unutma məni!
Mənə su gətirsənə…

*( Lamiyə bibisinə su gətirir.)*

**Lamiyə** (həyacanlı)
Al iç, bibi, bu suyu,
Fikir dərin bir quyu.
Kim düşsə heç çıxmayır,

De o kimi yıxmayır?
Sevin, şadlan, ay bibi,
Ahdır həyatın dibi.
Hamıya quyu qazır,
Kitablar belə yazır…

**Süsən** (qürurlu)

Kədərlərin yuxlasın,
Allah səni saxlasın.
Ata evinə işıq,
Bəxtimizə yaraşıq.

***Lamiyəni öpüb su ilə dolu stəkanı ondan alır.Bu vaxt həyətdən gəlin üçün gələn maşınların səsi eşidilir. Baş qarışır, Süsən qarşıqlıqdan istifadə edib qoynunda gizlətdiyi başağrısında işlədilən analgin dərmanından bir xeyli qəbul edir. Lamiyənin gətirdiyi suyu içir. Süsəni gəlinlik paltarında otağdan çıxarıb maşina aparırlar. Hamı evi tərk edir, yaxınlıqda toy olacaq restorana tələsir.***

***Pərdə örtülür.***

**6-cı şəkil**

***Toy keçiriləcək restoran. Bəylə gəlin başda əyləşib. İçdiyi dərmandan Süsənin əhvalı pisdir.Toy qələbəlikdi. Toya yalnız amerka pulu dollar salınır. Süsən son dərəcə ağır psixoloji durumda…***

**Altunşah** (fərəhlə)

Ay ana, toy gərək Böyükadada,
Çatsın ən şərəfli, böyük bir ada.
Yeməklər, şərablar bir çeşmə olsun,
Durub, dayanmadan süfrəyə dolsun.

**Narınc** (sevincdən titrək halda)

Allah, bu gün necə mən bəxtiyaram,
Ürəyim, könlüm tapmayır aram.
(pıçıltıyla)

Süsəndən nigaran yalnız ürəyim,
Rəbbim, qoyma qalsın qəlbdə diləyim,

Toyu təmtaraqla bir başa vuraq,
Biz dostdan, tanışdan ucada duraq.
Heç bir arzu deyil daha gərəyim.

**Süsən** (halı son dərəcə qarışıq halda
öz-özünə pıçıltılarla)

Aman, ya Rəbbim, imdad fələyim,
Qızıllar, altunlar barmaqlar bəzər,
Ürək Ərqayanın sevgisin gəzər.
Sevgilim yəqin ki, indi qüssəli,
Eyvah, əllərimə yetməyir əli.
Bu mənim toyumdur, bu şan, bu şöhrət,
Qara taleyimi alıb fəlakət.
Bu gecə özgəyə yar olmalıyam,
Saralıb çiçəktək mən solmalıyam.
Altunşah bilmir ki, içdiyim dərman,
Bu gün ölümümə verəcək fərman.
Artıq ürəyimdə bulanmalar var,
Başıma olubdu dünya tamam dar.

**Altunşah**

Ah, Süsən, sevgilim, bu təmtəraqlar,
Xoşbəxt səadəti sevgi varaqlar.
Mən səni qızıla tutacam, yarım,
Ömürlük sənindir sərvətim, varım.

**Süsən** (xəstəhal)

Ah, yenə var-dövlət, yenə pul-para,
Min il, milyon ildi bəşər avara!

***(Bu zaman Altunşah Süsənin əlindən tutub ortaya çə-kir. Süsən qol götürüb oynayanda Ərqayanın xəyalı gözləri önündə canlanır və bayılır. Ara qarışır, toyda cəh-cəlal pozulur…)***

**Narınıc xala** (ağlar)

Məni eşitmədi Altunşah, Allah,
Qız ölsə nə deyər xalq mənə sabah?
Gəlin başqasının eşqiylə yanır,
Mənim harın oğlum sevgi nə qanır?!

Qızlar tükənibmi bu məmləkətdən?
Mən necə qurtulum bu fəlakətdən?

***Süsən camaatın gözü qarşısında axır anlarını yaşayır. Acqarına içdiyi dərmanlar artıq qanına zəhərlənmə vermişdi.***

**Süsən** (can üstə)

Aman, ulu Tanrım, axır ki ölüm,
Bitdi bu əzablar, bitdi bu zülüm.
Yetiş imdadıma, yetiş Ərqaya,
Allah, özü məni tuş etdi vaya,
Mənim səadətim məzarda başlar,
Boğmasın Lamiyə gözünü yaşlar…

**Lamiyə** (hönkürtüylə)

Bibi, yazıq bibi yumma gözünü,
Qoy bircə anlıq da görüm üzünü.

**Aypara** (çaşqın)

Yox, yox, ola bilməz bu bir yuxudur,
Qalx, Süsən, şaşqınlıq, bəlkə qorxudur.

**Altunşah** (diz çökür)

Aman, ay Allahım, səbr ver mənə,
Əzəlki həyata qayıdım yenə.
Bəlkə zəhərlədin sən öz-özünü,
Mən aça bilmədim o kor gözünü.
Süsən, ölmə, Süsən, gözlərini aç!
Ölümün əzazil pəncəsindən qaç.
Mən ki, heç vüsala yetişmədim ah,
Daha açılmasın bu gündən sabah…

**Süsən** (bənizi saralmış)

Altunşah eyləmə cəfanı cana,
Məni Allah özü salıb divana.
Dərdimə dərmanı eyləmək becə,
Bir azdan həyatım olacaq gecə…

**Altunşah** (çaşmış halda)

Bəlkə dərman içib hamıdan gizli,
İlahi, bu dünya, cahan min üzlü.
Elədim bir qızı zorla nişanlı,
Adım el ağzında qalacaq qanlı.
Əlimlə məhv etdim, Rəbbim, Süsəni,
Daha cəhənnəm də götürməz məni!
Aman-ah, İlahi, neyləyim indi?
Toyum vaya döndü, bu necə gündü?

**Sultan** (qəzəbli)

Axmaq qız, qalx, daha bu oyun yetər,
Bitər bu çaşqınlıq, çılğınlıq yetər.

**Süsən** (son nəfəsdə)

Son vida, son nəfəs bir quru səsdir,
Onsuz da bu dünya mənə qəfəsdir.
Ruhum Ərqayaya qovuşacaqdır,
Bu həsrət, bu hicran sovuşacaqdır.
Ah, əziz qardaşım, daha əlvida,
Gəl, öp alınımdan bu ki, son vida.

(**ölür…**)

***Yeganə bacısının ölümündən dəhşətə gələn Sultan nalə çəkir. Toy yasa çevrilir.***

**Sultan** (sarsılmış)

Ya Rəbb, bu nə sitəm, bu nə fəlakət?
Bugündən qoy gülsün mənə məmləkət.
Məhv etdim bacımı öz əllərimlə,
O rəzil, o çirkin əməllərimlə.
Qoy Tanrı, qoy Allah qəhr etsin məni,
Qaytarmaq çətindir, ey Süsən, səni.
Gəlinlik paltarı, qızıl, pul-para,
Çəkdi ürəyini min yerdən dara.
Bacımın bəxtinə yazıldı qara.

***Başını əlləri ilə tutur və Süsənin meydinin üstünə yıxılır.Toyu gizli seyr edən Ərqaya Süsənin onun üçün naməlum olan ölümündən dəhşətə gəlir. O dəli qəhqəhələrlə sevgilisinin meydi üstündə fəryad edir…***

**Ərqaya** (dəhşət içində hönkürür)

Dünya ağlar ölümlərdən, ey Allahım, imdad vaxtı,
Cana gəldim zülümlərdən, zəmanədən min dad vaxtı.
Çəkilibdi qəlb içinə dağ-düyünün hesabı yox,
Bu naqəfil sitəmlərdən ürəklərin heç tabı yox.
Sevgim, hissim, eşqim öldu zalımların sitəmindən,
Uçub könül sarayım da bəd dillərin pis təmindən.
Yandım, külə döndüm, Allah, can bədənin dustağıdır,
Bu cahillik, ilan təki zəhərləyən, qəm tağıdır.
Ey insanlar, gülmün eşqə, ürəklərin sultanı o,
Suçu məndə aramayın, bəxtimin ən xoş anı o.
Bir deyən yox, ey Ərqaya, niyə gəldin bu cahana?
Süsən düşüb torpaqlara, nə qəsd etdi şirin cana…?

***(cibində gizlətdiyi bıçağı öz ürəyinə yeridir. Ərqaya alqana bürünür, o qan içində Süsənin meydini qucaqlayır və ölür... Bu mənzərədən dəhşətə gələn camaat kimi meyidlərin üstünə qaçır, kimi isə restoranı tərk etməyə başlayır.)***

**IV PƏRDƏ. 7-ci şəkil**

***Süsənlə Ərqaya neçə gündür məzarlıqda uyuyur. Sultan üzütüklü Nazanın evində. Altunşah da onunla bir yerdədir. Sultan son dərəcə kefli…***

**Sultan**

Ah, Nazan, bilirsən, yaslı da olsam,
Tufan buludutək boşalıb dolsam,
Səninlə təsəlli tapıram, ancaq,
Bu mənzil ömrümə son dayanacaq.

**Nazan** (siqarı siqara calayır)

Bilsəydin nə qədər sevirəm səni?
Heç kişi ovutmaz dünyada məni.
Səni qısqanıram günə, aya da,
Naləmdən fəqanə gəlir qaya da.

**İnci**

Yenə də başladı qızda dəlilik,
Min yol söyləmisən bunu bilirik.

**Altunşah** ( kədərli)

Bəlkə doğrudan da sevir Sultanı,
Onun da cismindən çıxacaq canı.
Daha anlamayır sevgi ölümdür,
Ürəklər bu hissdən bölüm-bölümdü.
Ərqayayla Süsən görün ki, necə?
Ölümə tuş oldu özləri becə!

**Sultan** (həyacanlı)

Sus, dostum, Süsəni gətirmə dilə,
Məhv etdim bacımı mən bilə-bilə.
Demə, pak sevgilər varmış həyatda,
Təmiz ürəklərdə ən dərin qatda.
Onun taleyinə mən qara yaxdım…

**Nazan** (kefli)

Sultan, mən də sənə bu eşqlə baxdım,
Ya mən, ya arvadın birimizi seç,
Sevginin yolunda balandan da keç.

**(bu zaman Sultan qəzəblə sillələrə Nazanın üzünü qərq edir …)**

**Sultan** (nifrətlə bağırır)

Ah, pozğun, ifritə, küçə qadını,
Mənimlə bir yerdə çəkmə adını.
Hərzə danışma gəl eşqidən mənə,
Bunu milyon kərə söylədim sənə!

**(Nazan ağlaya-ağlaya mətbəxə qaçır…)**

**Nazan** (mətbəxdən)
Sən öz sözlərinçin cavabı ara,
Sənin ürəyinə vuracam yara.

**Sultan** (sakit görkəm alaraq)

Bəsdir, axıtma göz yaşlarını,
Şərabda tapmısan sirdaşlarını.
Çoxdan itirmisən namusu, arı,
İçgidə axtarıb tapmısan yarı.
Min Sultan bəs etməz bir gündə sənə,
Fikrin kəf gəlməkdir indi də mənə.
Sevgidən, eşqidən oxudun, bəsdir,
Məni qamarlamaq hiylən əbəsdir.
Şərabtək qədəhə süzüb adını,
Kef üçün çox içdim səntək qadını…

***Birdən Nazan əlində bıçaq mətbəxdən gəlir, bir əliylə Sultanı arxadan qucaqlayır, bir əliylə qoltuğu altda gizlətdiyi bıçağı onun boynuna çəkir. Arteryal qan damarına düşən bıçaq yerə düşür.Və qan çılçırağın və oturacaqların üstünə fışqırır. Altunşah Sultanın üstünə yüyürür. Nazan, dəli kimi, dişarıya atılır və qonşudan təcili yardıma zəng edir.***

**Sultan** (qan içində)

Ah, Allah, ah, Tanrı, bu düşgün qadın,
Batırdı bir nəslin, bir soyun adın.
Bacım elə öldü mən isə belə,
Verdim həyatımı, İlahi, yelə.

(**Təcili yardım gəlir. Sultanı xeyli qan itirmiş halda xəstəxanaya aparırlar.)**

**Pərdə örtülür.**

**8-cı şəkil**

***Gecədir. Xəstəxana. Çoxlu qan itirmiş Sultan ağır vəziyyətdə cərahi əməliyyat altında. Ərinin sağ qala cağına ümidini itirmiş Aypara dəhliz boyu hönkür-hönkür ağlayıür. Yuxusuzluqdan və dəhşətdən La-miyənin ay üzü qaralıb.***

**Lamiyə** (ağlar)
Ana, zülümlərdən üzüldü ürək,
Bizə xoş həyatı çox gördü fələk.

**Aypara** (ümidsiz)

Ay Allah, bircə yol rəhm eylə mənə,
Dərgahında əlim, dərvişəm sənə.
Sultana şəfa qıl qalxsın ayağa,
Qıyma şirin cana, qıyma növrağa.

**Şəfqət bacısı** (qapını açır və dəhşətlə)

Doktorlar saxlaya bilmədi qanın,
Yaralı xəstəniz tapşırdı canın…

**Aypara** (içəri yüyürür və ərinin
meyidi üstünə sərilir.)

Sultanım, ömrünün taxtı çevrildi,
Yeganə qızımın baxtı çevrildi.
Dost-düşmən içində xəcil olduq, ah,
Mənə də rəhm eylə öldür, ay Allah.
Dağıtdı evimi şərəfsiz qadın,
Ləkəyə batırdı bir soyun adın.
Ay Allah, of, Tanrı, zülmünə bir bax!
Partladı bağırım, ax ürəyim, ax,
Yanır cismi-canım, odlarım sönməz,
Sultanım bir daha ocağa dönməz.
Nazan tutulubdu polisdə yatır,
Əxlaqsız qızının cinsi də qatır.
Küçə qadınına verib parasın,
Atdı yetimliyə ciyərparasın.
Mənim fəğanımdan inləsin bəşər,
İnsan – şeytanlıqdı, iblis ürək, şər.
Bir-birinə qənim kəsildikcə biz,
Gecələr yarasa, gündüzlər iblis.
Bir üz görmədim ki, olmasın donsuz,
Tanrı hüzurunda gunahlar sonsuz.
Süsənin göz yaşı boğdu bizi də,
Uddu tənimizi ah dənizi də.
Öldür, qoy mənim də qurtarsın canım,
Sağ qalsam sabahdan başlar divanım.
İzin ver zülümlə ölmüş, Sultanım,
Axar qanlarına qarışsın qanım.
Bu adla yaşamaq, vallah, zülümdü,
Hər rusvayçılığı örtən ölümdü…

***Qoynunda gizlətdiyi bıçağı bağrına soxur.Aypara canından artıq sevdiyi Sultanın meyidi üstündə can verir. Həkimlər tökülüşüb gəlir. Onu xilas etmək mümkün olmur.***

**Lamiyə** (dəhşətlə)

Kimə tapşıraraq gedirsən məni?

**Aypara** (can üstə)

Mən ki, çox sevirdim dünyada səni…
Sultan belə öldü, yaşamaq çətin.
Allah amanatı, mətin ol, mətin.
Bağışla böyüklük etmədik sənə,
Aman rəhmət dilə, qızım, ölənə…

***Ölür. Həkimlər və şəfqət bacıları bu faciədən dəhşətə gəlirlər. Hamı donmuş halda bir-birinə baxır.***

**Lamiyə** (ata və anasının meydi üstündə ağlar)

Altunlar, paralar dağ çəkdi bizə,
Fəlakət gətirdi, ailəmizə…
Rahatlıq tapmadı əlindən cahan,
Dünyanın köksündə dərya olub qan.
Savaş gün vermədi heç bir millətə,
Atdı ölkələri altun zillətə.
Baş kəsən də bizik, baş kəsdirən də,
Göyləri yerlərdən hey küsdürən də.
Halıma yanmasın bir qətrə Allah,
Günahdan doğulduq, ömrümüz günah.
Ehey, ulu Tanrım, çaxsın şimşəklər,
Ağlasın zəhmindən qorxunc ürəklər.
Çirkaba batıbdı insanlıq yenə,
Məhəl qoyulmayır Allaha, dinə.
Onun əzabıdır sinəmiz ağlar,
Odur ki, Rəbbimiz qapılar bağlar.

**(Lamiyə meyidlərin üstünə yıxılır…)**

**Pərdə çökür.**
**Son.** **23.02.1994.**

# İKİNCİ QARABAĞ MUHARİBƏSİ VAXTI YAZILMIŞ ŞEİRLƏR 9k

## AZƏRBAYCAN ƏSGƏRİ

Nə xəbərdir bu səhər qulaqlarım eşitdi?
İçimdəki niskilim alıb başını getdi,
Hönkürən diləklərim bu gün mərama yetdi.
Can deyir sənə ürək, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Eşitdim ki, yağının üstə şirtək gedirsən,
İşğal altdan yurdları bir-bir azad edirsən,
Qurd ürəkli əcdadın ruhunu yad edirsən.
Köməyin olsun fələk, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Pak amalın zirvələr aşacaqdır, bilirəm,
Düşmənlərə nifrətin daşacaqdır, bilirəm,
İçindəki qəzəbin coşacaqdır, bilirəm.
Yağı qurub şər, kələk Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Qəlbində od sönməsin, şir ürəyin döyünsün,
Qüvvətin tükənməsin, yurd-yuvamız öyünsün,
Hiyləgər yağıların çatdığı ocaq sönsün.
Qalib gününə gələk, Azərbaycan əsgəri!
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Nəriltindən titrədi yerin, göyün ac bağrı,
Yox oldu sinəmizdən bu düşgünlük, bu ağrı,
Getdiyin yol – Haqq yolu, dilində sözün doğru.
Ağrını udsun külək, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Üçrəngli bayrağımın özünsən şərəf andı,
Məğrurluğun önündə zaman durdu, dayandı,
Könlümdə qələbəyə ümid çırağı yandı.
Biz də sevinib gülək, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Aş irəli, düşmənin əzilsin ayaq altda,
Əcdadının məzarı gizlənir neçə qatda,
Vətəndir şərəfimiz, namusumuz həyatda!
Ruhun doğurub Babək, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Şəhidlərin qanına suvaşıb torpağımız,
Qalib ol, sinəmizdən getsin məğlub dağımız,
Bilirəm arxalıdır, amansızdır yağımız.
Haqsız haqqı etməz dərk, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Şadimanın ruhunu titrətdin sən bu səhər,
Tutdu gözümü yaşlar, boğdu boğazı qəhər.
Xilas et, Qarabağı, düşmənin udsun zəhər,
Qaliblikdən yapış bərk, Azərbaycan əsgəri.
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

**27.09.2020/Qusar**

## VƏTƏNİN XİLAS SAVAŞI

Açılsın bağlı yolumuz,
Qoltuqdan çıxsın qolumuz,
Məğlub olmayıb ulumuz.
Azad edəcək dağ-daşı,
Vətənin xilas savaşı!

Qarabağ qana bulanıb,
İçinə atəş qalanıb,
Ocağına su calanıb.
Məlhəm olmayır göz yaşı,
Vətənin xilas savaşı!

Çıxardaq candan ağrını,
Sevməyib yalan doğrunu,
Qovaq yurdlardan oğrunu.
Əydi sinəyə dərd başı,
Vətənin xilas savaşı!

El-obaya qan ələndi,
Şəhid məzara bələndi,
Gözdən gurşadlar selləndi.
Xain bağra sal təlaşı,
Vətənin xilas savaşı!

Haylar yurdlara gəlmədi,
Gələndən haqqı bilmədi,
Dərdimiz ilmə-ilmədi.
Bilirəm ki, zəfər qarşı,
Vətənin xilas savaşı! **03.10.2020/Qusar**

## BU GÜN ZƏFƏR VAXTIDIR

Üçrəngli bayrağımız dolaşsın Qarabağda,
Düşmən qanı sel təki qoy aşsın Qarabağda,
Əsgər marşı dağ-daşla yollaşsın Qarabağda.
Nərəsi yeri-göyü qopardan ər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Ayağının altından, şanlı Əsgər, od çıxsın,
Qat qabağına hayı, qoy torpaqdan yad çıxsın,
Yetər ki, qəlbimizi ağrıdan fəryad çıxsın.
Otuz il elsiz qalan yurda səfər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Bəsdir yalan dillərin qanunları işlədi,
Nahaqq dövran suladı, haqq dilini dişlədi,
Etdikləri zülümlər qəlbimizə işlədi.
Qalx ayağa məmləkət, qəlbə təpər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Müzəffər Ordumuzun nərəsi dağlar aşır,
Qələbə sorağları Qarabağda dolaşır,
Yalanı şir edənlər bugün bizlə dalaşır.
Yaşa şərəfli xalqım, savaşa tər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Ali Baş Komandanın ətrafında birləşək,
Çalaq şərə qələbə, dünyada sehirləşək,
Hamı bir nəfər kimi Qarabağda yerləşək.
Düşməni qabağına indi çəpər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Şadiman, qalib olaq, son qoyaq xain qəsdə,
Şəhid ruhlar narahat gəzir məzarlar üstə,
Düşmən əliqanlıdır, ağlı-zəkası xəstə.
Tuşlayaq silahları haya, sipər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

**03.10.2020/Qusar**

## ALİ BAŞ KOMANDANIM

İradən qarşısında mənfur düşmən əzilir,
İşğal etdiyi yurddan daha əli üzülür,
Qarabağın düyünü savaş ilə çözülür,
Doğma yurd –yuvamıza yağı leşi düzülür.
Müjdələrin çox olsun,
Vur yağını, yox olsun.
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Dikəltdin sinələrdən otuz il enən başı,
Qovdun ürəyimizdə yuva salan təlaşı,
Qurtulsun xainlərdən Vətən torpağı, daşı,
Sevinc yaşına dönsün gözümüzün qəm yaşı.
Səsin düşüb dünyaya,
Yağını saldın vaya,
Gün doğub günə, aya.
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Yeni tarix yazırsan Vətənin şərəfinə,
Necə də bənzərin var sənin öz sələfinə,
Qalib şöhrət gətirdin, sən əziz-xələfinə,
Məmləkətin ürəyi Qarabağ bir dəfinə.
Zəfər çalır Ordumuz,
Qisas alır Ordumuz,
Azad olur yurdumuz.
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Əmrinə müntəzirdi qolu qüvvətli əsgər,
Nərəsənidən titrəyən dünya heyrətli əsgər,
Anasının südünə, yurda qeyrətli əsgər,
Vətənin yarasına şəfa, şəfqətli əsgər.
Əlimiz ehramdadı,
Dilimiz duadadı.
Allah yurda yar olsun,
Xainlərə ar olsun.
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Televizyanın önündə hər gün səni gözlərik,
Zəfər xəbərlərini biz fərəhlə izlərik,
Ordunun yürüşünü ürəkdə əzizlərik,
Ocaq çatıb sinədə qalib eşqlə közlərik!
Şəhidlərin ruhu şad,
Gedib qəlblərdən fəryad,
Rədd olsun yurdlardan yad,
Olsun Qarabağ abad!
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Bir yumruqtək birləşib indi Vətən adamı,
Yağının ürəyində qaldı hiyləgər kamı,
Allah, yüz il yaşasın Yurdumuzun İlhamı,
Azad olsun Qarabağ, yansın ocağı, şamı!
Sənə zəfər yaraşır,
Sevincimiz dağ aşır,
Adın dildə dolaşır.
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

**21.10.2020/Qusar**

## ALLAHA İNANANA MƏZHƏB LAZIM OLMAYIR

Ey məzhəbi ürəkdə ocaq edib yandıran,
Onu-bunu özünün istəyiylə qandıran,
Başını kütləşdirib, hisləri oyandıran.
Baş elə bir mücrüdür, içi boşsa, dolmayır.
Allaha inanana məzhəb lazım olmayır.

Bəndəni Tanrı sayıb ona səcdə edənlər,
İlahini unudub pir üstünə gedənlər,
Guya ki, haqq evinə nəzir müjdə edənlər.
Pak olan haqq gözündə heç kənarda solmayır.
Allaha inanana məzhəb lazım olmayır.

Yaradanı sevməkçin vicdanı təmizləyin,
Haqq könüldən başlayır ömrü boyu izləyin,
Etdiyiniz nədirsə bədəlini gözləyin.
Rəbbim hər bəndə içrə ayrı-seçkik salmayır.
Allaha inanana məzhəb lazım olmayır.

Din Allaha inamsa, bəs məzhəb niyə gərək?
Hamı qalxsın yuxarı, küy salsın göyə gərək,
Dinləri parçalayan öz başın döyə gərək.
Dünyaya gələn gedir, heç bir kimsə qalmayır.
Allaha inanana məzhəb lazım olmayır.

Əvvəl-axır hamının əməli üzə çıxır,
Kimi haqqı tapdayır, kimi də sözə çıxır,
Ürək nə sərgiləsə, o saat gözə çıxır.
Yaradan bizim təki boş xəyala dalmayır.
Allaha inanana məzhəb lazım olmayır.

Şadiman ürəyini şam eylədi Allaha,
Dərdini sözə tökdü, ümid etdi sabaha,
Dinlərə don geydirib canı atdıq günaha.
Rəbb bəndətək düşünüb kimsədən beh almayır.
Allaha inanana məzhəb lazım olmayır.

**23.10.2020/Qusar**

**BİR RİCAM SƏNDƏN PAYIZ**

Bir ricam var səndən payız,
Gecik, gəlmə yurdumuza.
Pay gətirmə çəndən payız,
Soyuq olar Ordumuza.

Əsgərimiz savaşdadı,
Yağıları qovur yurddan.
Düşüb ərzə qalıb adı,
Gülləəri doğur oddan!

Yağışını götür apar,
Torpaq üstə zığ eləmə.
Düşmən yurdda tufan qopar,
Yağıya heç can diləmə.

Gecik, gəlmə məmləkətə,
Düşmənə qan uddururuq!
Gəlib düşmə fəlakətə,
Yağını başdan vururuq.

Bir ricam var səndən payız,
Gəlirsənsə günəş gətir.
Apar qışı gendən payız,
Müjdəmizi yaza yetir.

**23.10.2020/Qusar**

## ALLAHA ƏMANƏT OLASAN, VƏTƏN

Dərdin ürəyimdən baş alıb gedir,
Canım hər gün sənə min səcdə edir,
Tanrım göy içindən xoş müjdə edir,
Bu dünya durduqca qalasan, Vətən.
Allaha əmanət olasan, Vətən.

Çıxart əyinindən qəm libasını,
Qurub oğulların yağı yasını,
Alır vəhşilərdən yurd qisasını,
Haqqın qələbəsin çalasan, Vətən.
Allaha əmanət olasan, Vətən.

Qıvrılsın çayların dərədən, dağdan,
Ordumuz qurtarır səni fərağdan,
Ürək fərəhlənir bu xoş növrağdan,
Düşmənə alınmaz qalasan, Vətən.
Allaha əmanət olasan, Vətən.

Haylar çörəyini yeyib qudurdu,
Üzə gülmüsədi, arxadan vurdu,
Oğluna, qızına min tələ qurdu,
İstədi payıztək solasan, Vətən...
Allaha əmanət olasan, Vətən.

Qələbə sevinci gəzir dağ-daşda,
Oynayır vüsalın ürəkdə, başda,
Yerin qəlbimizdə yuxarı başda,
Özün ruhumuza balasan, Vətən.
Allaha əmanət olasan, Vətən.

Şadiman meşənə, dağına vurğun,
Gəzir ürəyimdə vüsalın oğrun,
Canı tərk etməyən eşqin qoruğun,
Oraya güzarı salasan, Vətən.
Allaha əmanət olasan, Vətən.

**23.10.2020/Qusar**

## XUDAFƏRİN KÖRPÜLƏRİ

Tariximin qan yaddaşı,
Şahid ona yurd yerləri,
Min bir dastan hər bir daşı,
Xudafərin körpüləri.

Düşmənlərin üzün gördü,
Kül içində közün gördü,
Səhər-axşam özün gördü,
Xudafərin körpüləri.

Ər-ərənə qucaq açdı,
Yolun verdi, ocaq açdı,
Çadırına bucaq açdı,
Xudafərin körpüləri.

Əsrlərin məhək daşı,
O tay-bu tay qan yaddaşı,
Birləşdirdi vətəndaşı,
Xudafərin körpüləri.

Ayırdılar, ayrılmadı,
Gəzdi tarix içrə adı,
Min fərəhi, min fəryadı,
Xudafərin körpüləri.

Bitdi daha hay işğalı,
Etdi Ordu vay işğalı,
O tay, bu tay söylər halı,
Xudafərin körpüləri.

Şah Xətai, qov atını,
Qur burda ruh həyatını,
Desin ötən büsatını,
Xudafərin körpüləri.

Şahid oldu yağılara,
Fəryad dolu ağılara,
Məlhəm oldu sarğılara,
Xudafərin körpüləri.

Qurban olum mən ağrına,
Öp bayrağı sal bağrına,
Ordumuzu al bağrına,
Xudafərin körpüləri.

Qalib adın qutla onun,
Bitiribdi yağı sonun,
Dağlar ruhun, Araz donun,
Xudafərin körpüləri.

Şadimanı etdin çıraq,
Ruhu səndən verir soraq,
Gəl birləşək, ocaq quraq...
Xudafərin körpüləri.

**23.10.2020/Qusar**

## YÜRÜ ƏSGƏR YAĞI ÜSTƏ

Titrəsin dağ-daş nərəndən,
Töksün bulud yaş nərəndən,
Qalmasın yad baş nərəndən,
Düşmən ruhu, könlü xəstə,
Yürü əsgər, yağı üstə!

Çox talandı yurd-yuvalar,
Yağıları ər qovalar,
Keçir hələ xoş havalar,
Şər qoymayıb daş daş üstə,
Yürü əsgər, yağı üstə!

Taladılar Qarabağı,
Arxalıymış azğın yağı,
Çəkib elə sinə dağı,
Otuz ildi durub qəsdə,
Yürü əsgər, yağı üstə!

“Cəngi” çalın, yalnız “Cəngi”,
Pozulmasın el ahəngi,
Savaş üçün çalın zəngi,
Zilə çıxın, nədir bəstə,
Yürü əsgər, yağı üstə!

Al düşməndən qisasını,
Zil et “Cəngi” havasını,
Dil tutmasın duasını,
Bədən içrə can ahəstə,
Yürü əsgər, yağı üstə!

Çək nərəni, qoy hallansın,
Yağı başı dumanlansın,
Aç atəşi, odda yansın,
Can deyir dil sənə pəstə,
Yürü əskər, yağı üstə!

Hünər göstər dastan olsun,
Sənə qurban bu can olsun,
Aramızda hicran olsun,
Qeyrət qanı var hər kəsdə,
Yürü əsgər, yağı üstə!

Çalsın hamı zəfər marşı,
Düşmənlərlə dolu qarşı,
Sinəmizdən qaldır başı,
Qələbəni gücdən istə,
Yürü əsgər, yağı üstə!

**23.10.2020/Qusar**

## TORPAĞA GÖMÜLÜB

Torpağa gömülüb şəhid qanları,
Çöküb ruhumuza əziz canları.

Vicdanlar içindən boylanır baxır,
Vaxtsız ölümləri yandırıb yaxır.

Qəhrəman doğulub anadan onlar,
Vətənə sevdalı igid cavanlar.

Gedirlər xilasa yurdu, yuvanı,
Qururlar yağıya qisas divanı!

Vətənin seçilmiş balalarıdı,
Başı uca edən qalalarıdı.

Şərəf tarixini yazırlar onlar,
Düşmənin məzarın qazırlar onlar.

Ya qazi olurlar, yada ki, şəhid,
Ana bətinində alırlar öyüd!

Onlar hamı kimi olmayır heç vaxt,
Qalır yaddaşlarda, solmayır heç vaxt.

Neçə il yaşasaq sonu ölümdü,
Həyatın görünməz donu ölümdü.

Torpaq qan içəndə Vətənə dönür,
Girir sinəmizə qəlbdə döyünür.

Şəhidi məzarda uydurur torpaq,
Yurdun varlığını duydurur torpaq,

Şəhidlər, qazilər Vətənin özü,
Odur ki, qəlblərə basılır közü.

Onlar unudulmur yurd-yuva kimi,
Çökür nəfəslərə bir hava kimi.

Bu dünya durduqca yaşayır onlar,
Vətənin şərəfin daşayır onlar.

**24.10.2020/Qusar**

## BOYLANAN BULUD

Vətən göylərində boylanan bulud,
Çəkil səmalardan doğsun al günəş.
Bağrımız içində vaylanan bulud,
Sənin varlığını boğsun al günəş.

Yurdumuz, yuvamız qurtulsun ahdan,
Qələbə zəfərin qazansın Ordu.
Qovuşaq dincliyə elə sabahdan,
Qaliblik sevinci bürüsün yurdu.

Əsgərimiz qırsın quldur dəstəsin,
Dostumuz sevinsin, düşmən çatlasın.
Haqdan yan keçənlər kaş haqqa gəlsin,
Qoy şərin dizini xeyir qatlasın.

İlahi, qalib et sən Ordumuzu,
Yağı tapdağında qalmasın Vətən!
Tarixə qalibtək sal adımızı,
Heç məğlub durumda olmasın Vətən!

Şuşaya sancılsın üçrəngli bayraq,
Qovaq Xankəndindən mənfur düşməni.
Qələbə xəbərin dünyaya yayaq,
Zəfər müjdələri sarsın ölkəni...

**30.10.2020/Qusar**

## DÖYÜŞƏN VƏTƏN

Haqsız dünya ilə döyüşən Vətən.
Haqqına çatdırsın Allahım səni.
Olsun körpələrin daha şən, Vətən,
Müjdəyə yetirsin sabahım səni.

Donmasın dodaqda körpə gülüşü,
Qulağın dəlməsin güllə səsləri.
Dodaqlar sevinclə öpə gülüşü,
Gül-çiçək qoxusun qoy nəfəsləri.

Yazsın şanlı Ordu zəfər tarixin.
O məğlub illərin üstdən xətt çəkək.
Bağrına iz qoysun səfər tarixin,
Düşmənin önünə min bir sədd çəkək.

**30.10.2020/ Qusar**

## HAYSAN HAY

Sən hiylə atını çapdın sağ-sola,
Bir gün hiylələrin çatlar başında.
Mənfur azğınlıqla çıxdın şər yola,
Görərsən zülümün özün qarşında.

Adını erməni qoydun, haysan hay,
Nə qədər qanlara batıbdı əlin.
Sənin nəfəsindən doğulubdu vay,
Şərdən yoğrulubdu, çünki təməlin.

Qafqaza ayağın dəyəndən bəri,
Batdı yurd-yuvamız qana, qırğına.
Qapdı qılıncını yurd igid, əri,
Min dəfə xəncərin soxdu bağrına.

Xain əməlindən dönmədin heç vaxt,
Fürsət düşən kimi arxadan vurdun.
Tələ qurmaq üçün aradın bir vaxt,
Əlin çatan yerdə min hiylə qurdun.

Qaraçı soyundan ayrılmısan sən,
Ey yurdu olmayan torpaq oğrusu.
Fitnəylə, fəsadla doyrulmusan sən,
Etdiyin zülümün getmir ağrısı!

Öncə ac-yalavac daşındın yurda,
Artıb - çoxalanda mənimdi dedin.
Sənin bənzərin var soxulcan qurda,
Yurdları uçurdub neçə baş yedin.

Savaş meydanında siçovul oldun,
Qaçıb gizlənməkçin yuva axtardın.
Ananın bətnindən namərd doğuldun,
Dünyanı hiylənin toruna sardın.

Kişi savaşına cürətin çatmır,
Qadına, körpəyə raket atırsan.
Çirkin əməlini vicdan oyatmır,
Hara ayaq qoydun aləm qatırsan.

Saldın Qarabağa qırğın, qiyamət,
Uçurtdun, dağıtdın yurd-yuvaları.
Səndə insanlıqdan yoxdur əlamət,
Unudub kök-soyun köç havaları...

Sənə yuva verdi yurd insanları,
Duz-çörək kəsdilər, süfrə açdılar.
Hiyləylə bəlaya saldın onları,
Öz yurd-yuvasını qoyub qaçdılar.

Üzə pərdə çəkdin İsa dinini,
Amma iblislərlə peyman bağladın.
Öldürdün körpəni içdin qanını,
Dildə bayraq etdin Tanrının adın.

Bütün Avropanı hiylən dolaşdı,
Əl açıb diləndin hara getdinsə.
Vərəqlər, qələmlər şərə bulaşdı,
Şərə yoldaş oldun nəyi etdinsə.

Alban tarixini keçirtdin ələ,
Ulu məbədlərə hiylə işlətdin.

Etdiyin yamanlıq vay saldı elə,
Qaraçı köçündən düşən millətdin.

Sən arsak deyərək haray salırsan,
Arsak ərsaklardı, türkün soyudu.
Alçalıb ağana yardım alırsan,
Sənin düşəcəyin dərin quyudu.

Qarabağ yurdudu əcdadımızın,
Onun sərvətini taladın, bəsdir!
Nərəsi şir gücü övladımızın,
Qurduğun hiylələr daha əbəsdir.

Əsgər çəkməsinin ayağı altda,
Əzilib itirsən xəbərin varmı?!
Nə əl-qol atırsan bu batabatda,
Kişilik adına təpərin varmı?!

Sənə qənim olsun erməni adın,
Ərlər belə olmur bunu biləsən.
Ey səni dünyaya gətirən qadın,
Mənfur doğduğunla birgə öləsən!

**31.10.2020/Qusar**

## AZAD OLUR YURD-YUVALAR

Əsirlikdən azad olur yurd-yuvalar,
Ellər gəlir görüşünə can Qarabağ.
Dodaqlarda cilvələnir haqq dualar,
Zəfər donun geyinibdi an Qarabağ.

Açsın qoynun Cıdır düzü Ordumuza,
Pənahəli xanın ruhu qoy şadlansın!
Qalibiyyət şərəf verir yurdumuza,
Saf qəlbimiz yurd eşqiylə qidalansın!

Əsgərimiz addımlasın sıralarda,
Ayağının alttan çıxan od parlasın.
Vətən dərdi köz bağlamış yaralarda,
Ürəyimiz savaşlarla alovlansın.

Mənfur düşmən məkirlidir, hamı bilir,
İşğal etdi yurd-yuvanı arxasıyla.

Əsgərimiz məğlub adın üstdən silir,
Düşmən üstə gedir “Cəngi” havasıyla.

Ey Vətənin oğlu-qızı ayıq olun,
Dayağınız el-obanın birliyidir.
Qurtuluşun çarəsidir savaş yolun,
Yağı altda qalan Vətən dirliyidir.

Şəhid qanı axır Vətən bağırında,
Savaşlardan qalib çıxmaq kişi işi.
Şuşamızın harayı var, ağırında,
Otuz ildi dodağmızi kəsir dişi!

Hay üzünü pərdələyib hiyləsiylə,
Tökdüyü qan könlümüzü yaralayıb.
İçimizdən yurd bağırır gur səsiylə,
Bu bağırtı yerin bağrın aralayıb.

İşğal bitir, Qarabağa gün doğacaq,
Talan olmuş imarətlər tikiləcək.
İşğalçını yürütdüyü kin boğacaq,
Gün gələcək dərddən beli büküləcək.

Ordu hərbin tarixinə dastan yazır,
Əsgərinin ayaq səsi yer titrədir.
Duyğulanan ürəyimə hikmət sızır,
Yerin bağrın hünəriylə ər titrədir.

Ey Şadiman, zəfər marşın alır qulaq,
Qələbəmiz yaxındadır, duyuram mən.
Təmizlənər Qarabağdan tezcə alaq...
Bu eşqiylə günlərimi sayıram mən.

**05.11.2020/Qusar**

## XOŞ OLSUN

Günlərimiz bir-birindən xoş olsun,
Gözümüzdə səadətdən yaş olsun,
Qalibiyyət  hər xəbərdən baş olsun.
Sevincimiz dərə keçib dağ aşır,
Vətən, sənə qalib olmaq yaraşır.

İşğal altdan qurtulduqca yurdumuz,
Zəfər andın hər gün içir Ordumuz,
Savaşlardan şirtək keçir Ordumuz.
Məğlub düşmən izi azır, yol çaşır,
Vətən, sənə qalib olmaq yaraşır.

Nufuzunu qaldırmısan şərəflə,
Hərb kitaba saldırmısan şərəflə,
Zəfər marşın çaldırmısan şərəflə.
Könlümüzə fərəh yağır, çay daşır,
Vətən, sənə qalib olmaq yaraşır.

Çin-çin olur ürəyimdə sözlərim,
Dikilibdi yollarına gözlərim,
Ürəyimdə atəş saçır közlərim.
Qarabağın düzlərində dolaşır,
Vətən, sənə qalib olmaq yaraşır.

Şadimanın üzü gülmür nə vaxtdı,
Mənfur düşmən qayçıladı bu baxtı,
Könlümüzə ahu-nalə buraxdı.
Qalib adın misralarla yollaşır,
Vətən, sənə qalib olmaq yaraşır.

**05.11.2020/Qusar**

## OYANAN VƏTƏN

“Cəngi” havasına oyanan Vətən,
İgidlər savaşa şir kimi gedir.
Əsir yurdlarına boylanan Vətən,
Oğullar döyüşə ər kimi gedir!

Qoy qalib günün sayı çox olsun,
Şərəf tarixinə adını yazdır.
Ordumuz savaşda haqqını bulsun,
Şəninə deyilən nə varsa azdır!

Çökdür dizi üstə mənfur düşməni,
Sən dünyaya göstər öz qüdrətini.
Töz təki yurdlardan üfür düşməni,
Qaldır ayaqlardan ləyaqətini.

Itirə-itirə getdin yüz illər...
Yeni tarixinin yaz kitabını.
Vətən, alqış desin sənə nəsillər,
Vermə yad əllərə haqq-hesabını.

**05.11.2020/Qusar**

## ALPAN ALBAN OLDU

Alpan alban oldu, haylar erməni,
Gətirdi ölümü qanı Qafqaza.
Tarixin fəryadı ağrıdır məni,
Dərdlər dastan oldu inləyən saza.

Alpan türk soyunun qolundan biri,
Qubanın Alpanı adını saxlar.
Gizlədir əcdadı hər məzar sirri,
Sancılıb köksünə çıxmayır oxlar.

Qıpçaq dədələrin İsa inancı,
Ayırdı kökündən, soyundan onu.
Vətənin bağrına doldu bu sancı,
Bitmədi savaşın, qırğının sonu.

Çəkdi yad ellilər xaç təəssübü,
Alpan kilsələrin taladı, uddu.
Xaçpərəst ağanın tac təəssübü,
Hayların kimliyin tamam unutdu.

Rus çarı dağıtdı tariximizi,
Ərmağan eylədi mənfur haylara!
Qovdu oba-oba Vətəndən bizi,
Məmləkət tuş oldu ahu-vaylara!

Tarixə qovuşdu İrəvan xanı,
Haya ermənistan etdilər onu.
Bəs ədalət varsa dünyada, hanı?
O gündən bitməyir bu zülmün sonu...

Qarabağ bulaşdı qana, qırğına,
Hayların hiyləsi bitmədi heç vaxt.
Düşdü zülmkarın haqq ayağına,
Hönkürdü, ağladı min bir tale, baxt.

İndi zəfər marşı çalır Ordumuz,
Üç yüz illik qisas alınır Haydan.
İşğaldan qurtular bütün yurdumuz,
Qurtarar nalədən, qırğından, vaydan.

**05.11.2020/Qusar**

## YENİ TARİX YAZIRIQ

Ey üzü dönmüş fələk,
Çevir bizə üzünü.
Yağıya vermə kələk,
Al ürəkdən közünü.
Haqq savaşa hazırıq,
Yeni tarix yazırıq.

Ayır bizə vaxtından,
Al qəlbdən ahımızı.
Sal şəri öz taxtından,
Nur et sabahımızı.
Demə yoldan azırıq,
Yeni tarix yazırıq.

Ey üzü dönmüş fələk,
Ordumuzu şanlı et.
Bu eşqlə vursun ürək,
Eli Vətəncanlı et.
Şərə quyu qazırıq,
Yeni tarix yazırıq.

Haqq qapısın aç bizə,
Dünya bizi anlasın.
Göylərdən nur saç bizə,
Quraq düşmənin yasın.
Alaq Vətən qisasın!
Olmayaq qəlbi qırıq,
Yeni tarix yazırıq.

**05.11.2020/Qusar**

## AÇ QOYNUNU

İşğal altda qalan yurdlar,
Ordumuza aç qoynunu.
Düşməndən dərd alan yurdlar,
Həsrət qoydu ac qoynunu.

Düşdüz yağı talanına,
Tuş olduz şər yalanına,
Şərəf qatır ər anına,
Eylə ona tac qoynunu.

Azğın düşmən çox qan tökdü,
Ellərinin bağrın sökdü,
Ocaqlara duman çökdü,
Vermə şərə bac qoynunu.

Demə yağsın payızına,
Əsgər gəlir pişvazına,
Ocağı çat ər qızına,
Eylə ona sac qoynunu.

Uyma düşmən qəfəsinə,
Ordumuzun nəfəsinə,
Dağ titrədən nərəsinə,
Günəş təki saç qoynunu!

**05.11.2020/Qusar**

## VƏTƏN, SƏNƏ CANIM FƏDA

Nə doğmadır dağın, daşın,
Müqəddəsdir hər qarışın,
Min illərdən soraq yaşın,
Varlığıma salır səda.
Vətən, sənə canım fəda.

Yağıların səni üzdü,
Yurd-yuvana kədər düzdü,
Düşmənində neçə üzdü?!
Saldı yurda çox qan-qada.
Vətən, sənə canım fəda.

Əsgərlərin sıralanıb,
Şəhid olub, yaralanıb,
Yağından can aralanıb,
Ürəyinə düşüb qada.
Vətən, sənə canım fəda.

Ordun edir haqq savaşı,
Sinəsindən qalxıb başı,
Qarabağın pak dağ-daşı,
Qoy qalmasın azğın yada.
Vətən, sənə canım fəda.

Xarıbülbül çiçəkləsin,
Ətəkləri ləçəkləsin,
Alsın ərzi o haqq səsin,
Qalib sayıl bu dünyada.
Vətən, sənə canım fəda.

**05.11.2020/Qusar**

**BİZİ NECƏ AĞRITMISAN**

Bizi necə ağrıtmısan,
Elə də sən ağrı, düşmən.
Özünü şər doğrutmusan,
Üzsün fitnən bağrı, düşmən.

Pislik gəldi çox əlindən,
Fələk vursun düz dilindən,
Çıxmadı heç söz dilindən,
Heç bir zaman doğru, düşmən.

Yazdın yalan tarixini,
Qanlar salan tarixini,
Elə talan tarixini,
Yurd-yuvama oğru düşmən.

Ordu gəlir qaçsan hara,
Salar səni ahu-zara,
Əsgərimiz vurar yara,
Qoysan da min sarğı, düşmən.

Anan doğub min üz səni,
Xilas etməz bu üz səni.
Edəcəkdir gec-tez səni,
Dünya bir gün sorğu, düşmən.
**06.11.2020/Qusar**

## ALLAHIN EVİNDƏ

***İşğaldan azad olmuş Qubadlı rayonun Məmər kəndində ermənilər məsciddə donuz saxlayıblar.***

Allahın evində donuz saxlayan,
Sən özün donuzsan, heyvanda suç yox.
Şərəfsiz kimliyi kökdən laxlayan,
Dünyaya çayırsan, imanda suç yox!

Hansı qəbilədən artıb çoxaldın?
Əməlin terrordu, addımın hiylə.
Hara ayaq basdın, ora qan saldın,
Tanrının üzünə çıxırsan neylə?!

Guya imanını xaça bağladın,
Bəslədin İsaya yalandan sevgi.
Başına bəladı sənin hay adın,
Tanrıya olmalı hər candan sevgi.

Məscid müsəlmanın müqəddəs yeri,
İbadət yerini təhqir edirsən.
Allahın evini etdin qəsd yeri,
Çirkin dərrakənlə hara gedirsən?!

Çoxdan xain çıxdın  duz-çörəyə sən,
Duz-çörək itirən – haqqı tanımaz.
Yalandan xaç çəkmə o fələyə sən,
Çünki doğulmusan anadan qanmaz.

İsanı əlində bayraq eyləyib,
Hər bir din-imana həqarət etdin.
Xaçı ürəyinə çıraq eyləyib,
Alpan kilsələrin çox qarət etdin.

Biz bütün dinlərə hörmət edirik,
Hər din İlahiyə sevgi çeşməsi.

Hamımız ölürük, Rəbbə gedirik,
Hərənin bir cürdür, amma qibləsi...

Hansı qəbilənin törəməsisən?
İçdə yaşadırsan vəhşi xisləti.
Özün öz başına bəla ikən sən,
Kimliyin adına doğdun illəti.

Məzarlar yağısı, inanc düşməni,
Donuz səndən təmiz bunu biləsən.
Əqidən düzəldə bilməyib səni,
Çətin ki, imana, dinə gələsən.

**06.11.2020/ Qusar**

## YƏHUDİ XALQI

Fələyin verdiyi ömrə tapındı,
Boşa gün sürmədi yəhudi xalqı.
Beyni diqtə edən əmrə tapındı,
Nələri görmədi yəhudi xalqı.

Çoxları sevmədi onun kimliyin,
Məntiqli beyini dünyaya gücdü.
Zəkayla göstərdi öz hakimliyin,
Dağın əzəməti qayaya gücdü!

Ağlı, düşüncəsi mizan tərəzi,
Həsr etdi elmə, savada özün.
Yoxdu bu dünyada onun əvəzi,
Boş yerə xərcləməz öz odun, közün.

Min illər iç-içə yaşadı bizlə,
Amma yurdumuza göz dikmədi o.
Vətənin ağrısın daşıdı bizlə,
Özünü kənara heç çəkmədi o.

Faşist dəhşətindən keçdi taleyi,
Əzildi, qırıldı, hənuz çökmədi.
Soyqırım zəhərin içdi taleyi,
Ağlayıb, hönkürüb belin bükmədi!

Zəhmətlə cah-cəlal qurdu özünə,
Dünyanı ağlının oduna saldı.
Aləmi bürüdü ürək közünə,
Qurub-yaratmağı adına qaldı.

Qorudu əzabla Rəbb inancını,
Heç kəs unutdura bilmədi ona.
Nə qədər vursa da fələk qamçını,
Ümidsiz ağrısı dolmadı cana.

Dolaşdı dünyanı səsi, sədası,
Cahanı yük etdi özünə hər vaxt.
Bağrına sancıldı haqqın nidası,
Güvəndi gücünə, sözünə hər vaxt.

Ayağın basdısa hansı ölkəyə,
Ora zəkasından sərmayə axdı.
Xöşbəxtlik gətirdi şansı ölkəyə,
Qibtə edənləri yandırıb yaxdı.

Bu gün müharibə Vətənimizdə,
Bizimlə veribdi kürək-kürəyə.
Doğmadan doğmadır o evimizdə,
Ülfəti işləyir, sanki ürəyə.

Bizimlə birliyi dağdı düşmənə,
Bizə vəfasından yanıb tökülür.
Azərbaycan eşqi olub ənənə,
O üzdən yağının beli bükülür.

Dünyanın taxtında oturub şəstlə,
Yaradır, yaşayır yəhudi xalqı.
Hər bir çətinliyi böyük vüsətlə,
Çiynində daşıyır yəhudi xalqı.

**06.11.2020/Qusar**

## DAYAĞIMIZ OLMUSAN

Çətin gündə daima dayağımız olmusan,
Könlümüzdə solmayan çırağımız olmusan,
Düşmən aşa bilməyən şiş dağımız olmusan,
Bu dünyada arxamız, pənahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Ey sultanlar ölkəsi, məmləkətin var olsun,
Açsın xeyir qapını, hər gün sənə yar olsun,
Dilbər səltənətində həmişə bahar olsun,
Yurda müjdə gətirsin sabahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Qarabağ azad olur yanır-yaxılır düşmən,
Əsgərin ayağına ölüb yıxılır düşmən,
Basılıb künc-bucağa yaytək sıxılır düşmən,
Mənəvi dəstəyinlə yox ahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

İşğal altda qalmışdı yurd-yuvamız otuz il,
Boğuldu içimizdə haqq duamız otuz il,
Yaşamaqçın yetmədi saf havamız otuz il,
Məğlubluq oldu bizə günahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Osmanlı dövlətinin şərəfin daşıyırsan,
Min illər dövlət qurub, qürurla yaşayırsan,
Hamıya qucaq açdın dedin: Xoş yaşa insan!
Soyuna sahib çıxan ürcahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Parçalanmış Vətənin ümidi sənə bağlı,
İşlətdi haqq işlərə oğlun zəkanı, ağlı,
Yurdlarımız yağıya tikə oldu çox yağlı,
Düşmənə dostluq oldu silahımız, Türkiyə...
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Sən qardaşsan ölkəmə amalın qutlu olsun,
Soy-kökünə sahibim, Vətənin mutlu olsun,
Bir-birinə sarılan yurdlar umudlu olsun,
Yağıya yem olmasın gicgahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Al rəngli bayrağını qoyaram gözüm üstə,
Baş əyirəm önündə bu qədər dözüm üstə,
Torpağına diz çöküb qoyaram üzüm üstə,
Ocağı ərşə bülənd yurdgahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Şadiman fərəh dolu bu günlərlə öyünür,
Bəxtimizdən açılan düyünlərlə öyünür,
Ürəyimiz əzəldən varlığınla döyünür,
Şərə meydan oxuyan gücgahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

**07.11.2020/Qusar**

## ÜZ-ÜZƏYİK BİZ

Mənfur düşmənlərlə üz-üzəyik biz,
İlahi, qalib et sən Ordumuzu.
Min bir haqsızlıqla göz-gözəyik biz,
Qoru azğınlardan bu yurdumuzu.

Zəfər yürüşümüz ərzə səs salsın,
Dünyanın gözündə ucalaq biz də.
Adımız tarixdə şərəflə qalsın,
Elimiz, obamız qalmasın düzdə.

Əsgər nərələri aşsın dağları,
Olmasın bir qarış yurd işğal altda!
Yansın obaların gur çıraqları,
Biz də başı uca olaq həyatda.

**07.11.2020/Qusar**

## ODUNA SIĞINDIĞIM VƏTƏN

Oduna sığındığım Vətən,
Birər-birər yurdların işğaldan azad olur.
Azğın düşmən rədd olur torpağımızdan.
Yaman vahiməyə düşüb hərb sorağımızdan.
Xaraba qoyduğu kənd, şəhər qoymadı,
Daha kim qaldı qəlbini oymadı.
İçində kin-küdurəti bitməyir bizə qarşı,
Hələ bilmir nə diqtə edəcək ona qarşı...
Ordumuzun uğurları,
Partladır nifrət dolu bağırları..
Yağı əlində uçulub sökülmüş,
İçinə yurddaş qanı tökülmüş
Xaraba kəndlər, şəhərlər könlə qəhər bürüyür,
Amma igid əsgərimiz yağı üstə yürüyür.
Yürüyən ayaqlarınız yorulmasın balalar,
Sizi gözləyir uçulub dağılmış qalalar,
təhqir olunmuş ibadət yerlərimiz.
Dağ-daşa lərzə salan,
Düşmənin canın alan ərlərimiz,
Sənin xilasına gəlir Vətən,
Yağının yasına gəlir Vətən.
Şir ürəkli igidlərə yollarını aç,
Onlarladı yalnız əlac!
Əlac bildiklərini bağrına bas,
Qoy qiyamətə qalmasın qisas!
Namusu tapdalanmış qız-gəlinlərin
ruhu dolaşır oralarda,
Bir göynərti var köz bağlamış yaralarda...
Qarabağında qisas savaşı gedir,
Ordumuz düşmənin darmadağın edir!
Qazilərinin gözləri aydın,
Heç zaman unutma şəhidlərinin adın!
Ordumuz haqq savaşına atıldı!

Düşmənin ürəyinə güllə çatıldı.
Pirlərin, məzarların, məscidlərin, kilsələrin
özünə qayıdır, Vətən!
Füzulin, Cəbrayılın, Zəngilanın, Qubadlın
işğaldan qurtuldu,
Əsir olmuş Xudafərin Üçrəngli bayrağı
bağrına basdı,
Bax bu əsli xilasdı Vətən,
Güneyinin də üzü güldü,
İçinə sevinc töküldü.
Bəzz qalasından boylandı Babəkin nigaran ruhu,
Göylərin buludunun yox oldu ahı...
Nur etdi səhərimizi,
Qaliblik üzür boğazdan qəhərimizi.
Şuşaya taxılacaq bayraq gününə bizi daşı, Vətən,
Əsrlərin yaşı, Vətən.
Gözlərin qələbə dolu sabahlara açılsın,
İçinə nur saçılsın!
Atəşinə yandığım,
Oduna sığındığım,
Vətən....
Vətən...

**07.11.2020/Qusar**

## GÖZÜN AYDIN OLSUN, ŞUŞA

Əsgərimiz səf bağlayıb düzülübdü sıralara,
Məlhəm çəkir otuz illik köz bağlamış yaralara,
Saf qaliblik sədamızın səsi gedir haralara...
Ordumuzun nərəsindən haray düşüb boz dağ-daşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

İndi daha başımız da sinəmizdən qalxacaqdır, 1,2?***
Durna gözlü bulaqların durulaşıb axacaqdır,
Nər oğullar yağıların axırına çıxacaqdır,
Açsın qoynun "Cıdır düzü" soy bildiyi hər yurddaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Bilirsənmi içimizdə nə müddətdir həsrət gəzir?!
Sən işğala düşən gündən məmləkəti kədər əzir,
Bu gününə canımızı eyləmişik sənə nəzir,
Mənfur düşmən divan tutub, zülüm edib vətəndaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Bölgə-bölgə yurdlarımız bu xəbəri bayram edir,
Sanki Vətən özü durub soydaşlarla bir kam edir,
Batıb qəlbdə qaranlıqlar, ürəklərlə can şam edir,
Bu payızda qurtuluşun, çıx get deyir qarlı qışa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

"Qarabağın şikəstəsi" zilə qalxsın gur səs ilən,
Xanəndələr cuşa gəlsin ruhu oxşar nəfəs ilən,
Talan olmuş Qarabağın vidalaşır qəfəs ilən,
Tərk eləsin hicran yurdu, yoxdu daha yer təlaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Azğınlaşmış mənfur düşmən günbəgündən yolun azdı,
Özün ali saydı yağı, zənn elədi el dayazdı,
Qoy var olsun Baş Komandan, yurda yeni tarix yazdı...
Əsgərimiz azğınların ümidlərin çırpdı daşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Cıdırında yallı gedən düşmənlərin talan oldu,
O basılmaz ordu mifi Ordumuzla yalan oldu,
Yurd yağıdan təmizlənir sənə sarı gələn yoldu...
Bundan sonra min illərlə şiş dağlarda məğrur yaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Qov dumanı başın üstdən, dumanların keçər olsun,
Əyilib buz bulağından qız-gəlinin içər olsun,
İnnən belə dost-düşməni bir-birindən seçər olsun!
Üzeyirlə, Natəvanla qoy çəkilsin adın qoşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Bilirsən ki, içimizdə möhnət yükü ağır olub,
Abır-həya güdən bəzən yad gözündə fağır olub,
Haqqımızı istəyəndə çox vaxt çığır-bağır olub,
Pənahəli xanın ruhu yurdum deyir hər qarışa,
Azadlığın mübarəkdir, gözün aydın olsun Şuşa!

Bilirsən ki, səni necə azad etdi şanlı əsgər,
Qanın tökdü, şəhid oldu qəlbi vətən canlı əsgər,
Düşmənlərə qan uddurdu, yurda isti qanlı əsgər,
Qalxdı azğın yağılarla qəhrəmanlar haqq savaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Şadimanın müjdə dolu sözü düşüb kağızlara,
Qurtuluşu misra edən gözü düşüb kağızlara,
Bu zəfəri ərzə yayan salam olsun ağızlara,
Şad xəbərin özəlliyi gətiribdi eli cuşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

**08.11.2020/Qusar**

## XAN KƏNDİNƏ QAYIDIR

Dağa, daşa düşüb səs,
Dağıdılır şər qəfəs,
Gəlib Şuşaya nəfəs,
Payız zəfər ayıdır,
Xan kəndinə qayıdır.

Könlümüz cilvələnir,
Yurda sevinc ələnir,
Qəlbimizə bələnir,
Xainlərin vayıdır,
Xan kəndinə qayıdır.

O şərəfsiz Stepan,
Tökdü yurdda xeyli qan,
Qan gölü oldu hər yan,
Tarix bizi ayıldır,
Xan kəndinə qayıdır.

Yumruq təki birləşdik,
Binadan yeniləşdik,
Haqqın evinə düşdük,
Bu İlahi payıdır,
Xan kəndinə qayıdır.

Qarabağ məskənimiz,
Mənliyimiz, mənimiz,
Getdi duman, çənimiz,
Vətənin bal ayıdır,
Xan kəndinə qayıdır.

**09.11.2020/Qusar**

## QƏLƏBƏ XƏBƏRİ ALDIM

Bu səhər qələbə xəbərin aldım,
Qələbən mübarək olsun Ordumuz.
Fəxarət hisiylə qalxıb ucaldım,
Həmişə zirvədə qalsın Ordumuz.

Xilasa yollandı qurd oğlu qurdlar,
Yağı sinəsinə zərbə vurdular,
Düşmən tapdağından qurtuldu yurdlar,
Daima zəfərlər çalsın Ordumuz.

Tarix unutmayır mərd igidləri,
Xalqın iftixarı igid ərləri,
Töküldü döyüşdə alın tərləri-
Adın yüksəklərə salsın Ordumuz.

Qurtardı işğaldan yurd-Qarabağı,
Getdi sinələrin niskili, dağı,
Bəxş etdi millətə qələbə çağı,
Daim ucalığı bulsun Ordumuz.

Rəhmətlə anırıq Şəhidlərmizi,
Qazilər göylərə ucaltdı bizi,
Allahım qorusun Əsgərlərmizi,
Vətən keşiyində dursun Ordumuz!

**10.11.2020/Qusar**

## XALQIN RUHUNU

***Azərbaycan prezidenti***
***cənab İlham Heydər oğluna***

Qaytardın özünə xalqın ruhunu,
Sildin ürəklərdən təslim ahını,
Doldurdun şəfəqlə yurd sabahını,
İşlətdin zəkanı, ağılı, İlham,
Vətənin fədakar, mərd oğlu, İlham.

Yurdun başı üstə gəzdi qan-qada,
Tuş oldu ürəklər ahu-fəryada,
Cəngavər ruhunla yetdin imdada,
Yox oldu düşmənin nağılı, İlham,
Vətənin fədakar, mərd oğlu, İlham.

Ikiyüz il qovulduq, qaçdıq yurdlardan,
Bir vəfa görmədik biz heç yadlardan,
Qurtardın milləti məğlub adlardan,
Xalqına sevdalı, qayğılı, İlham,
Vətənin fədakar, mərd oğlu, İlham.

Haylar yağmaladı məskənimizi,
Yurdu işğal etdi, alçatdı bizi,
Min yol ayaqladı o mənimizi,
Mənliyə diqqətli, sayğılı, İlham,
Vətənin fədakar mərd oğlu, İlham.

Otuz il çox çəkdik mənfur düşməndən,
Təsəlli verənlər dolandı gendən,
Qarabağın bəxti aslıdır səndən,
Qoymadın yolları bağılı, İlham,
Vətənin fədakar, mərd oğlu, İlham.

İradən önündə şər dünya susur,
Diz çöküb yağılar tasa qan qusur,
Tapmaq istəyirlər hər işdə qüsur,
Qəlbi məmləkətə saf bağlı, İlham,
Vətənin fədakar mərd oğlu İlham.

Bu gün azad olur əsir yurdumuz,
Düşmənin taqətin kəsir yurdumuz,
Yeni tarix yazır milli Ordumuz...
Qalmadı sinələr heç dağlı, İlham,
Vətənin fədakar, mərd oğlu İlham. **10.11.2020/Qusar**

## ZƏFƏRMİZƏ ŞÜBHƏ ETMƏ

Zəfərmizə şübhə etmə,
İçdə, çöldə olan düşmən.
Dilindəki sözlər boşdur,
Nə deyirsən yalan düşmən.

Ordumuz haqq davasında,
Əyilməzlik havasında,
Gəzmə özgə yuvasında,
Gəzdin oldun talan düşmən.

Bu torpağa sən gəlmə-yad,
Çıxarmısan yalançı ad,
Yurdlarımız olub azad,
Yolun üstə dalan düşmən.

Heç vaxt olmub yurdun-yuvan,
Başdan getmir hiylə havan,
Əsgərimiz tutdu divan,
Ayaq altda qalan düşmən.

Qazi-Şəhid uğurudu,
Haqqın yolu doğurudu,
Sənin adın oğurudu,
Olacaqsan nalan düşmən.

Zəfərimiz səs dünyaya,
Qalib olduq düşdün vaya,
Hər işğalçı qəsd dünyaya,
Leş-leş oldu balan düşmən.

**06.12.2020**

## GETDİN SAVAŞA, ORXAN

***Qusar rayonun Həsənqala kəndinin şəhidi***
***Orxan Qədim oğlu İsmayılova ithaf***

Ölkənin başı üstün qara buludlar aldı,
Düşmən tapdağı altda yurdlar çarəsiz qaldı,
Vətən yağıya haram, yurdaşına halaldı,
Dözmədin içimizdə daim dərd daşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Könlümüzdən ahımız dikəlmişdi Allaha,
Ümidimiz yox idi hər açılan sabaha,
İlahi dərgahında batmamaqçın günaha,
Cəhd elədin qürurun dəyməsin daşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ey Vətən fədaisi, can etdin yurda fəda,
Dilimizdə olubdu şəhid adı mübtəda,
Tükətdi könlümüzü otuz ildi qan-qada,
Qəlbi əsir etmədin heç vaxt təlaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ey şəhidim, şəhidlik taleyində var imiş,
Dinimiz şəhidliyi ən uca məqam demiş,
İlahi dərgahına yetmək üçün kam demiş,
Kamın yetişdi yəqin mübarək başa Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Körpənin məsum üzün cəmi bir gecə gördün,
O südəmər oğlunu yuxunda necə gördün?!
Şəri əl-qolu bağlı basılmış küncə gördün,
Qəhrəmanlıq biçilib, fəqət  gənc yaşa Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ananın gözü yaşlı məzarına can deyir,
Yarın qəbir daşına qəm dolu hicran deyir,
Yanır itginə Vətən, aləm həyəcan deyir,

Dikələ can ahımız şərə sarmaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ruhuna ərz edirəm, qanın yerdə qalmadı,
İşğal bitdi, Şəhidim, yurd namərdə qalmadı,
Zəfər marşı çalınır, millət dərdə qalmadı,
Yetdin şəhadətinə, dedin: El yaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ey ana qucağından yurda düşən oğullar,
Vətən sevən qadınlar mərd igidlər doğurlar,
Qəhrəmanlar hər zaman şərin köksün boğurlar,
Sən bütün bacılarçın döndün qardaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ey şəhidim, gülüzlü ruhuna salam olsun,
Yaralı candan qopan ahına salam olsun,
Dilimizdə yurd eşqi müqəddəs kəlam olsun!
Zəfərmizin sədası düşüb dağ-daşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Səsimiz batmayacaq, boğulmayacaq daha,
Ah-naləmiz aləmə dağılmayacaq daha,
Bilirəm bir də səndən doğulmayacaq daha,
Övladının adında daima yaşa Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Şadiman nəzmə çəkir adını qürur ilə,
Qəbri nurlu şəhidim, adın yaraşır dilə,
Boş yerə doğulmadın ocağına, nəsilə,
Həkk olub şəhidliyin dilsiz başdaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

**30.12.2020**

## VƏTƏNSƏN ƏSGƏR*

Günəş şəfəqlənib çənin yerinə,
Qalib ölkəmizi bürüyüb fərəh.
Mən özüm öləydim sənin yerinə...
Şəhidsən, Qazisən, Vətənsən Əsgər.

Qaldırdın göylərə şərəfimizi,
Qoydu igid adın tarixə izi,
Dartdın bataqlıqdan çıxartdın bizi,
Ulus sevdamızla ötənsən Əsgər.

Səni könlə sarır ana-bacılar,
Qopub içimizdən itir acılar,
Daha hönkürtüdən, qəmdən qaçılar,
Qəlbimiz içində bitənsən Əsgər.

Sənə canım deyir bütün məmləkət,
Yox oldu nərənlə eldən fəlakət,
Gələr Qarabağa ruzi-bərəkət,
Vuran qəlbimizlə bir tənsən Əsgər.

Şərəf tarixinə məbəd ucaltdın,
Məğlubluq hissini başlardan atdın,
Əl atıb düşmənin ruhun qopartdın,
Hər ağrı-acıya yetənsən Əsgər.

Sənə Aslan deyən yurd-yuvamızla,
Haqqına sığınan dil duamızla,
Pak torpağımızla, saf havamızla,
Vətənin ruhuna bədənsən, Əsgər!

**05.01.2021**

## BU VƏTƏN CANDIR*

Allahın adıyla hoqqa çıxaran,
Lənət imanına, ibadətinə,
Aləm çaxnaşdıran şər adətinə!
Doğulan günündən şeytanla aran,
Lənət hiylə dolu siyasətinə!
Bu Vətən candır,
Dindir, imandır,
Damarda qandır,
Azərbaycandır!

Özgə ətəklərin altda gizlənən,
Özgə havalara beyni kökləyən,
Yad yurdda, yuvada, çatda gizlənən,
Ölkə əleyhinə çox körükləyən,
Bu Vətən candır,
Dindir, imandır,
Damarda qandır,
Azərbaycandır!

Ey yurdda doğulub haqqı itirən,
Yəqin ki, əzəldən xaindir törən,
Məmləkət yetirib igid, ər-ərən,
Çoxdur nər oğullar, qolunu gərən,
Bu Vətən candır,
Dindir, imandır,
Damarda qandır,
Azərbaycandır!

Düşmənə dost deyən dindaş olarmı?
Allaha, Tanrıya sirdaş olarmı?,
Vicdanı yoxlardan qardaş olarmı?
Bu qədər imanda səhv, çaş olarmı?
Bu Vətən candır,
Dindir, imandır,
Damarda qandır,
Azərbaycandır!

Şəhid qanlarına suvanıb torpaq,
Qalxıb ayaqlardan başlara papaq,
Könlümüz Vətənə titrəyən yarpaq...
İgidlər çəkdilər yağılara dağ!
Sancılıb Murova, Şuşaya bayraq!
Bu Vətən candır,
Dindir, imandır,
Damarda qandır,
Azərbaycandır!

Gec-tez bütövləşər yurdumuz bir gün,
Aşacaq sədləri Ordumuz bir gün,
Bürüyər elləri toy-düyün bir gün,

Vurular xainin bəxtinə dügün!
Bu Vətən candır,
Dindir, imandır,
Damarda qandır,
Azərbaycandır!

Şadiman boşuna deməyir sözü,
Söz qılıncdan iti, yeməyir sözü!
Hər qarış Vətənə qurbandır özü,
Satqının, düşmənin tökülsün gözü!
Bu Vətən candır,
Dindir, imandır,
Damarda qandır,
Azərbaycandır!

**29.09.2021**

**ZƏFƏR SƏNƏ ÇOX YARAŞIR***

Bürünübdü bayrağına yurd-yuva,
Dodaqların gülüşləri dərd qova,
Səmalara sancılıbdı haqq dua,
Sevincimiz aşıb-daşır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Qarabağdan gözəl Şuşa boylanır,
İgidlərin yurd başına haylanır,
Kinli düşmən dərdə düşüb vaylanır,
Bir-biriylə cırmaqlaşır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Səmaların atəşfəşan selində,
Buludları alıb qaçır belində,
Bəxtiyarlıq təlatümü elində,
Sədaları dağlar aşır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Əsgərlərin dastan oldu dünyada,
Tarixlərə adın saldı dünyada,
Ordumuza heyran qaldı dünya da,
İndi sənlə hərb yarışır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Oğulların uca adı-sanı var!...
Bir ölənə, min doğulan canı var,
Qarabağda Şəhidinin qanı var,
Torpağına qan qarışır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Sazın, tarın harayı tel üstündə,
Qurtulubdu yurd-yuva şər qəsdindən,
Qaçqın adı götrülüb el üstündən,
El bu adla vidalaşır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Qarabağın şikəstəsi dil üstə,
Xanəndələr oxuyurlar ahəstə,
Xoş zəngulə duyulur hər nəfəsdə,
Dil-ağızda sülh dolaşır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Qazilərin düşmən bağrı yardılar,
Aslanlartək üstlərini sardılar,
Diş-dırnaqla zirvələrə vardılar,
İçlərində qurd ulaşır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Şəhidlərin məkanı Rəbb yanında,
Dolaşırdı şərəf-namus qanında!
Qəhrəmanlıq yurd salmışdı canında,
Yağılarla ər savaşır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

Şadimanın vəcdə gəldi ürəyi,
Sən könlümün ən müqəddəs mələyi,
Heyran edib gözəlliyin fələyi,
Asimanda gün alışır, ey Vətən,
Zəfər sənə çox yaraşır, ey Vətən!

**08.11.2021**

## SALAM RUHUNA*

***Qusar rayonun Balaqusar kəndindən***
***Birinci Qarabaq müharibəsi***
***Şəhidi Sərvər Abdulkərimova ithaf***

Min doqquz yüz doxsan bəlayla gəldi,
Yağılar Vətənin bağrını dəldi,
Qarabağ ağrısı canda yüksəldi,
Kürəyə bıçağı saplayan əldi,
Sığındın el oğlu tək Allahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Qaldı işğal altda yurdlar, yuvalar,
Qopdu dodaqlardan Haqqa dualar,
Tutuldu buludlar, doldu havalar,
Çaldı qəvi düşmən fitnə havalar,
Dözmədin qız-gəlin, ana ahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Xocəvənd uğrunda qalxdın savaşa,
Şuşanın harayı döndü göz yaşa,
O zaman qaliblik yetmədi başa,
Qurdu mənfur düşmən qanlı tamaşa,
Tapındın ümidlə xoş sabahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Balaqusar igid, getdin cəbhəyə,
Canın ruhu çəkdi uçan gülləyə,
Cəhd etdin düşməni qana bələyə,
Şəhid olan yerdə Vətən var deyə!
Sarıldın mərdliklə sən silahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Ucaldın zirvəyə şəhid adınla,
Ruhun qürur duysun övladlarınla –
Amalya, Ruqiyyə, Fərrux varınla,
Ziyarət edirlər səni yarınla,
Məzarın dönübdü səcdəgahına,
Salam, şəhid Sərvər, salam ruhuna!

Ali Baş Komandan dedi: Qalx, Əsgər,
Vətən qisas deyir sən göstər hünər,
Qəhrəman savaşdan şərəflə dönər,
Düşmən, ayağının altına enər,

Şəhidlər döndülər yurd rifahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Keçən il savaşa qalxdı oğullar,
Şərəflə tarixə yazdı nağıllar,
Qəhrəman analar igid doğurlar,
Cəsurlar yağını qanda boğurlar,
Boğuldu düşmənlər suç-günahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Cəmi qırx dörd günlük savaş açdılar,
Şəhid məqamına varıb uçdular,
Qazilər od olub alov saçdılar,
İt təki yağılar qorxub qaçdılar,
Yağı leşə döndü öz tamahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Xalqımız dönübdü dəmir yumruğa,
Vətənin bəxtinə al günəş doğa,
Gəlib igidliyə dünya sorağa,
Yazıldı şərəfli döyüş varağa,
Söz tapmır yağılar şər izahına,
Salam şəhid Sərvər, salam ruhuna!

İndi azad olub Qarabağ yurdu,
Vətənin qisasın alıbdı Ordu,
İgidin nərəsi alovdu, qordu,
Düşməni alnından, köksündən vurdu,
Sığınıb namusla haqq pənahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Şuşamız oyanır azan səsinə,
Quranın ilahi xoş nəfəsinə,
Açır xarıbülbül yurd həvəsinə,
Qonubdu dillərin zümzüməsinə,
Allah qələm cızsın şər islahına,
Salam şəhid Sərvər, salam ruhuna!

Üzdü yurd ağrısı bu Şadimanı,
Vətəndi qibləsi, dini-imanı,
Şəhid məzarları yurdun hər yanı!,,
Baş əyir önündə həm cismi-canı,
Erməni tuş gəlib öz ikrahına,
Salam şəhid Sərvər, salam ruhuna!
Salam şəhid Sərvər, salam ruhuna! **22.11.2021**

## SİZİ GÖYLƏR ÇƏKDİ KAMA*

***30 noyabr 2021-ci ildə hərbi helikopterdə qəzaya uğrayan Şəhid hərbiçilərimizin ruhuna ithaf edirəm!***

Sizi göylər çəkdi kama,
Uçub getdiz quş sayağı.
Göy yer vermir hər adama,
Dəymir ora şər ayağı!..

Vətənin ər oğulları,
Hər oğul mərd ola bilməz.
Asimanın ağ yolları,
Sirlə dolu, sirr bilinməz.

Səmaların sevdalısı,
Uçar gedər buludlara.
Kainatlar Rəbb alisi,
Layiq ərən övladlara.

Sizə göylər könül verdi,
Ruhunuzu alıb qaçdı.
Dedi:Şərlə dolu yerdi...
Mələklərtək qucaq açdı.

Sizi doğan anaların
Gözü gərək ağlamasın.
Göl tumarlar sonaların,
Səma tutar igid yasın!

Vətənin ər kişiləri,
Qəzanız dağ oldu bizə,
Hünər sevər kişiləri,
Qürur verər elimizə.

Məmləkətin şahinləri,
Səmalarla məşq eylədiz.
Bürüyübdü ah yerləri,
Göy içinə eşq eylədiz.

Qırx dörd günlük savaşda siz,
Yağılara qan uddurduz.
Adlarınız tarixə iz,
Düşmənlərə dağ vurdunuz.

Sizi çəkdi göyə fələk,
Layiq bildi ünvanına.
Kimlər oldu haqqa mələk,
Tanrı çəkdi öz yanına!...

Şadimanın ağrısı bol,
Ağrı üstdən ağrı gəldi.
Ruhun cana sorğusu bol,
Yanan ürək, yazan əldi.

**02.11.2021**

## HAQLI OLMAQ İSTƏYİRSƏN, 5k
## GÜCLÜ OL

Haqlı olmaq istəyirsən, güclü ol,
Budur, yalnız haqqa gedən yol!
Bu yoldan keçir ürəklər də,
Coşub-daşan diləklər də.
Bu yola təslim ağıllar da,
Uşaq ikən oxuduğum qorxulu nağıllar da.
Gücə könül verənlər çoxdan
dəf ediblər keçilməzləri,
Dünya saymır seçilməzləri.
Gücünü bilsələr sənə aşiq olarlar,
Duysalar gücsüzsən saçını yolarlar.
Evinə qırğın salarlar,
Əzrayıl qisimdə canını alarlar.
Haqqını sübut eləmək üçün,
Çox fikir eləmək neçin?
Əvvəl silahlan,
Çünki bununla alınır qan!
Canını düşün,
Sənə fəlakət gətirəcək anını düşün.
Güclü olsan sənə dəyməzlər,
Bəxt yolunu əyməzlər.
Allah, Allah deməklə
ağlın çətinliyi aşmaz,
Allah Yaradandır,
o, bəndələrin işinə qarışmaz.
Dünya qan və məkir içindədir,
İndi Rəbb özü də fikir içindədir.
Yəqin ki, öz yaratdıqlarına peşimandır,
Bu da çoxdan verilmiş fərmandır.
Yaşamaq istəyirsənsə
qansız və davasız,
güclü ol,
Silahın varidatından çox olsun,
Sənə gələn təpkilər yox olsun.
Bax elə götür yəhudiləri, bir vaxt
Hitler onları sobaya atırdı,

çünki gücü var idi,
aləmi bir-birinə qatırdı.
Bu güc zehninə yar idi.

***

İndi onlar Fələstini oda-alova atır,
Şeytanın belində yatır.
Çünki silahlanıblar öz güclərini
dünyaya göstərmək üçün,
Yandırırlar fələstinlilərin ciyərinin için.
Ərəb qardaşlarım,
kef dünyası çoxdan keçib,
Cahan qan şərbətini içib.
Neftdən banglara yığdığınız
pullar dadınıza çatmaz,
Nədən sizi bu tökülən qanlar
qəflət yuxusundan oyatmaz?
Heç olmasa Səddam Hüseyini
yadınıza salın,
Onun başına gələnlərdən ibrət alın.
İndi gücü olmayan sayılmaz,
Nədən İslam dünyası
qəflət yuxusundan ay

***

Ey hakimiyyətdə oturan islam övladı,
Gör başın üstündə gəzən fəryadı.
Ağlını başına yığ,
Tamahını sığ,
Öz xalqına etdiyin mənəm-
mənəmlikdən qaç,
Millətinlə birlik süfrəsi aç!
Bəsdir başına döydülər,
Eninə, uzununa söydülər.
Hərdən bir mən,
vallah müsəlman olmaqdan utanıram,
Özüm özümə od tutub yanıram.
Fələstin, Livan, Əfqanıstan, İraq,
Kosova, Uyğurlar, Qarabağ
Sinəmizdə çalınçarpaz dağ!

Görəsən bizim başda oturan
kişilərimiz hara baxır?
Qadın, uşaq, qoca qanı sel kimi axır!
Əlimizi tərpədən kimi terrorçu deyirlər bizə,
Haqqa gedən yolu əyirlər bizə.
Alıblar ağıllılar min illər fayda.
Belədir dünyada qayda,
Silah olsun atın, eşşəyin, dəvən,
Oğlun, uşağın, nəvən,
Çoxdan silahlanıb canını, namusunu,
lap elə varını sevən,
Öz gücünə güvən.
Gücü olmayan dövlət,
Dünya tərəfdən qazanar lənət!
***
Budur, qansız, qadasız
yaşamaq üçün haqqına gedən yol,
Haqlı olmaq istəyirsən güclü ol!
Güclü ol!
**11.01.2009**

# MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyazən (keçmiş Dəvəçi, indiki Şabran) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2 saylı orta məktəbi bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə,1975-76-ci illərdə Volodarski adına tikiş fabrikında tikişçi işləyib.1977-ci il-də ADU-nun (indiki BDU) hazırlıq şöbəsində dinləyiçi, 1978-83-cu illərdə Kitabxanaçılıq (indiki İnformatika fakultəsinin əyani şöbəsini bitirib. 1992-ci ildə Azərbaycan jurnalist Sənətkarlığı İnstitutun məzunu olub. 1984-cu ildə Dəvəçi rayonun (indiki Şabran), hal-hazırda Siyəzən rayonun inzibatı ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ADNŞ-nın Mədəngeofizik idarəsinin «Neft Daşları» geofizik ekspedisiyasında cizgiçi, texnik, mühəndis peşələrində çalışıb.

2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövrü mətbuatın mətbu orqanları olan «Neft Daşları», «Ədalət», «Çənlibel», «Azərbaycan müəllimi», «Bütöv Azərbaycan», «Kredo», «Mütərcim», «Məhsəti» və sair qəzet-jurnallarda çap olunub. «Məcməüs-şüəra»(Şairlər məclisi), «Füzuli» ədəbi məclislərin üzvü olub. AYB-nın və CASCFEN(Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi)nin üzvüdür. Hal-hazırda ədəbi fəaliyyətlə məşğuldur. «Modern.az», «Yalquzaq.com», «Davam.az» «Lit.parad», «Dayaq.az» və sair internet portallarla yaradıcılıq əlaqələri saxlayır. «Azpressin» və «Kredo» qəzetinin əməkdaşıdır. Şəxsi saytı aktiv faliyyətdədir.

**Müəllifin çapdan çıxmış kitabları:**

1. «Ürək niyə ağrıyırsan?», (Şeirlər), Bakı-1991, «Azərnəşr», 56 səhifə, sayı 3000.
2. «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2000, AEK «Marfa press» nəşr., 400 səhifə, sayı 1000.
3. «Kiminə acı dünya, kiminin tacı dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2002, «Nurlan», nəşr., 566 səhifə, sayı 500.
4. «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (Şeirlər, poema), Bakı - 2007, «Nurlan» nəşr., 742 səhifə, sayı 500.
5. «Seçmələr» (1 cild), Bakı-2008, «Nurlan» nəşr., 292 səhifə, sayı 1200.
6. «Məni illərdən soruşun» (Publisist düşüncə), Bakı-2008, «MBM» 95 səhifə, sayı 300.
7. «Dünya mənə tanış gəlir» adı ilə «Ürək niyə ağrıyırsan?» və «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitablarının birlikdə təkrar nəşri, Bakı-2009, «Nurlan» nəşr., 522 səhifə, sayı1000.
8. «Tağayım», poema, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 56, sayı 500.
9. «Ay adamlar, mən burdayam», «Adiloğlu» nəş. Bakı-2012 səhifə 454, sayı 500.
10. «Seçmələr», 2-ci cild, Bakı-2012, «Adiloğlu» nəş., səhifə 326, sayı 1200.
11. «Ötənlərdən gələn səslər», « Qanun» nəş. Bakı 2013, səhifə 632, sayı 500.
12. «Ötənlərdən gələn səslər», 2-ciild, «Qanun» nəşriyatı., Baki 2014, səhifə 480, sayı 500.
13. . «Seçmələr», 3-ci cild, Bakı-2015, «Qanun» nəşriyatı, səhifə 438, sayı 750.
14. «Seçmələr», 4-ci cild, Bakı-2015, «Qanun» nəşriyatı, Səhifə 360, sayı 750.
15. «Söz könlümü qələm etdi» /publisistik düşüncələr/ Bakı-2016 «Qanun» nəşriyatı, səhifə 288, sayı 500.
16. «Tək Yaradana gümanım» Bakı-2017, (Şeirlər, poemalar) «Qanun» nəşriyatı, səhifə 480, sayı 500.
17. «Seçmələr», 5-ci cild, Bakı-2017, «Qanun» nəşriyatı, Səhifə 464, sayı 500.
18. «Yol gedirik», Bakı-2018, «Qanun» nəşriyatı, Səhifə 596,sayı 500
19. «Ömür yükü», Bakı-2021, « Qanun » nəşriyyatı, ,sayı300. Səhifə 624.

**Müəllif və əsərləri haqqında çap olunmuş kitablar:**

1. «Adı Şadiman olanın», Əli Rza Xələfli, Bakı-2009, «Təknur» nəş., səhifə 256, sayı 1000.
2. «Axtala əfsanəsi», Əli Rza Xələfli, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 144, sayı 500.
3. «Üç rəngli bayrağa bürünmüş şairə» Nəzirməmməd Zöhrablı, Bakı-2010, «Adiloğlu» nəşr., 148 səhifə, sayı 500.
4. «Qırmızı həqiqətlər», Əli Rza Xələfli, Bakı-2011, «Adiloğlu» nəşr., səhifə 130, sayı 500.

## Qeyd:

**1k – Ürək niyə ağrıyırsan**
**2k – Çəkənə qəm dünya, çəkməyənə dəm dünya**
**3k – Kiminə acı dünya, kiminin tacı dünya**
**4k – Ağıla bəhər dünya, ürəyə qəhər dünya**
**5k – Ay adamlar mən burdayam**
**6k – Ötənlərdən gələn səslər 1**
**7k – Ötənlərdən gələn səslər 2**
**8k – Tək Yaradana gümanım**
**9k – Vətən səndən nə qaldı**

*** Adı-Birinci dəfə çap olunan şeirlər**

# MÜNDƏRİCAT


Əbədi və əzəli mövzuə……………………….................3
Azərbaycan elinizə qurban olum **1k**……………….........5
Ana dilim……………………………………….............6
Oğuz babam, dədəm Qorqud…………………............7
Azərbaycan………………………………….............10
Haray dünya…………………………………….........11
Şəhid qanları…………………………………............12
İtgin şəhidlər……………………………….................12
Agla, ürəyim, ağla………………………………..........13
Güllələr…………………………………………..........14
Didərgin qız……………………………………...........15
Canbala...………………………………………...........16
Xəlil Rza.....................................................................17
Mən də varam **2k**...…………………………............18
Tağayda…..…………………………………..............20
Ey karvan yolundan soraq Dəvəçi……………............22
Siyəzən…………………………..............................24
İsti ocağım............…………………………….............25
Qaranquş…………………………………….............26
Azadlıq…………………………………………...........28
Bayrağım……………………………………..............30
Darıxma Qarabağ, darıxma Şuşa...............................32
Tacik oğlu……………………………………..............34
Qardaş……………………………………….................35
Mənim şair babam…………………………….............36
Vətəndi………………………………………..............38
Bu millət……………………………………...............40
Toxunma  torpağıma………………………...............41
Şəhid qardaş, şəhid bacı…………………….............44
Kökü özümüzdən olan cəlladlar……………...............46
Çingiz…………………………………………...........48
Başbilənlərimizə………………………………............50
Bizi özümüzə qaytaran ola…………………..............52
Ey şəhid……………………………………..................54
Didərgin ana………………………………….............55
Şəhidlər Xiyabanı…………………………….............56
Qisasa çağırır, qisasa Vətən…………......................58
Vətən fəryadı  **3k**……………………………….............60
Ay Şuşa………………………………………..............62
Vətən səndən nə qaldı……………………….............64

Vətən gülsün……………………………………………..............65
Vətən, elinə qurban…………………………………….............66
Xatırlayanda……………………………………………............69
Sakit məkanım…………………………………………............69
Dözə bilmirəm………………………………………….............70
Qürbət acıları……………………….........................................72
Tapdalanıb……………………………………….....................74
Canım Qarabağ………………………………………..............76
Vətən olmaz…………………………………………................78
Bu yurdun eli hanı……………............................................80
Azərbaycanımızdı…………….................................................81
Nə addır………………………...............................................83
Azərbaycanım mənim…………………………......................84
Can Azərbaycan……………………………………..................86
Vətəndi…………………………………………….....................88
Ey Vətən ………………………………………….....................90
Alçalma millətim ………………….........................................92
Ey Vətən **4k** ...……………….................................................94
Qan-qadalı məmləkətim ……………………............................96
Dilimiz varsa, yaşar varlığımız………………..........................99
Sənə niyə belə zülümlər oldu………………….......................100
Yağı əllə qəmə batdı el, Vətən……….................................102
Ata yurdunu kor qoyan oğul……........................................104
Gözlərdə ağlayan qan-yaşa bax…………….........................106
Ey şəhid anası………………………………….........................108
Oyanmaqdayam………………………………………...............109
Sapma haqq yolu…………………………………....................107
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.............110
Müstəqilik………………………………………………..............112
Ah, Vətən, mən səni tərk edə bilməm……….....................114
Mustafa Kamal Atatürk…….............................................116
İstiqlalın sorağı…………………………………......................118
Elçibəy……………………………………………........................120
Ey  böyük  şairim.....................................................122
Azərbaycan **5k**……………………………………….................124
Ana dilim………………………………………….......................128
Mən vətənəm………………………………………….................130
Qanlara boyandı Bakı ah ilə……………………......................132
Zəncirlənmiş Prometey…………………………........................134
Dilimizin duası…………………………………….......................136
Bir tərəfdə şəhidlər, bir tərəfdə danışıq…….....................137
İndi hamı varlıya, pulluya tə`zim edir……….....................138
Düşməni köksündən vurdun, Mübariz……….....................140

Vətəndən yazaq……………….......................................142
Yolum düşdü Qarabağın elinə....................................144
Üzeyir elimizin dahisidir.............................................146
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.................148
Çəkdi yazıq millətinin ağrısın.....................................150
Böyük əməllərin yaşar ellərdə....................................152
Ah, yazıq məmləkət, ah, yazıq Vətən.........................154
Müəllim **6k**……………………………………..............156
Neftçilər…………………………………………..............157
Gözəl vətənim……………………………….................157
Ay Araz……………………………………………..............160
Naxçıvan………………………………………….............162
Mömünə Xatun türbəsi………………………..................163
Neft Daşlarında gecə……...............................................164
Vətən torpağına, daşına qurban……………..................166
Gözəldir………………………………………….............170
Mənim əskər oğlum……...............................................172
Vətənim………………………………………….............173
Haqq işinə qurban olum ..............................................177
Çıraqqalası...................................................................178
Sən mənim sevgili yarımsan, Vətən………....................180
Ey buruqlar adası……………........................................182
Azərbaycan qadını………………………….....................184
Vətəndir………………………………………….............185
Vətən oğlu.....................................................................186
Polad körpülər……………………………….................188
Təbriz ağrıları……………………...................................190
Analar……………………………………………..............192
Neçə-neçə qərinə...........................................................193
Qonşu, belə qonşuluğa ar olsun…………………………196
Təbriz dedim **7k**……………………………..................198
Pıçıldaşan deyilmi…………………………….................199
Necə gedə biləydim……………………..........................200
Yaşamağa dəyər bu yerdə……………………...............201
Sənin dərdin…………………………………..................202
Torpağına yaz gəlib…………………………...................203
Nə şirinsən, ana dilim………………………...................204
Şəhidin qanı ……………………………….....................205
Bir gün gələr……………………………………...............206
Üzü gülməsin ………………….......................................207
Can Araz …………………………………………............208
Vətən torpağı……………………………………...............209
Torpağım……………………………………….................210

Ey şəhid qəbiri……………………………......................211
Sehrindən alışdım………………………….................212
Vətən dedim………..................................................214
Xalqın səsi……………………………….....................215
Təbrizə məktub………………………….....................216
Vətən deyib …………………………….......................218
Vətənim haray…………………………….....................219
Türk oğlu türk **8k**………….........................................220
Quba məzarlığı……………………….........................221
Urmu gölü ağısı………………………........................224
Vətən əqlin hikmətidi………......................................225
Türkün bayrağı……………………............................226
Pulum, ey pulum………………………........................228
Ağrısın tarixə salan Albanya…....................................230
Səni qana salan…………….......................................231
Ey Dərbəndim….......................................................232
Sevdamsan Vətən……………………….......................233
Eşqin bitməz Azərbaycan……....................................234
Bəxtin açılsın…………………………….......................235
Balıq baha, daha əti yemirəm……………...................236
Səni çox sevirəm, Vətən…………………......................238
Ürək yanır, ey şəhidim……….....................................239
Səpilib yer üzünə……….............................................240
Vətən mənim içimdədi……..........................................241
Çanaqqala……………………………….......................242
Aç qaranı başdan, Vətən……......................................244
Şanlı ordum……………………………….....................246
Qələmim hönkürür………………………......................247
Əsgər durma, irəli……………………….......................248
Əsgərə məktub………………….................................249
Qolları dibindər vurulan…………….............................250
Torpağının qoxusu……………….................................252
Bir parça odum…………………………........................253
Heç kəs səni əyə bilməz, Türkiyə………......................254
Baxmayın ölü kimi………………………………..............255
Əsgərim…………………………………….....................256
Titrəsin düşmənimiz………………………......................256
Ey türk oğlu, türk əsgəri………….................................258
Qəribəm, Vətən……………………................................259
Vətənin varlığı..................................................................260

## UŞAQLARA ƏRMAĞAN 3k

Gəlin sevək vətəni………………………...................... 261
Öz yurduna gərək olaq………………………...................262
Himnimiz-bayrağımız………………………….................263
Ana dili…………………………….....................................263
Vətəni candan əziz sanmalıyıq……………….................264
Məktəb……………………………………….....................264
Müəllim……………………………………….....................265
Təzə il………………………………………......................265
Uşaqlar……………………………………….....................266
Uşaq bağçası……………………………….......................267
Gəlib axır çərşənbə…………………………......................267
Novruz bayramı……………………………........................268
Yansın bayram şamları…………………….........................268
Hər ilin öz sevinci…………………………........................270
Çox qiymətli incidi…………………….............................271
Qar adamı…………………………………….....................272
Qar yağır dağa, düzə……………………….......................273
Yaz gəlir…………………………………….......................273
Bir ovuc haram yeyən **9k**…………………….................274
Səhərin müjdəylə açılsın.................................................275
Dinmə, danışma, bala……………………….......................276
Fəlakətə çəkənlər……………………………......................277
Od tutub yanır……………………………….......................278
Şirvanşahlar sarayı………………………….......................279
Türküm mənim……………………………….....................280
Vətən dedilər…………………………………....................282
Pulu pulla tutan kişi……………………......................283
Ay dəmir alan……………………………….......................284
Vətəntərəfə.....................................................................285
"Deyirlərə"deyirlər…................................ .................286
Yurdu yada satanlara…………………………....................289
Şəhidlər……………………………………….................. 290
Gəlir sorağın…………………………………......................290
Yurdumun cəsur qızı……………………….........................292
kimə söyləyim..................................................................293
Yol bağlı Şuşaya…………………………….......................294
Durun gedək Qarabağa…………………….........................296
Bu dərdi deməyə dilim gəlməyir…………….....................298
Deyən olmadı……………………………….......................300
Şəhid sorağı……………………………………..................301
Əskərə məktub……………………………….......................302

Yorulduq oynamaqdan…………………………...............304
Ruhumu oynatdın……………………………..................305
Bir igid tapşırdı Vətən torpağa....................................306
Biz niyə təslimçi olduq, İlahi........................................308
Qalx ayağa.................................................................310
Bircə kərə yan Vətənə................................................311
Yuxuma gəlmişdi Vətən bu gecə................................312
İşğal altda yurdumuz..................................................314
Lazım gəlib çıxmayır..................................................316
Gözümüz yolunda “barış pinari”..................................318
Bütövləş Azərbaysan..................................................320
Qul olmaq dünyada ən ağır cəza................................322
Yoxluğuna ürəyimiz yanacaq......................................324
Dərdin çəkilməzdir......................................................326
Necə yaşayırıq biz…………………………................327

## NƏZM HEKAYƏTLƏR

Tağayım…………………………………….................329
Ağı-Dastan………………………………….................363
Burdan bir atlı keçdi……………………….................374
Dükan adamın hekayəti..............................................385
Quzey elin Güney elə məktubu……………..................390
Xocalı Soyqırımı…………………………….................400
Dağ evin nağılı /Nəzmhekayə/....................................410

## NƏZM DRAMLAR

Kahada ölüm hökmü…………………………................413
Sevgi vara satılmaz………………………….................426

## İKİNCİ QARABAĞ MÜHARİBƏSİ BAXTI 9k YAZILMIŞ ŞEİRLƏR

AZƏRBAYCAN ƏSGƏRİ.......................................................448
VƏTƏNİN XİLAS SAVAŞI....................................................450
BU GÜN ZƏFƏR BAXTIDIR...................................................451
ALİ BAŞ KOMANDANIM........................................................452
ALLAHA İNANANA NƏZHƏB LAZIM OLMAYIR.....................454
BİR RİCAM SƏNDƏN PAYIZ.................................................455
ALLAHA ƏMANƏT OLASAN VƏTƏN...................................456
XUDAFƏRİN KÖRPÜLƏRİ...................................................457
YÜRÜ ƏSGƏR YAĞI ÜSTƏ..................................................458

TORPAĞA GÖMÜLÜB........................................................460
BOYLANAN BULUD........................................................461
DÖYÜŞƏN VƏTƏN........................................................462
XAYSAN XAY........................................................462
AZAD OLUR YURD – YUVALAR........................................................464
XOŞ OLSUN........................................................466
OYANAN VƏTƏN........................................................467
ALPAN ALBAN OLDU........................................................468
YENİ TARİX YAZIRIĞ........................................................469
AÇ QOYNUNU........................................................470
VƏTƏN, SƏNƏ CANIM FƏDA........................................................471
BİZİ NECƏ AĞRITMISAN........................................................472
ALLAHIN EVİNDƏ........................................................473
YAHUDİ XALQI........................................................474
DAYAĞIMIZ OLMUSAN........................................................476
ÜZ-ÜZƏYİK BİZ........................................................477
ODUNA SIĞINDIĞIM VƏTƏN........................................................478
GÖZÜN AYDIN OLSUN, ŞUŞA........................................................480
XAN KƏNDİNƏ QAYIDIR........................................................482
QƏLƏBƏ XƏBƏRİ ALDIM........................................................483
XALQIN RUXUNU........................................................484
ZƏFƏRMİZƏ ŞÜBHƏ ETMƏ........................................................485
GETDİN SAVAŞA ORXAN........................................................486
VƏTƏNSƏN ƏSGƏR*........................................................488
BU VƏTƏN CANDIR*........................................................488
ZƏFƏR SƏNƏ ÇOX YARAŞIR*........................................................490
SALAM RUHUNA*........................................................492
SİZİ GÖYLƏR ÇƏKDİ KAMA*........................................................494
HAQLI OLMAQ İSTƏYİRSƏN-GÜCLÜ OL 5K........................................................496
MÜƏLLİF HAQQINDA........................................................499
MÜƏLLİFİN ÇAPDAN ÇIXMIŞ KİTABLARI........................................................500
MÜƏLLİFİN ƏSƏRLƏRİ HAQQINDA KİTABLAR........................................................501
QEYD........................................................501
MÜNDƏRİCAT........................................................502

**Şirin Xanım**
**Kərimbəyli Şadiman**

# Vətən səndən nə qaldı
(NƏZM YAZILAR)

Çapa imzalanmışdır:
Kağız formatı 60 x 84 1/16

Həcmi:28.00 ç.v. Sayı: 300

Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel:(+994 12) 431-16-62, 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublshing